Stratejik iş birlikleri günümüz rekabet ortamında işletmeler tarafından çok fazla rağbet gören dış pazarlara açılma ve büyüme stratejisidir (Elmuti ve Kathawala, 2001). Bu stratejilerin özellikle ekonomik kriz dönemlerinde gerçekleşmesi oldukça dikkat çekicidir. Spekman ve arkadaşları (1998) örgütlerin stratejik iş birliğine girme sebeplerini; küresel pazarlarda faaliyet göstermek, rekabet üstünlüğü sağlamak, yeni yetenekler ve teknolojiler edinmek, yenilikler üretmek, kaliteyi ve uzmanlığı üretimin her aşamasında sürdürmek, paydaşlarının temel yeteneklerinden faydalanmak, kaynak bağımlılığını en aza indirmek ve tamamlayıcı kaynaklarına ulaşmak olarak belirtilmiştir. Stratejik iş birliği, ortak girişim ve benzeri konular söz konusu olduğunda akla ilk gelen kuramlar; kaynak bağımlılığı kuramı, işlem maliyeti kuramı ve kaynak temelli yaklaşımlardır

Günümüzde devletlerin varlığının, birliğinin ve gücünün korunmasında öncelikli bir yer tutan ekonomik ihtiyaçları göz önüne alındığında; kaynak bağımlılığı ve stratejik işbirliği ilişkisinin önemi açık bir şekilde ortaya çıkmaktadır. Bu açıdan bakıldığında, dünya gelişmiş ülke sıralamasında ön sıralarda yer alan ülkelerin sanayi sektöründe yaşanan birleşmeler ve stratejik iş birliklerinin, 1990'lı yılların ortalarından itibaren yoğunluk kazandığı dikkat çekmektedir. Bu değişimler, hızlı küreselleşmenin getirdiği etkilerle birlikte uluslararası petrol işbirliklerinin ortaya çıkmasına neden olmuştur.

## 2. STRATEJİK İŞ BİRLİKLERİ ve ÖNEMİ

Stratejik işbirlikleri günümüzde yeni ürün ve hizmetlerin geliştirilmesi ve pazarlanmasındaki maliyetlerin paylaşımı veya ürün dağıtım kanallarından yararlanılması amaçlarına dayandığı söylenebilir. Küreselleşmenin ve büyümenin itici güçleri olarak birleşme ve satın alma ile ilgili stratejik işbirlikleri kurulmalıdır. Çeşitli sektörlerde yer alan birçok işletmenin ticari kar sağlamak amacıyla muhtelif kabiliyetlerini bir araya getirmesi stratejik iş birliğinin önemini ortaya koymuştur. İşletmelerin sürekli değişen ve belirsiz koşullarda hayatta kalabilmek için daha farklı yapılanmalara ve stratejilere başvurmaları gerekmektedir. Bu açıdan küresel rekabet koşullarında işletmelerin birçok değişikliği gerçekleştirmesi için stratejik işbirliği konusu önemli bir yol olarak ortaya çıkmaktadır (Çelik, 1999: 25-27).

Stratejik işbirlikleri iki veya daha fazla sayıda işletmenin üzerinde anlaşmaya vardıkları hedefleri gerçekleştirmek üzere kaynaklarını değiş tokuş etmelerine, bir yerde toplamalarına veya birleştirmelerine dayanan uzun süreli işbirliği anlaşmaları olarak tanımlanmaktadır (Kudayberdiev, 2007). Diğer bir stratejik işbirliği tanımına göre küresel şirketlerin; bazen sermaye piyasalarındaki hisseleri toplamak, bazen ülke içinde, bazen sınır ötesindeki şirketlerle stratejik işbirlikleri kurarak, bazen de rakip gördükleri şirketi satın alarak, rakiplerinin karşısına çıkma yoluna gitmeleridir (Kudayberdiev, 2007: 65). Stratejik işbirliğinin öne çıkan en önemli özelliği işbirliği yapılacak alanda ileri bir bilgiye, deneyime, teknolojiye ve pazar yeteneklerine sahip işbirliklerine açık olan şirketlerin bir araya gelmesidir. Böyle bir işbirliği ile özellikle araştırma ve geliştirme çalışmalarına ek mali kaynaklar sağlamak, üretim ve dağıtım olanaklarını arttırmak istemektedir. İşbirliği süresince özellikle sahip olduğu bilgi birikimini, teknolojisini ve bu teknoloji üzerindeki hak ve çıkar sahipliğini ve kurumsal bağımsızlığını koruma iradesiyle hareket edecektir.

Kavramsal olarak, stratejik işbirlikleri bir şirketin kendisine ait değer yaratma zinciri üzerine yoğunlaşmasına olanak sağlamakta ve uzmanlaşmanın bütün faydalarını elde etmesine yardımcı olmaktadır. Bu arada ağın içinde yer alan şirketlerin tamamı, başka şirketler tarafından gerçekleştirilebilecek faaliyetlerin sorumluluğundan sıyrılarak daha fazla esneklik kazanabilir. İşbirlikleri bu şekilde yeni pazarlara girmek, yeni beceriler, teknolojiler ya da ürünler elde etmek ve belirli maliyetleri ve kaynakları paylaşmak için elverişli bir yol oluşturmaktadır (Kotler, 2005).

## 3. ASRIN ANLAŞMASININ STRATEJİK İŞBİRLİKLERİNİN ÖNEMİ AÇISINDAN DEĞERLENDİRİLMESİ

Devletlerin gelişme ve kalkınma sürecindeki en önemli rollerinden biri uluslararası sermayeyi kendilerine çekme çabasıdır. Devletler çok uluslu şirketlerin yatırımları ya da doğrudan ve dolaylı sermaye akımlarını kendine çekmesi yanında, onları ülke sınırları içinde tutma çabası da söz konusudur. Özellikle yabancı sermayeyi ülkeye çekebilmek ve bu sürecin sürdürülebilirliği için yapısal uyum ve benzeri politikaları uygulama çabası söz konusudur (Dunford, 2004). İşbirliğine yönelik stratejilerin uzun dönemde rekabet stratejisi için çok daha önemlidir Düna endüstri liderleri dahi ortaklıklara önem vermektedir. Uluslararası düzeyde birbirlerinin rakibi olan ancak, güçlerini birleştiren büyük şirketler arasındaki işbirliğinin ABD, Avrupa ve Japonya'da çok sayıda örneği bulunmaktadır.

Günümüz rekabet ortamında dünya devi şirketleri stratejik işbirliklerine yönelten başlıca nedenler arasında, küresel üretimde ölçek ekonomisinden yararlanmak, uluslararası ticaret engellerinin azaltılması, üretim yeri seçimi ve ürün dolaşımının kolaylaştırılması, ortakların birbirine bilgi/teknoloji aktarmaları ve destek vermeleri ve böylece yeni teknolojileri kısa sürede kullanma, gelişmekte olan pazarların ve bölgesel blokların engellerini aşmak ve pazarlara daha kolay girebilmek, rekabetçi tehlikelerin önüne geçebilmek, sürekli kalite iyileştirmesine ağırlık vermek ve üstün kalite uyumunu sağlamak, şirketlerin değerini artırmak, elde edilecek kaynaklarla faaliyetleri yeniden düzenlemek ve daha verimli hale getirmek, üretim maliyetlerini düşürmek, faaliyetlerinde başarısız olan şirketlere yaşama ve gelişme fırsatı kazandırmak sayılabilir.

Mega Proje olarak da adlandırılan ve toplam yatırım bedeli 11 milyar dolara ulaşan Asrın Anlaşması kapsamında toplam üretilebilir petrol rezervlerinin 5.4 milyar varil (730 milyon ton), doğal gaz rezervlerinin ise 96 milyar m3 olduğu tahmin edilmektedir. Yataklar ayrıca 6 milyon ton kandansat rezervine sahiptir (Aras, 2006:43).

Konsorsiyumda yer almayan Japonya daha sonra konsorsiyuma dahil olmuştur. Japonya'nın "Itochu" şirketi önce anlaşmaya katılmazken daha sonra tüm paylarını satan "McDermott International"dan %2.45 pay elde ederek "AÇG" konsorsiyumuna katılmıştır. Japon şirketi daha sonra Amoco'nun sattığı %5'lik paydan %1.5'ini alarak toplam payını %3.9'a çıkarmıştır. Amoco'nun sattığı paylardan %3'ü Exxon, %0.5'i ise Unocal tarafından satın alındı. Daha önce SOCAR'ın payı %30 olarak kararlaştırılırken anlaşma imzalanmadan önce %10'unu Rus Lukoil, anlaşma imzalandıktan sonra Nisan 1995'de %5'ini Exxon şirketine, %5'ini aynı tarihte TPAO'ya devretti. İran'a %5'lik pay verilmek istense de, Batının tepkisi nedeniyle devir gerçekleşmedi. Asrın anlaşmasında mevcut paylaşımın son şekli aşağıdaki gibidir (Aras, 2006):

| ŞİRKET | PAY ORANI |
|---|---|
| BP (operator) | %34.13 |
| Unocal | %10.3 |
| SOCAR | %10 |
| INPEX | %10 |
| Statoil | %8.56 |
| ExxonMobil | %8 |
| TPAO | %6.75 |
| Devon | %5.62 |
| Itochu | %3.92 |
| Amerada Hess | %2.72 |

"Asrın Anlaşması'nın" Azerbaycan Cumhuriyeti için rolü, alanların işletilmesi için gerekli olan yatırımlarının %90'ının Konsorsiyum tarafından yerine getirilecek olmasıdır. Azerbaycan petrol ve gaz alanlarının kullanılması üzerinde kontrol ve yönetim hukukunu kendisinde tutmaktadır. Anlaşma hükümlerine göre Azerbaycan bu üç petrol yatağı üzerinde mülkiyet hakkını korumaktadır. 30 yıllığına imzalanan anlaşmada bu süre boyunca 511 milyon ton petrol çıkarılması planlanmıştır. Asrın Anlaşmasının 2017 yılına kadar olan paylaşım şekli aşağıda verilmiştir:




Kaynak : (Aras, 2006: 43).

En büyük payın ABD'ye ait olduğu görülmektedir. Amerikan şirketlerin toplam hisse oranı % 40, İngiliz şirketlerin toplam hisse oranı ise yaklaşık % 19'dur. Amerikan ve İngiliz şirketlerinden sonra konsorsiyumdaki en büyük pay % 10'la Rus ve Azerbaycan şirketlerine aittir. "Asrın Anlaşması " nın imzalanmasında hem ülke içinde, hem de yurtdışında çok ciddi direnç olmuştur. Ancak bütün bu zorluklara rağmen Azerbaycan kendi isteğini gerçekleştirmiş ve anlaşmanın imzalandığı gün, bağımsızlığın henüz yeni elde edildiği bir ülkenin petrol stratejisinin de temeli atılmıştır (Aras, 2006: 45). 14 Eylül 2017 tarihinde Asrın anlaşmasının 2050'ye kadar uzatılması için Azerbaycan Hükümeti ve ortak girişimciler tadil edilerek yeniden şekillendirilen "Azeri-Çırak Güneşli" üzerinden Derin Su Üretim Paylaşım Anlaşması imzalanmıştır. Anlaşmayı Azerbaycan Hükümeti

adına SOCAR Başkanı Rövnag Abdullayev ve ortak girişim şirketlerinin üyeleri imzalamıştır. Yeniden şekillendirilen anlaşmaya göre ACG PSA' ya göre BP işletici olarak kalmaya devam edecek, aynı zamanda ortak girişimciler Azerbaycan Cumhuriyeti Devlet Petrol Fonu' na 3.6 milyar dolar ödeyecek, SOCAR ise ACG PSA'daki hisselerini % 11.65' ten % 25' e çıkaracaktır (Mammadova, Z. 2019).

## SONUÇ ve DEĞERLENDİRME

Şirketlerin birbirleriyle iletşim kurmaya mecbur olduğu küresel ekonomi sisteminde, rekabet etmek ve pazarda yarışmak isteniyorsa her şirket başka şirketlerle çalışma yollarını düşünmelidir. Bu düşünce günümüzde pek çok şirketin birbiriyle stratejik işbirliğine girmesiyle desteklenmekte ve etkileri artan bir şekilde yaygınlaşmaktadır. Küreselleşmenin etkisiyle de değişimin hız kazanması şirketlerin uluslararası pazarda beklenmedik durumlarla karşı karşıya kalmalarına neden olmaktadır. Böyle bir belirsizlik ortamda bir şirketin tek başına pazarlara açılıp küresel bir çerçeve içinde rekabete girmesi yerine başka şirketlerle işbirliği içinde olması başarı şansını yükseltecektir.

Asrın anlaşmasının imzalandığı ve faaliyetlerine devam ettiği süreçte halen etkili bir strateji olan şirket işbirlikleri kurulması, şirketlerin güçlerini artırmak için, formal ve informal, yasal ve fiili bir çerçeve içinde bir araya gelerek ayrı ayrı sahip oldukları uzmanlıklarını ve kaynaklarını birleştirme ihtiyacından ortaya çıkmıştır.

Azerbaycan'ın hem siyasi hem de ekonomik açıdan bağımsız bir devlet olarak dünya ekonomisine entegrasyonunda "Asrın Anlaşması" son derece büyük rol oynadı. Milli ekonominin gelişmesinde önemli bir unsur olmanın yanı sıra dış politikada da önemli bir araç olan enerji kaynaklarına ilişkin imzalanan "Asrın Anlaşması" ile Azerbaycan, dünya ekonomisine aktif bir şekilde entegre olmaya ilk adımı atmış oldu. Dünya ekonomisine entegrasyon sürecinde önemli bir mesafe aldığına gösterge olacak şekilde 2004 yılında Azerbaycan, 123 ülke ile ticari ilişki kurarak stratejik işbirliği kurmanın faydalı sonuçlarını ıspatlamıştır. Azerbaycan'ın farklı ülkelerle kurmuş olduğu ilişkiler uluslararası ekonomik örgütlere üyeliğini sağlamış ve bunlardan alınan kredilerle gelişim ve kalkınmasını hızlandırdığı söylenebilir. Birçok uluslararası ekonomik kuruluşla ilişki içerisinde olması Avrupa Birliği ile de ilişkilerini güçlendirmiş olmakla birlikte, Avrupa Yeniden Yapılanma ve Kalkınma Bankası, Japonya Uluslararası Ekonomik İşbirliği Fonu gibi diğer uluslararası finansal kurumlardan da kredi almıştır.

Sonuç olarak Haydar Aliyev Cumhurbaşkanlığı döneminde Azerbaycan Ekonomisi büyük bir aşama kaydetmiştir. 1994 yılında imzalanan "Asrın Antlaşması"nın ardından ülkede petrol sektörüne yabancı sermaye yatırımları başlamış ve başarılı şekilde devam ettirilmiştir. Söz konusu olan anlaşma ile stratejik işbirlikleri kurularak enerji kaynaklarını tüm dünyaya tanıtmış, ülkesinin bağımsız bir devlet olduğunu ve doğal kaynaklarını istediği yönde kullanabileceğini göstermiştir.

## KAYNAKLAR

**1.** Aras, O. N. (2006). 'Asrın Anlaşması've Azerbaycan Ekonomisine Etkisi, Akademik Araştırmalar Dergisi, 30, 41-59.
**2.** Aslanlı, A. ve Hesenov, İ. (2005). Haydar Aliyev Dönemi Azerbaycan'ın Dış Politikası (1993-2001). Platin Yayınları. Ankara.

**3.** Çelik, Orhan, (1999), ‘‘Küreselleşme Sürecinde Firmalar Arası Stratejik İşbirliği’’, Ankara Üniversitesi SBF Dergisi, Cilt.54, Sayı:1, ss:25-27

**4.** Das, T.K. ve Teng, B.S. (2000). A resource-based theory of strategic alliance. Journal of Management, 26 (1), 31-61.

**5.** Dunford, M. (2004). Globalization and Theories of Regulation, School of European Studies University of Sussex, Falmer, Brighton BN1 9QN, 2004, s.161-162.

**6.** Elmuti, D. ve Kathawala, Y. (2001). An overview of strategic alliances. Management Decision, MCB University Press, 39 (3), 205-217.

**7.** Eisenhardt, K. M. ve Schoonhoven, C. B. (1996). Resource-based view of strategic alliance formation: strategic and social effects in entrepreneurial firms. Organization Science, 7 (2), 136-150.

**8.** Hynes, N. ve Mollenkopf, D. A. (1998). Strategic alliance formation: Developing a framework for research. New Zealand, Canterbury: Lincoln University.

**9.** Karimov, B. (2007). Haydar Aliyev Döneminde Azerbaycan Cumhuriyetinin Dış Politikası (1993-2003), İstanbul Üniversitesi, Uluslararası İlişkiler Anabilim Dalı Yüksek Lisans Tezi.

**10.** Kotler, P. (2005). Somkid Jatusripitak, Suvit Maesincee, Ulusların Pazarlanması, Çev. Ahmet Buğdaycı, 2.Baskı, Türkiye İş Bankası Kültür Yayınları, İstanbul, s.359.

**11.** Kudayberdiev, K. (2007). Küreselleşme Sürecinde Stratejik İşbirlikleri ve Kırgızistan’daki Kırgız-Türk Şirketleri Üzerine Bir Araştırma, İstanbul Üniversitesi, İşletme Anabilm dalı yüksek lisans tezi

**12.** Mammadova, N. (2020). Azerbaycan Ekonomisinin Genel Değerlendirilmesi: Haydar Aliyev Dönemi (1993-2003), Kocaeli Üniversitesi, İktisat Anabilim Dalı Yüksek Lisans Tezi.

**13.** Mammadova, Z. (2019). Haydar Aliyev Döneminde Azerbaycan’ ın Makro ekonomik PerformansI

**14.** Mammadov, İ. (2018). Azerbaycan Ekonomisinin Bağımsızlıktan Sonraki Entegrasyon Süreci. In International Congress on Social Sciences II (INCSOS 2018 Quds) 13(15), 323-332.

**15.** Ölçer, F. (2002). Küresel Rekabette Stratejik İşbirliklerinde Yaşanan Sorunlar, Başak Ekonomi Dergisi, www.basakekonomi.com.tr.

**16.** Seferov, R. (2005). Azerbaycan’da Petrol Üretiminin Tarihsel Süreç İçerisindeki. Türkiyat Araştırmaları Dergisi, 285-297.

**17.** Spekman, R., E., Forbes, T.M., Isabella, L.A. ve Macayov, T.C. (1998). Alliance management: a view from the past and a look to the future. Journal of Management Studies, 35(6), 747-772.

# ALİ RIZA OĞLU ATATÜRK İLE ALİ RIZA OĞLU ALİYEV ARASINDAKİ ORTAK YÖNLERİN TAHLİLİ

ANALYSIS OF THE COMMONALITIES BETWEEN ALİ RIZA OĞLU ATATÜRK AND ALİ RIZA OĞLU ALİYEV

**Prof. Dr. Süleyman DOĞAN**
Yıldız Teknik Üniversitesi, Fen Edebiyat Fakültesi, İnsan ve Toplum Bilimleri Bölümü,

**ÖZET**

Hem Mustafa Kemal Atatürk'ün hem de Haydar Aliyev'in babalarının adı Ali Rıza'dır. Her iki liderde ülkenin devlet kuruluşunda ülkenin kaderlerinde önemli rol oynamışlardır. Dönemleri ayrı olsa da ülke tarihinde oynadıkları rol birbirine benzerliklerle doludur. "Bir millet iki devlet" diye iki ülkenin ortak idealini tanımlayan Azerbaycan'ın sabık Cumhurbaşkanı Haydar Aliyev, Mustafa Kemal Atatürk gibi ülkesini muasır medeniyet seviyesini ulaştırma hedefini ortaya koymuştur. Atatürk gibi Aliyev'de generaldir. Her ikisi de halkın saygı ve sevgisini kazanmış liderlerdir. Atatürk'e 1928 yılında Arap Alfabesinden Latin Alfabesine geçişten dolayı "Baş Muallim" unvanı verilmiştir. Aynı şekilde Aliyev'in de Latin Alfabesine geçişi hızlandırdığı için "Baş muallim" unvanı verilmiştir. Her iki liderde eğitim ve öğretime büyük önem vermişlerdir. Her iki liderde başta dil olmak üzere kültür ve sanata çok büyük önem vermişlerdir. Bu tebliğde her iki lider olan Atatürk ve Aliyev'in ortak yönleri araştırılarak ortaya konulmuştur.
**Anahtar kelimeler:** Ali Rıza, Atatürk, Aliyev, Tahlil.

**ABSTRACT**

The fathers of both Mustafa Kemal Atatürk and Haydar Aliyev are named Ali Rıza. Both leaders played an important role in the fate of the country in the state establishment of the country. Although their periods are different, the role they played in the history of the country is full of similarities. Defining the common ideal of the two countries as "one nation, two states", the former President of Azerbaijan Haydar Aliyev, like Mustafa Kemal Atatürk, set the goal of bringing his country to the level of contemporary civilization. Like Atatürk, Aliyev is a general. Both are leaders who have earned the respect and love of the people. Atatürk was given the title of "Chief Teacher" in 1928 for the transition from the Arabic alphabet to the Latin alphabet. Likewise, Aliyev was given the title of "Chief Teacher" for accelerating the transition to the Latin alphabet. Both leaders attached great importance to education and training. Both leaders attached great importance to culture and art, especially language. In this communiqué, the common aspects of both leaders, Atatürk and Aliyev, were investigated and revealed.
**Keywords:** Ali Rıza, Atatürk, Aliyev, Analysis.

# ÜMUMTÜRK DÜNYASININ LİDERİ – HEYDƏR ƏLİYEV (HEYDƏR ƏLİYEV - 100)

THE LEADER OF THE ALL-TURKISH WORLD - HEYDAR ALIYEV
(HEYDAR ALIYEV–100)

**Yeganə ƏLİYEVA**
Kulturologiya üzrə fəlsəfə doktoru, dosent, Qabaqcıl təhsil işçisi,
AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun aparıcı elmi işçisi,
"“Mirzə İbrahimovun irsinin qorunması və təbliği” Fondunun Elmi katibi
**ORCİD:** 0000-0002-4496-5598

**ÖZET**

2023-cü ildə bəşəriyyətin tarix yaratmağa qadir şəxsiyyəti, müstəqil Azərbaycan dövlətinin gurucusu, Türk dünyasının görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Heydər Əliyev yalnız Azərbaycan xalqının sevimli lideri olmamışdır, o həmçinin bütün Türk dünyasında tanınan və sevilən dövlət xadimi olmuşdur. Ümummilli lider Heydər Əliyev Türk dünyası ölkələrinin inteqrasiyasının tərəfdarı olmuşdur. Heydər Əliyev fenomeni Türk dünyasının təkcə siyasət adamlarının deyil, o cümlədən də elm, təhsil və mədəniyyət xadimlərinin daim diqqət mərkəzindədir.

2012-ci ilin dekabr ayında Ümummilli lider Heydər Əliyevin vəfatının 9-cu ildənömü münasibətilə təşkil olunan silsilə tədbirlər çərçivəsində Türkiyənin paytaxtı Ankarada Heydər Əliyev Parkının və Heydər Əliyev adına orta məktəbin açılışı xatirəsinin yaşadılması kimi qiymətləndirilə bilər. Türk dünyasında Heydər Əliyev irsinin və müdriklik mirasının yaşadılmasına xidmət edən xoşməramlı addımlarından biri də Qazaxstanda L.N.Qumilyov adına Avroasiya Milli Universitetində Heydər Əliyev muzey-kabinetinin fəaliyyətində təzahürünü tapır. Heydər Əliyevin nadir şəxsiyyətinə ehtiramın digər nümunəsi 2022-ci ildə Özbəkistanın paytaxtı Daşkənd şəhərində Heydər Əliyev Meydanında böyük memorial kompleksin ucaldılmasıdır. Heydər Əliyevin təhsilə və elmə verdiyi önəmi qırğız xalqı bir nəsihət kimi qəbul edərək gənc nəslin tərbiyəsini daim diqqət mərkəzində saxlayır. 12 oktyabr 2022-ci il tarixində Qırğızıstanın paytaxtı Bişkekdə açılan 20 saylı Məktəb-Gimnaziya təhsil-tərbiyə kompleksinə Heydər Əliyevin adı verilmişdir. Türkmən xalqı Azərbaycanın Ümummilli lideri Heydər Əliyevə verdiyi böyük dəyərin təzahüri kimi 2010-cu ildə Türkmənistanın paytaxtı Aşqabadda “Görkəmli adamların həyatı” seriyasından olan “Heydər Əliyev” kitabının türkmən dilinə tərcümə edərək nəfis tərtibatda dərc edilməsini göstərmək olar. Tədqiqatdan alınan qənaətə görə, Ümummilli lider Heydər Əliyevin Türk dünyasının birliyi barədə fikir xəzinəsi Türkiyə və Mərkəzi Asiyanın türk dövlətləri tərəfindən böyük hörmət və ehtiram hissi ilə yaşadılır. Ulu öndərin ideoloji, mənəvi mirasının qorunması və təbliği müxtəlif elm, təhsil və mədəni layihələr çərçivəsində həyata keçirilir.

**Açar sözlər:** Ulu öndər, Azərbaycan, Heydər Əliyev, mənəvi irsi, Türk dünyası.

**ABSTRACT**

In 2023, the 100th anniversary of the birth of Heydar Aliyev, the personality capable of creating history, the founder of the independent state of Azerbaijan, the prominent politician and statesman of the Turkic world, will be completed.

Heydar Aliyev was not only the beloved leader of the Azerbaijani people, he was also a well-known and loved statesman in the entire Turkic world. The national leader Heydar Aliyev was a supporter of the integration of the countries of the Turkic world. The phenomenon of Heydar Aliyev is constantly in the center of attention not only of politicians, but also of science, education and culture figures of the Turkic world.

In December 2012, in the framework of the series of events organized on the occasion of the 9th anniversary of the death of the national leader Heydar Aliyev, it can be considered as the commemoration of the opening of the Heydar Aliyev Park and the Heydar Aliyev secondary school in Ankara, the capital of Turkey. One of the benevolent steps that serve to preserve the legacy of Heydar Aliyev and the legacy of wisdom in the Turkic world is manifested in the activity of the Heydar Aliyev museum-cabinet at the Eurasian National University named after L.N. Gumilyov in Kazakhstan. Another example of respect for the unique personality of Heydar Aliyev is the construction of a large memorial complex in Heydar Aliyev Square in Tashkent, the capital of Uzbekistan, in 2022. The Kyrgyz people take the importance of Heydar Aliyev to education and science as an advice and constantly focus on the education of the young generation. School-Gymnasium educational complex No. 20 opened in Bishkek, the capital of Kyrgyzstan on October 12, 2022, was named after Heydar Aliyev. The publication of the book "Heydar Aliyev" from the "Lives of Prominent People" series in 2010 in Ashgabat, the capital of Turkmenistan, in an elegant layout, can be shown as a manifestation of the great value that the Turkmen people have given to the National Leader of Azerbaijan, Heydar Aliyev. According to the conclusion obtained from the research, the national leader Heydar Aliyev's treasure of ideas about the unity of the Turkic world is held in great respect and reverence by Turkey and the Turkic states of Central Asia. Protection and promotion of the great leader's ideological and spiritual heritage is carried out within the framework of various scientific, educational and cultural projects.

**Keywords:** Great leader, Azerbaijan, Heydar Aliyev, spiritual heritage, Turkic world.

## 1.GİRİŞ.

*"Yönümüz Şərqə olsa da, yolumuz Qərbədir"*
**Ümumilli lider Heydər Əliyev**

*"Heydər Əliyev təkcə Azərbaycanın deyil, bütün türk dünyasının yetişdirmiş olduğu ən məşhur dövlət xadimlərindən biridir"*.

**Süleyman Dəmirəl, Türkiyənin Prezidenti**

29 sentyabr 2022-ci il tarixli "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı elm-zəka adamlarına, ziyalı və intellektuallara Ulu Öndərin fəaliyyətinin, onun Azərbaycan xalqına miras qoyduğu mənəvi irsinin öyrənilməsinə, zəngin fikir-ideya xəzinəsinin əhatəli araşdırılmasına və təbliğinə yeni motivasiya impulsudur. Belə ki, 2023-cü ildə bəşəriyyətin tarix yaratmağa qadir şəxsiyyəti, müstəqil Azərbaycan dövlətinin qurucusu, Türk dünyasının görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanın memarı olaraq onun dövlətçiliyinin siyasi, iqtisadi, mədəni əsaslarını yaratmışdır. Heydər Əliyev Azərbaycan xalqının bu gün müstəqil, güclü dövlətə sahib olması arzusunu reallığa çevirmiş fenomen şəxsiyyətdir. Belə ki, "Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Müharibədə şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir".[1]

**2.HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI**. Dünyamiqyaslı ictimai-siyasi xadim Heydər Əliyevin titanik siyasi iradəsi sayəsində ölkəmiz dünya məkanında layiqli yerini tutmuşdur. Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ölkənin ictimai-siyasi, sosial, iqtisadi,elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş nöqtəsi kimi tariximizə həkk olundu. Həmin andan elmi əsaslara arxalanaraq, beynəlxalq norma və prinsiplərə istinad olunaraq müstəqil dövlət quruculuğu həyata keçirilməyə başlandı.

Ümummilli lider Heydər Əliyevin milli şüurun oyanışında, Azərbaycançılıq ideyasının formalaşmasında xidmətləri əvəzsizdir. Heydər Əliyev dühasının siyasi ideyalarının mənəvi-ideoloji əsası dünya azərbaycanlılarının həmrəyliliyinin yeni vüsətlə güclənməsinə təkan vermişdir. Sərəncamda qeyd edildiyi kimi, "Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur".[1]

Tarixə nəzər salaq. 1991-ci ilin oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının elan edildiyi gündən minilliklərdən süzülüb gələn mədəniyyətimizin doğma qaynaqlara söykənməklə ümumbəşəri dəyərlərə qovuşması üçün əsl mənada münbit zəmin

yaradılması uğrunda ilk addımlar atıldı. Bunun üçün, tərəqqinin başlıca amillərindən biri hesab olunan cəmiyyətin hər bir üzvü üçün mədəni sahədə özünüifadə olmaq şəraiti yaradıldı; milli mədəniyyət ideoloji təsirlərdən azad edildi; dünya mədəni dəyərlərinin aşılanması və milli mədəniyyətimizin dəyərlərinin təbliği yolunda olan maneələr aradan qaldırıldı; və ən nəhayət mədəniyyətin və təhsilin idarəolunmasında inzibati-bürokratik sistem ləğv olundu. Bu islahatlar ölkəmiz üçün çətin bir şəraitdə aparılırdı və demək olar ki səmərə dərəcəsi gözə görünməz idi. 1991-1993-cü illərdə Azərbaycanın «20 faizi Ermənistan tərəfindən işğal olundu, bir milyondan artıq qaçqın və məcburi köçkünlərimiz çadırlarda ağır vəziyyətdə yaşamağa məcbur edildi, ölkəni separatçılıq meylləri bürüdü, hakimiyyət böhranı vətəndaş müharibəsinə gətirib çıxardı... Azərbaycanın başının üstünü yenidən öz müstəqilliyini itirmək təhlükəsi aldı»[8, 229]. Belə bir ağır şəraitdə xalqın təkidi ilə 1993-cü il iyunun 15-də hakimiyyətə qayıdan Heydər Əliyev qısa müddətdə bütün neqativ hallara son qoyaraq hər cür separatçılıq meyllərini aradan qaldırdı, ölkədə ictimai-siyasi sabitliyi bərqərar etdi, iqtisadiyyatı fəlakətli vəziyyətdən qurtarmaq üçün islahatlar proqramını işləyib hazırlayıb həyata keçirməyə başladı. Ölkənin təbii sərvətlərindən xalqın faydalanması üçün inkişaf etmiş dövlətlərlə çoxsaylı neft müqavilələrinin bağlanmasına, Ermənistanla müharibədə atəşkəs əldə edilməsinə nail oldu. Azərbaycanın ərazi bütövlüyünün təmin olunması şərtilə Ermənistanla müharibəyə son qoymaq üçün fəal sülh siyasəti mövqeyini bütün dünyaya bəyan etdi. Bu siyasət dünya birliyində, beynəlxalq təşkilatlarda rəğbətlə qarşılandı. Dünyanın aparıcı dövlətləri Azərbaycanın bu mövqeyini dəstəklədi və onu müdafiə etdi [8,229]. Müstəqillik illərində dövlət başçımız Heydər Əliyevin dəyərli tövsiyyələrini rəhbər tutaraq milli-mədəni irsimizi, tariximizi, milli sərvətimizi ideoloji buxovlardan xilas etmək yolunda uğurlu addımlar atılmış oldu.

XXI əsrin astanasında Azərbaycan mədəniyyətinin böyük hamisi mərhum Prezident Heydər Əliyevin rəhbərliyi ilə aparılan dövlət siyasətinin əsas istiqamətlərindən biri – elm, təhsil və mədəniyyət sahəsi idi. Demokratik, müstəqil Azərbaycan dövlətinin bərqərar olması xalqımızın həm iqtisadi, həm də mənəvi qələbəsi olmuşdur.

**3.HEYDƏR ƏLİYEVİN UZAQGÖRƏN SİYASİ STRATEGİYASI VƏ MİLLİ-MƏNƏVİ İNKİŞAF**. XXI əsrin ilk onilliklərində Azərbaycan mədəniyyəti, ümumiyyətlə, iqtisadi sosial, mədəni, mənəvi və siyasi həyatının bütün sahələrinin dünya sivilizasiyasına tam cavab verən bir səviyyədə inkişaf etdirilməsinə yönəlmişdir. Soykökə qayıdış, millətimizin özünü dərk etməsi, xalqımızın və dövlətimizin sivil bəşəriyyətin birgəyaşayış qaydalarını mənimsəmək prosesi gücləndikcə Azərbaycan xalqının malik olduğu ümumbəşəri mədəniyyətin təntənəsi daha aydın nəzərə çarpır. Azərbaycan mədəniyyəti düzgün istiqamətdə aparılan dövlət siyasəti nəticəsində bu gün tarixən formalaşmış mədəni-mənəvi dəyərlər qaynaqlarından bəhrələnərək daha möhtəşəm bir dövrünü yaşayır. Həmin dövrdə qloballaşma şəraitində yaşayan Müstəqil Azərbaycanın milli-mənəvi dəyərləri həqiqətən böyük təhlükələrlə üzləşir və milli-fəlsəfi və kulturoloji fikrə istinad etmədən, milli ideologiyanın formalaşmasını təmin etmədən və milli-sosial özünüqoruma şüuru formalaşdırmadan bu təhlükədən xilas olmaq çox çətin idi.

Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasi strategiyasının əsas qayəsi Azərbaycan xaqlının yaradıcılıq enerjisini tarixi yaddaşın bərpasına, milli ruhun canlanmasına, özünüdərkinə və soy-

kökə qayıdışı təmin edilməsinə xidmət etmişdir. Belə ki, XX əsrin 90-ci illərində Azərbaycan elmi mühitində formalaşan milli-kulturoloji fikirlə praktik ictimai həyat arasında əlaqənin yaradılması məsələsi gündəmə gəlmişdir. Məlumdur ki, müasir dövrdə bütün dünya xalqlarının kulturoloji fikrinin strukturunda Qərb fəlsəfəsi üstün yer tutur. XXI əsrin əvvəlində xalqımız həm Qərbin diktə etdiyi müasirlik inkişaf modelindən bəhrələnməyə, həmdə ənənəvi mədəniyyət dəyərlərimizin ideyalarını yaşatmağa çalışırdı. Bəşəriyyətin inkişaf nəbzini tutarkən, aktiv düşüncə tərzi olaraq Qərb nəzəriyyəçilərinin kulturoloji inkişaf modelləri və fikirləri ilə razılaşmamaq mümkün deyil. O zaman formaca və məzmunca arxaikləşmiş Şərq fəlsəfəsinin, həmçinin Azərbaycan fəlsəfəsinin qatlarında təşəkkül tapmış xalqımızın kulturoloji fikri texnogen dünyanın tələblərinə cavab vermirdi. Hər xalqın kulturoloji fikri milli ruhun daşıyıcısı olan, milli, mədəni-mənəvi özünüdərk pilləsinə qalxmış tək-tək tarixi şəxsiyyətlərin kulturoloji nəzəriyyələrindən və öz mədəniyyətinin tarixinə və nəzəriyyəsinə dair konsepsiyaların şəbəkəsindən ibarətdir. Yaranan durumda Müstəqil Azərbaycanda kulturologiya elminin əsas məqsədi çıxış yolu tapmaq idi. Milli-mənəvi dəyərlərimizi qoruyaraq real proseslərə əlavə etmək yox, millilikl̇ə müasirliyin məzmun müstəvisində vəhdətinə nail olmaq əsas məqsəd kimi təyin edilmişdir.

**4.HEYDƏR ƏLİYEV: "YÖNÜMÜZ ŞƏRQƏ OLSA DA, YOLUMUZ QƏRBƏDİR".**

Azərbaycanın beynəlxalq identikliyi coğrafi yerləşməyə, habelə tarixi, dini və mədəni amillərə görə mürəkkəb və çoxqatlı struktura malikdir. Coğrafi baxımdan Azərbaycan Avropada yerləşib. Dini baxımdan Azərbaycan İslam dünyasının ayrılmaz parçasıdır. Mədəni-linqvistik kontekstdə isə Azərbaycan Türk dünyası ilə identifikasiya olunur. 200 il müddətində Azərbaycan Rusiya imperiyasının, daha sonra SSRİ-nin tərkibində olub, bu gün də MDB-nin üzvüdür. Unikal "beynəlxalq özünüdərkə" malik olan Azərbayan coğrafi yerləşmə özəlliyindən avropa, islam və türk məkanından ayrılmaz olaraq periferik mövqe tutur.

Tarixi gedişatın həlledici mərhələsində geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən müxtəlif sahələrə aid məsələlərin uğurlu həllinə düzgün istiqamət vermişdir. Ümumilli liderimiz Heydər Əliyev "Yönümüz Şərqə olsa da, yolumuz Qərbədir" kəlməsində yeni reallığı əks etdirmişdir. Bu gün texnogen sivilizasiyanın sürətli inkişafı ilə ayaqlaşmaq səbəbindən Avropanın (Qərb) dəyərlərinə istinadı qacılmaz olduğunu bildirməklə, milli-mədəni dəyərlərimizə sadiqlik və hörmətlə yanaşma Ulu Öndərimizn bizə nəsihəti və gələcək inkişaf üçün miras qoyduğu strateji yol xəritəsidir.

Bu gün həmin tezisi rəhbər tutaraq Türk dünyasının ayrılmaz parçası olan Azərbaycan filosof və intellektualları bəşəriyyətə qlobal mədəni dialoqun unikal modelini təklif edir. Azərbaycanın dünya icmasına təklif etditi qlobal dialoq modeli azərbaycançılıq, multikulturalizm, türkçülük və İslam humanizminə arxalanır. Bəşəriyyətin müasir inteqrasiya proseslərini obyektiv dəyərləndirən Azərbaycanın intellektualları, zəka sahibləri, o cümlədən kulturoloq-tədqiqatçılar mədəni müxtəlifliyin və mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsinin konstruktiv mexanizmlərini bəşəriyyətə təklif edirlər. Belə ki, tarixin həlledici mərhələsində geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələrin uğurlu həllinə düzgün istiqamət vermişdir.

**5.ÜMUMTÜRK DÜNYASININ LİDERİ – HEYDƏR ƏLİYEV**. Heydər Əliyev yalnız Azərbaycan xalqının sevimli lideri olmamışdır, o həmçinin bütün Türk dünyasında tanınan və sevilən dövlət xadimi olmuşdur. Türkiyə-Azərbaycan dostluq əlaqələrini əks etdirən "Bir millət, iki dövlət" ifadəsi də məhz Heydər Əliyevə məxsusdur. Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan demişdir: "*Mərhum Heydər Əliyev Azərbaycanın xoşbəxtliyi və firavanlığı, bölgədə və dünyada sülh naminə göstərdiyi fövqəladə xidmətlərlə türk və dünya tarixində şərəfli yer tutmuşdur. Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün türk dünyasında tanınan və sevilən liderdir*". Bu gündə Heydər Əliyev şəxsiyyətinin nəhəngliyi qürur və iftixar hissi oyadır.

Ümummilli lider Heydər Əliyev Türk dünyası ölkələrinin inteqrasiyasının tərəfdarı olmuşdur. O, 1994-cü ildə Türk Xalqlarının Dostluq, Qardaşlıq və Əməkdaşlıq qurultayının iştirakçılarına təbrikində qeyd etmişdir: "*Özünün yeni yüksəliş dövürünü yaşayan çağdaş türk dünyası bəşər sivilizasiyasına yeni misilsiz nümunələr vermək iqtidarındadır. Bu gün öz suverenliyini əldə etmiş bir çox türk cumhuriyyətlərinin bu sıraya qoşulması türk dünyasının gələcəyinə işıqlı ümidlər oyadır. İtisadi, siyasi və mədəni həyatın sıx telləri ilə birləşməyə başlamış türk xalqları yeni dünyanın amillərindən birinə çevrilməkdədir*".[2]

Bu gün Azərbaycanın türk dünyası dövlətlərilə əməkdaşlığı və dostluq münasibətləri xalqlarımızın tarixi kökləri, əsrlər boyu toplanmış adət-ənələri və dil birliyi əsasında qurulub. Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistanla Azərbaycanın tarixi ənənələr, dostluq və qardaşlıq əlaqələri əsrlər boyu mövcud olmuşdur.

Heydər Əliyev irsini və fəaliyyətini öyrənərək aydın şəkildə müəyyən olur ki, onun sovet dövründə və Azərbaycanın müstəqilliyi bərpa olunandan sonra da siyasəti və çoxşahəli fəalliyyəti milli maraqlara, soy-kökə bağlılığa xidmət edib. Bu özünü doğma olan türkdilli ölkələrlə sıx dostluq və əməkdaşlıq münasibətlərinin təşviq edilməsində özünü görsədirdi. 29 iyun 1999-cu ildə Türk Dövlətləri və Topluqlarının VII Dostluq, Qardaşlıq və İşbirliyi Qurultayına müraciətində Heydər Əliyev vurğulayırdı: "*Bu gün – iyirminci yüzilliyin sonlarında xalqımızın tarixi haqqına qovuşaraq müstəqillik əldə etmişdir. Hər birimizin qəlbini sonsuz qürur duyğuları ilə döyündürən milli dövlətçilik atributlarımızı, türklüyün zəngin maddi və mənəvi dünyasını nümayiş etdirən tarixi abidələrimizi, ümumbəşəri dəyərlərimizi maneəsiz inkişaf etdirmək üçün hər cür şərait yaranmışdır. Bu böyük nailiyyətləri qoruyub saxlamaq dövlət müstəqilliyimizi daha da möhkəmləndirmək, ölkələrimiz və xalqlarımız arasında suverenlik, qarşılıqlı etimad və qardaşlıq prinsiplərinə əsaslanan hərtərəfli əlaqələrə nail olmaq hər birimizin gələcək nəsillər qarşısında müqəddəs borcumuzdur*".[3]

Bu gün isə nəyinki Azərbaycan, bütün Türk dünyasının dahi şəxsiyyət Heydər Əliyev ideyalarındakı müdriklik irsini qoruyub-saxlamaq ümdə vəzifələrindən biridir. Türk dilli ölkələrin başçılarının Heydər Əliyev dühası barədə söylədikləri fikirlər onun Suleyman Demirəlin sözlərilə desək "*təkcə Azərbaycanın deyil, bütün türk dünyasının yetişdirmiş olduğu ən məşhur dövlət xadimlərindən* biri" olduğunu və ona olan dərin hörmətin əyani sübutudur. Türk dünyasının ağsaqqalı elan olunan Heydər Əliyev barəsində Nursutan Nazarbayev demişdir: "*Heydər Əlirza oğlu Azərbaycan Respublikası üçün, MDB-nin inkişafı üçün, Qazaxıstan və Azərbaycan xalqlarının çoxəsrlik dostluğunun möhkəmlənməsi üçün çox işlər görüb*".

Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon hörmət və ehtiramnı Heydər Əliyevə aşağıdakı sözlər vasitəsilə bildirmişdir: "*Onun işləri və xidmətləri qədirbilən Azərbaycan xalqının və bütün xoşməramlı insanların xatirəsində əbədi yaşayacaq... Heydər Əliyevin adı doğma torpaqla qırılmaz surətdə bağlıdır. Müstəqil və suveren Azərbaycanın çiçəklənməsi və tərəqqisi, ölkədə ictimai-siyasi vəziyyətin sabitləşməsi və regionda yorulmadan möhkəm sülh axtarışı Heydər Əlirza oğluna bütün dünyada yüksək nüfuz və səmimi hörmət qazandırmışdır. Onun işləri və xidmətləri qədirbilən Azərbaycan xalqının və bütün xoşməramlı insanların xatirəsində əbədi yaşayacaq*".

**6.AZƏRBAYCAN-TÜRKİYƏ – BİR-BİRİNƏ YAXIN İKİ TÜRK DÖVLƏTİDİR**. Türkiyə Cumhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan nitqlərinin birində Ulu öndərin Türk dünyasına verdiyi töhvələri yüksək qiymətləndirmişdir: "*Mərhum Heydər Əliyev Azərbaycanın xoşbəxtliyi və firavanlığı, bölgədə və dünyada sülh naminə göxtərdiyi fövqəladə xidmətlərlə türk və dünya tarixində şərəfli yer tutmuşdur*". Heydər Əliyev fenomeni Türkiyənin yalnız siyasət adamlarının deyil, o cümlədən də elm, təhsil və mədəniyyət xadimlərinin də daim diqqətindədir. Belə ki, 2019-cu ildə Heydər Əliyev Mərkəzində türkiyəli tarixçi, professor İlber Ortaylı "Qafqaz tarixi" mövzusunda mühazirədə Ulu öndər Heydər Əliyevin Azərbaycan və Türkiyə münasibətlərinin möhkəmləndirilməsində xüsusi xidmətlərini vurğulamışdır: "*Azərbaycan və Türkiyə də bir-birinə yaxın iki Türk dövlətidir. Heydər Əliyev münasibətlərimizi çox gözəl müəyyən etmişdir. Bir millət, iki dövlət. Biz bir mədəniyyətin parçasıyıq. Bu mədəniyyətin çox rəngləri var. Zəngin tarixi keçmişə sahibik. Türklər dövlətsiz yaşamaz. Dövləti əl üstə tutmaq lazımdır*".[4]

Türkiyə Cumhuriyyətilə Azərbaycanın dostluq və qardaşlıq rəmzlərindən biri Ulu öndər Heydər Əliyevin xatirəsinin, onun ümumtürk dünyasına miras qoyduğu mənəvi dəyərlərinin yaşadılmasıdır. 2012-ci ilin dekabr ayında Ümummilli lider Heydər Əliyevin vəfatının 9-cu ildənömü münasibətilə təşkil olunan silsilə tədbirlər çərçivəsində Türkiyənin paytaxt şəhəri Ankarada Yeniməhəllə rayonunda Heydər Əliyev Parkının və Heydər Əliyev adına orta məktəbin [6] açılışı qardaşlıq rəmzi kimi qiymətləndirilə bilər.

Bundan başqa, 2006-ci ildə İstanbulun Sarıyer rayonunda Heydər Əliyevin abidəsinin açılışı olmuşdur. Abidənin ucaldığı küçəyə Ümummilli liderin adı verilmişdir.[7] Azərbaycan-Türkiyə dostluq və qardaşlığına böyük töhfə verən Ulu öndərin işıqlı xatirəsini yaşadan digər abidəsi Qars şəhərində Heydər Əliyev Parkında [8] yerləşir. 2011-ci ildə Türkiyənin Tarsus şəhərində 2,5 hektar ərazisində Heydər Parkı salınmışdır. Parkın ərazisində Bakıdan göndərilən hündürlüyü 5 metr, çəkisi 3 ton olan Heydər Əliyevin bürünc heykəli mərmər postament üzərində quraşdırılmışdır.[9]

**7.QAZAXSTANDA L.N.QUMİLYOV ADINA AVROASİYA MİLLİ UNİVERSİTETİNDƏ HEYDƏR ƏLİYEV MUZEY-KABİNETİ.** Türk dünyasının Heydər Əliyevin irsinin və müdriklik mirasının yaşadılamasına xidmət edən xoşməramlı addımlarından biri də Qazaxstanda L.N.Qumilyov adına Avroasiya Milli Universitetində Heydər Əliyev muzey-kabinetinin fəaliyyətində təzahürünü tapır. 18 aprel 2013-cü ildə həmin muzey-kabinetdə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş konfrans keçirilmişdir.[15] L.N.Qumilyov adına Avroasiya Milli Universitetində Heydər Əliyev muzey-kabinetinin fəaliyyəti Azərbaycan-Qazaxstan dostluq münasibətlərinin, mənəvi doğmalıq axtarışlarının, intellektual potensialının yüksəlməsinin əksidir.

**8.ÖZBƏKİSTANIN PAYTAXTI DAŞKƏND ŞƏHƏRİNDƏ HEYDƏR ƏLİYEV MEYDANI**. Heydər Əliyevin nadir şəxsiyyətinə ehtiramın digər nümunəsi Özbəkistanın paytaxtı Daşkənd şəhərində Heydər Əliyev Meydanında Ulu öndərin xatirəsini əbədiləşdirən böyük memorial kompleksin ucaldılmasıdır. 21 iyun 2022-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistana rəsmi səfəri çərçivəsində Heydər Əliyev Meydanının açılış mərasimində Özbəkistan Prezidenti Şavkat Mirzəyev çıxışında Azərbaycan xalqının Ümummilli Liderinin özbək xalqına həmişə böyük hörmətlə yanaşdığını bildirmişdir: "*Hərtərəfli savadlı və əsl ziyalı insan olan Heydər Əliyev bizim tariximizə, mədəniyyətimizə və ənənələrimizə səmimi heyranlığını bildirirdi. Məsələn, 1996-cı ildə Daşkənddə olarkən, Heydər Əliyev Teymurilər Tarixi Muzeyini ziyarət edərək Fəxri qonaqlar kitabında yazdığı qeyddə xüsusi olaraq vurğulamışdı: "Əmir Teymurun xidmətlərinə, onun tarixi irsinə qayğıkeş, hörmətli münasibətə görə Özbəkistan xalqı çox sağ olsun". Bu, yüksək mənəviyyat və müdriklik təzahürüdür*."[10]

**9.QIRĞIZISTANIN PAYTAXTI BİŞKEKDƏ HEYDƏR ƏLİYEV ADINA 20 SAYLI MƏKTƏB-GİMNAZİYA TƏHSİL-TƏRBİYƏ KOMPLEKSİ.** Beynəlxalq miqyaslı tarixi şəxsiyyət Azərbaycanın ümummilli lideri Heydər Əliyevin zəngin siyasi və dövlətçilik təcrübəsi, müdrikliyi və yüksək insani keyfiyyətləri, xalqın mənafeyinin müdafiəsində qətiyyəti və prinsipiallığı, Türk dünyasının gələcəyinə inamı ona Qırğızıstanda da hörmət qazandırmışdır. Heydər Əliyevin "Bizim cəmiyyətin gələcək tərəqqisi bu gün bizim gənclərimizə nəyi və necə öyrətməyimizdən çox asılı olacaq" sözlərində təhsilə və elmə ifadə etdiyi önəmi qırğız xalqı bir nəsihət kimi qəbul edərək gənc nəslin tərbiyəsini daim diqqət mərkəzində saxlayır. Xalq məhəbbətinin təzahürü olaraq 12 oktyabr 2022-ci il tarixində Qırğızıstanın paytaxtı Bişkekdə açılan 20 saylı Məktəb-Gimnaziya təhsil-tərbiyə kompleksinə Heydər Əliyevin adı verilmişdir.[11] Bişkekin ən böyük məktəblərindən birinə Heydər Əliyevin adının verilməsi Azərvaycan və Qırğızıstan arasında möhkəm dostluq və qardaşlığın təzahürüdür.

**10.TÜRKMƏNİSTANIN PAYTAXTI AŞQABADDA "GÖRKƏMLİ ADAMLARIN HƏYATI" SERİYASINDAN OLAN "HEYDƏR ƏLİYEV" KİTABININ NƏŞRİ.** Azərbaycan-Türkmənistan münasibətləri, o cümlədən mədəni əlaqələri [12] yeni inkişaf mərhələsini yaşayır. Bu gün türk xalqlarının birləşməyə, o cümlədən Türkmənistan-Azərbaycan dostluğuna daha çox ehtiyac və tələbat vardır. Bu birləşmənin əsas arqument və faktorlarından biri Heydər Əliyev amilidir. Türkmən xalqı Azərbaycanın Ümummilli lideri Heydər Əliyevə verdiyi böyük dəyərin təzahüri kimi 2010-cu ildə anadan olmasının 87-ci ildönümü ilə bağlı Türkmənistanın paytaxtı Aşqabadda "Görkəmli adamların həyatı" seriyasından olan "Heydər Əliyev" kitabının türkmən dilinə tərcümə edərək nəfis tərtibatda dərc edilməsini göstərmək olar [13]. 2013-cü ildə Aşqabadda türkmən dilində dərc olunan "Zaman Türkmənistan" qəzetində Ulu öndər Heydər Əliyevin 90 illiyi yubileyi münasibətilə Azərbaycan Respublikasının Türkmənistandakı səfiri Vəhdət Sultanzadənin "Xalqının vəfalı oğlu" başlıqlı məqaləsi dərc olunub.[14]

**11.NƏTİCƏ**. Ümummilli lider Heydər Əliyevin Türk dünyasının birliyi barədə fikir xəzinəsi Türkiyə və Mərkəzi Asiyanın türk dövlətləri tərəfindən böyük hörmət və ehtiram hissi ilə yaşadılır. Ulu öndərin ideoloji, mənəvi mirasının qorunması və təbliği müxtəlif elm, təhsil və mədəni layihələr çərçivəsində həyata keçirilir.

**QAYNAQLAR**

1. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // https://president.az/az/articles/view/57413

2.Türk Xalqlarının Dostluq, Qardaşlıq və Əməkdaşlıq qurultayının iştirakçılarına təbrik - 20 oktyabr 1994-cü il // https://lib.aliyevheritage.org/az/3655705.html

3.Türk Dövlətləri və Topluluqlarının VII Dostluq, Qardaşlıq və İşbirliyi Qurultayına - Bakı şəhəri, 29 iyun 1999-cu il // https://lib.aliyevheritage.org/az/9998406.html

4.İlber Ortaylı Bakü'de: Azeri kullanımı doğru değil // https://www.qha.com.tr/haber-arsivi/ilber-ortayli-baku-de-azeri-kullanimi-dogru-degil-20260

5.Türkiyədə Heydər Əliyevin adını daşıyan park və orta məktəbin açılışı olub// https://sia.az/az/news/social/325386.html

6.Istanbulun Sariyer rayonunda Ümummilli lider Heydər Əliyevin abidəsinin açılışı // https://azertag.az/xeber/ISTANBULUN_SARIYER_RAYONUNDA_

7.Türkiyənin Qars şəhərində ulu öndər Heydər Əliyevin əziz xatirəsi ehtiramla yad edilib // https://azertag.az/xeber/Turkiyenin_Qars_seherinde_ulu_onder_Heyder_Aliyevin_eziz_xatiresi_ehtiramla_yad_edilib-2127758

8.Tarsusda Ulu Öndər Heydər Əliyevin heykəli ucaldılmışdır // http://khatai-ih.gov.az/az/news/505.html

9.İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Daşkənddə Heydər Əliyev Meydanının açılış mərasimində iştirak ediblər // https://president.az/az/articles/view/56476

10.Sadır Japarov: "Qırğızıstanda Heydər Əliyevin adına məktəbin açılması əlamətdar hadisədir" // https://report.az/xarici-siyaset/

11.Azərbaycan-Türkmənistan mədəni əlaqələri yeni mərhələyə qədəm qoyur // https://www.azerbaijan-news.az/view-128016/Az%C9%99rbaycan-T%C3%

12.Kamil Həmzəoğlu. Görkəmli adamların həyatı: Heydər Əliyev" kitabı türkmən dilində // 525-ci qəzet.- 2010.- 15 may.- S.8. // http://anl.az/down/meqale/525/2010/may/119723.htm

13. Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyi münasibətilə "Zaman Türkmənistan" qəzetində "Xalqının vəfalı oğlu" sərlövhəli məqalə dərc edilmişdir // tag.az/xeber/Umummilli_lider_Heyder_Aliyevin_90_illik_yubileyi_munasibetile_Zaman_Turkmenistan_qezetinde_Xalqinin_vefali_oglu_serlovheli_meqale_derc_edilmisdir-21106

14. "Heydər Əliyev: Müstəqilliyimiz əbədidir" (çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, müraciətlər, fərmanlar) - Azərnəşr, Bakı - 1998, 2-ci cild, səh. 400-406.

15.Арман Сулейменов. Гейдар Алиев - Аксакал тюркского мира // https://e-history.kz/ru/news/show/4506

# HEYDƏR ƏLİYEV AZƏRBAYCANIN TƏHSİL SİYASƏTİNİN BANİSİ KİMİ

HAYDER ALIYEV AS THE FOUNDER OF THE EDUCATIONAL POLICY OF AZERBAIJAN

**P.ÜZ.F.D. Məmmədova Esmira Fərhad Qızı**

Bakı Şəhəri, Adpu-Nun "Azərbaycan Dili Və Onun Tədrisi Texnologiyası" Kafedrasının Baş Müəllimi

0009-0008-3969-1669

**ÖZET**

Bildiyimiz kimi, Heydər Əliyevin Azərbaycan üçün, onun gənclərinin hərtərəfli inkişafı üçün çox işlər görmüşdür. Onun gördüyü işlərin nəticələrini araşdırdıqda ümummilli lider Heydər Əliyevin dahi siyasətçi olduğunu deyə bilərik.

Məlumdur ki, 1993-cü ilin iyun ayında Heydər Əliyev hakimiyyətə qayıdanda artıq dağıdıcı qüvvələr Azərbaycanı talan etmiş, ölkə ərazisinin bir qismini itirmiş, Azərbaycanda qaçqınlar və məcburi köçkünlər ordusu yaranmışdır. Ölkənin təhsil sistemi, demək olar, bərbad hala düşmüşdü. Cəmiyyətin, ictimai və dövlət həyatının bütün sahələrini əhatə edən sistemli dərin böhran az mənfi təsirini təhsil sistemində də göstərirdi. Kənd yerlərində məktəblər, demək olar ki, fəaliyyətini dayandırmışdı. Dağ və dağətəyi rayonlarında məktəblərin əksər hissəsi istilik sistemi olmadığından noyabr ayında bağlanır, may ayında içində isə açılırdı. Şəhər məktəblərində də vəziyyət ürəkaçan deyildi. Respublikanın cənub bölgəsində yaşlılar, bəzi hallarda cənub qonşu şəxslərdə təhsil sisteminə dini fikirləri də əlavə etməyə cəhd edirdilər. Araşdırmalardan məlim olduğu kimi həmin dövrdə mintqlərdə iştirak etmək imtahanlarda tədris fənlərinin mənimsənilməsi kimi qiymətləndirilirdi. Bütün bunlar təhsil sisteminin böhranı və dağılması ilə nəticələnmişdir. Odur ki, 1993-cü ildə Heydər Əliyev qarşısında duran başlıca vəzifə təhsil sistemində böhranlı vəziyyətin tez bir zamanda aradan qaldırılması məsələsi idi.

XX əsrin 80-90-cı illərinin əvvəllərində Azərbaycanın təhsil sistemində baş verən böhran özünü nədə biruzə verirdi? İlk növbədə qeyd etmək lazımdır ki, bu böhran sistemli xarakter daşıyırdı. Əvvəla, bu böhran cəmiyyətin həyatının bütün sahələrində hökm sürən böhranın bir tərkib hissəsi idi.

Cəmiyyətin əksər hissəsini yoxsulluğa düçar edən dərin iqtisadi böhranın ən güclü zərbəsi məhz ziyalılara, elmi işçilərə, müəllim və həkimlərə, mədəniyyət və incəsənət xadimlərinə dəymişdi. Məhz buna görə də ziyalıların, o cümlədən elmi, təhsil işçilərinin əksər hissəsi biznes. Xidmət sahələrinə keçmiş və yaxud xarici ölkələrə getmişdi. İndi ölkənin təhsil sistemində mövcud olan kadr çatışmazlığının səbəblərindən biri də məhz bununla bağlıdır. Nəhayət, bir ictimai-siyasi sistemdən digərinə keçid mütləq dəyərlərin yenidən qiymətləndirilməsi, dünyagörüşü və ideya mövqelərinə yenidən baxılması ilə nəticələnir. Lakin dəyərlərin yenidən qiymətləndirilməsi prosesi, bir qayda olaraq, ağır prosesdir. Burada ideyalar, mövqelər, maraqların toqquşması, tərəfdarlar və rəqiblər axtarışı məsələləri meydana çıxır. Həssas bir sahə olan təhsil belə proseslərə son dərəcə kəskin reaksiya verir. Belə

vəziyyətdə alim və müəllimlər könüllü, şüurlu və yaxud təzyiq altında uzun illər tutduqları prinsiplərdən, tərəfdarı olduqları ideyalardan imtina etmək məcburiyyətində qalır. Deməli, təhsil sistemində böhranın daha da dərinləşməsində şüur əhəmiyyətli rol oynayır. Təhsil sistemini və bütövlükdə ölkəni böhrandan məhz Heydər Əliyev çıxarmalı idi. Qeyd etmək lazımdır ki, o, həmin vəzifəsinin öhdəsindən məharətlə gəldi.

**ANAHTAR KELİMELER:** siyaset, kurtuluş, eğitim sistemi, okul, kriz, politikacı

**MAMMADOVA ESMIRA**

**ABSRTACT:** As we know, Heydar Aliyev has done a lot for Azerbaijan and for the comprehensive development of its youth. When we examine the results of his work, we can say that national leader Heydar Aliyev is a genius politician.
It is known that when Heydar Aliyev returned to power in June 1993, destructive forces had already looted Azerbaijan, lost a part of the country's territory, and an army of refugees and internally displaced persons was created in Azerbaijan. The country's education system was almost ruined. Systemic deep crisis covering all spheres of society, public and state life had a slight negative impact on the education system as well. In rural areas, schools had almost ceased to function. Most of the schools in mountain and foothill regions were closed in November due to lack of heating system, and opened in May. The situation in city schools was not encouraging either. In the southern part of the republic, the elders, in some cases in the southern neighbors, tried to add religious ideas to the education system. As I know from the researches, in that period, participating in the meetings was considered as mastering the teaching subjects in the exams. All this resulted in the crisis and collapse of the education system. Therefore, the main task before Heydar Aliyev in 1993 was the issue of quickly eliminating the crisis situation in the education system.

What was the crisis in the education system of Azerbaijan in the early 80s and 90s of the 20th century? First of all, it should be noted that this crisis was systemic in nature. First of all, this crisis was a component of the crisis prevailing in all spheres of society's life.
The strongest blow of the deep economic crisis, which plunged the majority of the society into poverty, was precisely on the intellectuals, scientific workers, teachers and doctors, culture and art figures. That is why the majority of intellectuals, including scientific and educational workers, are in business. He went to service areas or went to foreign countries. One of the reasons for the lack of personnel in the education system of the country is related to this. Finally, the transition from one socio-political system to another necessarily results in a reassessment of values, a revision of worldviews and ideological positions. But the process of revaluation of values is usually a difficult process. Here, issues of ideas, positions, conflicts of interest, search for supporters and opponents emerge. Education, which is a sensitive field, reacts extremely sharply to such processes. In such a situation, scientists and teachers are forced to voluntarily, consciously or under pressure to give up the principles and ideas they have been supporting for many years. Therefore, consciousness plays an important role in deepening the crisis in the education system. It was Heydar Aliyev who should have brought the education system and the country as a whole out of the crisis. It should be noted that he coped with this task skillfully.

**KEYWORDS:** politics, liberation, education system, school, crisis, politician

**ÖZET:** Bildiyimiz kimi, Heydər Əliyevin Azərbaycan üçün, onun gənclərinin hərtərəfli inkişafı üçün çox işlər görmüşdür. Onun gördüyü işlərin nəticələrini araşdırdıqda ümummilli lider Heydər Əliyevin dahi siyasətçi olduğunu deyə bilərik.

Məlumdur ki, 1993-cü ilin iyun ayında Heydər Əliyev hakimiyyətə qayıdanda artıq dağıdıcı qüvvələr Azərbaycanı talan etmiş, ölkə ərazisinin bir qismini itirmiş, Azərbaycanda qaçqınlar və məcburi köçkünlər ordusu yaranmışdır. Ölkənin təhsil sistemi, demək olar, bərbad hala düşmüşdü. Cəmiyyətin, ictimai və dövlət həyatının bütün sahələrini əhatə edən sistemli dərin böhran az mənfi təsirini təhsil sistemində də göstərirdi. Kənd yerlərində məktəblər, demək olar ki, fəaliyyətini dayandırmışdı. Dağ və dağətəyi rayonlarında məktəblərin əksər hissəsi istilik sistemi olmadığından noyabr ayında bağlanır, may ayında içində isə açılırdı. Şəhər məktəblərində də vəziyyət ürəkaçan deyildi. Respublikanın cənub bölgəsində yaşlılar, bəzi hallarda cənub qonşu şəxslərdə təhsil sisteminə dini fikirləri də əlavə etməyə cəhd edirdilər. Araşdırmalardan məlim olduğu kimi həmin dövrdə mintqlərdə iştirak etmək imtahanlarda tədris fənlərinin mənimsənilməsi kimi qiymətləndirilirdi. Bütün bunlar təhsil sisteminin böhranı və dağılması ilə nəticələnmişdir. Odur ki, 1993-cü ildə Heydər Əliyev qarşısında duran başlıca vəzifə təhsil sistemində böhranlı vəziyyətin tez bir zamanda aradan qaldırılması məsələsi idi.

**ANAHTAR KELİMELER:** siyaset, kurtuluş, eğitim sistemi, okul, kriz, politikacı

**GİRİŞ:**XX əsrin 80-90-cı illərinin əvvəllərində Azərbaycanın təhsil sistemində baş verən böhran özünü nədə biruzə verirdi? İlk növbədə qeyd etmək lazımdır ki, bu böhran sistemli xarakter daşıyırdı. Əvvəla, bu böhran cəmiyyətin həyatının bütün sahələrində hökm sürən böhranın bir tərkib hissəsi idi.

Təhsil sistemində, istər müəllimlərin, istərsə də şagird və tələbələrin bu sistemə münasibətlərində cəmiyyətin sosial- siyasi orqanizmini darmadağın edən ideoloji böhran özünü açıq şəkildə biruzə verirdi. Məhz bunun nəticəsində müəllim, şagird və tələbələrdə mövcud təhsil sisteminə inamsızlıq əmələ gəlmişdi. Dinin adından istifadə edən bəzi siyasi qüvvələr hətta dünyəvi təhsilin zəruriliyini şübhə altına alırdı. Antisovet yönümlü siyasətçilər sover təhsil sistemini pisləməklə yaxalarını qurtarmağa cəhd göstərirdilər. Onlar, ümumiyyətlə, sovet təhsil sistemindən, hətta onun dəyərli cəhətlərini saxlamaqla, imtina etməyə çağırırdılar. Bununla əlaqədar təklif edirdi ki, Türkiyə, Amerika modelinə və yaxud dini təhsil sisteminə keçmək lazımdır. Bu, onunla izah olunurdu ki, guya sovet təhsil sistemi gənclərin şüurunu "Manqurtlaşdırır". Halbuki təhsil sisteminin də müstəb cəhətləri az deyildi. O zamankı təhsil sisteminə belə yanlış münasibət yalnız təhsil müəssisələrində deyil, bütün cəmiyyətdə hökm sürürdü. "Xalq cəbhəsi" və "Müsavat" hakimiyyəti dövründə təhsil məsələlərinin parlanment iclaslarındakı müzakirəsi buna əyani sübutdur. Təsadüfi deyildir ki, siyasi və ideoloji baxışlarına görə bəzi müəllimlərin təqiblərə məruz qalmaları məhz həmin

dövrlərə təsadüf edir ki, bu da təhsil sistemində böhranın daha da kəsginləşməsi və dərinləşməsi ilə nəticələnmişdir.

**ARAŞDIRMA:** 90-cı illərin əvvələrində parlament heç bir bir hazırlıq işiləri həyata keçirilmədən latin qrafikalı əlifabaya keçmək barədə qərar qəbul etdi. Həmçinin kitab, dərslik və dərs vəsaitələrinin çatışmazlığı ilə nəticələndi ki, bu da təhsil sistemində böhranın daha da dərinləşməsinə səbəb oldu. Dərsliklər və dərs vəsaitlərin hazırlanması isə uzunsürən çətinliklər hesabına yaranır. Bu prosesin həyata keçirilməsində şagird və müəllim heyətinin nə qədər çətinliklərlə üzləşməsindən danışmağa belə dəyməz. Həmin illərdə təhsil almış ziyalıların çıxışlarında o dövrü təhsildə sistemsizliyin olması ilə bağlayırlar. Bu böhrandan isə çıxış yolu yalnız ümummilli liderin uzaqgörən siyasəti nəticəsində yoluna qoyula bilərdi.

Cəmiyyətin əksər hissəsini yoxsulluğa düçar edən dərin iqtisadi böhranın ən güclü zərbəsi məhz ziyalılara, elmi işçilərə, müəllim və həkimlərə, mədəniyyət və incəsənət xadimlərinə dəymişdi. Məhz buna görə də ziyalıların, o cümlədən elmi, təhsil işçilərinin əksər hissəsi biznes. Xidmət sahələrinə keçmiş və yaxud xarici ölkələrə getmişdi. İndi ölkənin təhsil sistemində mövcud olan kadr çatışmazlığının səbəblərindən biri də məhz bununla bağlıdır. Nəhayət, bir ictimai-siyasi sistemdən digərinə keçid mütləq dəyərlərin yenidən qiymətləndirilməsi, dünyagörüşü və ideya mövqelərinə yenidən baxılması ilə nəticələnir. Lakin dəyərlərin yenidən qiymətləndirilməsi prosesi, bir qayda olaraq, ağır prosesdir. Burada ideyalar, mövqelər, maraqların toqquşması, tərəfdarlar və rəqiblər axtarışı məsələləri meydana çıxır. Həssas bir sahə olan təhsil belə proseslərə son dərəcə kəskin reaksiya verir. Belə vəziyyətdə alim və müəllimlər könüllü, şüurlu və yaxud təzyiq altında uzun illər tutduqları prinsiplərdən, tərəfdarı olduqları ideyalardan imtina etmək məcburiyyətində qalır. Deməli, təhsil sistemində böhranın daha da dərinləşməsində şüur əhəmiyyətli rol oynayır. Təhsil sistemini və bütövlükdə ölkəni böhrandan məhz Heydər Əliyev çıxarmalı idi. Qeyd etmək lazımdır ki, o, həmin vəzifəsinin öhdəsindən məharətlə gəldi.

Elm, təhsil və incəsənətdə böhranın aradan qaldırılması mənəvi istehsalın subyektləri olan alimlərlə, müəllim və yaradıcı ziyalılarla, bir sözlə elmi inkişaf etdirənlərlə, şagird və və tələbələri öyrədənlərlə, incəsənət əsərlərini yaradanlarla səmərəli iş aparılması ilə şərtlənir. Bunu dərindən dərk edən Heydər Əliyev respublikanın ziyalıları ilə, o cümlədən məktəb və institut müəllimləri ilə, gənclər nümayəndələri ilə geniş ideya-tərbiyə işlərini həyata keçirilməsinə başladı. Güclü məntiqi, vətəndaşlıq əqidəsi olan, ziyalıların psixologiyasını və həyatını dərindən bilən Heydər Əliyev mənəvi-psixoloji vəziyyəti dəyişdirməyə, dövlətə və sabahkı günə, elmin, təhsilin, mədəniyyətin yenidən dirçəlməsinin çox da uzaqda olmadığına insanlarda inam yaratmağa nail oldu. Məhz bu dönüş dövründən təhsil sistemində yeni həyat başlandı və həmvətənlərimizin xarici ölkələrə axınının qarşısı alındı.

Məhz həmin mühüm tədbirləri həyata keçirdikdən sonra, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev müəllimlərin maddi rifanın yaxşılaşdırılmasına, təhsil müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsinə diqqəti artıra bildi. Eyni zamanda o, təhsilin keyfiyyətinin yüksəldilməsi, elmlə təhsilin qarşılıqlı əlaqələri məsələlərini də daim diqqət mərkəzində saxlayırdı. 1993-cü ildən başlayaraq Heydər Əliyev təhsil sisteminə yeni

Azərbaycan quruculuğunun ayrılmaz tərkib hissəsi kimi baxırdı. Heydər Əliyevin təfsirində təhsil Azərbaycan xalqının ümummilli mənafelərinə uyğun inkişaf etməlidir.

Suveren Azərbaycanın Prezident kimi Heydər Əliyev təhsilin keyfiyyəti parametrlərinə xüsusi diqqət yetirirdi. O, gənclərin təhsil və tərbiyəsində milli və ümumbəşəri dəyərlərin metodoloji cəhətdən vəhdətini tələb edirdi. Qarşıya çıxan bütün çətinliklərə baxmayaraq, Heydər Əliyevin Azərbaycanın təhsil sisteminin inkişafına, onun ixtisas nomenklaturasının daha da genişlənməsinə nail ola bildi. Məhz bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Milli Konservatoriyası, Slavyan Universiteti, Sumqayıt Dövlət Universiteti və bir sıra hərbi yönümlü ali təhsil müəssisələri açıldı.

1 sentyabr 2001-ci ildə Azərbaycan prezidenti Heydər Əliyevin Bakıda ilk özəl ümumtəhsil məktəb kompleksinin açılışı mərasimində nitqindən bir çıxışa diqqət yetirək: " Təhsil sistemində, dövlət məktəblərində, dövlət universitetlərində nöqsanlar da var, çatışmazlıqlar da var. Bəzi təhsil müəssisələri hələki, uşaqlara, gənclərə müasir tələblərə uyğun təhsil vermirlər. Bəzi yerlərdə daha da narahatedici qüsurlar var. Biz bunları ardıcıl surətdə aradan qaldırılması üçün çalışır və çalışacağıq. Ancaq eyni zamanda, özəl təhsil müəssisələrinin yaranması da Azərbaycanda yeni bir hadisədir və biz bunları dəstəkəyirik. Güman edirik ki, belə özəl təhsil müəssisələri Azərbaycan gənclərinin bir qisminin yüksək təhsil alması üçün yararlı olacaqdır.

Ancaq bir şeyi qeyd etmək istəyirəm ki, ümumiyyətlə, təhsil biznesə çevrilməməlidir. Bunu hamı bilməlidir. Təəssüflər olsun ki, ötən illərdə ölkəmizdə bu məsələlər hələ tam nizamlanmadığına görə bəzi yerlərdə özəl univesitetlər, yaxud özəl məktəblər yaranıbdır. Ancaq araşdıranda görürsən ki, bu, onu yaradanların artıq vəsait əldə etməsi məqsədi daşıyır, başqa universitetlərə, məktəblərə nisbətən daha da yüksək təhsil vermək məqsədi daşımır. Bu bizi narahat edir.

İndi biznes, yəni özəl sektor bizim iqtisadiyyatımızda aparıcı yer tutur. Amma təhsil sahəsi müqəddəs sahədir. Çünki təhsi lsahəsi uşaqları, gəncləri hazırlayıb gələcəyə əsl vətəndaş, yüksək səviyyəli mütəxəssis etmək üçün mövcuddur. Əgər özəl universitetlər, özəl məktəblər yaradan şəxslər başqa məqsəd daşıyırlarsa, yəni bundan özləri üçün mənfəət götürmək məsələsinə üstünlük veriblərsə, bəzən də çox hallarda təhsilin keyfiyyəti bizim dövlət universitetlərindən, dövlət məktəblərindən aşağıdırsa, bu, həm xalqa, həm uşaqlara, hə də millətimizə xəyanətdir. Buna qətiyyən yol vermək olmaz. " [ 375]

**BULGULAR:** Heydər Əliyev şagird və tələbələrin təhsilinin keyfiyyətinin yüksəldilməsi zəruriliyindən bəhs edərkən, tədris prosesinin informasiya təminatı, bu sahədə dünya təcrübəsinin öyrənilməsi, ölkənin özünün qabaqcıl təcrübəsinə əsaslanması və s. kimi məsələləri ön plana çəkirdi.

Heydər Əliyev həmişə Azərbaycanın tərəqqisi barədə düşünürdü. Azərbaycanın tərəqqisi isə yüksək inkişaf etmiş elmsiz, müasir tələblərə cavan verən, ahəngdar inkişaf etmiştəhsil sistemi olmadan mümkün deyildir.

Əldə olunan bütün mənbələrdə ölkənin, xüsusən təhsil sisteminin Heydər Əliyev tərəfindən böhrandan çıxarılmasının üsulları, nəzəri-metodoloji yanaşmaları və mexanizmləri barədə aydın təsəvvür yarada bilər. Bununla əlaqədar aşağıdakıları xüsusi qeyd etmək lazımdır:

“ 1. Görkəmli dövlət və siyasi xadim kimi Heydər Əliyev çox yaxşı başa düşürdü ki, təhsil sistemindəki böhran cəmiyyətdə hökm sürən böhranın bir hissəsi və özünəməxsus təzahürüdür. Odur ki, cəmiyyətdə olan böhranı aradan qaldırmadan ayrı-ayrı sahələrdə nailiyyətlər əldə etmək mümkün deyildir.

2. O, cəmiyyətdə olan böhranın aradan qaldırılmasının məntiqini son dərəcə dəqiq müəyyənləşdirə bilmişdir. Bu məntiq, mənfi və müsbət amilləri nəzərə almaqla, fəaliyyət məntiqidir, mübarizə və yaradıcılıq məntiqidir.

3. Azərbaycanı sevməyənlərə qarşı tənqidi və ideoloji mübarizəni gücləndirmək yolu ilə böhranı aradan qaldırmaq haqqında cəbhəçilərin və müsavatçıların bəsitləşdirilmiş və romantik təsəvvürlərinin əksinə olaraq, Heydər Əliyev başqa yol-yaratmaq və həllini tapmamış problemlərin kompleks şəkildə həlli yollarını seçdi. O, ölkə qarşısında böhran vəziyyətindən ardıcıl və məqsədyönlü şəkildə çıxmaq kimi mürəkkəb, lakin zəruri bir vəzifə qoydu. Bu ideya onun son dövrdə hakimiyyəti dövründəki bütün nitq və məruzələrində öz əksini tapırdı.

**NƏTİCƏ:** Təhsil sistemində böhranın aradan qaldırılması yalnız cəmiyyətdə əxlaqi-psixoloji ab-havanın sağlamlaşdırılması şəraitində uğurla nəticələnə bilər. məhz buna görə də siyasi, ideya—nəzəri və praktiki fəaliyyətində Heydər Əliyev Azərbaycan cəmiyyətinin əxlaqi-psixoloji iqliminin, təhsil sistemi müəssisələrində mənəvi, əxlaqi və psixoloji ab-havanın sağlamlaşdırılması məsələlərinə xüsusi qayğı göstərir və daim diqqət mərkəzində saxlayırdı. Həyat, özü göstərir ki, belə yanaşma düzgün yanaşmadır.” (A.Naxçıvanlı, 13)

Heydər Əliyevin təhsillə bağlı bir neçə çıxışındakı əsas fikirlərə diqqət yetirək: “ Ali məktəblərdə, ümumiyyətlə təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır. Mən bütün müəllimlərimizdən rica edirəm ki, bu prinsipi özlərinin fəaliyyətində, öz həyatında da əsas tutsunlar, gənclərimizi də yüksək mənəvi ruhda tərbiyələndirməyə, hazırlamağa çalışsınlar” (Azərbaycan Müəllmlər İnstitutunun xəbərləri, Bakı, “Müəllim”,2008, 8)

Başqa bir çıxışa diqqət yetirək: “ Mənim üçün müəllim adı ən ülvi, ən şərəfli bir məfhum olubdur. Mən bu gün müəllim qarşısında baş əyirəm, müəllimə hötmət və ehtiramımı bildirir, Azərbaycan müəllimlərinə bundan sönra öz işlərində uğurlar arzuıayır, can sağlığı, səadət diləyirəm.

Mən hesab edirəm ki, insan cəmiyyətdə ən yüksək yerdə mənəviyyat durur. Maddi vəziyyət, sərvət, bu və ya başqa şeylər xeyli aşağıda durur.

Gənc nəsil gəlir. Bu, Azərbaycanın gələcəyidir. Ali məktəblərə daxil olan gənclər Azərbaycanın elmini, mədəniyyətini, iqtisadiyyatını, ictimai-sosial həyatını inkişaf etdirəcək yeni nəslin bir dəstəsidir. Bu gənclərin qeydinə qalmaq, onlara qayğıkeş münasibət

göstərmək,başlıcası isə, yaxşı təhsil vermək ali məktəblərdə mənəvi mühiti möhkəmlətmək, gənclərimizi gələcəkdə müstəqil həyatda sərbəst, layiqincə çalışmağa hazırlamaq bunlar ali məktəblərin professor və müəllim heyətinin, bütün ali məktəb işçilərinin müqəddəs vəzifəsidir. " (Azərbaycan Müəllmlər İnstitutunun xəbərləri, Bakı, "Müəllim",2008, 8)

Burada müasir ali məktəbləri şagird və tələbələrdə yüksək vətənpərvərlik keyfiyyətlərinin tərbiyə olunmasına, doğma xalqına, onun tarixinə və mədəniyyətinə dərin məhəbbət hisslərinin aşılanmasına yönəldən xeyli material toplanmışdır.

Bu gün təhsil və tərbiyə sistemlərinin fəaliyyəti şagird və tələbələrdə milli şüur və milli ləyaqət hisslərinin formalaşmasına həmişəkindən daha çox yönəldilməlidir.

Elm-məktəb-həyat, nəzəriyyə və praktika, tarix-müasirlik-gələcək, milli və ümumbəşəri dəyərlər, yeniyetmə nəslin mənəvi və əxlaqi dünyası, yüksək ixtisaslı mütəxəssis və ölkənin layiqli vətəndaşı, əmək və azadlıq, mütərəqqi təhsil sistemi və biliklərin mənimsənilməsinin səmərəli üsulları, şagird və tələbələrin təfəkkür mədəniyyəti və təhsil müəssisələrinin durmadan artan vəzifələri, humanizm və biganəlik-budur Heydər Əliyev nitq, məruzə, söhbət və müsahibələrindən götürülən və oxuculara təqdim edilən neçə-neçə məqalələr, kitablar gənc nəslin formalaşmasına kömək olacaqdır.

**KAYNAKÇA:**

1. "Müstəqilliyimiz əbədidir." II kitab, Bakı, 1997, səh. 547
2. "Müstəqilliyimiz əbədidir" V kitab, Bakı,1998, səh. 134
3. Mehdiyev R. "Vətəndaş cəmiyyətinə yol açan ideyalar" Bakı, 2006
4. Azərbaycan Müəllmlər İnstitutunun xəbərləri, Bakı, "Müəllim",2008, 120 s.
5. Azərbaycan: Heydər Əliyevdən İlham Əliyevə, Bakı,2007
6. Əmrəli İsmayılov, Təhsil. Bilik. Məktəb,-Bakı, "Müəllim", 2006, 400 s.
7. Nigar Qəhrəmanova, Heydər Əliyevin siyasi- nəzəri irsində siyasi mədəniyyət və mənəvi dəyərlərin realizə olunmasının bəzi metodoloji problemləri haqqında. AMİ, Bakı, 2008
8. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. II kitab, Bakı, 1997
9. R. Mehdiyev. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı,2005

# HEYDƏR ƏLİYEV: UŞAQLAR GƏLƏCƏYİMİZDİR!

HAYDER ALIYEV: CHILDREN ARE OUR FUTURE!

**Mehdizadə Gülşən Kamal qızı**

**ADPU, ETM-in kiçik elmi işçisi**

Mehdizadeh Gulshan Kamal kızı
Scientific worker of ASPU

## ÖZET

Cəmiyyətin həssas və kövrək zümrəsi olan uşaqlar ölkəmizdə daim yüksək diqqət və qayğı ilə əhatə olunurlar. Azərbaycan dövləti uşaqlara məhəbbətlə yanaşır, onların sağlam və gümrah, eyni zamanda, savadlı və vətənpərvər böyümələri üçün hər cür şərait yaratmışdır.

Bəllidir ki, Azərbaycanda uşaq problemlərinin həlli dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət uşaq siyasəti ölkəmizdə uşaqların rəqabətədavamlı, mənəvi və fiziki baxımdan sağlam inkişafının təmin edilməsinə yönəlmişdir. Ulu öndər öz çıxışlarında dəfələrlə vurğulamışdır ki, müstəqil dövlətimizdə uşaqların yüksək mənəvi-əxlaqi mühitdə, milli dəyərlər əsasında kamil tərbiyə alaraq layiqli şəxsiyyət kimi formalaşması olduqca mühüm əhəmiyyət kəsb edir: "*Azərbaycanın gəncləri, uşaqları ölkəmizin, xalqımızın milli sərvətidir, gələcəyidir və ümididir. Ona görə də uşaqlara qayğı göstərmək hər bir vətəndaşın borcudur. Azərbaycan dövlətinin uşaqlar haqqında siyasəti məhz bundan ibarətdir. Dövlətin qayğısı ilə hər bir vətəndaşın, hər bir təşkilatın qayğısı, hər bir cəmiyyətin qayğısı, xeyriyyəçilik edən hər bir adamın qayğısı birləşməlidir, qovuşmalıdır. Biz uşaqlarımızı yaxşı tərbiyə etməliyik, yaxşı şəraitdə yaşatmalıyıq. Uşaqlarımıza təhsil verməliyik. Onları gələcək üçün hazırlamalıyıq.*"

Bu gün hər bir azərbaycanlı uşağının sağlam sosial-mənəvi mühitdə böyüməsi üçün ölkəmizdə dövlətin hüquq sisteminin əsasını təşkil edən Konstitusiya və qanunlarla uşaq hüquqlarına etibarlı təminat mexanizmləri yaradılıb. Məqsəd uşaqların yaşayış şəraitinin, təlim-tərbiyəsinin, təhsilinin, sosial müdafiəsinin, sağlamlığının yüksək səviyyədə təşkil edilməsidir.

Məhz bu sonsuz diqqət və qayğının nəticəsi idi ki, Azərbaycan körpələri millət atası Heydər Əliyev ilə hər bir görüşdən sonsuz coşqu, böyük ilham alırdılar. Bu səmimi və kövrək görüşlər hər bir uşağın yaddaşında əbədi iz qoymuşdur. Buna misal olaraq ümumtəhsil məktəblərinin 3-cü sinif üçün "Azərbaycan dili" (tədris dili kimi) fənni üzrə dərslikdə qaçqın şəhərciyinin balaca sakininin dilindən yazılmış müəllifi Zahid Xəlil olan "Müdrik rəhbər" adlı hekayədir. Hekayədə Ulu öndərin erməni vandalizmi nəticəsində yurd-yuvalarından məcburi didərgin düşmüş soydaşlarımıza salınmış qaçqınlar şəhərciyinin açılışında uşaqlarla görüşündəki xatirə qələmə alınıb. Hekayədə Heydər Əliyev şəxsiyyətinin hərtərəfli biliyə, vətəninə bağlı, böyük ürəkli, uşaqlara xüsusi məhəbbətlə yanaşan müdrik rəhbər olduğu ibtidai sinif şagirdlərinin nəzərinə çatdırılmışdır.

Heydər Əliyev ədalətin bərqərar olacağına əmin idi. Siyasi fəaliyyətində bunu hər şeydən üstün tuturdu. O, deyirdi: *"Dövlət iki halda sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə "*. Heydər Əliyev uşaqların ədaləti bərqərar edəcəyinə inanaraq - uşaqlar bizim gələcəyimizdir – deyirdi...

Ümummilli liderin uzaqgörən siyasətinin davamçısı Azərbaycan Respublikasının Ali Baş Komandanı, xalqın sevgisini, etimadını qazanan sərkərdəsi İlham Əliyevin 2020-ci ildə 44

günlük II Qarabağ müharibəsi "Dəmir yumruq" əməliyyatı şəhidlərimizin, qazilərimizin, vətən təəssübkeşli xalqımızın birliyi, əzmi sayəsində işğal tarixlərimizin qarşısına zəfər günlərimiz fəxarətlə həkk olundu!

**Açar sözlər:** Ümummilli lider, müdrik rəhbər, uşaq problemləri, dəmir yumruq, dövlət siyasəti

ABSTRACT

Children, who are a sensitive and fragile group of society, are always surrounded by high attention and care in our country. The state of Azerbaijan treats children with love, and has created all conditions for their healthy and cheerful, at the same time, educated and patriotic growth.

It is clear that solving children's problems in Azerbaijan is one of the priority areas of state policy. The state children's policy, which was founded by national leader Heydar Aliyev, is aimed at ensuring the competitive, moral and physical development of children in our country. In his speeches, the great leader has repeatedly emphasized that in our independent state, it is very important for children to be fully educated in a high moral and ethical environment and become worthy personalities based on national values: "Azerbaijan's youth and children are the national wealth, future and hope of our country and people. Therefore, it is the duty of every citizen to take care of children. This is exactly what the policy of the Azerbaijani state on children consists of. The care of the state and the care of every citizen, every organization, the care of every society, and the care of every person who gives charity should be united and united. We must raise our children well, we must live in good conditions. We must educate our children. We have to prepare them for the future."

Today, in order for every Azerbaijani child to grow up in a healthy social and moral environment, the Constitution and laws, which form the basis of the state's legal system, have created reliable mechanisms for ensuring children's rights. The goal is to organize children's living conditions, training, education, social protection, and health at a high level. It was the result of this endless attention and care that the children of Azerbaijan got endless enthusiasm and great inspiration from every meeting with the father of the nation, Heydar Aliyev. These sincere and fragile meetings left an eternal mark in the memory of every child. An example of this is the story "The Wise Leader" by Zahid Khalil, written in the language of a small resident of the refugee town, in the textbook on the subject "Azerbaijani language" (as the language of instruction) for the 3rd grade of general education schools. In the story, the memory of the great leader's meeting with children at the opening of the refugee camp for our compatriots who were forcibly displaced from their homes as a result of Armenian vandalism was recorded. In the story, the personality of Heydar Aliyev was brought to the attention of primary school students, who is a wise leader who is devoted to comprehensive knowledge, his country, has a big heart, and treats children with special love.

Heydar Aliyev was sure that justice would be established. He prioritized this above all else in his political activity. He said: "The state can be shaken in two cases: when the guilty go unpunished and when the innocent are punished." Believing that children will establish justice, Heydar Aliyev used to say that children are our future...

In 2020, the 44-day Second Karabakh War "Iron Fist" operation of Ilham Aliyev, the Commander-in-Chief of the Republic of Azerbaijan, the successor of the visionary policy of the national leader, the commander-in-chief who won the love and trust of the people, was a victory

over the history of occupation thanks to the unity and determination of our martyrs, veterans, and our patriotic people. our days are marked with pride!

**Key words:** national leader, wise leader, children's problems, iron fist, public policy

**TAM MƏTN**

## HEYDƏR ƏLİYEV: UŞAQLAR GƏLƏCƏYİMİZDİR!

**Mehdizadə Gülşən Kamal qızı**

**ADPU, ETM-in kiçik elmi işçisi**

*Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi*
*nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin,*
*dövlətimizin sabahı bundan asılı olacaqdır.*

*Heydər Əliyev*

Cəmiyyətin həssas və kövrək zümrəsi olan uşaqlar ölkəmizdə daim yüksək diqqət və qayğı ilə əhatə olunurlar. Azərbaycan dövləti uşaqlara məhəbbətlə yanaşır, onların sağlam və gümrah, eyni zamanda, savadlı və vətənpərvər böyümələri üçün hər cür şərait yaratmışdır.

Bəllidir ki, Azərbaycanda uşaq problemlərinin həlli dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət uşaq siyasəti ölkəmizdə uşaqların rəqabətədavamlı, mənəvi və fiziki baxımdan sağlam inkişafının təmin edilməsinə yönəlmişdir. Ulu öndər öz çıxışlarında dəfələrlə vurğulamışdır ki, müstəqil dövlətimizdə uşaqların yüksək mənəvi-əxlaqi mühitdə, milli dəyərlər əsasında kamil tərbiyə alaraq layiqli şəxsiyyət kimi formalaşması olduqca mühüm əhəmiyyət kəsb edir: "*Azərbaycanın gəncləri, uşaqları ölkəmizin, xalqımızın milli sərvətidir, gələcəyidir və ümididir. Ona görə də uşaqlara qayğı göstərmək hər bir vətəndaşın borcudur. Azərbaycan dövlətinin uşaqlar haqqında siyasəti məhz bundan ibarətdir. Dövlətin qayğısı ilə hər bir vətəndaşın, hər bir təşkilatın qayğısı, hər bir cəmiyyətin qayğısı, xeyriyyəçilik edən hər bir adamın qayğısı birləşməlidir, qovuşmalıdır. Biz uşaqlarımızı yaxşı tərbiyə etməliyik, yaxşı şəraitdə yaşatmalıyıq. Uşaqlarımıza təhsil verməliyik. Onları gələcək üçün hazırlamalıyıq.*" *[3,s.9].*

Bu gün hər bir azərbaycanlı uşağının sağlam sosial-mənəvi mühitdə böyüməsi üçün ölkəmizdə dövlətin hüquq sisteminin əsasını təşkil edən Konstitusiya və qanunlarla uşaq hüquqlarına etibarlı təminat mexanizmləri yaradılıb. Məqsəd uşaqların yaşayış şəraitinin, təlim-tərbiyəsinin, təhsilinin, sosial müdafiəsinin, sağlamlığının yüksək səviyyədə təşkil edilməsidir.

Uşaq hüquqlarının müdafiəsi ilə bağlı ilk beynəlxalq sənəd - Uşaq Hüquqları Haqqında Konvensiya Beynəlxalq Qadınlar Federasiyasının təşəbbüsü ilə Birləşmiş Millətlər Təşkilatı tərəfindən 1949- cu ildə qəbul olunub. 1950-ci ildən başlayaraq hər ilin 1 iyun tarixi beynəlxalq səviyyədə uşaqların müdafiəsi günü kimi qeyd edilir. Bu əlamətdar gündə, ilk növbədə, uşaqların söz, dini etiqad azadlığı, təhsil, sağlamlıq, istirahət və əyləncə, fiziki və psixoloji zorakılıqdan, istismardan qorunmaq kimi hüquqları böyüklərin diqqətinə çatdırılır. Uşaqların müdafiəsi

günündə bütün dünyanın diqqətini cəmiyyətin bu kövrək təbəqəsinə cəlb etmək üçün müxtəlif tədbirlər keçirilir. 1991-ci il oktyabrın 18-də özünün dövlət müstəqilliyini elan etmiş Azərbaycan Respublikası çox keçmədən, daha dəqiq desək bir il sonra, 1992-ci ildə həmin konvensiyaya qoşulub. Dünyanın artıq 190-dan çox dövləti bu konvensiyanı imzalayıb.

1993-cü ildən başlayaraq ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasında bu sahənin fəaliyyətini tənzimləyən milli qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə ardıcıl islahatlar həyata keçirilmişdir. Uşaq hüquqlarının təminatı ilə bağlı bir sıra beynəlxalq sazişlərə qoşulmuş ölkəmizdə ulu öndərin qanunvericilik təşəbbüsü əsasında Milli Məclisdə "Uşaq hüquqları haqqında" (1998), habelə "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" (1999) Azərbaycan Respublikasının qanunları qəbul edilmişdir.

Azərbaycanda uşaq siyasətini dövlətin prioritetinə çevirən ümumilli lider Heydər Əliyev uşaqları sonsuz məhəbbətlə sevirdi və onlara böyük qayğı və diqqət göstərirdi. Uşaqlarla hər görüşdə Azərbaycanın gələcəyini onlara inamla əmanət edirdi: *"Əziz balalarım, mən bu gün sizə demək istəyirəm ki, Azərbaycanın bu günü nə qədər çətin və ağırdırsa, gələcəyi bir o qədər işıqlı, o qədər də xoşbəxt və gözəldir. Sizi gələcəkdə gözəl həyat gözləyir. Bu gözəl həyatı yaratmaq sizə nəsib olacaq, bunları siz etməlisiniz. Siz oxuyub, təhsil alıb özünüzü cəmiyyətdə işləmək, xalqa xidmət etmək üçün hazırlamalı, düşünməlisiniz ki, Azərbaycanın müstəqilliyini gələcəkdə siz irəli aparacaqsınız, Azərbaycanın gələcəyini siz təmin edəcəksiniz. Sizi qucaqlayıram, bütün Azərbaycan uşaqlarını bağrıma basıram, öpürəm və hamınıza xoşbəxt həyat, şən günlər, sağlamlıq arzulayıram." [3,s.9].*

Ulu öndər Heydər Əliyev müstəqilliyinin ilk illərində böyük ictimai-siyasi problemlərlə üzləşmiş, ədalətsiz müharibəyə cəlb olunmuş, torpaqlarının 20 faizini itirmiş ölkəmizi düçar olduğu faciələrdən xilas edərkən uşaqların taleyini bir an belə unutmamış, böyük işlərdən vaxt taparaq həmişə onların görüşünə gəlmiş və çağırışlar etmişdir: *"Əziz balalar, sizi xoşbəxt günlər gözləyir. Ona görə də bu günlərin əzab-əziyyətini dözümlə keçib getməlisiniz. Çünki siz gələcəkdə xoşbəxt yaşayacaqsınız. Mən buna tam əminəm. Ona görə əminəm ki, Azərbaycan müstəqil dövlət kimi öz addımlarını inamla atır. İndi ölkəmiz müharibə şəraitindədir, Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində ağır vəziyyətə düşübdür. Respublikamızın ərazisinin bir qismi işğal olunubdur. İşğal olunmuş torpaqlardan bir milyondan artıq vətəndaşımız qaçqın düşüb, ağır şəraitdə yaşayır. Bu müharibədə biz şəhidlər vermişik. Şəhidlərimizin arasında uşaqlar da var, körpə balalarımız da var. Bunların hamısı həyatımızın faciəsidir, erməni işğalçılarının, düşmənlərin Azərbaycan xalqına qarşı amansız və çox yırtıcı hərəkətlərinin nəticəsidir. Odur ki, bu illərdə bizim uşaqlarımız da, körpələrimiz də həlak olubdur. Qaçqın ailələrinin, o cümlədən uşaqların həyatı ağır və çətindir. Bütün bunlar hamısı Azərbaycanın son illərdəki həyatının reallığıdır, gerçəkliyidir. Ancaq belə bir şəraitdə də bizim uşaqlar böyük nikbinliklə yaşayırlar, təhsil alırlar, mahnı oxuyurlar, rəqs edirlər, şənlənirlər və gələcəyə ümidlə baxırlar." [3,s.9].*

Məhz bu sonsuz diqqət və qayğının nəticəsi idi ki, Azərbaycan körpələri millət atası Heydər Əliyev ilə hər bir görüşdən sonsuz coşqu, böyük ilham alırdılar. Bu səmimi və kövrək görüşlər hər bir uşağın yaddaşında əbədi iz qoymuşdur. Buna misal olaraq ümumtəhsil məktəblərinin 3-cü sinif üçün "Azərbaycan dili" (tədris dili kimi) fənni üzrə dərslikdə qaçqın şəhərciyinin balaca sakininin dilindən yazılmış müəllifi Zahid Xəlil olan "Müdrik rəhbər" adlı hekayədir. Hekayədə Ulu öndərin erməni vandalizmi nəticəsində yurd-yuvalarından məcburi didərgin düşmüş soydaşlarımıza salınmış qaçqınlar şəhərciyinin açılışında uşaqlarla görüşündəki

xatirə qələmə alınıb. Hekayədə Heydər Əliyev şəxsiyyətinin hərtərəfli biliyə, vətəninə bağlı, böyük ürəkli, uşaqlara xüsusi məhəbbətlə yanaşan müdrik rəhbər olduğu ibtidai sinif şagirdlərinin nəzərinə çatdırılır:

*Ağdam işğal olunduqdan sonra ailəmiz Bakıda məskunlaşmışdı. İlk vaxtlar yaşayış çox çətin idi. Babam həmişə bizə təsəlli verirdi ki, hər şey yaxşı olacaq. Çünki bizim güclü dövlətimiz və qüdrətli rəhbərimiz var. Onda mənim 4-5 yaşım olardı. Ona görə də bu sözlərin mahiyyətinə o qədər də varmırdım.*

*Nəhayət, bir gün qaçqınlar üçün salınmış şəhərciyə köçdük. Şəhərciyin açılışına prezidentimiz Heydər Əliyev də gəlmişdi. Toplantıdan sonra o, uşaqlarla da ayrıca görüşmək istədi. Onlarla xeyli söhbət etdi. Mehriban baxışları ilə sanki onlara acı günləri unutdurmaq istəyirdi.*

*Uşaqlardan bir neçəsi doğma yurdumuz Qarabağ haqqında şeir söylədi. Heydər baba onları diqqətlə dinləyib soruşdu:*

*– Uşaqlar, bilirsinizmi, Qarabağ torpağı necə qəhrəmanlar yetirib?*

*O, Şuşanın tarixi, Qarabağın incəsənəti, mədəniyyəti haqqında danışmağa başladı. Elə maraqlı danışırdı ki, hamımızın ağzı açıq qalmışdı. Axırda mən dözməyib soruşdum:*

*– Heydər baba, siz də Qarabağda anadan olmusunuz?*

*– Niyə soruşursan ki?*

*– Siz Qarabağdan elə şeylər danışdınız ki, bunu yalnız orada yaşayan bilərdi.*

*Heydər baba başımı sığallayıb söylədi:*

*– Biz hamımız bir torpağın – Azərbaycanın övladıyıq. Doğma yurdumuzun tarixini bilmək isə hamımızın borcudur!*

*Sonra babam bizə dedi ki, Heydər baba Azərbaycanın hər qarışının tarixini çox gözəl bilir və bu torpağın adını ucaldanları yüksək qiymətləndirir. Əsl dövlət rəhbəri belə olmalıdır[2,s.112-113] .*

Uzaqgörən siyasi lider olan Heydər Əliyevin yaratdığı və nəsillər üçün miras qoyduğu ənənələr bu gün də uğurla davam etdirilir. Azərbaycan Prezidenti İlham Əliyevin uşaq hüquqlarının müdafiəsi sahəsində atdığı addımlar, Heydər Əilyev Fondunun gördüyü işlər bu ənənələrin hələ uzun illər yaşayacağına və Azərbaycan körpələrinin taleyində əhəmiyyətli rol oynayacağına zəmanət verir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci il 22 dekabr tarixli sərəncamı ilə 2009-cu ilin "Uşaq ili" elan edilməsi də Azərbaycan dövlətinin uşaqlara sonsuz qayğısının bariz nümunəsidir. Təkcə 2009-cu ildə deyil, bütün sonrakı illərdə də uşaqların problemlərinin həllinə Azərbaycan dövlətinin diqqət mərkəzindədir.

Yeri gəlmişkən, uşaq hüquqlarının qorunması istiqamətində həyata keçirilən çoxşaxəli təşəbbüslərin uğurla reallaşdırılmasında Heydər Əliyev Fondu da böyük işlər görür. Fondun təhsil və səhiyyənin bir sıra problemlərinin həlli, yeni məktəblərin inşası, körpələr evi və internat məktəblərinin əsaslı təmiri və yenidən qurulması prosesində yaxından iştirakı Azərbaycanın gələcəyi olan uşaqlara yüksək qayğı nümunəsi olmaqla yanaşı, cəmiyyətin ümumi potensialının bu yöndə səfərbər olunmasına yönəlmişdir. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi əsasında ötən illər ərzində respublikanın ən müxtəlif bölgələrində 250 müasir tipli orta məktəb inşa olunaraq istifadəyə verilmiş, "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" və "Məktəbəqədər uşaq tərbiyə müəssisələrinin yenidən qurulması" layihəsi çərçivəsində 40-dək körpələr evi, bağça və internat məktəbi əsaslı təmir olunmuşdur. Uşaq evləri

və internat yetirmələrinin sosial-psixoloji reabilitasiyasına imkan yaradacaq resurs mərkəzinin yaradılması, "Kor və zəif görən uşaqlar üçün informasiya-kommunikasiya texnologiyalarına çıxışın təmin edilməsi", "Təhsilə dəstək" və "İnklüziv təhsil" proqramlarının həyata keçirilməsi də fondun xidmətləri sırasında xüsusi vurğulanmalıdır.

Hazırda ölkəmizdə uşaq problemlərinin həlli istiqamətində onlarla dövlət proqramı və böyük layihələr həyata keçirilir. Müxtəlif dövlət sturukturlarının cəlb olunduğu bu proqramlarda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi də fəal iştirak edir. Komitə respublikamızda ailə, qadın və uşaq problemləri sahəsində dövlət siyasəsətini həyata keçirən, bu sahədə inkişafı təmin edən mərkəzi icra hakimiyyəti orqanıdır. Komitə qarşısına qoyulan ən əsas vəzifələrdən biri də bu gün Azərbaycanda uşaqlar haqqında vahid məlumat bazasının formalaşdırılmasıdır. Məhz belə bir məlumat mərkəzi əsasında ölkədə uşaqların vəziyyətini, onların inkişafı ilə bağlı həllini gözləyən əsas problemləri müəyyən etmək mümkün olacaqdır. Artıq bu istiqamətdə xeyli iş görülmüşdür. Məlum olduğu kimi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən müntəzəm olaraq qaçqın və məcburi köçkünlərin problemləri araşdırılaraq ehtiyacları müəyyənləşdirilir və bu istiqamətdə müvafiq tədbirlər görülür. Qaçqın və Məcburi Köçkün Gənclər Təşkilatı ilə birlikdə belə ailələrdən olan uşaqların dolğun istirahəti üçün hər il xüsusi yay düşərgələri təşkil olunur.

Azərbaycan uşaqları bu gün dövlətin və cəmiyyətin hərtərəfli qayğısı ilə əhatə olunub[1,s.6].

Heydər Əliyevin 11 dekabr 1994-cü ildə BMT-in YUNİSEF fondunun təşəbbüsü ilə bu xeyriyyə telemarafonunda uşaqlarla görüşündə çıxışı zamanı qeyd etmişdir: “*Dünya bilməlidir ki, Azərbaycan xalqı indi ağır, əziyyətli vəziyyətdə yaşayır, ancaq öz milli mənliyini qoruyur və qoruyacaq, öz torpaqlarının və öz taleyinin sahibidir və sahibi olacaqdır. Müstəqil Azərbaycan öz ərazi bütövlüyünü təmin edəcək, dünya birliyində öz yerini tutacaqdır. Müstəqil Azərbaycan gələcəyə ümidlə gedəcəkdir. Bizim ümidimiz, gələcəyimiz bizim uşaqlarımızdır, balalarımızdır.” [3,s.10].*

Heydər Əliyev ədalətin bərqərar olacağına əmin idi. Siyasi fəaliyyətində bunu hər şeydən üstün tuturdu. O, deyirdi: *“Dövlət iki halda sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə ”.* Heydər Əliyev uşaqların ədaləti bərqərar edəcəyinə inanaraq - uşaqlar bizim gələcəyimizdir – deyirdi...

Ümummilli liderin uzaqgörən siyasətinin davamçısı Azərbaycan Respublikasının Ali Baş Komandanı, xalqın sevgisini, etimadını qazanan sərkərdəsi İlham Əliyevin 2020-ci ildə 44 günlük II Qarabağ müharibəsi “Dəmir yumruq” əməliyyatı şəhidlərimizin, qazilərimizin, vətən təəssübkeşli xalqımızın birliyi, əzmi sayəsində işğal tarixlərimizin qarşısına zəfər günlərimiz fəxarətlə həkk olundu! Bu prossesin reallaşması hər bir generalın, zabitin, əsgərin, könüllünün ərsəyə gəlməsi ailə və cəmiyyət vəhdətinin təzahürüdür. Döyüş meydanında ədaləti bərpa edərək Azərbaycanın dilbər guşəsi, Qarabağın gözəllik simvolu Şuşanın işğaldan azad olunması münasibəti ilə Prezidentimiz 8 noyabr 2020-ci ildə xalqa təbrikində demişdir: *“Biz canlarını fəda edən atalarımızı, gözü yaşlı analarımızı, düşmən təcavüzü ilə işğal olunan torpaqlarımızı heç vaxt unutmadıq. Qarabağdan qucaqda gələn körpələr, tank belində əsgər kimi geri döndülər!”[4,s.9].*

**Ədəbiyyat siyahısı:**

1. Abdullayev Məsaim. Azərbaycanda uşaqlar dövlətin sonsuz qayğısı ilə əhatə olunmuşlar//1 İyun Uşaqları Beynəlxalq Müdafiə Günüdür. Xalq qəzeti.- 2011.- 1 iyun.
2. Azərbaycan dili 3. Ümumtəhsil məktəblərinin 3-cü sinfi üçün Azərbaycan dili (tədris dili kimi) fənni üzrə dərslik. “Altun kitab”. Bakı – 2018.
3. Əliyev Heydər. 11 dekabr 1994-cü ildə uşaqlarla görüşdən çıxışı// Müstəqilliyimiz əbədidir. B., Azərnəşr, 1997, 488 səh.
4. Əliyev İlham. 8 noyabr 2020-ci ildə xalqa təbrik çıxışı//İnkişaf-məqsədimizdir [Mətn] : çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər //buraxıl. məsul R. Mehdiyev. Baki: Azərnəşr, 2021, S.391.

# 1993 AZERBAYCAN CUMHURBAŞKANLIĞI SEÇİMLERİ VE HAYDAR ALİYEVİN CUMHURBAŞKANI SEÇİLMESİNİN TÜRKİYE BASININDAKİ YANSIMALARI

## THE REFLECTIONS OF THE 1993 AZERBAIJAN PRESIDENTIAL ELECTIONS AND THE ELECTION OF HAYDAR ALIYEV IN THE TURKISH PRESS

**Doç. Dr. Recep BÜYÜKTOLU**

Çankırı Karatekin Üniversitesi, Edebiyat Fakültesi Tarih Bölümü,
ORCID: 0000-0001-6140-7398,

### Özet

Kardeş ülke olarak görülen Azerbaycan'da yaşanan gelişmeler Türkiye'de ilgiyle takip edilmiştir.1993 yılında yapılan ve Haydar Aliyev'in Azerbaycan Cumhuriyeti'nin 3. Cumhurbaşkanı seçildiği seçim Azerbaycan halkı için önemli olduğu gibi Türkiye Cumhuriyeti vatandaşları içinde son derece önemli görülmüştür. Kardeş iki ülkenin siyasi, sosyal, askeri, ekonomik ve kültürel ilişkilerinin seyri açısından son derece önemli olan bu seçim ve Haydar Aliyev'in cumhurbaşkanı seçilmesi Türkiye basınında oldukça geniş yankı bulmuştur. Seçim sonuçları tebrik edilmiş ve bu sonuçların Türkiye Cumhuriyeti ve Azerbaycan arasındaki ilişkilere nasıl etki edebileceğine yönelik tahminler yapılmıştır. Gazetelerde bu konuda çok sayıda haber ve köşe yazısı yer almıştır. Çalışmamızda Türkiye basınının önde gelen Milliyet, Sabah, Hürriyet, Türkiye, Milli Gazete ve Ortadoğu gibi pek çok gazetesinde bu konuda yapılmış haber ve yazılmış köşe yazıları değerlendirilecektir ve çıkarımlar yapılacaktır.

**Anahtar Kelimeler:** Azerbaycan, Haydar Aliyev, seçim, Cumhurbaşkanlığı, gazeteler

### Abstact

The developments in Azerbaijan, which is seen as a sister country, have been followed with interest in Turkey. The election held in 1993, in which Heydar Aliyev was elected as the 3rd President of the Republic of Azerbaijan, was considered extremely important for the citizens of the Republic of Turkey as well as for the Azerbaijani people. This election, which is extremely important in terms of the course of the political, social, military, economic and cultural relations of the two brotherly countries, and the election of Heydar Aliyev as president, had a wide impact in the Turkish press. The election results were congratulated and predictions were made about how these results might affect the relations between the Republic of Turkey and Azerbaijan. There have been many news and columns on this subject in the newspapers. In our study, news and columns written on this subject in many leading newspapers of the Turkish press such as Milliyet, Sabah, Hürriyet, Türkiye, Milli Gazete and Ortadoğu will be evaluated and inferences will be made.

**Keywords:** Azerbaijan, Heydar Aliyev, election, Presidency, newspapers

## Giriş

Azerbaycan, Asya kıtasının batısında, Kafkasya olarak adlandırılan coğrafyada yer alan ve asırlardır Türk yurdu olan bir coğrafyanın adıdır. Sahip olduğu yerüstü zenginliklerinin yanı sıra önemli yeraltı kaynaklarına sahip, jeopolitik açıdan da ayrı bir önem taşımaktadır.

Selçuklular Döneminde Türk yurdu haline gelen[1] Azerbaycan toprakları, Selçuklular ve Osmanlıların güçlü oldukları dönemlerde Türk yurdunun önemli bir parçası olmuştur. 18. Yüzyıla kadar devam eden bu durum Rus yayılmacı siyasetinin bölgeye ulaşmasıyla sona ermiş ve bölgede Rus egemenliği yerleşmeye başlamıştır[2]. İran ile Rusya arasında 1828'de imzalanan Türkmençay Antlaşması ile Azerbaycan toprakları Rusya ile İran arasında paylaşılırken, Azerbaycan ikiye bölünmüştür[3]. 19. Yüzyılın sonlarına doğru neredeyse tüm Kafkasya Rus hakimiyetine girmiştir.

1917 Bolşevik Devrimi hem Rus denetimini zayıflatmış hem de başta Azerbaycan olmak üzere bölgede milli hareketi körüklemiş se de bu uzun soluklu olmamıştır. Devriminin ardından Bolşevikler, Taşnak Ermenileriyle anlaşarak Azerbaycan'ın bağımsızlığına engel olmak için şiddetli bir harekâta giriştiler[4]. Osmanlı'nın bölgeye müdahalesiyle Azerbaycan Türkleri için bir olumlu bir gelişme olsa da bu dönem uzun sürmemiştir. Birinci Dünya Savaşıyla Osmanlı'nın yıkılması bölgede Bolşevik Rus yayılmasını kolaylaştırmıştır. İngilizlerinde çekilmesinin ardından Azerbaycan toprakları 1920 yılında Rusların işgaline uğramıştır. 30 Ağustos 1922'de ilan edilen Sovyet Sosyalist Cumhuriyetler

Birliği, bölgedeki diğer topraklarla birlikte Azerbaycan'ı da sosyalist birliğin bir parçası haline getirmiştir[5]. 1920'li yılların başında Anadolu'da kurulan Türkiye Cumhuriyeti ile Azerbaycan arasında kurulan diplomatik ilişkiler ve yaşanan olumlu gelişmeler uzun ömürlü olmamıştır. Azerbaycan Yaklaşık 70 yıl Sovyet yönetimi ve baskısı altında kalmış, milli ve manevi değerlerinden uzaklaştırılmak, Anadolu Türkleriyle bağlar koparılmak istenmiştir.

Sovyetler Birliği'nde 1985'ten sonra uygulamaya konulan yeniden yapılanma ve açıklık politikalarına bağlı olarak otoriter sisteme muhalif kesimler Azerbaycan'da Halk Cephesi adı altında toplanmışlardır. Halk Cephesi gün geçtikçe güçlenmesi ve seçimlerde iktidar olma ihtimalinin belirmesi üzerine Sovyet yönetimi, Bakü'de Ermenilere yönelik saldırıları ve iki cumhuriyet arasındaki gerginliği gerekçe göstererek, Ocak 1990'da ağır silâhlarla Bakü'ye kanlı bir müdahalede bulunmuşlardır. Müdahalenin asıl gayesinin de Azerbaycan'da gittikçe güçlenen halk muhalefetini sindirmek ve Müslüman cumhuriyetlere de gözdağı vermek olarak gören Azerbaycan Türkleri, Moskova yönetimini protesto etmişlerdir. Baskılara rağmen 1990 yılında seçimlerde Halk Cephesi ile diğer muhalif grupların oluşturduğu Demokratik Blok,

---

[1] Mehmet Emin Resulzade, **Azerbaycan Cumhuriyeti -Keyfiyet-i Teşekkülü ve Şimdiki Vaziyeti**, İrfan Yayınevi, İstanbul 1990, s. 7-8.
[2] Gabil Camalov, "Azerbaycan Hanlıklarının Rusya Tarafından İşgal Edilmesinde İran'ın İkili İlişkiler Siyaseti", **Türkler Ansiklopedisi**, Yeni Türkiye Yayınları, Ankara 2002,c. 18, s. 919-927.
[3] Ziya Musa Buniyatov, "Azerbaycan", **TDV İslâm Ansiklopedisi**, Cilt: 4, İstanbul, 1991, s. 320.
[4] Firdovsiye Ahmedova, "Azerbaycan Demokratik Cumhuriyeti -95", s. 6. **https://irs-az.com.** (Erişim: 29.04.2023)
[5] Mehmet Emin Resulzade, **Çağdaş Azerbaycan Tarihi**, Azerbaycan Kültür Derneği Yayınları, Ankara 1951, s. 4-5

360 üyeli mecliste 40'a yakın sandalye kazanmayı başarmıştır. 1990 yılı Aralık başında yayımlanan devlet başkanlığı kararnâmesiyle de "*Sovyet Sosyalist*" ifadesi çıkarılarak ülkenin adı Azerbaycan Cumhuriyeti haline getirildi ve 1918-1920 yılları arasındaki Azerbaycan Demokratik Cumhuriyeti'nin bayrağı da devletin resmî bayrak olarak kabul edilmiştir[6]. 1991 yılında Sovyet Sosyalist Cumhuriyetler Birliği'nin dağılmasının ardından "*Bağımsızlıklar Geçidi*" olarak adlandırılan süreçte Sovyet yönetimi altındaki ülkeler peş peşe bağımsızlıklarını ilan etmişlerdir[7]. Azerbaycan 30 Ağustos 1991 tarihinde bağımsızlığını ilan ederken bu yeni Türk Cumhuriyeti'ni 9 Kasım 1991'de tanıyan ilk devlet Türkiye Cumhuriyeti olmuştur[8].

Cumhurbaşkanı Ayaz Mutallibov görevini, 7 Haziran 1992'de düzenlenen devlet başkanlığı seçiminde oyların % 59,4'ünü alan Azerbaycan Halk Cephesi (AHC) lideri Ebulfez Elçibey bırakmıştır. Ancak yönetimde etkinliğin sağlanamaması, tecrübesizlik ve Ermenistan'la savaş, Azerbaycan'ı ve Elçibey yönetimini zor duruma düşürmüştür. Artan dış baskılar, iktidar mücadeleleri ve darbe girişimleri ülkeyi bir kaos ortamına sürüklemiştir. Rusya ve İran'ın Karabağ Savaşı'nda Ermenistan'a destek vermeleri Azerbaycan'da durumu daha da ağırlaştırmıştır. 1993 yılında Gence'de Suret Hüseyinov'un yönetime karşı isyanı, Halk Cephesi ve Elçibey iktidarının sonunu getirecektir. İsyanı yatıştırması için Cumhurbaşkanı Ebulfeyz Elçibey, Nahçıvan Meclis Başkanı olan Haydar Aliyev Bakü'ye davet etmiştir[9]. Bakü'ye gelen Aliyev 15 Haziran 1995'te Azerbaycan Yüksek Sovyeti'nin (Milli Meclis) başkanlığına seçilse de bunu yeterli görmeyen Suret Hüseyinov 17 Haziran'da Elçibey'in istifasını istemiş, aksi halde Bakü'ye yürüyeceğini duyurmuştur. Hükümete bağlı gibi görünen askerlerin de isyancılara karşı koyma niyetinde olmadığını anlayan Elçibey, 18 Haziran sabahı Bakü'den ayrılarak doğum yeri olan Nahcivan'a gitmiştir. İsyancı askerlerin Bakü'yü kontrol altına almasının ardından, Elçibey'in bütün yetkileri 24-25 Haziran gecesi toplanan Milli Meclis'in kararıyla alınarak Meclis Başkanı Haydar Aliyev'e devredilmiştir[10].

1993'ün Ağustos ayında halkın Elçibey'e güven duyup duymadığına ilişkin yapılan ve % 97,5 oy oranıyla Elçibey aleyhine sonuçlanan referandum, Elçibey yönetimini sonu olmuştur. Referandum sonucunu onaylayan Meclis, Cumhurbaşkanı seçimin de 3 Ekim 1993'te yapılmasını kararlaştırmıştır. Seçimde %98,8 oy alan[11] Haydar Aliyev, Azerbaycan'ın 3. cumhurbaşkanı olmuştur. Aliyev iktidarıyla birlikte Azerbaycan daha istikrarlı bir döneme girerken, Türkiye ile ilişkilerde her geçen gün artan bir ivme yakalanmıştır.

Çalışmamızda Azerbaycan'da yeni bir dönemi başlatan 3 Ekim 1993 Cumhurbaşkanlığı seçimi ve Haydar Aliyev'in Azerbaycan'ın yeni cumhurbaşkanı seçilmesinin Farklı yayın çizgilerine sahip Hürriyet, Milliyet, Ortadoğu, Tercüman, Cumhuriyet, Zaman, Özgür

---

[6] Ziya Musa Buniyatov, "Azerbaycan", **TDV İslâm Ansiklopedisi**, Cilt: 4, İstanbul, 1991, s. 320-321.

[7] Hacer Göl, "Geçmişten Günümüze Azerbaycan", **Bitlis Eren Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi**, Cilt:5, Sayı:1, Haziran 2016, S. 166.(153-170)

[8] **https://www.mfa.gov.tr/turkiye-azerbaycan-siyasi-iliskileri.tr.mfa**. (Erişim: 26.04.2023)

[9] Fikret Elma, "Azerbaycan'da Sovyet Sonrası Bağımsızlık Süreci: Demokrasiye Geçiş ve Devlet İnşasının İlk Yılları (1988-1993)", **Yeni Türkiye**, Sayı:75, Temmuz-Aralık 2015, s. 196, 199.

[10] İrfan Sancak, "Bağımsızlık Sürecinde Azerbaycan ve Haziran Darbesinin Dış Politikaya Etkileri", **Balkan Sosyal Bilimler Dergisi**, Cilt:7, Sayı:13, 2018, s. 66.

[11] Cavid Abdullayev, "Azerbaycan'da Anayasallaşma Süreci ve Benimsenen Sistemin Niteliği", **Avrasya Dosyası**, Cilt: 7, Say: 1, İlkbahar 2001, S. 113.

Gündem, Milli Gazete, Türkiye, Tasvir ve Yeni Nesil olmak üzere Türkiye'deki 11 gazetenin sayfalarına yansıması değerlendirilmiştir.

### Seçimin Hemen Öncesi Dönemde Yapılan Yayınlar

Cumhuriyet gazetesi 30 Eylül 1993 tarihli sayısında Haydar Aliyev'in cumhurbaşkanlığı seçimi kampanyasında 29 Eylül'de Bakü'de bir fabrikada yaptığı konuşmasına yer vermiştir. Aliyev konuşmasında hükümetin önceliğinin Ermenistan işgali altındaki toprakları kurtarmak olduğunu, Azerbaycan'daki tüm kaynakların bu amacı gerçekleştirmek için kullanılması gerektiğini söylemiştir. Rusya'nın arabuluculuğu sayesinde başlatılan girişimlerin barışın sağlanması konusunda bir umut ışığı yaktığını belirten Aliyev, ülkesinin BDT'ye katılmasının askeri yönden Azerbaycan'ın çıkarlarına hizmet edeceğini vurgulamıştır[12].

7. https://lib.aliyevheritage.org/tk/9762832.html Erişim Tarihi: 02. 12. 2022.
8. https://www.aa.com.tr/tr/dunya/lubnan-daki-turkmen-koyune-karabag-zaferi-sehitleri-icin-anitikildi/2732738#. Erişim tarihi: 18.12.2022.
9. https://tr.wikipedia.org/wiki/Haydar_Aliyev Erişim tarihi: 09.01.2022.

# H.ƏLİYEVİN AZƏRBAYCAN DÖVLƏTÇİLİYİNİN TƏMİNATINDA MİLLİ KADR STRATEGİYASI

# H. ALIYEV'S PROVISION OF AZERBAIJANI STATEHOOD NATIONAL PERSONNEL STRATEGY

**Fil.ü.f.d., dosent Məcidova Fatma Arif qızı**

AMEA akad. Z.M.Bunyadov adına Şərqşünaslıq İnstitutu

**ÖZET**

Azərbaycan xüsusi xidmət orqanlarında milliyyətcə azərbaycanlı olan kadrların yerləşdirilməsi prosesi Ulu Öndərin ötən əsrin 80-ci illərində, Moskvada Mərkəzi Komitənin katibi vəzifəsində çalışdığı illərdə yürütdüyü ən uğurlu kadr siyasəti kimi qiymətləndirilir. Bu dahi insanın uzaqgörən siyasətinin arxasında müstəqil Azərbaycanın bu günü, AZƏRBAYCANLILIQ məfkurəsi dayanırdı. H.Əliyev 1981-82-ci illərdə işgüzarlığı ilə seçilən yüzə yaxın gəncin Dövlət Təhlükəsizlik Komitəsinə götürülməsi üçün Azərbaycan xüsusi xidmət orqanlarının rəhbərinə göstəriş vermişdir. Eləcə də ordu sıralarında xidmət etmiş yaşı 23-ə qədər olan 20 nəfər gənci oxumaq üçün Dzerjinski adına ali məktəbə göndərməyi tövsiyə etmişdir.

"İstənilən ölkənin, dövlətin təhlükəszliyinin təmin olunmasında peşəkar kadrlar və iş üslubu olmalıdır. Bunun üçün daim intellekt və mənəvi zənginliyin təkmilləşdirilməsi vacib amildir"- deyən Ümummilli Lider kadrların seçilib-yerləşdirilməsi, işgüzar, bacarıqlı, idarəetmədə təcrübəsi olan insanları irəli çəkməklə Azərbaycanın bütün sahələr üzrə inkişafının tərəqqisinin əsasını qoymuşdur. Məhz onun uzaqgörən siyasəti sayəsində Azərbaycan dövlətinin və dövlətçiliyinin təhlükəsizliyinin təminatı bu gün əmin əllərdədir. Bu gün qazandığımız bütün bu nailiyyətlərin, uğurların əsası ümummilli lider, dünya şöhrətli siyasi xadim H. Əliyev tərəfindən qoyulub. Azərbaycanın müstəqilliyinin əbədiyyətə çevrilməsi, dünya birliyində özünəməxsus layiqli yer tutması, sürətli iqtisadi inkişaf yoluna qədəm qoyması məhz ulu öndərin adı ilə bağlıdır.

Ömrünün 25 ilini milli təhlükəsizlik orqanlarında xidmətə həsr etmiş ulu öndərimiz 1997-ci ilin mart ayında təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı münasibətilə keçirilən yığıncağındakı çıxışında xüsusi xidmət orqanları üçün yüksək ixtisaslı, peşəkar kadrların hazırlanması məsələsinin prioritet olduğunu qeyd edərək bu məsələnin həm təhlükəsizlik orqanlarının fəaliyyətinə, həm də ölkənin və xalqın təhlükəsizliyinin təminatına effektli təsir göstərəcəyini vurğulamışdır. Onun 1998-ci ilin 1 dekabr tarixli sərancamı ilə Milli Təhlükəsizlik Nazirliyinin (DTX) Akademiyası yaradılır. Akademiyada təhsil müddəti 5 il nəzərdə tutulub. Tədris yüksək ixtisaslı mütəxəssislər, uzun illər dövlət orqanlarında xidmət etmiş təcrübəli kadrlar tərəfindən həyata keçirilir. Akademiyanın maddi-texniki və tədris bazasına müasir standartlara cavab verən avadanlıqlarla təchiz edilmiş tədris –inzibati və tələbələr üçün yataqxana korpusları, idman şəhərciyi, üzgüçülük zalı, klub və mədəni məişət zalı, tibb xidməti, yeməkxana, idman və digər infrastrukturlar daxildir.

Milli təhlükəsizlik orqanlarını xüsusi təyinatlı akademiyasını yaratmaqla Ulu Öndər azərbaycanlıların əvvəllər olduğu kimi Moskva, Sank-Peterburq, Tiflis, Minisk, Qazaxstan, Daşkənddə təhsilalma məcburiyyətinin qarşısını almışdır. Cəmi 6 il ərzində Ulu Öndər MTN-dəki tədris prosesini kursdan təhsilin ən yüksək pilləsi hesab olunan akademiyaya qaldırmışdır. Bununla da Azərbaycan dövlətinə, xalqına şərəf və sədaqətlə xidmət edəcək peşəkar milli kadrların yetişdirilməsinin təməlini qoymuşdur.

## ABSTRACT

The process of placing personnel of Azerbaijani nationality in the special services of Azerbaijan is regarded as the most successful personnel policy carried out by the Great Leader in the 80s of the last century, when he worked as the secretary of the Central Committee in Moscow. Behind the visionary policy of this genius was the ideology of Azerbaijan today, independent Azerbaijan. In 1981-82, H. Aliyev instructed the head of Azerbaijan's special services to take about a hundred young people selected for their business acumen to the State Security Committee. Also, 20 people under the age of 23 who served in the army recommended sending the young man to the Dzerzhinsky Higher School to study.

"Professional personnel and work style should be needed to ensure the security of any country and state. For this, the constant improvement of intellect and spiritual wealth is an important factor," said the National Leader, who laid the foundation for the progress of Azerbaijan's development in all fields by selecting and placing personnel, bringing forward people who are business-minded, capable, and experienced in management. Thanks to his visionary policy, the security of the Azerbaijani state and statehood is in safe hands today. The foundation of all these achievements and successes that we have gained today was laid by the national leader, world-famous political figure H. Aliyev.

The independence of Azerbaijan became eternal, it took a unique and worthy place in the world community, and it started on the path of rapid economic development, it is connected with the name of the great leader.

Our great leader, who dedicated 25 years of his life to the service of the national security agencies, in his speech at the meeting held on the occasion of the professional holiday of security agencies employees in March 1997, noted that the issue of training highly qualified, professional personnel for special services agencies is a priority, and he emphasized that this issue affects both the activities of the security agencies and emphasized that it will have an effective effect on ensuring the security of the country and the people. By its decree dated December 1, 1998, the Academy of the Ministry of National Security (State Security Service) was established. The duration of study at the academy is 5 years. Teaching is carried out by highly qualified specialists, experienced personnel who have served in state bodies for many years. The material-technical and educational base of the Academy includes teaching-administrative and student dormitory buildings equipped with equipment meeting modern standards, sports campus, swimming hall, club and cultural hall, medical service, canteen, sports and other infrastructures.

By creating a special academy for national security bodies, the Great Leader prevented Azerbaijanis from being forced to study in Moscow, St. Petersburg, Tbilisi, Minsk, Kazakhstan, and Tashkent, as was the case before. In just 6 years, Great Leader raised the teaching process at MTN from a course to an academy, which is considered the highest level of education. With this, he laid the foundation for the training of professional national personnel who will serve the state and people of Azerbaijan with honor and loyalty.

# HEYDƏR ƏLİYEVİN MULTİKULTURAL SİYASƏTİ VƏ UDİNLƏRİN AZƏRBAYCANIN MULTİKULTURAL CƏMİYYƏTİNƏ İNTEQRASİYASI

**Doç.dr., Bağır BABAYEV,**

Naxçıvan Dövlət Üniversiteti

**XÜLASƏ**

Dünyadakı müasir qloballaşma mühitində bütün qitələr və dövlətlər, müxtəlif sivilizasiyalar və mədəniyyətlər, bütün millətlər, xalqlar, etnik qruplar qloballaşma məkanına cəlb olunur. Qlobal dünyada Azərbaycan Respublikası da mövcud tarixi şəraitdə bütün beynəlxalq müqavilələrə, o cümlədən insan hüquq və azadlıqlarına, milli-etnik, dini azlıqlara mənsub xalqların hüquqlarının qorunmasına aid müqavilələrə qoşulmuşdur.

Hazırda Azərbaycan Respublikasında yaşayan bütün xalqların, milli və etnik azlıqların tarixi, mədəniyyəti, adət-ənənələri, dini və dili ilə bağlı hüquqları müdafiə edilir və qorunur. Bütün etnik qrupların ölkənin siyasi, iqtisadi, sosial-mədəni və dini həyatında iştirak etmək hüququ vardır. Multikulturalizm və tolerantlıq siyasətinin uğurla həyata keçirilməsi cəmiyyətin və dövlətin birliyinin möhkəmlənməsində mühüm amil olan olmuşdur. Bu isə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin formalaşdırdığı, təbliğ etdiyi və həyata keçirdiyi "Azərbaycançılıq ideologiyası"nın uğurlu nəticəsidir.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra MDB ölkələri arasında, ilk olaraq ölkəmizdə yaşayan "milli azlıqların, azsaylı xalqların və etnik qrupların hüquq və azadlıqlarının müdafiəsi, dil və mədəniyyətinin inkişafına dövlət dəstəyi haqqında" Prezident Fərmanı qəbul edilib.

Azərbaycanımızın yerli ən qədim xalqlarından biri də udinlərdir. Hazırda dünyada təxminən on min udin vardır. Ancaq udinlər kompakt şəkildə yalnız respublikamızın Qəbələ rayonunun çoxmillətli Nic qəsəbəsində yaşayırlar. Orada rus və Azərbaycan dillərində tədris olunan orta məktəblər fəaliyyət göstərir, udin dili ibtidai siniflərdə öyrənilir. Dövlət bayramları və milli bayramlar, xalq şənlikləri birlikdə qeyd olunur. Kilsə və məscidlər fəaliyyət göstərir, burada dualar oxunur, müxtəlif dini ayinlər keçirilir.

Tarixi vətənləri olan Azərbaycan Respublikasında yaşayan udinlərin etnik-milli azlıq kimi maraqları, maddi və mənəvi mədəniyyətləri çoxmillətli Azərbaycan xalqının, onun keçmişinin, tarixi taleyinin, bu gününün və gələcəyinin köklü maraqları ilə tam üst-üstə düşür. Çünki hüquqi və demokratik dövlət olan Azərbaycan Respublikasının bu günü və gələcəyi onun ərazisində yaşayan bütün xalqların, milli azlıqların və etnik qrupların birliyinin təmin olunması ilə uğurla hətyata keçiriləcəkdir.

**Açar sözlər:** Azərbaycan Respublikası, Ümummilli lider Heydər Əliyev, tolerantlıq və multikulturalizm, etnik-dini müxtəliflik, udinlər, mədəniyyət

**Summary**

In the modern globalizing environment of the world, all continents and states, various civilizations and cultures, all nations, peoples, ethnic groups are involved in the space of globalization. In the global world, in the current historical conditions, the Republic of Azerbaijan has also joined all international treaties, including those related to human rights and freedoms, protection of the rights of peoples belonging to national-ethnic and religious minorities.

Currently, the rights of all peoples, national and ethnic minorities living in the Republic of Azerbaijan related to their history, culture, traditions, religion and language are being protected. All ethnic groups have the right to participate in the political, economic, socio-cultural and religious life of the country. The successful implementation of the policy of multiculturalism and tolerance has become an important factor in strengthening the unity of society and the state. This is a successful result of the "ideology of Azerbaijanism" formulated, propagandized and implemented by the National Leader of the Azerbaijani people, Heydar Aliyev.

After the independence of the Republic of Azerbaijan among the CIS countries, the Presidential Decree "On the protection of the rights and freedoms of national minorities and ethnic groups living in our country, on state support for the development of their language and culture" was adopted.

One of the oldest indigenous peoples of our Azerbaijan is the Udins. Currently, there are about ten thousand Udins in the world. However, the Udins compactly live only in the multinational village of Nij in the Gabala district of the republic. There are secondary schools with teaching in Russian and Azerbaijani languages, the Udi language is studied in primary classes. State holidays and national holidays, folk festivals are celebrated together. There are churches and mosques where prayers are read, various religious rites are held.

The interests, material and spiritual culture of the Udins living in the Republic of Azerbaijan, which is their historical homeland, as ethno-national minorities, completely coincide with the fundamental interests of the multinational Azerbaijani people, its past, historical destiny, present and future. Because the present and future of the Republic of Azerbaijan, which is a legal and democratic state, will be successfully carried out with ensuring the unity of all peoples, national minorities and ethnic groups living on its territory.

**Keywords:** Republic of Azerbaijan, National leader Heydar Aliyev, tolerance and multiculturalism, ethno-religious diversity, Udins, culture

## GİRİŞ

Qloballaşma prosesinin getdikcə dərinləşdiyi hazırkı dövrdə xalqların milli xüsusiyyətlərini və özünəməxsusluğunu qorunmasında ortaya çıxan çətinliklər onların uğurlu gələcəyi ilə bağlı ciddi suallar doğurmaqdadır. Çünki qloballaşmanın sürətlənməsi və getdikcə qarşısıalınmaz olması, ən aktual məsələlərindən biri kimi, milli adət-ənənələrin yaşadılması və mənəvi irsin mühafizəsi baxımından çağdaş dünyamızı dərindən narahat etməyə bilməz. Ümumi dəyərlərə malik olan vahid dünya cəmiyyətinin formalaşdırılmağa başlandığı qloballaşma prosesində dini-etnik zəmində qarşıdurmaların artdığı, dindən yalnız bayraq kimi istifadə edildiyi radikal elementlərin çoxalmağa başladığı bir dövrdə

bütün dünya düzənində cəmiyyətlərdəki tolerantlığa-dözümlülüyə nail olunması, müxtəlif dinlərin və mədəniyyətlərin daşıyıcıları olan insanların sülh və əmin-amanlıq şəraitində yaşamasının təminatı hər bir dövlətin qarşısında duran, həllini gözləyən vacib məsələlərdən biridir.

Dünyadakı müasir qloballaşma mühitində bütün qitələr və dövlətlər, müxtəlif sivilizasiyalar və mədəniyyətlər, bütün millətlər, xalqlar, etnik qruplar qloballaşma məkanına cəlb olunmuşdur. Qlobal dünyada Azərbaycan Respublikası da mövcud tarixi şəraitdə bütün beynəlxalq müqavilələrə, o cümlədən insan hüquq və azadlıqlarına, milli-etnik, dini azlıqlara mənsub xalqların hüquqlarının qorunmasına aid müqavilələrə qoşulmuşdur.

Dünyamızın belə bir dövründə Ümummilli Liderimiz Heydər Əliyevin xilaskarlıq missiyası kimi, ikinci dəfə hakimiyyətə qayıdışı ilə onun sayəsində milli-mənəvi dəyərlərə münasibət kökündən dəyişdi. Ulu Öndər Heydər Əliyevin apardığı müdrik siyasətə uyğun olaraq, Azərbaycan Respublikasında multikultural mühit yaranmış, ölkəmizdəki dini dözümlülük, tolerantlıq mühiti, dövlət-din münasibətləri daha da təkmilləşmiş, möhkəmlənmiş və hazırda Azərbaycan Respublikasının dövlət siyasətinin aparıcı istiqamətlərindən birinə çevrilmişdir. Bununla da, xalqımızın keçmiş milli-mənəvi irsinə, milli adət-ənənələrinə, dininə dövlət səviyyəsində qayğı göstərilməyə başlanıldı, bu dəyişikliklərin fonunda ölkədmizə dini etiqad azadlığı bərqərar oldu. Bu müdrik siyasətin düzgün aparılmasında əvəzsiz xidmətləri olan Heydər Əliyevin hakimiyyəti dövründə və ondan sonra da dövlətimizin yaxından qayğısı ilə multikulturalizmin və tolerantlığın daha da inkişaf etdirilməsinin şahidi olmuşuq. Çünki xalqımız qədim tarixə və zəngin ənənələrə malikdir, ölkəmiz Azərbaycan Respublikası isə çoxmillətli və çoxkonfenssiyalı bir dövlətdir. XX əsrdə Azərbaycanın çox əziyyətlər çəkməsinə baxmayaraq, "onun xalqı həm İslam dəyərlərinə əsaslanan ənənəvi mənəviyyatını, həm də digər dinlərə və dünyagörüşlərinə hörmətlə yanaşmağı qoruyub saxlaya bilmişdir" (Badamov, 2023).

Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti ilə müasir Azərbaycan həm mədəniyyətlərarası və konfessional, həm də dinlərarası dialoqun mərkəzinə çevrilmişdir. Məhz Ulu Öndərin fövqəladə xidmətlərindən biri kimi, Azərbaycan müxtəlif millətlərə, dinlərə və məzhəblərə qucaq açmışdır. Mədəni müxtəlifliklərinin qorunması, inkişafı, azsaylı xalqların milli mədəniyyətinə inteqrasiyası prosesi başlandı və davam etdirildi. Ümummilli Lider Heydər Əliyevin müstəsna xidməti idi ki, belə bir şəraitdə Azərbaycanda dilindən, irqindən asılı olmayaraq, bütünlüklə ölkəmizin vətəndaşlarının hüquqlarının müvafiq qanunlar əsasında qorunması üçün hüquqi baza yaradıldı və dövlətimizin qayğısı ilə əhatə olundu, qədimdən burada yaşayan, taleyini və həyatını bu torpağa bağlayan, müxtəlif dinlərə etiqad edən insanlara tolerantlıqla yanaşıldı.

Ulu Öndər Heydər Əliyev Azərbaycan multikulturalizminin siyasi banisidir. "Onun uzaqgörən və müdrik rəhbərliyi nəticəsində multikulturalizm Azərbaycan Respublikası dövlət siyasətinə çevrildi. Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra qəbul olunan Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan multikulturalizminin əsas hüquqi bazasını təşkil edir" (Azərbaycan multikulturalizmi, 2017:161).

Bununla da, Ümummilli Lider tolerantlıq və dözümlülük prinsiplərinə sadiq qalmaqla, respublikamızı dünyada bir çox millətlərin və dini konfessiyaların yanaşı yaşamasını uğurla

gerçəkləşdirən unikal məkan kimi tanıtdı, Azərbaycanın dövlət-din münasibətləri modeli çərçivəsində inkişafı təcrübəsini beynəlxalq aləmə yaydı (21.04.2023).

Müstəqilliyimizin bərpasından sonra ölkəmizdə dini tolerantlıq, multikultural vətolerantlıq mühiti, bütövlükdə isə, milli-mənəvi mədəniyyətin inkişafı Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin formalaşdırdığı dövlət-dini siyasətinə uyğun olaraq daha da möhkəmləndirilmiş və bu, dövlətimizin prioritet siyasətinə çevrilmişdir.

Hazırda Azərbaycan Respublikasında yaşayan bütün xalqların, milli və etnik azlıqların tarixi, mədəniyyəti, adət-ənənələri, dini və dili ilə bağlı hüquqları müdafiə edilir və qorunur. Bütün etnik qrupların ölkənin siyasi, iqtisadi, sosial-mədəni və dini həyatında iştirak etmək hüququ vardır. Multikulturalizm və tolerantlıq siyasətinin uğurla həyata keçirilməsi cəmiyyətin və dövlətin birliyinin möhkəmlənməsində mühüm amil olan olmuşdur. Bu isə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin formalaşdırdığı, təbliğ etdiyi və həyata keçirdiyi “Azərbaycançılıq ideologiyası”nın uğurlu nəticəsidir. Azərbaycanda multikulturalizmin banisi kimi, Heydər Əliyevin “rəhbərliyi dövründə yaradılan sağlam mühit dinlər, xalqlar, cəmiyyətlər arasında sabitlik, dostluq, birlik toxumu səpib. Heydər Əliyevin bütün xalqlara, dinlərə eyni gözlə yanaşması sayəsində ölkəmizdə yaşayan hər bir xalqın nümayəndəsi sülh, əmin-amanlıq içərisində yaşayır” (Sarıyeva, 2016:15).

Vətəndaşların vicdan azadlığı hüququ Azərbaycan Respublikasının Konstitusiyasında, eləcə də “Dini etiqad azadlığı haqqında Qanun”da daha ətraflı şəkildə təsbit edilmişdir. Ulu Öndər Heydər Əliyevin siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin son illərdə dünya ölkələri arasında ölkəmizin layiqli yer tutmasında, milli- mənəvi dəyərlərimizin qorunmasında, xüsusilə, tolerantlığın və multikultural ənənələrin inkişaf etdirilməsində xidmətləri misilsizdir. "Bu gün Azərbaycanın tolerantlıq təcrübəsi digər ölkələrə nümunə göstərilirsə və öyrənilməsinin vacibliyi qeyd olunursa, bu, dövlətimizin uğurlu siyasətinin göstəricisidir. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi iradəsi nəticəsində Azərbaycan tarixən sahib olduğu tolerantlıq və multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa etdi“ (Xudiyev, 2016:5).

## ARAŞDIRMA

Azərbaycan Respublikasının Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, “Azərbaycanda 2023-cü ilin “Heydər Əliyev İli” elan olunub. Düşünürük ki, “Unudulmaz Liderin Vətən qarşısında müstəsna xidmətlərinin gənc nəslə aşılamasında, zəngin siyasi irsinin öyrənilməsi və öyrədilməsi baxımından üzərimizə böyük məsuliyyət düşür” (21.04.2023).

Azərbaycan sivilizasiyaların, mədəniyyətlərin və dinlərin kəsişməsinin mərkəzində yerləşməkdədir. Azərbaycan Avropa ilə Asiya arasındadır. Əlbəttə, belə çox əlverişli olan coğrafi mövqeyi Azərbaycanın mədəni müxtəlifliyində mühüm rol oynamışdır. Bu gün Azərbaycanda ölkəmizin uğurlu inkişafına töhfə verən bütün dinlərin və etnik qrupların nümayəndələri yaşayırlar. Ona görə də ölkələri, sivilizasiyaları və dinləri bir-birinə yaxınlaşdırmaq üçün nə etmək lazım olduğu açıq və səmimi şəkildə müzakirə edilməlidir. Gərginliyin və nifrətin azaldılması beynəlxalq aləmdə gündəmdə olan ən vacib məsələlərdən biridir.

Azərbaycanda dini azadlıqlar lazımi qaydada qorunur. Ölkəmiz təkcə Qafqazda zərdüştlüyün və xristianlığın ilk beşiyi deyil, həm də İslamın geniş yayıldığı ölkədir. Paytaxt Bakıda bir-birinin yaxınlığında yerləşən məscidləri, kilsələri və sinaqoqları görəmək mümükündür. Bu gün beynəlxalq aləm, Azərbaycanın tarixi və dini abidələrinə qarşı gizlədilməsi mümkün olmayan erməni terrorunun nəticələrinin tşahidi olsa da, Bakının mərkəzindəki erməni kilsəsinin ən müasir üslubda təmiri və qorunması dövlətimizin və xalqımızın xoş məramının bariz nümunəsi olduğunu da görməkdəddir. Halbuki, dünyanın əksər şəhərlərində belə bir tolerantlıq nümunəsini görmək mümkün olmaya bilər. Bu mənada, Bakı tarixdə tolerantlıqda öz izini qoymuş şəhərlər siyahısına daxildir.

Azərbaycanda yaşayan bütün xalqların və etnik qrupların nümayəndələrini bu gün müstəqil Azərbaycanın hər bir sahəsində- siyasətdə, iqtisadi sferada, təhsildə, mədəni-mənəvi müstəvidə, bir sözlə, bütün sahələrdə görmək mümkündür. Ölkədə məskunlaşmış bütün xalqların və etnik qrupların nümayəndələrinə dövlət tərəfindən bərabər, eyni münasibətin göstərilməsi bu prinsipin əsasını təşkil edir (Azərbaycan multikulturalizmi, 2017:39).

Məlum olduğu kimi, bu gün Azərbaycanda çoxsaylı milli azlıqlar yaşayırlar, ancaq bu xalqlar arasında heç vaxt münaqişə və ya problem olmayıb. Bu gün Azərbaycanda yaşayan xalqların dilləri dörd əsas dil ailəsinə – Türk, Şimali Qafqaz, Hind-Avropa və kartvell dillərinə aid olsa da, ölkədəki müasir etnolinqvistik vəziyyətdə dominant dil oğuz türk dilləri qrupuna aid olan Azərbaycan dilidir.

Azərbaycanın milli azlıqların yaşadığı regionların orta məktəblərində (ibtidai siniflərdə) ana dili dərsləri (avar, kürd, ləzgi, talış, saxur, tat, udin, Xınalıq, İvrit) təşkil olunmuş, dövlət vəsaiti hesabına milli dillərdə- rus, avar, talış, kürd, ləzgi, saxur, tatar, udi, Xınalıq və s. dərsliklər və proqramlar hazırlanmışdır. Əlifbalar, tədris planları və digər dərsliklər, məktəb lüğətləri bu dillərdə nəşr olunur və bu iş davamlı olaraq davam etdirilir. Udinlər hazırda Nic kəndində fəaliyyət göstərən 5 orta məktəbdən 3-də rus dilində təhsil alırlar. Dərsliklər Kirill qrafikasında çap olunub. İndi bir qrup udin ziyalı dərsliklərin latın qrafikası ilə çap olunmasına çalışır. Latın qrafikası ilə udi dilində yazı yazmaq üçün 42 hərfdən ibarət yeni əlifba hazırlanıb. Lakin hazırlanan əlifba ancaq 3-cü sinifə kimi nəzərdə tutulub. Əlifba uşaqlara elm öyrətmək üçün yox, sadəcə dili unutmamaq üçün nəzərdə tutulub. Uşaqlar da bu əlifbanı öyrənməkdə çox çətinlik çəkəçək. Ancaq dilimizi untmamaq üçün bu vacibdi" (Süleymanova, 2010). Qeyd edək ki, udin dili ləzgi dil qurupuna aiddir

Azərbaycanın yenidən müstəqilliyinin bərpası ilə ölkəmizdə dinlərarası münasibətlərin daha da möhkəmləndirilməsi, milli-mənəvi dəyərlərin bərqərar olması, tarixən yaranmış tolerantlıq, millətlərarası və dinlərarası dialoq şəraitinin daha da möhkəmləndirilməsi üçün əlverişli şərait yaradılmışdır. Azərbaycan etnosunun tarixi inkişafı və formalaşması müxtəlif tayfaların və millətlərin birləşməsi əsasında baş vermişdir. Azərbaycanın etnoslarının hamısı müstəqillikləri, tarixi keçmişi, bütövlüyü uğrunda birgə mübarizə apardılar və onların payına düşən ağır sınaqlara baxmayaraq, dözümlülüklə dayandılar. Bu gün Azərbaycanda titular etnosla yanaşı, 20-dən çox yerli milli azlıq yaşayır. Onların hamısı Azərbaycanın vahid çoxmillətli xalqını təşkil edir. Yerli azlıqlar arasında olanlardan mənşəyi və tarixi iki əsrdən çoxdur ki, elm dünyasının diqqətini cəlb edən Alban-Udi Xristian icmasının və udinlərin (əsl adı udi) adalarını çəkə bilərik. Udinlər Azərbaycanda aborigen-yerli xalqdır. Onlar Qafqazın ən qədim yerli etnik qruplarından və müasir Azərbaycan xalqının əcdadlarından biridir. "Azərbaycanda tarixən bərqərar olmuş tolerant cəmiyyət, milli və dini ayrı-seçkiliyə yol verilməməsi

burada məskunlaşmış azsaylı xalq və etnik qruplara, o cümlədən udinlərə öz varlığını qoruyub saxlamağa əlverişli mühit yaradıb" (Mehparə, 2012). Udinlər Qafqaz Albaniyası adlanan dövlətin yaradıcılarından olmaqla, müasir Azərbaycanın multikultural mühitində dini tolerantlığı yaşadırlar. Bu gün onların özlərinin dili, mədəniyyəti, adət ənənələri ilə güclü xristian irsinin qorunmasındakı rolları danılmazdır.

Unutmaq olmaz ki, udinlər-albanlar Qafqazdilli olmaqla qədimdən Azərbaycan xalqının formalaşmasında fəal iştirak etmişlər. "V əsrdə yaşamış qədim yunan müəllifi Herodot (e.ə.484-422) özünün "Tarix" əsərində məlumat vermişdir. E.ə. I əsrdə yaşamış Strabon da "Coğrafiya" əsərində Qafqaz Albaniyasında yaşamış 26 dildə danışan yerli alban soyunun arasında udilərin adını göstərmişdir. Udilər əsasən Qafqaz Albaniyasının Uti və Arsax vilayətlərində yaşamışlar. Udilər haqda maraqlı məlumatı XIX əsrin ortalarında Azərbaycana səyahət edən məşhur Fransa yazıçısı Aleksandr Düma da özünün "Qafqaz səfəri"ndə göstərmişdir" (Azərbaycan multikulturalizmi, 2017:77).

Bununla yanaşı, hazırda Qafqaz Albaniyasının- qədim albanların ən qədim nəslindən biri kimi, Azərbaycan xalqının bir hissəsi, alban xristianlığının yeganə varisləri və daşıyıcılarıdır. Hazırda udinlərin əsas hissəsi, Azərbaycanda öz tarixi vətənində- Qəbələ rayonunun Nic qəsəbəsində yığcam, Oğuz və Bakıda isə dağınıq vəziyyətdə yaşayırlar. "Hal-hazırda Azərbaycan Respublikasının Oğuz şəhərində, həmçinin Qəbələ rayonunun Nic qəsəbəsində yaşayan udilərin sayı 4000-ə yaxındır və dilləri iki dialektə- Nic və Vartaşen dialektinə bölünür. Azərbaycanın tarixi yaddaşının daşıyıcıları olan udilər ölkə tarixinin mədəni təbəqələr təkamülü prosesinin bütün mərhələlərini yaşamış, politeist dinlərdən keçərək, erkən orta əsrlərdə xristianlıq dinini qəbul etmiş, Qafqazda, eləcə də bütün xristian dünyasında ən qədim kilsələrdən olan Alban Apostol Avtokefal kilsəsinə itaət etmişlər" (Azərbaycan multikulturalizmi, 2017:78).

Udinlər Nax- Dağıstan ailəsinin ləzgi qrupuna aiddirlər, udi dilində danışır və Qafqaz Albaniyasının digər xalqlarının da istifadə etdiyi qədim yazıya malikdirlər Bu, bir daha onu göstərir ki, Qafqaz Albaniyasının qanuni varisi Ermənistan yox, məhz müasir Azərbaycandır. Udinlər Xristian Alban kilsəsinin qanuni varisidir. İndi biz Azərbaycan ərazisində öz xristian abidələrimizi qoruya bilərik (İbrahimxəlilova, 2019).

Olduqca maraqlı və qədim tarixə malik Qəbələ rayonun Nic kəndi Azərbaycan miqyasında onun sakinləri olan udinlərlə yadda qalandır. Təbiətin gözəlliyini əks etdirən Nicdə qədim alban əhalisinin törəmələri olan udinlərlə yanaşı, azərbaycanlılar və ləzgilər də yaşayır. XIX əsrdən etibarən aparılan tətqiqatlarla məlumdur ki, udinlər Azərbaycanın Qafqazdilli yerli-aborigen etnoslarındandır. Tarixən və elə bu günümüzdə də dünyanın etnik xəritəsində udinlər yalnız Azərbaycanda mövcud olub.

Udilərin yaşadığı Nic kəndi ərazisinə görə Qəbələdə birinci, əhali sayına görə isə ikinci böyük kənddir. Bu kənddə yerləşən tarixi baxımdan əhəmiyyətli olan Alban- udin kilsəsi Albaniyada xristianlığın ilk təbliğatçısı olub. 25 ilə tikilən kilsə opostol Yeliseyə həsr olunub. Kilsə böyük zaldan və onun üzərində ucaldılan çadırabənzər dam ilə örtülmüş kiçik zəng qülləsindən ibarətdir. Kilsənin tikintisində Qəbələnin dağlarından gətirilən daşlardan istifadə olunub. Eləcə də digər ərazilərdə olan Alban kilsələrinin tikintisində də bu dağların daşlarından istifadə olunub. Çox yumşaq olan həmin daşları asanlıqla istənilən şəklə salmaq mümkündür (Süleymanova, 2010).

Azərbaycanın taxixi üçün olduqca əhəmiyyətli olan Alban kilsələri ermənilərin sözlərini kəsmək üşün təmir olunmalı və onların fəaliyət göstəmələri üçün imkan yaradılmalıdır. 2003-cü ildə dövlət tərəfindən qeydiyatına alınan kilsədə hazırda təmir işləri aparılır. Bu gün də Azərbaycan dövləti udin icmasının fəaliyyətinə zəruri şərait yaradıb. 2003-cü ildə Nic kəndində alban-udin xristian icması, 2010-cu ildə isə Oğuzda udin xristian cəmiyyəti qeydiyyatdan keçib. "Azərbaycan Respublikasının Alban-udi xristian icması 10 aprel 2003-cü ildə dövlət tərəfindən qeydiyyata alınmışdır" (Süleymanova, 2010).

Tədqiqatlarda sübut edilib ki, udinlərin soyad sonluğu "...yan" olsa da, xalqın nümayəndələrinin ermənilərlə heç bir bağlılığı yoxdur. Udinlərin dilində heç bir erməni sözü yoxdur, amma Azərbaycan sözlərinə oxşar bəzi sözlər var. Sadəcə, udinləri ermənilərlə yaxınlaşdıran cəhət eyni dinə-xristianlığa sitayiş etmələridir. Amma ermənilər xristianlığın Qriqorian, udinlərsə katolik qoluna məxsusdurlar. Alban kilsəsinin hələ 1836-cı ildə Rus Sinodunun qərarı ilə Erməni kilsəsinə təhvil verilməsi udin xalqının məhvinə yönəlmiş bir addım olub. VII əsrin əvvəllərində ərəblər Azərbaycanı işğal edərkən İslamı qəbul etdirmək üşün xristianları çox sıxışdırmayıblar, əsasən bütpərəstlərə qarşı mübarizə aparıblar. Amma udinlər o vaxt öz dinlərini qoruyub saxlaya bilib. Ermənilər təziqlər göstərir, Alban kilsəsini erməni Qiriqorian kilsəsinə tabe etmək istəyirdilər. Udinlərin əlifbalarını, yazılarnı da ermənilər məhv ediblər, "Məhz 313-cü ildə Azərbaycanın şimalında xristianlıq özünə yer tapıb və bu proses faktiki olaraq 1836-cı ilə qədər davam edib. XIX əsrdə Çar Rusiyası Qafqazı ələ keçirib və 1836-cı ildə Alban kilsəsini erməni-qriqoryan kilsəsinə təhvil verərək sıradan çıxarıb. Onun tarixinə aid olan bütün sənədlər Ermənistana göndərilib. Xristian dindarlar erməni dilində dua etməyə məcbur edilirdi və bu səbəbdən udinlərin bir qismi erməni xristianlığına qarışıb. Alban xristianlarının aktiv erməniləşdirilməsi prosesi başlandı. Nəticədə Dağlıq Qarabağ zonasında onlar öz dil və mədəniyyətlərini tamamilə əldən verdilər. Qəbələ və Oğuz zonalarında udinlər yad kilsənin güclü təsirinə məruz qalsalar da, özünəməxsusluqlarını və doğma dillərini indiyədək qoruyub saxlaya biliblər. Qəbələ udinləri çıxış yolu kimi kilsədən imtina edib evdə dua etməyə başladılar" (İbrahimxəlilova, 2019).

"Heç kəsə sirr deyil ki, Ermənistan tarixi faktları saxtalaşdırmağa və Qafqaz Albaniyası irsini mənimsəməyə çalışır. Ermənilər iddia edirlər ki, Azərbaycan ərazisindəki bütün xristian məbədləri nə vaxtsa erməni-qriqoryan kilsəsinin nümayəndələrinə məxsus olub. Lakin bu yalana yalnız nadanlar inana bilər. Həqiqət isə bundan ibarətdir ki, hazırda Azərbaycan udinləri özlərini və dinlərini qoruyub saxlaya biliblər" (Quliyeva, 2018).

Udinlər dini bayramları olan pasxa və qara bayramını kilsədə qeyd edirlər. Məhsul bayramı da udinlərin təntənə ilə qeyd etdiyi bayramlardandır. Bu bayram məhsul yığımı başa çatdıqdan sonra kecirilir. Yığılan məhsulun bütün növlərindən kilsəyə gətirilir və orada stolun üstünə düzülür. Sonra kilsəyə yığışan udinlər təntənə ilə məhsul bayramını qeyd edirlər.

Yaşlı sakinlərə görə, udinlərin əsasən iki bayramı olub və onların əsasını da din təşkil edib. Bayramlardan biri "Gömart" adlanırdı. Adətə görə imkanı olanlar bu bayramda qoç kəsib, Tanrının adına kasıb-kusuba paylayardı. İkinci bayram yazın, baharın gəlişi zamanı keçirilərdi. "Joğulun axsibay", yəni yaz bayramı adlanan mərasim mart ayının ortalarında qeyd olunardı. Bu bayramla azərbaycanlıların Novruz bayramı arasında çoxlu oxşarlıq var. Mənəvi mədəniyyətdəki bu oxşarlıq udin və Azərbaycan xalqlarının soy yaxınlığına dəlalət edən daha bir faktdır (Süleymanova, 2010).

Udinlər xristian olsalar da, onlar arasında da qurban kəsmək geniş yayılıb. Təbii ki, bu qurbanlar insanlar üçün müqəddəs sayılan pirlərdə, ocaqlarda kəsilir. Nicin hər bir məhəlləsində, hər bir

küçəsində ocaqlar var. Niyyət tutub bura gələn insanlar şam yandırıb, qurban kəsirlər. Xiristianlar arasında qurban kəsmək ənənəsinin olmasa da, udin xalqında qurban kəsmək qədimdə də olub, indidə də bu adət qalır. Bu hadisə kəndə gələn xristian türistlərin də təəccübünədə səbəb olur.

İstər tarixi, istərsə də etnoqrafik materiallardan aydın olur ki, udin toylarında demək olar ki, azərbaycanlılara məxsus oyun havaları, rəqslər ifa olunub. Udin toylarında da "Vağzalı" havası çalınır. Yuxarıda qeyd etdiyimiz kimi, udin toylarında ifa olunan rəqslərdən biri də "Yallı"dır. Bir sözlə, əsrlər boyu eyni mühitdə, eyni ictimai-siyasi həyatda, birgə yaşayış qaydalarında formalaşan etnik psixologiyalarına görə udinlər Azərbaycan xalqının bir hissəsini təşkil edirlər. Udin xalqı ailə-məişət məsələlərində, nişan və toy mərasimlərinin keçirilməsində qədim adətlərini bu gün də yaşadırlar. Udinlər qədim Azərbaycan rəqslərini, o cümlədən hələ 10 min il bundan əvvəl Qobustanın qayaüstü rəsmlərində əks olunmuş "Yallı" rəqsini bu gün də toy və şənliklərində ifa edirlər (Mehparə, 2012).

Udin qızların azərbaycanlı gənclərlə ailə qurması təsadüfi hal deyil. İstər Nicdə, istərsə də Oğuzda onlarla belə qarışıq ailə mövcuddur. Qarışıq nikahlı ailələrdə azərbaycanlılıq əhvalı, adət-ənənəsi üstünlük təşkil edir. Göründüyü kimi, regionda udin və azərbaycanlıların bir-birinə qaynayıb-qarışması prosesi müsbət mənada bu xalqların birgə yaşayış normasına çevrilib. Udin toyu təkcə udinlərin deyil, bütünlüklə Nicdə yaşayan əhalinin - azərbaycanlıların, ləzgilərin ümumi şadlığı, toy-düyünüdür. Öz növbəsində udinlər də yerli xalqın xeyir işində iştirak edir, özünü bu ailənin üzvü sayır".

Udinlərdə başqa millətdən qız alıb verməyə müsbət rəy verilmir. Hətta aşağı məhəllənin yuxarı məhəlləyə qız vermədiyi vaxtlar da olub. Bu da öz patriarxlığını müdafiə etmək üçün olub. Bir az geniş baxanda bu addım millətini, dinini saxlamaq üçün atılıb (Quliyeva, 2018).

Udinlərin əsas toy mərasimləri səhər saatlarında başlanırdı və daha sonra bir neçə gün ərzində qohumların iştirakı ilə davam edirdi. Bu zaman tar, kamança, dəf, zurna, balaban kimi alətlərdə ifa olunurdu. Qonaqlar sevinir, nəğmə oxuyur, rəqs edirdilər. Rəqslərin arasında – uzundərə rəqsi olub, onu qonşu xaqlar da mənimsəmişdirlər. Azərbaycanın yerli əhalisi arasında qədimdən geniş yayılmış yallı rəqsi udinlərin də arasında daha geniş yayılmışdır. Müasir toy qiyafəsi əhəmiyyətli dəyişikliklərə məruz qalmışdır, lakin bu zaman bir çox ənənələr əvəllər olduğu kimi qorunub saxlanılmışdır.

Etiraf etmək lazımdır ki, bu gün udilər üçün nikah münasibətlərinə daxil olma həyatın ən vacib mərhələsi olub, toyun özü isə bütün sülalə, xüsusilə də, ailə üçün ən sevindirici hadisədir. Azərbaycanda yaşayan udilər toylarını bir gün qapalı yerlərdə (restoran, kafe, şadlıq evlərində), əsasən isə ənənəyə doğru iki gün öz həyətlərində qeyd edirdilər. Doğmaların, yaxınların və dostların toylarında iştirak borc və mənəvi borc hesab olunur. Buna görə də, udi toyları əksər hallarda şən keçir və belə toylarda daha çox insan iştirak edir. Köhnə ayinlərə ciddi şəkildə riayət edirlər, gəlinin, ev ocağının sahibinin başının üstündə çörəyi bölürlər. Bir çox etnoqrafların fikrincə, xalqlardan heç birində toy ayinləri mürəkkəb şəkil almamışdır, bu cür müstəsna özünəməxsusluq ilə yüngülləşməmişdir və udi xalqında olduğu kimi bu qədər parlaq şəkildə ifadə olunmamışdır (Mobili, 2020).

Çox millətli Nic kəndinin əhalisinin məşğuliyyət sahəsi də müxtəlifdir. Geniş əraziyə malik olan Nicin xeyli hissəsi meyvə bağları, əkin sahələri ilə əhatəlidir. Burada yaşayan insanlar əsasən əkinçilik, bağçılıq, tərəvəzçilik, heyvandarlıqla məşğuldurlar. Nicin əhalisnin 50%-ni təşkil edən udinlərin digər məşğulliyyət sahəsi də var. Onlar arasında şərabçılıq xüsusi yer tutur. Udinlər şərabı "Şalo" və

"Vigombol" adlanan üzüm sortlarından, arağı isə kənddə yetişən cır meyvələrdən çəkirlər. Donuzçuluqla yanaşı, maldarlıq və quşçuluq da udin əhalisinin məşğuliyyət sahələrindəndir. Udin xalqı xeyir və şər məclislərində ancaq özlərinin hazırladığı spirtli içkilərdən istifadə edir (Mehparə, 2012).

Azərbaycanın movcud problemi olan işsizlik problemi Nic kəndində də özünü göstərir. Elə bu səbəbdəndir ki, udin gənclərin əksəriyyəti işləmək üçün Rusiyaya üz tutub.

Nicdə yaşayan azərbaycanlılar udin dilini çox gözəl bilirlər. Udin ədəniyyətimizə və dilinə hörmətlə yanaşırlar. Məsələn, yas yerinə gələndə udilərin dərdinə onların öz dilində şərik olurlar. Udinlər toy və yas mərasimlərində donuz əti vermirlər, halbuki özləri donuz əti yeyirlər. Mərasimlərə müsəlmanlar da gəldiyindən donuz əti verilmir. Hüzr yerinə gedəndə ayağa durub hörmətlə qarşılayırlar. Hətta azərbaycanlı qonaq üçün ayrıca qab-qacağın olduğu vaxtlar da var idi. Evə qonaq gələndə toyuğu kəsməsi üçün qonağın özünə verirdik. Bu da hörmətdən irəli gəlirdi. Bəlkə də onun halal olub-olmamasını qəbul etmədiklərini fikirləşirdilər. Bir udi qonaq gedəndə də içki içməsi üçün atalarının getməsini gözləyirdilər. Çünki bizim içki içdiyimiz bilirdilər. Artıq bu adətlərin əksəriyyətinə əməl edilmir. Ancaq öz mədəniyyətimizin və dilimizin qorunub saxlanması faktorunda bu kimi məişət amilləri də var. Demək olar geyimdə, evlərin tiklişində fəqr yoxdur. Xırda elementləri bir yerə yığanda mədəniyyətlərin birgəyaşayışı olur.

Hal-hazırda udinin əksəriyyəti tarixi vətənində yaşamır, MDB-də və dünyanın digər ölkələrində daimi yaşayış yerinə köçmüşdür. Düzdür, nə qədər ki, onların bir çoxu etnik kimliklərini qoruyub saxlayır, tarixlərini xatırlayır, dil və mədəniyyəti bilir, ənənələrə riayət edirlər. Bununla birlikdə, müasirlik öz düzəlişlərini edir, təbii assimilyasiya və akkulturasiya prosesi tədricən davam edir, ana dili, adət-ənənələri, adətləri, həyatın bir çox elementləri unudulur. "Bu gün dünyada udilərin sayı 10 min nəfərdən çoxdur. Xarici ölkələrdə yaşayanların hamısı da məhz buradan gedənlərdir. Onların tarixi vətəni Azərbaycandır. Azərbaycanda qalanların sayı isə 4 minə yaxındır. Rusiyanın Rostov, Krasnodar, Volqoqrad, Qazaxıstanın Aktau şəhərində sayları kifayət qədər çoxdur, az sayda Ukraynada və Gürcüstanda yaşayırlar. Azərbaycanda isə Qəbələnin Nic qəsəbəsində, Oğuz rayonunda 100 nəfər, Bakı şəhərində isə 20 ailə yaşayır. Azərbaycandan fərqli olaraq başqa ölkələrdə yaşayan udilərin nəvələri tarixi vətənlərinə gəlib gedirlər. Artıq onların bir hissəsi udi dilində danışa bilmir" (Mobili, 2020).

Əlbəttə, xalqın kimliyini sübut edən amillərdən biri də onun əsrlər boyu yaratdığı maddi mədəniyyətidir. Milli geyim, mətbəx, müxtəlif mərasimlər, yaşayış tərzi və s. hər bir xalqı fərqləndirən xüsusiyyətlərdir. Udilər tarix boyu əkinçilik, maldarlıqla məşğul olublar. Bu günədək özlərinin ənənəvi yemək və içkilərini, milli geyim və mərasimlərini qoruyub saxlayıblar

Udinlər girdəsifət, saçlarının rəngi açıq olur. Bu qonaqpərvər insanlar arasında uzunömürlüləri çoxdur, gənclər yaşlı nəslə hörmətlə yanaşır. Udinlərin milli geyimi Qafqaz xalqlarının ümumi geyimi kimidir (Eyyubov, 2018:4).

## NƏTİCƏ

Müxtəlif ibadət yerlərinin, qədim məbədlərin, sinaqoq, kilsə və məscidlər kimi dini obyektlərin mövcudluğu, bir-birinin yanında olması ölkəmizin multikulturallığını simvollaşdırır. Udinlərin Nicdəki

kompakt yaşayış yerləri buna parlaq bir nümunə ola bilər; belə kiçik bir məkanda qədim ibadət yerləri, üç kilsə və iki məscid vardır (Mobili, 2012:165-172; 2011:22-77).

Azərbaycanımızın yerli ən qədim xalqlarından biri də udinlərdir. Hazırda dünyada təxminən on min udin vardır. Ancaq udinlər kompakt şəkildə yalnız respublikamızın Qəbələ rayonunun çoxmillətli Nic qəsəbəsində yaşayırlar. Orada rus və Azərbaycan dillərində tədris olunan orta məktəblər fəaliyyət göstərir, udin dili ibtidai siniflərdə öyrənilir. Dövlət bayramları və milli bayramlar, xalq şənlikləri birlikdə qeyd olunur. Kilsə və məscidlər fəaliyyət göstərir, burada dualar oxunur, müxtəlif dini ayinlər keçirilir.

Tarixi vətənləri olan Azərbaycan Respublikasında yaşayan udinlərin etnik-milli azlıq kimi maraqları, maddi və mənəvi mədəniyyətləri çoxmillətli Azərbaycan xalqının, onun keçmişinin, tarixi taleyinin, bu gününün və gələcəyinin köklü maraqları ilə tam üst-üstə düşür. Çünki hüquqi və demokratik dövlət olan Azərbaycan Respublikasının bu günü və gələcəyi onun ərazisində yaşayan bütün xalqların, milli azlıqların və etnik qrupların birliyinin təmin olunması ilə uğurla həyata keçiriləcəkdir.

Bununla əlaqədar qeyd edək ki, yalnız Azərbaycanda multikulturalizm siyasəti Qərb siyasətindən fərqli olaraq çoxmillətli və çoxkonfessiyalı icmanın inkişafı, bütün etnik qrupların öz tarixlərini və dillərini qoruyub saxlamaları, Mədəniyyət və ənənələrinin inkişafı üçün real şərait yaradıb. Ona görə də təsadüfi deyil ki, həm Azərbaycan Respublikasında, həm də dünyanın müxtəlif ölkələrində yaşayan udinlər tarixi vətənlərində, Qəbələ rayonunun doğma Nic qəsəbəsində vəziyyətlərindən səmimi-qəlbdən narahatdırlar. Onlar bütün ümidlərini Azərbaycan Prezidenti İlham Əliyevlə, respublikanın çoxmillətli xalqı ilə bağlayırlar. Həqiqətən, Qafqaz Albaniyasının maddi və mənəvi mədəniyyətinin daha da dirçəldilməsi, tarixinin, dilinin, ənənələrinin inkişafı, Udinlərin gələcəyinin təmin edilməsi üçün indiki və real perspektivlər, bütün imkanlar yalnız Azərbaycan Respublikasında reallaşa bilər.

---

ƏDƏBİYYAT:

1. Azərbaycan multikulturalizmi. Ali məktəblər üçün dərslik. Bakı: BBMM, 2017. 421 səh
2. Badamov Azər. Heydər Əliyev epoxasının multikultural zənginliyi Respublika qəzeti 21 aprel 2023.
3. Eyyubov Emil. Azərbaycan etnosları: Nic kəndinin udinləri. “Azad Azərbaycan”.- 2018.- 17 fevral.- S.4.
4. Heydər Əliyev mükəmməl və sağlam dövlət-din münasibətlərinin banisidir https://scwra.gov.az › news 16 mart 2023
5. Heyderli Idris. Batağlığın səsi Udin https://idrisheyderli. livejournal.com › 5 Nis 2021
6. İbrahimxəlilova Ramella. Udinlər. https://axar.az › 4 sentyabr 2019
7. Mehparə. Min illərin tarixini yaşadan xalq - udinlər. Mədəniyyət qəzeti, 8 Ağu 2012
8. Mobili Robert: “Erməni yalanlarına qarşı mübarizə aparılması üçün alban kilsələrinə dini rəhbər təyinatı olmalıdır. https://report.az › robert-mo... 21 Haz 2020
9. Мобили Роберт. “Албано-удинская христианская община- основа возрождения Албанской (Кавказской) церкви в Азербайджане”. Труды Международной конференции “Место и роль Кавказской Албании в истории Азербайджана и Кавказа”. Баку. 2012, с.165-172.
10. Мобили Роберт. “Удины: язык, религия и этнография”. Изд-во “Леман”, Баку. 2011., 80 с.
11. Quliyeva Şeyda. Udinlər http://mir-azerbaydjana.az › ...18 İyul 2018

12. Sarıyeva İradə Heydər Əliyev və multikulturalizmin Azərbaycan modeli... Bakı xəbər. 2016. 21-23 may. S.15
13. Süleymanova Sədaqət. Qurban kəsən Azərbaycan xristianları - udinlər... https:// modern.az › reportaj 24 Noyabr 2010
14. Ulu Öndər Azərbaycanı multikultural dəyərlərin, tolerantlığın məbədgahına çevirdi. https://azertag.az › xeber 21.04.2023
15. Xudiyev Nizami. Heydər Əliyev və multikulturalizmin Azərbaycan modeli. Yeni Azərbaycan.- 2016.- 23 aprel.- S.5

# HEYDAR ALIYEV AND RESEARCH HISTORY OF THE PROBLEM OF FOLKLORE TRADITION IN THE CREATION OF NIZAMI

H.ƏLİYEV VƏ NİZAMİ YARADICILIĞINDA FOLKLOR ƏNƏNƏSİ PROBLEMİNİN TƏDQİQİ TARİXİ

**Ph.D. Ulkar Elman gizi Bakhshiyeva**
Senior teacher of the department of
Literature teaching technology of
Faculty of Philology at ASPU
ORCID İD 0000-0002-5994-2356

## ABSTRACT

Great Leader Heydar Aliyev's attention and concern for the development of Azerbaijani literature came from his great love for the cultural heritage and literature of our nation.At the same time, the Great Leader's sympathy for the genius Nizami's art occupies a special place. During his tenure as the head of the Republic of Azerbaijan in 1969-1982, H. Aliyev gave important instructions regarding the research, study, and republishing of Nizami's heritage.As H. Aliyev is a person connected to his national origin and national-moral values, he considered it important to study and promote Nizami's heritage in the context of national values. Special attention was paid to this factor in the decrees signed by the Great Leader regarding research and promotion of Nizami heritage.

With the decision of Great Leader H. Aliyev "On measures to further improve the study, publication and promotion of the legacy of the great poet and thinker of Azerbaijan, Nizami Ganjavi" dated January 6, 1979, a new era in the development of the science of systematic studies began.With this decision, wide opportunities were opened in the field of research and investigation of Nizami's heritage, philological translations of the poet's works in Azerbaijani and Russian languages were created and republished. With the decision of the national leader H. Aliyev in 1981 to celebrate the 840th anniversary of Nizami, a series of measures were implemented at the level of the general union.On the initiative of the Great Leader, in 1981, the Department of Nizami Studies was established for the first time at the Nizami Institute of Literature of ANAS.This newly created department had important services in researching Nizami's life and creativity and republishing the work of "Khamsa".Also, during these years, several research works have been written on the problem of studying Nizami in world Oriental studies. H. Aliyev made a decision regarding the holding of Nizami's 850th anniversary during the years of independence.In the years of independence, Nizami's mausoleum was restored and rebuilt in Ganja, and a magnificent "Khamsa" monument complex was created.The President of the Republic of Azerbaijan Ilham Aliyev, continues the series of measures about the great poet Nizami Ganjavi taken by the Great Leader Heydar Aliyev regarding .Thus, by the order of I. Aliyev, 2021 year was declared "Year of Nizami Ganjavi" in the Republic of Azerbaijan.

**Key words:** H. Aliyev, Nizami, "Khamsa", national, research

**ÖZET**

Ulu Öndər Heydər Əliyevin Azərbaycan ədəbiyyatının inkişafına göstərdiyi diqqət və qayğısı millətimizin mədəni irsinə və ədəbiyyatına olan böyük sevgisindən irəli gəlmişdir. Bu sırada Ulu Öndərin dahi Nizami sənətinə olan rəğbəti xüsusi yer tutur. H.Əliyev 1969-1982- ci illərdə Azərbaycan Respublikasının rəhbəri olduğu dönəmdə Nizami irsinin araşdırılması , tədqiqi , yenidən nəşr olunması ilə bağlı mühüm göstərişlər vermişdir. H.Əliyev milli soykökünə, milli-mənəvi dəyərlərə bağlı bir şəxs olduğu üçün Nizami irsinin milli dəyərlər kontekstində öyrənilməsini və təbliğini vacib sayırdı. Nizami irsinin araşdırılması və təbliği ilə bağlı Ulu Öndərin imzaladığı sərəncamlarda bu amilə xüsusi diqqət ayrılmışdır.

Ulu Öndər H.Əliyevin "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" 1979-cu il 6 yanvar tarixli qərarı ilə nizamişünaslıq elminin inkişafında yeni bir dövr başlamış oldu. Bu qərarla Nizami irsinin tədqiqi, araşdırılması sahəsində geniş imkanlar açıldı, şairin əsərlərinin Azərbaycan və rus dillərində filoloji tərcümələri yaradıldı və yenidən nəşr olundu. Ümummilli lider H.Əliyevin 1981-ci ildə Nizaminin 840 illiyinin keçirilməsi ilə bağlı qərarı ilə ümumittifaq səviyyəsində silsilə tədbirlər həyata keçirildi. Ulu Öndərin təşəbbüsü ilə 1981-ci ildə AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunda ilk dəfə olaraq Nizamişünaslıq şöbəsi yaradıldı.Yeni yaradılmış bu şöbənın Nizaminin həyat və yaradıcılığının araşdırılmasında və "Xəmsə" yaradıcılığının yenidən nəşrində mühüm xidmətləri olmuşdur. Həmçinin bu illər ərzində Nizaminin dünya Şərqşünaslığında öyrənilməsi problemi üzrə neçə-neçə dədqiqat işləri yazılmışdır. H.Əliyev müstəqillik illərində də Nizaminin 850 illik yubileyinin keçirilməsi ilə bağlı qərar vermişdir. Müstəqillik illərində Gəncədə Nizaminin məqbərəsi bərpa olunaraq yenidən qurulmuş , möhtəşəm "Xəmsə" abidə kompleksi yaradılmışdır.Ulu Öndər Heydər Əliyevin böyük şair Nizami Gəncəvi ilə bağlı gördüyü silsilə tədbirlərin ardını bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev davam etdirir. Belə ki , İ.Əliyevin sərəncamı ilə Azərbaycan Respublikasında 2021-ci il "Nizami Gəncəvi ili" elan olunmuşdur.

**Açar sözlər :** H.Əliyev , Nizami , "Xəmsə" , milli , tədqiqat

## BEGINNING

The whole folklore spirit of Nizami's "Khamsa" came from the folklore environment of Ganja, where the poet himself was connected with his whole being, soul and blood. N. Arasli's essay on Nizami's relationship with the literary and folklore environment of Ganja reveals that the poet's connection with folk art, his frequent appeal to oral literature, folk wisdom, and his sensitive attitude towards his native environment and Ganja, even if indirectly, were not left out."The patriotic poet, who treats folk traditions with great care and love, skillfully benefited from the art of el ashiqs, the epics of poets, narrators, storytellers and other folk artists, folk songs, meaningful folktales, legends and narratives, and used many Turkish words, expressions and folk sayings. came close to the ancient monument of the Azerbaijani people "Dade Gorgud" [1, p. 110].

Mammad Mubariz writes that "Nizami... decorates all his works with folk tales and folk examples." In this respect, the author characterizes Nizami as an artist who uses the treasure of folk creativity more than anyone among our classical poets.[9].

Nizami lived in Ganja among the people, together with the people, sharing their troubles, reflecting the people's problems in his works. The fact that the poet does not isolate himself from the people, on the contrary, he is with them in the happy and sad days of the people and society is reflected in his works. According to Nushaba Arasli, in Nizami's poems, hand parties, folk festivals, wedding parties, welcoming guests, going on a mission, transferring a bride, asking for a headdress, decorating a bride, as well as spring ceremonies are "very vividly described" [2, p. 504]. In his works, Nizami even talks about fortune-telling and fortune-telling, and uses expressions related to people's beliefs such as "crack a nut, try your fortune" [2, p. 513].

When Nasib Goyushov talks about the sources of thought of Nizami Ganjavi, he mentions Islamic sciences and culture, natural science, medicine, astrology, music, various religious teachings and their heavenly books, beliefs and culture of the Caucasian peoples, legends, narratives and stories of various ethnicities and peoples, ancient China and India. culture, history and culture of Iran before Islam, history and culture of Rome and Byzantium, ancient Arab culture, ancient Greek culture, mentions 12 sources, and among them, the folklore-epic tradition of Azerbaijan is also indicated as a separate source: "Ancient Azerbaijan and Aran tradition, elements of folklore and culture" [5, p. 448].

**RESEARCH**

Ulu öndər hər hansı türk yazıçı və şairindən söhbət açanda onun mənsub olduğu xalqla yanaşı, digər türk xalqları ilə də bağlılığına daha çox önəm vermişdir. Təsadüfi deyil ki, Heydər Əliyev Nizami, Füzuli, Nəsimi, Y.İmrə, Nəvai, A. Kunanbayev, Məxtunqulu və onlarla digər türk sənətkarlarını sırf milli türk (Azərbaycan, Türkiyə,özbək, qazax, türkmən) kontekstindən deyil, ümumtürk kontekstində də təqdim etməyi vacib sayır.

Müasir mərhələdə türk dünyamızın ən aparıcı yazarları olan M.Şəhriyar, Ç.Aytmatov, O.Süleymenov kimi ədəbi şəxsiyyətlərin yaradıcılıqlarını dahi Heydər Əliyev milli-fəlsəfi prizmadan dəyərləndirmiş, bu sənətləri milli böyüklüyümüzün təsdiqi baxımından mühüm ədəbi hadisə hesab etmişdir.

Heydər Əliyev türk xalqları mədəniyyəti və ədəbiyyatına kompleks yanaşaraq onu türk dünyasını ortaq bir ideya ətrafında birləşdirəcək vasitə kimi dəyərləndirmişdir.

**Açar sözlər:** Heydər Əliyev, türk , mədəniyyət, mənəvi irs, Azərbaycan

**ABSTRACT**

The creative problems of the literature of the Turkic peoples is one of the main directions of the national literature and national culture policy of the national leader Heydar Aliyev.The Turkic activity of the great leader is of great importance in the development, strengthening and moving forward of the all-Turkish solidarity in all directions of the approximately 301 million Turks who have a history of more than six thousand years as a nation and currently live in large geographical areas.The programmatic ideas of the national leader, which reflect the literary and cultural commonality of the Turkish peoples in a broad sense, are one of the components of this activity.The great leader as a poets of our Turkish world Ibn Sina, Nizami, Navai, Y. Imre, Fuzuli, Makhtumgulu, Ch. Aytmatov, M. Shahriyar, etc. as well as "Dade Gorgud", "Manas", "Alpamysh", etc. in addition to considering his magnificent epics as the common cultural wealth of our peoples, he also valued them at the level of wonderful faces and examples of world culture.

Among the events of the 90s of the last century,at the jubilee ceremonies Turkmen poet Makhtimgulu, Kazakh poet and thinker Abay Kunanbayev, Uzbek ruler and political leader Amir Teymur, other geniuses of the Turkic world Ibn Sina, Nizami, J. Rumin, Navain, Y. Imre, Mahmud Kashgarli, etc. were mentioned to the persons whose names were listed in the speeches and congratulatory letters of the great leader was expressed an attitude Turkish national integrity, Turkish national morals, Turkish national values, etc., and these geniuses were valued as representatives of the rich all-Turkish spiritual heritage.

When the great leader talked about any Turkish writer and poet, he gave more importance to his connection with the people he belonged to, as well as with other Turkish peoples. It is no coincidence that Heydar Aliyev presented important Nizami, Fuzuli, Nasimi, Y. Imre, Navai, A. Kunanbayev, Makhtungulu and dozens of other Turkish artists not only from the national Turkish (Azerbaijani, Turkey, Uzbek, Kazakh, Turkmen) context, but also from the all-Turkish context.

Even Heydar Aliyev valued the works of literary figures such as M. Shahriyar, Ch. Aytmatov, O. Suleymenov, who are the leading writers of our Turkish world at the modern stage and considered these arts as an important literary event from a national-philosophical perspective in terms of confirming our national greatness.Heydar Aliyev took a complex approach to the culture and literature of the Turkic peoples and valued it as a means to unite the Turkic world around a common idea.

**Key words:** Heydar Aliyev, Turkish, culture, spiritual heritage, Azerbaijan

# HEYDƏR ƏLİYEV VƏ AŞIQ SƏNƏTİ

HEYDAR ALİYEV AND THE ART OF ASHIG

**Emin ZEYNALOV**

Bakalavr, Bakı Avrasiya Universiteti

ORCİD: 0009-0001-5191-9880

**Xülasə**

Azərbaycan tarix boyu öz incəsənəti, mədəniyyəti və milli-mənəvi dəyərləri ilə dünyada tanınmışdır. Bu milli-mənəvi dəyərlərin kökləri isə çox-çox qədimlərə gedir. XX əsrdə isə xalqımızın mədəni həyatında yeni bir dövr başlamışdır ki, bu dövr Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. "Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir." sözlərini deyən Heydər Əliyevin aşıq sənətinə verdiyi dəyər də misilsizdir.

Sovetlər dönəmində Azərbaycana rəhbərlik etdiyi ilk illərdə Azərbaycanda, hətta Azərbaycanın ayrılmaz parçası olan Göyçədə yaşamış, şifahi xalq ədəbiyyatında müstəsna rolu olan saz və söz ustadlarının yubiley tədbirlərinin keçirilməsi Heydər Əliyevin aşıq sənətinə olan ehtiramının təzahürüdür. Aşıq Şəmşir, Əkbər Cəfərov, İmran Həsənov, Mahmud Məmmədov, Pənah Pənahov, Hacı Bayramov, Kamandar Əfəndiyev, Hüseyn Saraçlı, İsfəndiyar Rüstəmov və.s kimi el sənətkarlarının repertuarlarından dastanların, aşıq havalarının lentə alınmasını, onlara dövlət tərəfindən bir sıra adların verilməsini müdrik rəhbərin aşıq sənətinə göstərdiyi diqqət və qayğının nəticəsi idi. 1972-ci ildə respublikamızda və onun hüdudlarından kənarda hətta Moskva şəhərində misilsiz təqdimatla Dədə Ələsgərin 150 illik yubileyinin keçirilməsi, azərbaycanlıların əzəli yurdu olan Göyçə mahalında– ustadın doğulduğu Ağkilsə kəndində Aşıq Ələsgərin qəbirüstü abidəsinin ucaldılması ideyası bir başa Heydər Əliyevin zəhməti (təkanı) ilə bağlıdır. 1981- ci ildə daha bir ustad aşığın– Aşıq Alının 180 illik yubileyinin dövlət səviyyəsində keçirilməsi bu hadisələrin məqsədyönlü davamıdır. Bu yubiley qərarından sonra Aşıq Alının poetik irsinin toplanılması, nəşri və təbliği istiqamətində çox qiymətli işlər görüldü.

Heydər Əliyevin aşıq sənətinə göstərdiyi diqqət və qayğı müstəqillik illərində daha da artdı. 1997-ci ildə Dədə Ələsgərin 175, 2001-ci ildə 180 illik yubileylərinin keçirilməsi, Aşıq Ələsgər irsinin tədqiqi istiqamətində genişmiqyaslı işlərin aparılmasına səbəb oldu. "Kitabi-Dədə-Qorqud" dastanlarının 1300 illik yubileyinin YUNESKO tərəfindən dünya miqyasında keçirilməsi təşəbbüsünü də məhz Heydər Əliyev qaldırdı və YUNESKO-nun bu təklifi qəbul etməsinə nail oldu. 1997- ci ildə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev "Kitabi-Dədə-Qorqud" dastanının 1300 illik yubileyinin keçirilməsi haqqında tarixi fərman imzaladı və bu tədbir 2000- ci ildə yüksək səviyyədə keçirildi.

Azərbaycan folklorşünaslıq tarixində 1994-cü ildə Milli Elmlər Akademiyasında Folklor Elmi-Mədəni Mərkəzinin yaradılması daha sonra 2003-cü ildə bu elmi-tədqiqat qurumunun Folklor İnstitutuna çevrilməsi Heydər Əliyevin bu sahəyə qayğı və himayəsinin möhtəşəmliyinin nümunədir.

**Açar sözlər:** Heydər Əliyev, Aşıq Ələsgər, Göyçə, aşıq.

**Summary**

Throughout history, Azerbaijan has been known in the world for its art, culture and national-spiritual values. The roots of these national and moral values go back to ancient times. In the 20th century, a new era began in the cultural life of our people, which is connected with the name of the Great Leader Heydar Aliyev. "The nation is recognized and recognized for its many characteristics and stands out among the nations of the world. The highest and greatest of these characteristics is culture. Heydar Aliyev's value to the art of love is unparalleled.

In the first years of his leadership in Azerbaijan during the Soviet era, holding jubilee events of masters of music and words who lived in Azerbaijan, even in Goycha, which is an inseparable part of Azerbaijan, and played an exceptional role in oral folk literature, is a manifestation of Heydar Aliyev's respect for the art of love. Ashiq Shamshir, Akbar Jafarov, Imran Hasanov, Mahmud Mammadov, Panah Panahov, Haji Bayramov, Kamandar Efendiyev, Huseyn Sarachli, Isfandiyar Rustamov, etc., recorded epics and love songs from the repertoires of hand artists, and gave them a number of names by the state. It was the result of the attention and care he showed to his art. In 1972, the idea of celebrating the 150th anniversary of Dede Alasgar with an unparalleled presentation in our republic and beyond its borders, even in Moscow, and erecting a monument to Ashiq Alasgar in the village of Aghkilsa, where the master was born, in Goycha district, the ancestral homeland of Azerbaijanis, is entirely connected with the efforts (instigation) of Heydar Aliyev. In 1981, the celebration of the 180th anniversary of another master Ashiq - Ashiq Ali at the state level is a purposeful continuation of these events. After this jubilee decision, very valuable work was done in the direction of collecting, publishing and promoting Ashıg Ali's poetic heritage.

Heydar Aliyev's attention and care to the art of love increased even more during the years of independence. Dede Alasgar's 175th anniversaries in 1997 and 180th anniversaries in 2001 led to large-scale work on the research of Ashiq Alasgar's heritage. It was Heydar Aliyev who raised the initiative of holding the 1300th anniversary of the "Kitabi-Dada-Gorgud" epics by UNESCO on a world scale and managed to get UNESCO to accept this proposal. In 1997, the President of the Republic of Azerbaijan, Heydar Aliyev, signed a historic decree on holding the 1300th anniversary of the "Kitabi-Dada-Gorgud" saga, and this event was held at a high level in 2000.

In the history of folklore studies of Azerbaijan, the establishment of the Scientific and Cultural Center of Folklore at the National Academy of Sciences in 1994, and then the transformation of this research institution into the Institute of Folklore in 2003 is an example of Heydar Aliyev's care and patronage of this field.

**Keywords:** Heydar Aliyev, Ashiq Alasgar, Goyche, ashiq, folklore.

Tarixin sınağında xalqımızın əsrlər boyu yaşayıb yaratdığı zəngin milli -mənəvi irsin qorunub saxlanılması sahəsində sistemli və genişmiqyaslı işlərin görülməsi daha çox XX əsrin payına düşür. Sovet hakimiyyətinin yarandığı ilk onilliklərdə xalqın mədəniyyətinin əsas göstəricisi olan folklor nümunələrinin toplanması, araşdırılması, tədqiqi və nəşrinə diqqət ayrılsa da bu daha çox dövrün ideoloji sisteminə xidmət edirdi. " Belə ki, marksist- leninçi ideologiyaya uyğun olaraq folklora sinfi yanaşma metodu tətbiq edilmiş, istismarçı siniflərin ifşası, əzilən sadə, zəhmətkeş xalqın onlara kin və nifrəti, eləcə də mübarizəsi həm nəşr, həm də tədqiq işlərində ön plana çəkilmişdir. Türk-islam dəyərlərini, xalqın gerçək milli-tarixi yaddaşını əks etdirən folklor örnəkləri üzərinə isə yasaq qoyulmuşdur. Məhz buna görə də "Kitabi-Dədə Qorqud" başda olmaqla qədim türk eposunun bütün şah əsərləri, Novruz bayramı kimi dərin fəlsəfi məzmuna malik etnoqrafik mərasim, eləcə də Qurban, Ramazan bayramlarında inikas olunmuş bəşəri-humanist dəyərlər "proletar mədəniyyətinin" tələblərinə cavab verməyən yabançı, zərərli ünsürlər sayılmışdır." ( Qasımlı, 2010)

Ömrünü Azərbaycan ziyalılarının qayğısını çəkməyə, ədəbiyyatımızı, mədəniyyətimizi, incəsənətimizi böyük qayğı ilə yorulmadan təbliğ etməyə həsr edən ümummilli liderimiz Heydər Əliyevin 1969-cu ildə siyasi hakimiyyətə gəlişi bütün sahələrdə o cümlədən, ədəbiyyatımızda, mədəniyyətimizdə, folklorumuzda da böyük uğurların qazanılmasına gətirib çıxardı. Memarlıq, xalçaçılıq, etnoqrafiya və bu kimi milli-mənəvi dəyərlərimizlə yanaşı ədəbiyyatımızda xalq musiqi ifaçılığı və folklorumuz da özünün çiçəklənmə dövrünü yaşamağa başladı. Ulu Öndərimiz Heydər Əliyev ədəbiyyatımızı milli sərvətimiz kimi dəyərləndirərək demişdir: "Ədəbiyyatımız bizim böyük milli sərvətimizdən biridir. Biz bununla fəxr etməliyik. Şəxsən mən həmişə belə hesab etmişəm. Bu gün də belə hesab edirəm, daim belə düşünəcəyəm".

Bu rəhbərliyin milli-mənəvi inkişafımızda yürütdüyü siyasətdə ötən əsrin 70-80-ci illəri, eləcə də müstəqillik illəri Azərbaycanın sürətli inkişaf dövrü kimi tarixin yaddaşına həkk olunub. Məhz bu görkəmli dövlət xadiminin milli-mənəvi irsə böyük qayğısının nəticəsi idi ki, klassik şairlərimizin əsərlərinin çapı, təbliği ilə yanaşı, şifahi xalq ədəbiyyatı nümunələrimiz də unudulmadı. Folklor nümunələrinə göstərilən diqqət və qayğı həm də xalqımızın özünü tanıması, özünə qayıdışı kimi dəyərləndirilməlidir. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin elə birinci dövründə (1969-1982) onun ozan-aşıq sənətinə, dastanlarımıza göstərdiyi diqqət və qayğı göz önündədir. Həmin dövr H. Araslı, M.H.Təhmasib, S.Əlizadə, P.Əfəndiyev və başqa tədqiqatçıların folklorşünaslıq sahəsində yazdıqları sanballı monoqrafiyalarla səciyyəvidirsə, həm də ölkəmizin ən müxtəlif bölgələrində saz məktəbləri, aşıq muzeyləri, aşıq ansambllarının yaradılması (1979-cu il "İrs" folklor ansamblı) mütəmadi xarakter alıb. Cəbrayılda təşkil olunmuş "Qurbani saz bayramı" (1978), Gəncədə məşhur "Çeşmə" folklor teatrı (1979), 1980-ci ildə ilk dəfə olaraq, "Aygün"– aşıq qızlar ansamblının fəaliyyətə başlaması, Gədəbəy aşıqlar ansamblının Ümumittifaq Festivalda iştirakı və ölkəmizə ansambl üzvlərinin 9 qızıl medal qazandırması(1975-1977), Gədəbəy aşıqlar ansamblının "Xalq Aşıqlar Ansamblı" adlandırılması və neçə-neçə belə qayğıkeşliklərin bəhrəsi birbaşa olaraq Heydər Əliyevin adı ilə bağlıdır.

Həmin illərdə yaranan "Dastan axşamları", "Bulaq", "Ozan", "Ocaq", "Elin sazı – elin sözü" və s kimi verilişlərdə Aşıq Hacı Bayramovun ifasında "Aşıq Alının Türkiyə səfəri", "Aşıq Ələsgər və Həcər xanım", "Əmrah dastanı", "Aşıq Hüseyn Şəmkirlinin Naxçıvan səfəri dastanı", Aşıq Hüseyn Saraçlının ifasında "Aşıq Qərib", "Əsli və Kərəm", "Aşıq Ələsgərin Gəncə səfəri", "Koroğlunun Ərzurum səfəri" və "Dəmir qapı Dərbənd" qolu Aşıq Kamandar Əfəndiyevin ifasında"Telli Həsən dastanı", "Aşıq Qərib", "Məsim və Diləfruz" Aşıq İmran Həsənovun ifasında"Koroğlunun Bağdad səfəri", "Qurbani", "Çoban Məhəmmədin Qars səfəri" Əkbər Cəfərovun ifasında "Novruz və Qəndab " İsfəndiyar Rüstəmovun ifasında"Aşıq Valeh və Zərnigar" və digər aşıqlarımızın ifasındakı ən müxtəlif dastanlar lent yazıları vasitəsilə bugünkü günümüzə gəlib çatması da məhz Heydər Əliyev dühasının zəhməti sayəsində mümkün olmuşdur. Bu uzaqgörənliyin xalqımızın ədəbiyyat, incəsənət, mədəniyyət aləminə gətirdiyi yeni ruhun töhfəsinin təkanı olaraq bu yolun cazibəsində bu ideyaların davamı kimi "Koroğluya qayıdaq" adlı aşıq gecələrinin təşkil olunmasında böyük uğurlar qazanıldı.

Ulu Öndər Heydər Əliyev klassik şair və yazıçılarımızın yubileylərinin keçirilməsi ilə yanaşı, folklor tədqiqatçılarının, el sənətkarlarımızın– aşıqlarımızın yubileylərinin keçirilməsini də yaddan çıxarmadı. Azərbaycana rəhbərlik etdiyi ilk illərdən başlayaraq Heydər Əliyev Göyçənin iki nəhəng azman sənətkarı olan Aşıq Ələsgərin 150 illik (1972), Aşıq Alının 180 illik (1981) yubileyləri böyük təntənə ilə keçirilməsinə təkan verdi. Aşıq Ələsgərin 1972-ci ildə 150 illik yubileyi Bakı ilə yanaşı Azərbaycanın hər bir yerində qeyd edildi. Moskvada və "aşıq Ələsgərin qəbirüstü abidəsinin qoyulduğu" (Ələsgər, 1988) anadan olduğu Göyçə mahalının Ağkilsə kəndində də böyük yubiley tədbirlərinin keçirilməsi Heydər Əliyevin ciddi cəhdlərinin sayəsində baş verdi. El içərisindən çıxmış bir sənətkarın yubileyinin Moskvada qeyd olunması həmin dövr üçün böyük nailiyyət idi. Həmin tədbirə Sovetlər Birliyinin bütün respublikalarından söz-sənət adamlarının Kremlin Qurultaylar Sarayına toplaşması, əslində, Azərbaycan saz-söz sənətinin qüdrətini göstərirdi. Dahi aşığa bu ehtiramın davamı olaraq 1996-cı ildə Aşıq Ələsgərin 175 illik yubileyinin keçirilməsi ilə bağlı yeni sərəncam imzalandı, ustad aşığın əsərləri yenidən nəşr olundu. 2001-ci ildə isə Aşıq Ələsgərin 180 illik yubileyi keçirildi.

1981-ci ildə Aşıq Alının 180 illik yubileyi də görkəmli dövlət xadimi Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə qeyd olundu, Aşıq Alının şeirləri ayrıca kitab şəklində oxuculara çatdırıldı. " 1970-80-ci illərdə bir çox el sənətkarları – Aşıq Hüseyn Cavan, Aşıq Şəmşir Qocayev, Aşıq Şakir Hacıyev, Aşıq Ələkbər Cəfərov, Aşıq Ədalət Nəsibov, Aşıq Pənah Pənahov, Aşıq İmran Həsənov "Əməkdar incəsənət xadimi" adına layiq görülmüş, İzzətalı Zülfüqarov, Ələsgər Şəkili, Əli Kərimov, müstəqillik dövründə isə Aşıq Əhliman, Aşıq Ədalət Dəlidağlı kimi sənətkarlar "Azərbaycanın əməkdar mədəniyyət işçisi" fəxri adını almışlar. " (Məmmədova, 2014) Ötən əsrin 70-80-ci illərində aşıqlardan Abbas Tufarqanlının, Sarı Aşığın, Dilqəmin, Xəstə Qasımın, Hüseyn Bozalqanlının, Aşıq Hüseyn Cavanın və başqalarının şeirləri toplanıldı, kitabları çap olundu.

Bu gün Azərbaycanın ayrı-ayrı rayonlarında musiqi məktəblərində, aşıqlar evində saz dərnəklərinin fəaliyyət göstərməsi ənənəsi də müstəqillik illərində ulu öndərin saza-sözə dəyərinin nəticəsi kimi qiymətləndirilməlidir. Saz-söz bayramlarının təşkili, dünyanın müxtəlif ölkələrində beynəlxalq tədbirlərdə Azərbaycan aşıqlarının, folklor qruplarının çıxışları bir daha sübut edir ki, bu gün Azərbaycan folkloru dünya səhnələrinə də yol tapa bilib.

1997-ci ildə milli varlığımızın tərcümanı olan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin YUNESKO tərəfindən dünya miqyasında keçirilməsi təşəbbüsünü də Azərbaycan Respublikası adından Ulu Öndər Heydər Əliyev qaldırdı. YUNESKO yubileylə bağlı təklifi qəbul

etdi. Yubileylə bağlı hazırlıq işləri görüldü. Dastanla bağlı görkəmli alimlər sanballı elmi kitablar yazdı.

2000-ci il aprel ayının 10-da "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi Bakı şəhərində təntənə ilə qeyd olundu. Həmin zirvə toplantısında Heydər Əliyev demişdir: "Belə yubileylərin hazırlanması, keçirilməsi bizim xalqımız üçün, millətimiz üçün olduqca vacibdir və lazımdır. Bunlar bizim vətəndaşlarımıza, azərbaycanlılara, bu gün yaşayanlara və gələcək nəsillərə göstərir ki, biz kimik, hardan gəlmişik, hardayıq, hara gedirik. Biz, beləliklə, özümüz öz varlığımızı, öz milli köklərimizi dərk edirik" (Əliyev, 2000)

Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi sayəsində Azərbaycan Milli Elmlər Akademiyası nəzdində yaradılan Folklor Elmi-Mədəni Mərkəzi Folklor İnstitutuna çevrildi. "Azərbaycan Milli Elmlər Akademiyası, Bakı Dövlət Universiteti və Azərbaycan Dövlət Pedaqoji Universitetində "Qorqudşünaslıq" elmi laboratoriyaları yaradıldı. "Dədə Qorqud" elmi jurnalı fəaliyyətə başladı. Ulu öndərin xeyir- duası, Ön sözü ilə açılan iki cilddən ibarət "Kitabi-Dədə Qorqud ensiklopediyası" yubileyə və bütövlükdə qorqudşünaslığa böyük töhfə oldu." ( Qasımlı, 2010)

Ümummilli liderimiz Ulu Öndər Heydər Əliyev təkcə Azərbaycan folklorunu deyil, eləcə də türk xalqlarının qədim dastanlarını, klassik şairlərini, el sənətkarlarını böyük məhəbbətlə sevir və onların yubiley tədbirlərində də iştirak edirdi. Dahi Heydər Əliyev böyük şəxsiyyət kimi elə arxalanmış, ana dilimizi ən güclü silah saymış, ədəbiyyatımızı, folklorumuzu sevə-sevə təbliğ etmiş, xalqın gücünə arxalanaraq zirvələr fəth etmişdir. Tarixdə xalqa, onun milli dəyərlərinə, ədəbiyyatına bağlı Heydər Əliyev kimi ikinci bir düha, şəxsiyyət tapmaq qeyri-mümkündür. Bu dahi şəxsiyyət xalqımızın fəxri olmaqla yanaşı, həm də dilimizin, folklorumuzun ən böyük qoruyucusu kimi tarixdə bundan sonra da yaşayacaq, hər zaman biz gənclərə örnək olacaqdır.

**Ədəbiyyat siyahısı**

1. Aşıq, Ə. (1988), "Əsərləri" (toplayıb tərtib edən İslam Ələsgər), Yazıçı, Bakı.
2. Qasımlı, M. (2010), "Heydər Əliyev və Azərbaycan folkloru", "Ozan dünyası" jurnalı, sayı 2.
3. Məmmədova, Ş. (2014) "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı məsələləri" fil.ü.f.d elmi dərəcəsi almaq üçün dissertasiya.
4. "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi şərəfinə// "Gülüstan" Sarayında Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi. "Xalq qəzeti", 12 aprel 2000-ci il.
5. URL 1. https://lib.aliyev-heritage.org/az/71015293.html

# THE RISE OF THE DEVELOPMENT OF AZERBAIJANI EDUCATION (1969-1982 YEARS)

AZƏRBAYCAN TƏHSİLİNİN İNKİŞAFININ YÜKSƏLİŞİ ( 1969-1982 Cİ İLLƏR )

**ASADOVA AYTEN VAGIF**
AZERBAIJAN-Sumgait State University-Faculty of History and Geography-Teacher
ORCİD-0000-0002-5067-1393

**SUMMARY**

National leader H. Aliyev paid serious attention to the education of Azerbaijan during his leadership of Azerbaijan. The genius said that first of all, patriotism should be emphasized in education.

Heydar Aliyev, who saw the development of the people first in education, paid special attention to the education and education of the Azerbaijani people in 1969-1982. It was no coincidence that the genius had always mentioned the education of young people as a special issue. Because Heydar Aliyev saw the way of Azerbaijan's progress and independence in education. After Heydar Aliyev came to power, the funds allocated for the maintenance of the public education system have been increased many times. The genius expressed this opinion many times in his speeches: - "I have always been closely connected with school, education, and education... I think that no matter where the society is, no matter what it is, it should be spent on education, the young generation should help their education, knowledge, and teachers should do. This is my principled position." Basing his activities on these principles, Heydar Aliyev managed to make a decision on the non-competition admission of young people from different regions of the republic to universities in various specialties at the meeting of the Central Committee of the Central Committee of Azerbaijan on August 12, 1969, less than a month after coming to power. In 1974, 5 textbooks, 7 methodical materials, 10 visual aids were published and distributed to schools. In 1969-1982, the genius who thought about the future of Azerbaijan sent more than 15 thousand Azerbaijanis to study in the most prestigious universities of the USSR. In 1969-1982, throughout his political activity, the genius who always worked for the future of his homeland, Heydar Aliyev, as a result of his policy in the field of education our education has undergone serious development.

In 1977 alone, 377.1 million manats were allocated from the state budget for the development of education. In 1981, educational expenses and socio-cultural expenses made up 57.2% of the entire budget or 1 billion 235 million manats. The main issue that Heydar Aliyev paid special attention to in the development of education in Azerbaijan was the construction of new school

buildings and the involvement of school-aged students in education. As a result of this care, in a short time about 75% of the school network was located in villages. Since 1978, students started using free textbooks in schools. At the same time, special importance was given to the increase of subject offices in schools. During this period, the system of technical vocational education developed. In 1976-1980, the development plan of technical vocational education was prepared and approved.

As a result of special attention to education from the 70s and 80s, new higher education institutions were opened and special attention was paid to increasing the material base of higher education. As a result of Heydar Aliyev's successful education policy, the number of local higher educated personnel increased in Azerbaijan. The result of the far-sighted policy was that in 1982 there were already 136 faculties in 17 higher schools in the country.

Heydar Aliyev, who was always attached to his homeland, managed to increase the teaching hours of the history subject of Azerbaijan in 1974, at a time when there was an ideological education system of a great empire like the USSR.

The development of education in Azerbaijan in the modern era is connected with the name of Heydar Aliyev. During his second leadership of Azerbaijan, he promoted the development of education and put forward the adaptation of our education to our national values as the main principle. This period can be considered as a year of radical changes in the development of education. This development has been accelerated since 1999 and the new "Education Law" was adopted in 1999.

**Keywords :** education, development, university, school, leader

## ÖZƏT

Ümummilli lider H.Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə Azərbaycan təhsilinə ciddi qayğı göstərmişdi. Dahi şəxsiyyət bildirirdi ki, ilk öncə təhsildə vətənpərvərlik önə çəkilməlidir.

Xalqın inkişafını ilk olaraq savadlanmaqda görən Heydər Əliyev 1969-1982 ci illərdə Azərbaycan xalqının maariflənməsinə, təhsilinə xüsusi diqqət yetirmişdir. Təsadüfü deyildi ki, dahi şəxsiyyət hər zaman gənclərin savadlanmasını xüsusi məsələ kimi qeyd etmişdi. Çünki Heydər Əliyev Azərbaycanın tərəqqisinin, özünə bağlılığınınyeganə yolunu təhsildə görürdü. Heydər Əliyev hakimiyyətə gəldikdən sonra xalq maarifi sisteminin saxlanılması üçün ayrılan vəsaitlər dəfələrlə artırılmışdır. Dahi şəxsiyyət dəfələrlə etdiyi çıxışlarda bu fikri söyləmişdir: - "Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam... Hesab edirəm ki, cəmiyyət harada olursa olsun, nədən olarsa olsun, kəsib təhsilə xərcləməli, gənc nəsli savadına, biliyinə, müəllimə kömək etməlidir. Bu mənim prinsipial mövqeyimdir". Fəaliyyətində də bu prinsipləri əsas tutan

Heydər Əliyev hakimiyyətə gəldikdən heç bir ay keçməmiş Azərbaycan KP MK Bürosunun 1969-cu il 12 avqust tarixli iclasında respublikanın müxtəlif rayonlarından gənclərin ali məktəblərə müxtəlif ixtisaslar üzrə müsabiqədən kənar qəbulu haqqında qərar çıxarmasına nail oldu. 1974-cü ildə 5 adda dərs kitabı, 7 adda metodik vəsait, 10 adda əyani vəsait nəşr edilərək məktəblərə paylanmışdır. Azərbaycanın gələcəyini düşünən dahi şəxsiyyət 1969-1982-ci illərdə 15 mindən çox azərbaycanlının SSRİ-nin ən nüfuzlu ali məktəblərinə təhsil almağa göndərmişdir.1969-1982 ci illərdə siyasi fəaliyyəti boyu hər zaman vətəninin gələcəyi üçün çalışan dahi şəxsiyyət Heydər Əliyevin təhsil sahəsində həyata keçirdiyi siyasəti nəticəsində təhsilimiz ciddi inkişaf yolu keçdi.

Təkcə 1977-ci ildə dövlət büdcəsindən təhsilin inkişafı üçün 377.1 mln manat ayrılmışdır. 1981-ci ildə isə təhsil xərcləri və sosial-mədəni xərclər bütün büdcənin 57,2%-ni və ya 1 milyard 235 milyon manat təşkil edirdi. Heydər Əliyevin Azərbaycanda təhsilin inkişafında xüsusi olaraq diqqət yetirdiyi əsas məsələ yeni məktəb binalarının tikilməsi və məktəbyaşlı şagirdlərin təhsilə cəlb edilməsi olmuşdur. Göstərilən qayğının nəticəsi idi ki, qısa müddətdə məktəb şəbəkəsinin təxminən 75%-i kəndlərdə yerləşmişdi. 1978 ci ildən məktəblərdə şagirdlər pulsuz dərsliklərdən istifadə etməyə başladılar. Eyni zamanda məktəblərdə fənn kabinetlərinin artırılmasınada xüsusi önəm verildi.Məktəblərin ali təhsilli kadrlarla təminatıda Heydər Əliyevin xüsisi diqqət mərkəzində idi. Bu dövrdə texniki peşə təhsili sestemidə inkişaf etmişdir.1976-1980- illərdə texniki peşə təhsilinin inkişaf planı hazırlanıb təsdiq edilmişdir.

70-80 ci illərdən etibarən təhsilə xüsusi diqqətin nəticəsində yeni Ali təhsil ocaqları açıldı və Ali təhsildə maddi bazanın artırılmasına xüsusi diqqət yetirildi. Heydər Əliyevin apardığı uğurlu təhsil siyasəti nəticəsində Azərbaycanda yerli Ali təhsilli kadrların sayı artdı. Aparılan uzaqgörən siyasətin nəticəsi idiki 1982 ci ildə artıq ölkədə 17 Ali məktəbdə 136 fakultə var idi.

Hər zaman vətəninə bağlı olan Heydər Əliyev SSSR-i kimi böyük inperiyanın ideoloji təhsil sisteminin olduğu bir dövrdə 1974 cü ildə Azərbaycan tarixi fənninin tədrisinin saatını artırmağa nail oldu.

Müasir dövrdə Azərbaycan təhsilinin inkişafı Heydər Əliyevin adı ilə bağlıdır.Azərbayca ikinci dəfə rəhbərlik etdiyi dövrdə də təhsilin inkişafını önə çəkmiş və təhsilimiz milli dəyərlərimizə uyğunlaşdırılmasını əsas prinsip kimi qarşıya qoymuşdu. Bu dövrü təhsilin inkişafında köklü dəyişikliklər ili kimi qiymətləndirmək olar. Bu inkişaf 1999-cu ildən daha da sürətləndirilmiş və 1999-cu ildə yeni "Təhsil Qanunu" qəbul edilmişdir .

**Açar sözlər :** təhsil, inkişaf, universitet, məktəb, lider

# HEYDƏR ƏLİYEVİN ÇOXQÜTBLÜ VƏ TARAZLAŞDIRILMIŞ XARİCİ SİYASƏTİNDƏ NEFT STRATEGİYASI

## OIL STRATEGY IN HAYDER ALIYEV'S MULTIPOLAR AND BALANCED FOREIGN POLICY

**Doç. Dr. Etibar MUSAYEV**
Gəncə Dövlət Universiteti

Orcid id: 0000-0001-8567-0692

**ÖZET**

Hakimiyyətə ikinci dəfə gəldikdən sonra yaranmış ağır vəziyyətlə əlaqədar olaraq ölkəni fəlakətdən qurtarmaq üçün Heydər Əliyev ilk bəyanatlarında ölkənin bazar iqtisadiyyatı yolu ilə gedəcəyini bildirmiş, ölkəni böhran və tənəzzül vəziyyətindən çıxartmaq üçün məqsədyönlü, düşünülmüş tədbirlər həyata keçirtmişdir. Vətandaş müharibəsi təhlükəsinin, dövlət çevrilişi cəhdlərinin qarşısı alınaraq, 1994-cü ildə cəbhədə atəşkəs əldə edildikdən sonra ölkədə siyasi sabitlik yaradılmışdır. Bundan sonra bir neft ölkəsi kimi Azərbaycana xarici dövlətlərin marağı artmış, siyasi-iqtisadi əlaqələri genişlənmişdir. Azərbaycanın neft resursları ila bağlı dünyanın güc mərkəzlərinin maraqlarının təhlili göstərdi ki, burada əsas mübarizə neft-qaz ehtiyatlarına sahib olma və bu sahədə üstünlük qazanmaq uğrunda aparılır. Azərbaycanın Avropa və Asiyanın naqliyyat-kommunikasiya xətlərinin kəsişmə nöqtəsində, geosiyasi, hərbi-geostrateji və geoiqtisadi cəhətdən mühüm əhəmiyyət kəsb edən enerji qaynaqları ilə zəngin Avrasiya məkanında yerləşməsi burada beynəlxalq regional və milli maraqların əsas istiqamətlərinin və mexanizmlərinin müəyyənləşməsina təsir göstərmişdir. Sovet İttifaqının dağılmasından sonra bu məkanda bir müddət nisbi geosiyasi boşluğun yaranmasına baxmayaraq, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqaz transkontinental enerji, nəqliyyat-kommunikasiya əlaqələndiricisi kimi çıxış etdiyindən bu bölgə beynəlxalq güclər üçün daim xüsusi əhəmiyyət daşımışdır. Nəticə olaraq son illərdə "yeni böyük oyun" kimi adlandırılan beynəlxalq rəqabətin arxa planında enerji resurslarının istifadəsi, əldə edilməsi və nəqli ilə əlaqədar mənfəət mübarizəsinin olduğunu deyə bilərik. Yeni neft strategiyası çərçivəsində Azərbaycan qlobal güclər və beynəlxalq təşkilatlar üçün regionu cazibə mərkəzinə çevirmişdir.

Heydər Əliyevin müəyyən etdiyi çoxqütblü və tarazlaşdırılmış xarici siyasət strategiyası əsasında müstəqilliyimizi və dövlətçiliyimizi möhkəmləndirən ciddi amilə çevrildi. Balanslı, çevik va çoxşaxəli diplomatiya prinsipi asasında xarici siyasət yeritməsi dünyanın fövqəlgüc mərkəzlərinin regionda toqquşan maraqlarını optimal şəkildə uzlaşdırması, ayrı-ayrı dövlətlərlə münasibətlərdə bərabərhüquqlu tərəfdaşa çevrilməsi, beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri qurması, ən başlıcası, milli manafeyini lazımi səviyyəda müdafia etməsi məhz ulu öndər Heydər Əliyevin səyi ilə mümkün olmuşdur.

**Açar sözlər:** Cənubi Qafqaz, Xəzər-Qara dəniz, neft strategiyası, Azərbaycan, qlobal,Avrasiya

## ABSTRACT

In order to save the country from disaster, Heydar Aliyev stated in his first statements that the country will follow the path of market economy in connection with the difficult situation that arose after coming to power for the second time, and he implemented purposeful and deliberate measures to get the country out of crisis and recession. Political stability was established in the country after the threat of civil war and coup d'etat attempts were prevented and a ceasefire was achieved on the front in 1994. After that, the interest of foreign countries in Azerbaijan as an oil country increased, and political and economic relations expanded. The analysis of the interests of the power centers of the world regarding Azerbaijan's oil resources showed that the main struggle here is for the possession of oil and gas resources and gaining superiority in this field. The location of Azerbaijan at the intersection of transport and communication lines of Europe and Asia, in the Eurasian space rich in energy resources of geopolitical, military-geostrategic and geo-economic importance, has influenced the determination of the main directions and mechanisms of international regional and national interests here. After the collapse of the Soviet Union, despite the creation of a relative geopolitical vacuum in this area for a while, the Caspian-Black Sea basin and the South Caucasus acted as a transcontinental energy, transport and communication link, so this region has always been of special importance for international powers. As a result, we can say that in the background of the international competition, which has been called the "new big game" in recent years, there is a struggle of interests related to the use, acquisition and transportation of energy resources. Within the framework of the new oil strategy, Azerbaijan has turned the region into a center of attraction for global powers and international organizations.

Based on the multipolar and balanced foreign policy strategy defined by Heydar Aliyev, it has become a serious factor strengthening our independence and statehood. It is the great leader who conducts foreign policy based on the principle of balanced, flexible and multifaceted diplomacy, optimally reconciles the conflicting interests of the world's superpower centers in the region, becomes an equal partner in relations with individual states, establishes mutually beneficial cooperative relations with international organizations, and most importantly, defends national interests at the appropriate level. It was made possible by the efforts of Heydar Aliyev.

**Keywords:** South Caucasus, Caspian-Black Sea, oil strategy, Azerbaijan, global, Eurasia

UOT 821.512.162-09

# HEYDƏR ƏLİYEVİN ZƏFƏR SİYASƏTİNDƏ RƏCƏB TAYYİB ƏRDOĞANA GÜVƏN

RAJAB TAYYIB ERDOGAN CONFIDENCE IN HAYDER ALIYEV'S VICTORY POLICY

**Gulnar QASIMOVA**

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Mətbuat tarixi və publisistika şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru

## ÖZƏT

Türkiyə Cümhuriyyəti ilə əlaqələrin doğmalaşması Heydər Əliyev siyasətinin ən önəmli xəttini təşkil edirdi. Tarix sübut etdi ki, Heydər Əliyevin ömrünün sonlarına yaxın Rəcəb Tayyib Ərdoğanla bir neçə dəfə görüşməsi təsadüfi xarakter daşımırdı. 7 yanvar 2003-cü ildə "Ulduz" sarayında Türkiyənin Ədalət və İnkişaf Partiyasının sədri Rəcəb Tayyib Ərdoğanın şərəfinə verilən ziyafətdə Azərbaycan prezidenti Heydər Əliyev nitq söyləmişdi. Həmin nitqə diqqət yetirdikdə illər sonra gerçəkləşəcək hadisələrin təməlinin məhz o zamanlar qoyulduğuna şübhə etmək olmur. Hələ 2003-cü ildə baş tutan görüşdə 2020-ci ildə baş verəcək müharibə zamanı Türkiyənin dövlət başçısının Ərdoğan olacağını və onun birmənalı şəkildə Azərbaycanı dəstəkləyəcəyini hiss etmək fövqəladə dühanın zəkası ola bilərdi. Lakin həmin dövrlərdəki çıxışlara diqqətlə nəzər yetirildiyində Heydər Əliyevin nəinki, Azərbaycan, hətta Türkiyə haqqında gələcək hadisələri öncə görməsi təəccüb doğurur. Görüş zamanı elə məsələlər qabardılır ki, onların mahiyyətini yalnız qələbədən sonra anlamaq mümkün idi. O, sanki əminliklə bildirir ki, bir gün Azərbaycan Ermənistana qalib gələcək və bu qələbədə Türkiyə məhz Ərdoğanın rəhbərliyi ilə Azərbaycanı dəstəkləyəcək.

Həmin görüşdə gündəmə gətirilən ən önəmli mövzulardan biri Azərbaycanın gələcək Zəfəri idi. Heydər Əliyev birliyimiz sayəsində bir gün qələbə qazanacağımızı əminliklə ifadə etmişdi: "Erməni lobbisinə qarşı bir yerdə mübarizə aparmışıq, bir yerdə də aparacağıq. Ermənilərin guya türklərin onlara qarşı soyqırım etmələri haqqında fikirlərinin biz həmişə əleyhinə çıxmışıq. Bizim Milli Məclis bu barədə Fransa parlamentinə etiraz göndərib, başqa bəyanatlar vermişik və bundan sonra da verəcəyik. Ermənilər Azərbaycanda azərbaycanlıları qırıblar, Türkiyədə türkləri qırıblar".

Həmin görüş zamanı Rəcəb Tayyub Ərdoğan da qurulmuş əlaqələrin daha da gücləndiriləcəyini bəyan edir: "Bizim aramızda olan qardaşlıq telləri yalnız keçmişimizdən deyil, həm də gələcəyimizdən ilham alır". Görüşdən illər keçməsinə baxmayaraq söylənilən fikirlər hələ də aktuallığını saxlayır. Artıq həmin görüş özü də bir tarix olmuşdur. Gələcək tarix isə Türkiyə-Azərbaycan qardaşlığına əbədi şahidlik edəcəkdir.

2003-cü ilin mart ayında Heydər Əliyevin Türkiyə Respublikasının baş naziri Rəcəb Tayyib Ərdoğana göndərdiyi təbrik məktubunda da gələcək qələbənin birlikdə qazanılacağına işarələr edilir: "Əminəm ki, yüksək vəzifədə fəaliyyətiniz dövründə dost və qardaş ölkələrimizin əməkdaşlığı bütün sahələrdə inkişaf edərək xalqlarımızın rifahına, regionumuzda sülhün, sabitliyin bərqərar olmasına xidmət edəcəkdir". Bu əminlik də zamanın sınağından haqlı çıxdı, ümumdünya pandemiya hadisələrindən sonra regionda sülhün, sabitliyin bərqərar olmasında Azərbaycan və Türkiyə Prezidentlərinin rolu danılmazdır.

**Açar sözlər:** Heydər Əliyev, Azərbaycan Türkiyə qardaşlığı, Qarabağ Zəfəri, Rəcəb Tayyib Ərdoğan

## ABSTRACT

The establishment of relations with the Republic of Turkey was the most important line of Heydar Aliyev's policy. History proved that Heydar Aliyev's meeting with Recep Tayyip Erdogan several times near the end of his life was not accidental. On January 7, 2003, President of Azerbaijan Heydar Aliyev made a speech at the banquet given in honor of Recep Tayyip Erdogan, the chairman of the Justice and Development Party of Turkey, in "Ulduz" palace. If you pay attention to that speech, you can't doubt that the foundation of the events that will happen years later was laid at that time.

In the meeting that took place back in 2003, it could have been the intelligence of an extraordinary genius to feel that Erdogan will be the head of state of Turkey, and during the war that will take place in 2020 he will support Azerbaijan unequivocally. However, if we look carefully at the speeches of those times, it is surprising that Heydar Aliyev foresaw future events not only about Azerbaijan, but also about Turkey. During the meeting, such issues were brought up, the meaning of which could be understood only after the victory. He seems to say with certainty that one day Azerbaijan will win over Armenia and Turkey will support Azerbaijan in this victory under the leadership of Erdogan.

One of the most important topics brought up in that meeting was the future Victory of Azerbaijan. Heydar Aliyev confidently expressed that one day our win will as result of our union: "We have fought together against the Armenian lobby, and we will fight together. We have always opposed the Armenians' opinion that the Turks committed genocide against them. Our Milli Mejlis (Parlament) has sent a protest to the French Parliament about this, we have made other statements and we will continue to make them in the future. Armenians slaughtered Azerbaijanis in Azerbaijan and Turks in Turkey."

During that meeting, Recep Tayyub Erdogan also declared that the established relations will be further strengthened: "The bonds of brotherhood between us are inspired not only by our past, but also by our future." Nevertheles years have passed since the meeting, the ideas expressed are still relevant. That meeting itself has already become history. The future history will forever witness to the Turkish-Azerbaijani brotherhood.

In the congratulatory letter sent by Heydar Aliyev to the Prime Minister of the Republic of Turkey, Recep Tayyip Erdogan, in March 2003, he indicated that the future victory will be won together: "I am sure that during your tenure in a high position, the cooperation of our friendly and brotherly countries will develop in all fields and contribute to the well-being of our people, peace and stability in our region will serve to its establishment". This certainty has also been justified by the test of time, the role of the Presidents of Azerbaijan and Turkey in establishing peace and stability in the region after the events of the global pandemic is undeniable.

**Keywords:** Hayder Alıyev, Azerbaijani Turkish brotherhood, Karabakh Victory, Rajab Tayyib Erdogan

# ULU ÖNDƏR VƏ CƏNUBİ AZƏRBAYCAN ƏDİBLƏRİ

GREAT LEADER AND WRITERS OF SOUTH AZERBAIJAN

**Günay VERDİYEVA**

Fil.ü.f.d.,dosent,AMEA ,akad.Z.M.Bunyadov adına Şərqşünaslıq İnstitutu,

Elimin dayağı, yurdumun fəxri

Səhənd

«Gərək nəbzin Vətənin nəbzi ilə vursun» -deyirdi Ümummilli lider.

Canı və qanı ilə bu millətə,xalqa bağlı olan Ulu Öndər Heydər Əliyev doğma dil və ədəbiyyatımızın mahir bilicisi olaraq, Cənubi Azərbaycan ədəbiyyatına və ədiblərinə də xüsusi maraq və qayğı göstərirdi.

Onlardan biri də mərhum alim, ədib, həkim-cərrah,naşir Cavad Heyət idi .Heydər Əliyev Cavad Heyətə xüsusi rəğbət bəsləyirdi.Cavad Heyət çətin şəraitə baxmayaraq İranda ana dilində „Varlıq"jurnalını çap etdirirdi.Doğrudur,bu jurnalda fars dilində də məqalələr çap olunurdu, amma üstünlük Azərbaycan dilində olan məqalələrə verilirdi.Cavad Heyət də ,öz növbəsində,hər zaman Ulu Öndərin ana dilinə olan sevgisini hörmətlə vurğulayırdı.„Mən həmişə düşünmüşəm ki, ana dilini sevmədən onu dərindən mənimsəmək olmaz. Heydər Əliyev, sözün əsl mənasında, ana dilimizə tükənməz məhəbbəti ilə hamımıza örnək olmuşdur."

Cənubi Azərbaycanda yaşayan,əslən Marağadan olan digər ədib-şair Bulud Qaraçorlu Səhənd 1974-cü ildə Heydər Əliyevə ünvanladığı "Elimin dayağı, yurdumun fəxri "şeirini yazmışdır .Məktub formasında yazılan bu şeirdə şair Heydər Əliyevi həm Şimali,həm də Cənubi Azərbaycanın fəxri adlandırılmış, fəaliyyətini yüksək qiymətləndirmişdi. Heydər Əliyevi millətin dayağı,ümid yeri kimi dəyərləndirən şair ona olan sevgi və hörmət hissini çox səmimi bir şəkildə sətirlərə düzmüşdü.

Heydər Əliyev Cənubi Azərbaycanın digər ədibi Biriyanın taleyində də böyük rol oynamışdır.Sonralar Ulu Öndər xatırlayırdı:„Cənubi Azərbaycanın böyük bir şairi var idi – Məhəmməd Biriya. Cənubi Azərbaycan hərəkatı zamanı nazir olmuşdu. Sonra Azərbaycana gəlmişdi. Təəssüf ki, 1949-50-ci illərdə Rusiyanın Saransk şəhərində düşərgədə cəza çəkirdi, onu həbs etmişdilər. Mən Respublika Dövlət Təhlükəsizliyi Komitəsində işləyərkən 1958-ci ildə şəxsən Saranska getdim, Biriya ilə görüşdüm, onu Bakıya gətirdim. Onunla maraqlı söhbətlərim oldu. Çox böyük şair idi. Onu demək istəyirəm ki, Cənubi Azərbaycandan 1946-cı ildə Şimali Azərbaycana gələnlərlə, onların təşkilatları ilə sıx əlaqə saxlayırdım,yardım göstərirdim."

Gördüyümüz kimi,Vətənə ,xalqa,bütün Azərbaycan millətinə olan sevgi Ulu Öndər Heydər Əliyevin əsas qayəsi olub.Bu münasibət, şübhəsiz ki, cənublu soydaşlarımıza da siraət etmişdi.

**Açar sözlər**: Heydər Əliyev,Cənubi Azərbaycan,ədəbiyyat,ədib,Vətən

## ABSTRACT

The support of my people, the pride of my country
Sahand

“Your pulse should beat with the pulse of the Motherland”, said the National leader.

As a skilled connoisseur of our native language and literature, Great leader Heydar Aliyev, who is connected by his life and blood with this nation and people, also showed special interest and care for the literature and writers of South Azerbaijan.

One of them was the late scientist, writer, doctor-surgeon, publisher Javad Heyat. Heydar Aliyev was in special sympathy with Javad Heyat. He used to publish “Varlig” magazine in his native language in Iran, despite the difficult circumstances. It is true that articles were also published in Persian language in this magazine, but preference was given to articles in Azerbaijani language. Javad Heyat, in his turn, always respectfully emphasized the Great Leader's love for his mother tongue. I have always thought that it is impossible to deeply master the native language without falling in love with it. Heydar Aliyev, in the truest sense of the word, became an example for all of us with his inexhaustible love for our mother tongue.

Bulud Garachorlu Sahand, another literary poet originally from Maragha, who lives in South Azerbaijan, wrote the poem “The support of my people, the pride of my country” addressed to Heydar Aliyev in 1974. In this poem, written in the form of a letter, the poet called Heydar Alıyev the honor of both North and South Azerbaijan and highly appreciated his activities. Highly appreciating Heydar Aliyev as the support and hope of the nation, the poet very sincerely expressed his love and respect to him.

Heydar Aliyev also played a big role in the fate of Biriya, another writer of South Azerbaijan. Later, the Great Leader recalled: “There was a great poet in South Azerbaijan - Muhammad Biriya. He was a minister during the South Azerbaijan movement. Then he came to Azerbaijan. Unfortunately, in 1949-50 he was imprisoned in a camp in Saransk, Russia. I personally went to Saransk in 1958, when I worked in the Republican State Security Committee, got acquainted with Biriya and brought him to Baku. I had interesting conversations with him. He was a great poet. I want to say that I was in close contact with those who came to North Azerbaijan from South Azerbaijan in 1946 and their organizations, I helped them.”

As we have seen, love for the Motherland, the people, the entire Azerbaijani people was the main aim of the Great Leader Heydar Aliyev. This attitude has undoubtedly extended to our southern compatriots.


**Key words:** Heydar Aliyev, South Azerbaijan, literature , writer, Motherland

# HAYDAR ALİYEV DÖNEMİNDE AZERBAYCAN-TÜRKİYE İLİŞKİLERİNİN ASKERİ BOYUTU

MILITARY DIMENSION OF AZERBAIJAN-TURKEY RELATIONS IN THE PERIOD OF HAYDAR ALIYEV

**Turan Maharrambay AHMADLİ**

Phd,Artvin Çoruh Universitesi, Orman Endüstri Mühendisliği,Artvin , Türkiye

**ÖZET**

Azerbaycan ile Türkiye arasında askerî alanda işbirliği Ebulfez Elçibey`in Cumhurbaşkanlığı döneminde de gündeme gelmiştir. 3 Kasım 1992 tarihinde Türkiye ziyareti sırasında E. Elçibey görüşmelerinde askerî konuları da ele aldıklarını dile getirmiştir. Ama bu görüşmeler herhangi bir somut adım doğuracak mutabakat düzeyine gelmemiştir. E. Elçibey döneminde Türkiye ve Azerbaycan arasındaki askeri ilişkiler bakımından kuşkusuz en önemli gelişme 200 Azerbaycanlı öğrencinin Türk askeri okullarına kabul edilmesi ve burada eğitim görmesidir.

Dolayısıyla Türkiye-Azerbaycan arasındaki askeri işbirliğinin mimarlığını H. Aliyev`in yaptığını söylemek daha doğru olacaktır. Türkiye ile imzalanan Dostluk ve Çok Yönlü İşbirliği Anlaşması askeri konuları da içermektedir. Söz konusu anlaşma Azerbaycan açısından Türkiye`nin askerî desteğini belgeler nitelik taşımaktadır.

Buna rağmen iki ülke arasındaki askerî işbirliği, siyasi ve diğer alanlarda sağlanan işbirliği düzeyinin gerisinde kalmıştır. Askeri ilişkiler Azerbaycan subaylarının Türk Askerî okullarında ve akademilerinde eğitilmesinden, Bakü`deki askeri okul ve akademilerde Türk askerî uzmanların görev yapmasından, Kosova`dakı Barış Gücü kapsamında yer alacak Azerbaycan taburunun Türkiye tarafından finanse edilmesinden öteye gitmemiştir.

H. Aliyev`in iktidarının son dönemlerinde Azerbaycan büyük oranda kendi askeri gücünü oluşturmuştur. 2000 yılında Azerbaycan`ın Silahlı Kuvvetleri`ndeki asker sayısı yaklaşık 75 bini bulmaktadır. Azerbaycan ordusundakı eğitimli subay ve uzman sorununu çözmek üzere Türkiye`den ciddi destek alınmıştır. Türkiye`nin desteği ile Bakü başta olmak üzere Azerbaycan`ın diğer bölgelerindeki askeri okullar ve akademiler yeniden faaliyete başlamıştır. Yine Türkiye`nin katkılarıyla Azerbaycan subayları NATO eğitim programlarında da eğitim almaya başlamışlardır. Azerbaycan`ın ekonomik kalkınmasına paralel olarak savunma harcamalarının da giderek arttığı gözlemlenmektedir. 1992 yılındaki savunma giderleri Azerbaycan bütçesinin %11,5`ini, 1993 yılında %12,2`sini, 1994 yılında %18,2`sini, 1995 yılında %11,6`sını, 1996 yılında %12,7`sini, 1997 yılında %12`sini, 1998 yılında %14,2`sini, 1999 yılında %14,2`sini ve 2000 yılında %13,4`ünü oluşturmaktadır.

**Anahtar kelimeler**: askeri işbirliği ,askeri ilişkiler, dış politika, Ulusal Güvenlik, Barış Gücü

**ABSTRACT**

Cooperation in the military field between Azerbaijan and Turkey was also on the agenda during the Presidency of Ebulfez Elçibey. During his visit to Turkey on 3 November 1992, E. Elçibey stated that they also discussed military issues in their meetings. But these talks did not reach the level of agreement that would lead to any concrete steps. Undoubtedly, the most important development in terms of military relations between Turkey and Azerbaijan during the reign of E. Elchibey was the admission of 200 Azerbaijani students to Turkish military schools and their education there.

Therefore, it would be more accurate to say that H. Aliyev was the architect of the military cooperation between Turkey and Azerbaijan. The Friendship and Multilateral Cooperation Agreement signed with Turkey also includes military issues. The said agreement documents Turkey`s military support for Azerbaijan.

Despite this, the military cooperation between the two countries lagged behind the level of cooperation in political and other fields. Military relations did not go beyond the training of Azerbaijani officers in Turkish military schools and academies, the employment of Turkish military experts in military schools and academies in Baku, the financing of the Azerbaijani battalion to be included in the Peace Force in Kosovo by Turkey.

In the last period of H. Aliyev's rule, Azerbaijan has largely formed its own military power. In 2000, the number of soldiers in the Armed Forces of Azerbaijan is about 75 thousand. Serious support was received from Turkey in order to solve the problem of trained officers and experts in the Azerbaijani army. With the support of Turkey, military schools and academies in other regions of Azerbaijan, especially in Baku, started to operate again. Again with the contribution of Turkey, Azerbaijani officers started to receive training in NATO training programs. It is observed that in parallel with the economic development of Azerbaijan, defense expenditures are also increasing. Defense expenditures accounted for 11.5% of the Azerbaijani budget in 1992, 12.2% in 1993, 18.2% in 1994, 11.6% in 1995, 12.7% in 1996, 1997. 12% in year 1998, 14.2% in 1998, 14.2% in 1999 and 13.4% in 2000.

**Keywords:** military cooperation, military relations, foreign policy, National Security, Peacekeeping

# H.ƏLİYEV SİYASƏTİNİN AZƏRBAYCAN ƏDƏBİYYATINA TƏSİRİ

THE INFLUENCE OF H. ALIYEV'S POLICY ON AZERBAIJANI LITERATURE

**XƏLİLOVA XATİRƏ SÜLEYMAN QIZI**

Azərbaycan Respublikasının Təhsil İnstitutu, doktorant ,

ADPU nəzdində ADPK-nın dil-ədəbiyyat müəllimi

0000-0003-3828-0565

## Xülasə:

Within the scope of this study, the *Sumakh* Collection, in which the traditional is modernized and adapted to daily life, presented at the Haydar Aliyev Center, which is the symbol of the future approach of Azerbaijani society with its modern, unusual and futuristic architecture in Azerbaijan, has been examined. In this way, the process of modernizing textile and fashion products with an artistic approach and presenting them in an art center and the transfer of traditional elements in Azeri culture to daily life were examined qualitatively.

**Keywords:** Azerbaijan, Haydar Aliyev Center, Sumakh, Textile and Fashion

## 1.GİRİŞ

Bu çalışma kapsamında ilk olarak Haydar Aliyev Merkezi, Azerbaycan Milli Halı Müzesi ve Haydar Aliyev Vakfı'nın kültürel faaliyetleri ve ardından geleneksel halı desenlerinin modernize edildiği *Azerkhalca* by Rufat İsmayil ve *Sumakh* Koleksiyonu'nu ele alınmıştır.

## *2."DEĞERLERLE GELECEĞE!"*: HAYDAR ALİYEV MERKEZİ, AZERBAYCAN MİLLİ HALI MÜZESİ VE HAYDAR ALİYEV VAKFI

*"Tarih, her zaman her şeyi yerli yerine koyar".*
*Haydar Aliyev*

1967 yılında kurulan Azerbaycan Milli Halı Müzesi, kurulduğu dönemde halı dokuma sanatına ayrılmış tek müzedir. Azerbaycan Halı Sanatı biliminin kurucusu Latif Karimov müzenin kurucusudur, Müzenin kuruluş amacı, Azerbaycan'ın milli mirası olan halı dokuma sanatının eşsiz örneklerini saklamak, araştırmak ve sergilemektir.

İlk kalıcı sergi 26 Nisan 1972'de İç şehir'de (Eski Şehir) bulunan 19. yüzyıl mimari anıtı Cuma Camii'nin binasında açılmıştır. Açılış törenine, kurulduğu ilk günlerden itibaren müzeye büyük destek veren Azerbaycan'ın milli lideri Haydar Aliyev katılmıştır. 1970-

1980'lerde, Haydar Aliyev'in şahsında ülkenin liderliğinin sürekli yardımı ile müze, el sanatları satın almak ve böylece koleksiyonlarını yenilemek için düzenli fırsatlara sahip olmuştur. O yıllarda müze için Azerbaycan halı dokuma sanatının şaheserleri satın alınmıştır. Azerbaycan'ın farklı bölgelerinden halı örneklerinin yanı sıra diğer uygulamalı sanatların eserleri edinilmiştir. Yıllar içinde müze sürekli olarak geliştirilmiş ve Azerbaycan ulusal kültürünün örneklerinin ana depolarından biri haline gelmiştir.

2014 yılında, Haydar Aliyev Vakfı ve UNESCO, Avusturyalı mimar Franz Janz başkanlığında tüm modern gereksinimleri karşılayan Sahil Milli Parkı arazisindeki halı formundaki ulusal kültürün örneklerinin ana depolarından olan yeni müze binasını tamamlamıştır.



**Resim1.** Azerbaycan Milli Halı Müzesi

Müze, Avrupa Tekstil Ağı (ETN), Avrupa Müze Forumu (EMF), Uluslararası Müzeler Konseyi (ICOM), UNESCO ve Üye Devletlerin İnsani İşbirliği Konseyi gibi etkili uluslararası kuruluşlarla yakın işbirliği içindedir.

2004 yılında müzenin katılımıyla *Azerbaycan Halısının Korunması ve Geliştirilmesi* hakkında kanun hazırlanmış ve kabul edilmiştir. Bu yasa, Azerbaycan halılarının tescilini gerçekleştirmeyi, onların gelişimini korumayı ve desteklemeyi, bilimsel ve metodik eğitimi koordine etmeyi amaçlamaktadır. 2010 yılında Azerbaycan'ın Birinci Başkan Yardımcısı, Haydar Aliyev Vakfı Başkanı, Azerbaycan Cumhuriyeti Milli Meclis üyesi UNESCO ve ISESCO İyi Niyet Elçisi, Mehriban Aliyeva'nın girişimiyle Geleneksel Azerbaycan Halı Dokuma Sanatı, *UNESCO İnsanlığın Somut Olmayan Kültürel Mirası Temsili Listesi*'ne alınmıştır.



**Resim2.**Azerbaycan Milli Halı Müzesinde Korunan Halılar



**Resim 3.** Mehriban Aliyeva'nın Fransa Kültür Bakanı Frederic Mitterrand ile Görüşmesi, 2011

Azerbaycan Cumhuriyeti Bakanlar Kurulu'nun 15 Temmuz 2019 tarihli kararnamesi uyarınca Azerbaycan Halı Müzesi, Azerbaycan Halı Dokuma Sanatının yaygınlaşmasına ve tanıtılmasına yaptığı önemli katkılardan dolayı *Ulusal* statü kazanmıştır.

Haydar Aliyev Vakfı, Azerbaycan tarihine bağımsız bir devlet kurucusu olarak giren Haydar Aliyev'in anısına milletinin saygısını ifade etmek istemesi ve O'nun zengin manevi mirasının yansıtılması gerekliliği ve Azerbaycancılık felsefesini yaşatmak ve gelecek nesillerde milli devletçilik fikirlerini geliştirmek amacının önemi altı çizilerek kurulmuştur.

2004 yılından itibaren faaliyetine başlayan Haydar Aliyev Vakfı, eğitim, halk sağlığı, kültür, spor gibi alanlarda çeşitli projeleri hayata geçirerek Azerbaycan toplumunun yeniden inşasına aktif olarak katılmakta ve ülkenin sosyal ve ekonomik kalkınmasına katkıda bulunmaktadır. Haydar Aliyev Vakfı Başkanı Azerbaycan'ın First Lady'si ISESCO İyi Niyet Elçisi Mehriban Aliyev'dir.

Geleceğe ilerleyen modern Azerbaycan geçmişine bağlı, kendi özgün değerlerine sahip çıkan bir ülkedir. Milli ve manevi değerleri, tarihi ve geleneklerini birinci önceliği olarak belirleyen Modern Azerbaycan, ülke çapındaki lideri *Haydar Aliyev* aracılığıyla dünyada tanınmaktadır.

Haydar Aliyev'in adını taşıyan Merkez ise modern Azerbaycan'ın ve *modern Bakü*'nün sembolü haline gelmiştir. Haydar Aliyev Merkezi'nin inşası, günümüz Azerbaycan'ının gelişiminin ve onun hem geçmişe hem de geleceğe bağlılığının somutlaşmış halini ifade etmektedir.

Haydar Aliyev Merkezi'nin logosu da bu fikrin bir yansımasıdır. Merkezin logosu, Azerbaycan'ın ileriye dönük özlemlerini, ülkenin ilerlemesini ve geleceğini simgelemektedir. Logonun gümüş rengi, engelleri aşmayı ve bir hedefe doğru ilerlemeyi özetlemektedir. Gümüş rengi liderliğin, mücadelenin, dinamizmin, bilgeliğin, şeffaflığın, gelişimin ve yeniliğin simgesidir. Logonun çizgileri, Haydar Aliyev Merkezi'nin inşasıyla uyum içinde olup, Azerbaycan'ın dinamik gelişimini, ülkenin uluslararası lider olma arzusunu ve vatana ve halka bağlılık gibi değerlerin sürekliliği yoluyla ilerlemesini somutlaştırmaktadır. Haydar Aliyev Merkezi'nin logosu, küresel ve ulusal değerler prizmasından bakıldığında kurumun misyonunu, ulus inşa geleneklerini ve gelecek nesillere aktarılacak mesajı vurgulamaktadır. Merkezin sloganı *"Değerlerle Geleceğe!"* bu fikir üzerine kuruludur.



**Resim 4.** Haydar Aliyev Merkezi

Merkezin tasarımında tek bir düz çizgi kullanılmamıştır. Binanın üzerindeki çizgiler*, geçmişle bugün* arasında köprü kurmaktadır. Binanın genel şekli, yerden göğe doğru dalga benzeri bir yükselişi ve ardından yeryüzüne kademeli bir alçalmayı andırmaktadır. Bu anlamda, sonsuz bir döngünün tasviridir. Merkezin içi ise müze, sergi salonları ve oditoryumdan oluşmaktadır.



**Resim 5.** Haydar Aliyev Merkezi İç Mekan

Merkezin içi ve dışı arasındaki ahenkli bağ; bu mekânın cinsiyet, ırk ve köken farkı gözetmeksizin herkese açık olması ve insanları ortak fikirlerle bir araya getirerek yapının algısındaki tüm sınırları ortadan kaldırmayı amaçlamaktadır. Binanın baskın beyaz rengi, *parlak geleceği* simgelemesinin yanı sıra bir dizi özel mesaj da vermektedir. Bu renk, çok sıra dışı bir doğal ışık yansımasıyla binanın göz alıcı şeklini ortaya koymaktadır.

Haydar Aliyev'in mirasını incelemek, tanıtmak ve korumakla meşgul olan Merkezin en ilgi çekici bölümü Haydar Aliyev Müzesi'dir. Tasarımı ve en son teknolojilerin uygulanmasıyla dikkat çeken Müze, Merkez'in geri kalanıyla uyum içindedir. Müze, Azerbaycan tarihini ve Haydar Aliyev'in yaşamının ve çalışmalarının farklı aşamalarını anlatmaktadır. Bilgiler interaktif bir formatta ziyaretçilere iletilmektedir. Üç katlı müze, ülke çapında lider Haydar Aliyev ile ilgili ilginç gerçekler, fotoğraf ve video materyallerinin yanı sıra bazı benzersiz sergiler sunmaktadır.

Dünyanın en eski halı dokuma merkezi olan Azerbaycan'da bu sanatın gelenekleri yüzyıllar boyunca nesilden nesile aktarılarak günümüze kadar gelmektedir. Halı motifleri her zaman yeni fikir ve çalışmaların yaratılmasını teşvik etmektedir. Azerbaycan'da halıcılık ekolünün korunmasına, gelişmesine ve dünyada yaygınlaşmasına destek veren Haydar Aliyev Vakfı, bu doğrultuda yurt içinde ve yurt dışında bir dizi proje ve sergiler düzenlemektedir.

Haydar Aliyev Merkezi, 2022 yılında geleneksel halı motifleri üzerine oluşturulan giysilerden oluşan bir defile ve sergiye ev sahipliği yapmıştır. AFFAIR markasının kurucusu Rufat İsmayil tarafından hazırlanan ve eski halı desenlerinden esinlenerek geliştirilen tasarımlara dayalı olarak oluşturulan *Sumakh* koleksiyonu izleyicilere sunulmuştur.




**Resim 6.** AFFAIR in Carpets *Sumakh*

UNESCO'nun Somut Olmayan Kültürel Miras Temsili Listesi'nde yer alan Azerbaycan'ın geleneksel halı dokuma sanatı yeni projelerde yeniden beğeniye sunulmaktadır. Ayrıca modacı Rufat İsmayil'in Haydar Aliyev Vakfı'nın desteğiyle Azerbaycan halılarının motifleri, zengin renkleri ve desenleri kullanılarak oluşturduğu ve Azerbaycan'ın Karabağ zaferine adanan *Sumakh* giyim koleksiyonu ile kültürel miras modernize edilerek günümüz dünyasına uyarlanmış ve Azerbaycan kültürü tüm dünyaya tanıtılmıştır.

## 3. *AZERKHALCA* BY RUFAT ISMAYIL VE *SUMAKH* KOLEKSİYONU

*"Kültürü büyük olan bir millet daima ileriye gider, yaşar ve gelişir".*
*Haydar Aliyev*

Azeri Türk modacı Rufat İsmayil, New York ve Paris Fashion Week'te yaptığı defilelerin ardından, Azerbaycan Milli Halı Müzesi'nde korunan ve sergilenen kültür mirası tarihi halılardan ilham aldığı *"Sumakh"* haute couture ve günlük giyim koleksiyonunu, "*Modanın En Büyük Günü"* olarak işaret edilen defilesiyle Haydar Aliyev Merkezi'nde izleyicilerin beğenisine sunmuştur.

Heykeltraş Jorge Marín imzalı milyonluk, 1 ton ağırlığındaki bronzdan yapılmış heykelin önünde sunulan ağırlıklı olarak kahverengi, siyah, kırmızı, krem, mavi renklerinden oluşan, *"Sumakh"* adının verildiği koleksiyon (Resim6-7-8-9-10-11*)*; on yedi *haute couture*, yirmi sekiz parça *affordable luxury* olmak üzere kırk beş parçadan oluşmaktadır.



**Resim 7**. *Sumakh* Koleksiyonu Defilesi




**Resim 8:** *Sumakh* Koleksiyonu 1




**Resim 9:** *Sumakh* Koleksiyonu 2




**Resim 10:** *Sumakh* Koleksiyonu 3




**Resim 11:** *Sumakh* Koleksiyonu 4

Azerbaycan halılarının üzerinde bulunan *Çelebi, Hanlık, Achma, Yumma, Nalbeki, Gül* desenleri aslına uygun biçimde koleksiyon için hazırlanan kumaşlara yansıyarak benzersiz kostümlerde modern hayata entegre edilmiştir. Kasnak el işçiliği ile kullanılan on beş bin adet yarı değerli taş koleksiyonun güçlülüğünü ortaya koymaktadır. Koleksiyonun tamamı üç ay gibi bir sürede otuz kişilik bir ekip tarafından tamamlanmıştır.

Geçmişin motiflerinin Rufat İsmayil imzasıyla dokuma tezgahlarında yeniden yorumlandığı *Sumakh* koleksiyonundan seçilen beş özel *haute couture* elbisenin motiflerinden ilham alınarak yeniden dokunan beş halı *"Azerkhalca by Rufat Ismayil"* adının verildiği halı koleksiyonu olarak günümüze uyarlanmıştır. Özel kurulan halı atölyesinde yirmi kadın tarafından halı dokuma tezgahında el işçiliğiyle dokunan halılar ve onlara hayat veren beş elbise Haydar Aliyev Merkezi'nin müze bölümünde sergilenmiştir (Resim 6).



**Resim 12:** Azerbaycan'ın Birinci Başkan Yardımcısı Mehriban Aliyev
*"Sumakh"* Koleksiyonundan Affair elbisesi -Halı *Pirabadil*



**Resim 13:** Azerbaycan'ın Birinci Başkan Yardımcısı Mehriban Aliyev
*"Sumakh"* Koleksiyonundan Affair elbisesi –*Pazrık*



**Resim 14:** Azerbaycan'ın Birinci Başkan Yardımcısı Mehriban Aliyev
*"Sumakh"* Koleksiyonundan Affair elbisesiyle

Rufat Ismayil, Azerbaycan Cumhurbaşkanı İlham Aliyev'in eşi ve Haydar Aliyev Vakfı Başkanı Mehriban Aliyev'e yaptığı özel tasarımlarla moda dünyasında adından sıklıkla söz ettirmektedir. Mehriban Aliyev geleneksel halı desenlerinin modern giysi tasarımlarıyla buluşmasını sağlayan *Sumakh* Koleksiyonu'ndan parçalarla çeşitli uluslararası organizasyon

ve törenlere katılarak Azerbaycan kültürünü simgesel olarak üzerinde taşımaktadır (Resim 12-13-14).

## 4.SONUÇ VE ÖNERİLER

Bu çalışma kapsamında, Haydar Aliyev Vakfı tarafından desteklenen, Azerbaycan Milli Halı Müzesi'ndeki halı desenlerinden esinlenilerek üretilen ve Haydar Aliyev Merkezi'nde sunulan *Sumakh Koleksiyonu* incelenmiştir. Zengin Azerbaycan kültür ve tarihini yansıtan koleksiyon, geleneksel motifleri muhafaza eden modern Azerbaycan'ı simgelemektedir.

Haydar Aliyev Vakfı Başkanı Azerbaycan'ın First Lady'si ISESCO İyi Niyet Elçisi Mehriban Aliyev'in uluslararası organizasyonlarda bu koleksiyondan seçimler yapmış olması bu kanaati kuvvetlendirmektedir. Bu bağlamda; geleceğe ilerleyen modern Azerbaycan; geçmişine bağlı, kendi özgün değerlerine sahip çıkan bir ülke olarak milli ve manevi değerleri, tarihi ve geleneklerini liderleri *Haydar Aliyev* aracılığıyla tüm dünyada tanıtmaktadır.

## KAYNAKLAR

URL 1. Azerbaycan Milli Halı Müzesi, https://azcarpetmuseum.az/en/museum-history (Erişim tarihi: 23.04.2023)

URL 2. Haydar Aliyev Merkezi, https://heydaraliyevcenter.az/#25_About_the_center (Erişim tarihi: 23.04.2023)

URL 3. Haydar Aliyev Vakfı, https://heydar-aliyev-foundation.org/en/content/view/52/620/Mehriban-%C6%8Fliyeva-Fransan%C4%B1n-m%C9%99d%C9%99niyy%C9%99t-naziri-Frederik-Mitteran-il%C9%99-g%C3%B6r%C3%BC%C5%9F%C3%BCb/en/content/%2Fen%2Fcontent%2Frss (Erişim tarihi: 23.04.2023)

URL 4. Mehriban Aliyev, https://report.az/en/foreign-politics/president-of-azerbaijan-ilham-aliyev-first-lady-mehriban-aliyeva-attend-opening-ceremony-of-5th-islamic-solidarity-games/ (Erişim tarihi: 23.04.2023)

URL 5. Mehriban Aliyev, https://kids.kiddle.co/images/0/05/First_Lady_of_Azerbaijan_Mehriban_Aliyeva_watched_Lazgi_ballet_in_Samarkand_05.jpg(Erişim tarihi: 23.04.2023)

URL 6. Rufat Ismayıl, https://www.facebook.com/profile.php?id=100064916161402 (Erişim tarihi: 23.04.2023)

URL 7. Rufat Ismayıl, https://www.instagram.com/rufat_ismayil/(Erişim tarihi: 23.04.2023)

URL 8. Rufat Ismayıl Defilesi, https://www.istanbulsanatdergisi.com/haydar-aliyev-kultur-merkezinde-rufat-ismayil-defilesi/(Erişim tarihi: 23.04.2023)

URL 9. Rufat Ismayıl Paris Defilesi,

https://sanat-magazin.com/program/etkinlik/defile/rufat-ismailin-defilesi-paris-fashion-weekte-fark-yaratti/(Erişim tarihi: 23.04.2023)
URL.10.Sumakh,
https://azertag.az/ru/xeber/V_Centre_Geidara_Alieva_sostoyalos_defile_odezhdy_sozdannoi_po_kovrovym_motivam_VIDEO-2164754 (Erişim tarihi: 23.04.2023)

# AZERBAYCAN'IN TANINMASINDA KÖKLÜ ETKEN: UMUMLİDER ALİYEV

ROOTED FACTOR IN THE RECOGNITION OF AZERBAIJAN: UMUMLIDER ALIYEV

**Prof. Dr. Sedat CERECİ**

Hatay Mustafa Kemal Üniversitesi İletişim Fakültesi,

Hatay/TÜRKİYE

ORCID-0000-0002-3762-6483

## ÖZET

Bu çalışma, Azerbaycan'ın milli lideri Haydar Aliyev'in tutkulu inancından yola çıkarak, onun siyasi deneyimi ve milli duyguları ile birlikte Azerbaycan'ın bağımsızlığı ve kalkınması için verdiği çabayı irdelemektedir. Tarihin yazdığına göre, halkların bağımsızlığı ve devletlerin tanınması çoğunlukla, inançlı ve karalı liderlerle olmuştur. Liderin çocukluğundan itibaren yaşadığı tüm deneyimler inancını ve karalığını güçlendirmiş, seçik ve belirgin bir hedefe doğru ilerlemesini sağlamıştır. Haydar Aliyev, Sovyetler Birliği döneminde kazandığı siyasi deneyimlerin ve Azerbaycan halkının çektiği sıkıntıları gözlemlerinden elde ettiği izlenimlerden yaralanarak bağımsızlık ve kalkınma politikaları geliştirmiştir.Aliyev'i milli lider konumuna taşıyan en önemli özelliği, onun halkının karakterini çok iyi kavraması, halkının ve ülkesinin gücünün farkına varması ve hedeflerine ulaşabileceği konusundaki inancıdır. İnanç ve kararlılık, bir kişinin lider konumuna ulaşmasında başrol oynayan etkenlerdir. Haydar Aliyev, Nahçıvan Özerk Cumhuriyeti İçişleri Komiserliği Gizli Arşiv Dairesi Müdürlüğü ve Nahçıvan Halk Komiserliği Konseyi Şube Müdürlüğü, Sovyet Sosyalist Cumhuriyetler Birliği (SSCB) Devlet Güvenlik Komitesi, Azerbaycan KGB'si Başkanlığı, Azerbaycan Komünist Partisi Merkezi Komitesi Genel Sekreterliği, SSCB Bakanlar Konseyi Başkanı Birinci Yardımcılığı gibi görevlerden elde ettiği bürokratik ve siyasi deneyimlerin yanında, halkının şikayet ve beklentilerini çözümleme konusundaki birikimiyle liderliğinin temelini oluşturmuştur. Haydar Aliyev, Azerbaycan halkının bağımsızlık beklentisi doğrultusunda, ülkesinin uluslar arası alanda söz sahibi olması için yüce bir misyon edinmiş ve bu doğrultuda savaşım vererek milli lider olmuştur.

**Anahtar Kelimeler:** Haydar Aliyev, Umumlider, Azerbaycan, Bağımsızlık, Kalkınma

## ABSTRACT

This study, starting from the passionate belief of the national leader of Azerbaijan Heydar Aliyev, examines his political experience and national feelings, as well as his effort for the independence and development of Azerbaijan. As history writes, the independence of peoples and the recognition of states has mostly been with leaders of faith and determination. All the experiences of the leader since his childhood strengthened his faith and determination, and enabled him to move towards a clear and distinct goal. Heydar Aliyev developed independence and development policies by benefiting from the impressions he gained from the political experiences he gained during the Soviet Union and the observations of the troubles of the Azerbaijani people. her belief that she can achieve her goals. Faith and determination are the factors that play a leading role in reaching a leader position. Heydar Aliyev, Directorate of Secret Archives of the Commissariat of Internal Affairs of the Nakhchivan Autonomous Republic and Branch of the Nakhchivan People's Commissariat Council, State Security Committee of the Union of Soviet Socialist Republics (USSR), Presidency of the Azerbaijan KGB, General Secretariat of the Central Committee of the Azerbaijan Communist Party, Chairman of the USSR Council of Ministers First In addition to the bureaucratic and political experience he gained from duties such as his deputy, he formed the basis of his leadership with his experience in resolving the complaints and expectations of his people. Heydar Aliyev, in line with the expectation of the independence of the Azerbaijani people, had a lofty mission for his country to have a say in the international arena, and by fighting in this direction, he became the national leader.

**Keywords**: Heydar Aliyev, General Leader, Azerbaijan, Independence, Development

# TARİXİN YETİŞDİRDİYİ DAHİ LİDER HEYDƏR ƏLİRZA OĞLU ƏLİYEV
# TARİHİN YETİŞTİRDİĞİ DÂHİ LİDER HAYDAR ALİRIZA OĞLU ALİYEV
# A GENIUS LEADER BROUGHT UP BY HISTORY HAYDER ALIRZA OGULU ALIYEV

**Prof. Dr. Mansim Mammadov Zeynalabdin**

Baku Eurasian University,

Head of the department of teaching organization, Bakü/AZERBEYCAN

**Aynur Aliyeva Arif**

Baku Eurasian University,

Education organization department, senior specialist, Bakü/AZERBEYCAN

## ÖZET

Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycanın ən qədim diyarı Naxçıvan şəhərində dəmiryolçu ailəsində dünyaya gəlmişdir. Bu ulu diyar, qədim kök onun dünya görüşündə, mənəviyyatında, əxlaqında və düşüncə mədəniyyətində özünü qoruyub saxlamışdır. Heydər Əliyev intonasiyasında və leksikonunda istər rəsmi, istər qeyri-rəsmi hesab edilən danışıqlarında bu hiss olunurdu. Hədsiz qibtə edilən isə onun müdrikliyi idi. Qərbin kübar, Avropanın sivil davranış mədəniyyəti hesab edilənlərlə müqayisədə Heydər Əliyev öz aliliyini qoruyan şərqli kimi fərqlənirdi. Bu xüsusiyyəti onu hamıdan uca edirdi. Və həyat elə gətirdi ki, sadə və zəhmətkeş ailədə doğulmasına baxmayaraq Azərbaycan xalqının tale yüklü məsələlərinin həllini idarə edən, dağılmaqda olan dövləti yenidən quran, onu qeyri-adi ustadlıq və qabiliyyətlə idarə edən rəhbər Heydər Əliyev qısa zamanda hər kəsin sevgisini, etimadını və rəğbətini qazanmağa müvəffəq oldu. Tarixin yetişdirdiyi nadir şəxsiyyət, Azərbaycanda 20-ci əsrin canlı əfsanəsi, Azərbaycan adlı dövlətin qurucusu və memarı, güclü siyasətçi, hökmü ilə tarixlərdə silinməz iz qoyan dahi öndər Heydər Əliyev tükənməz enerjisi, aydın nitqi və səmimi ünsiyyətinə görə artıq xalqın gözündə əsl rəhbərə çevrilmişdi.

Tarix gələcəyə ötürülən keçmişdir. Özü-özünün tarixçisi olan Heydər Əliyev həm də zamanın tarixini yazan dahi şəxsiyyət idi. O, yaxşı bilirdi ki, insan tarixdə yalnız etdiyi əməlləri ilə qalır. Yaşadığı 3 müxtəlif hakimiyyəti formalaşdırmağa və onu yaşamağa nail olan Heydər Əliyev hər zaman yalnız irəli baxdı, nə olursa olsun bir gün belə xalqın içindən ayrılmadı. Bütün zaman sınaqlarından uğurla çıxmağı bacardı. Onun bir amalı var idi, xalqın milli maraqlarına xidmət etmək.

İstər Dövlət Təhlükəsizlik Orqanlarında, istərsə də Azərbaycan Respubikasının rəhbəri kimi çalışdığı illərdə qətiyyəti və verdiyi cəsarətli qərarları ilə mümkünsüz olan hər bir işin öhdəsindən mövqeyini dəyişmədən gəlirdi. 1944-cü ilin may ayında Dövlət Təhlükəsizliyi Orqanında işə başlayan Heydər Əliyev olduqca güclü kəşfiyyatçı və yüksək səviyyəli təşkilatçı idi. "Duel", "Alagöz", "Duqlas", "Axito", "Naturalist", "İzuver" və bu kimi müxtəlif illərdə Heydər Əliyevin iştirakı ilə keçirilən əməliyyatlar nəinki Azərbaycanda, hətta bir sıra xarici ölkələrin xüsusi xidmət orqanlarının məktəblərində peşəkarlıq nümunəsi olaraq tədris olunur və öyrənilir. Azərbaycan Təhlükəsizlik Orqanlarının fəxri rəhbəri Ulu Öndərin imzası olan əməliyyatlarda hər bir hərəkətə qarşı hazırlığı və özünəməxsus psixoloji əlaqələri qurması onun çevikliyindən və məharətindən xəbər verirdi. Onu da, qeyd edək ki, Heydər Əliyevin rəhbərlik etdiyi və birbaşa iştirakçısı olduğu əməliyyatlar hər zaman uğurla sonlandırılmış və Dövlət Təhlükəsizlik Xidmətinin arxivində tam məxfi qrifi altında saxlanılmışdır. Sitat: “Təhlükəsizlik işçisi yüksək mədəniyyətli, keyfiyyətli işçi olmalıdır. Elə bir işçi ki, şairlə də, bəstəkarla da, yazıçı ilə də, alimlə də, adi vətəndaşla da danışa bilsin. Əgər belə olmasa, o, ağı qaradan, pisi yaxşıdan, cinayəti səhvdən, səhvi cinayətdən ayıra bilməz”. – Ümummmilli lider Heydər Əliyev.

Heydər Əliyev milli varis missiyasını uğurla yerinə yetirən, Azərbaycanın SSRİ-nin tərkibində olan zaman ölkə rəhbəri kimi həmin rejimin fövqündə duraraq vətən xaini ittihamını

qazanmış dahi ədib Hüseyn Cavidin cənazəsinin Naxçıvana gətirilməsində çox böyük təşəbbüs və iradə nümayiş etdirdi. Ədibin sevimli qızı Turan xanım Hüseyn Cavid cisminin vətənə qaytarılmasında öz qətiyyətini göstərən Heydər Əliyevə yazdığı minnətdarlıqda qeyd etmişdir: "Onu da xatırlayırıq ki, bunu eşidən digər millətlər də repressiya qurbanları olan böyük şəxsiyyətlərinin, yaxınlarının cənazəsini öz diyarlarına gətirmək istədilər. Lakin qürbətdən doğma elinə qayıdan, doğma torpağa qovuşan təkcə Hüseyn Cavid oldu." 1992-ci ildə Naxçıvan MR Ali Məclisinin Sədri işlədiyi illərdə Hüseyn Cavidin 110 illiyinin qeyd olunmasını təmin edən Heydər Əliyev Azərbaycan mədəniyyətinə necə yüksək dəyər verdiyini bir daha bəyan etmişdir. Hətta 1996-cı ildə Naxçıvanda Hüseyn Cavidin məqbərəsinin açılışında söylədiyi nitqində bildirmişdir: "Naxçıvan Azərbaycanın gözəl bir guşəsidir. Naxçıvan Azərbaycan xalqının qədim tarixini əks etdirən müqəddəs bir torpaqdır. Naxçıvan böyük şəxsiyyətlər yetişdirmiş bir torpaqdır. Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır." Bu çıxışı ilə Heydər Əliyev ürəyində Cavid sevgisi ilə döyünən məmləkətinin necə yüksək maddi-mənəvi sərvətə, mədəni irsə malik olduğunu bir daha vurğulamışdır.

Ulu Öndər Azərbaycan dilinə, Azərbaycanın mədəniyyətinə, mənəviyyatına, əxlaqına və mentalitetinə sahib çıxmaqla tolerantlığı, liberallığı, multikultural dəyərləri özündə birləşdirən, multikulturalizm dəyərlərini təbliğ edən hüquqi siyasi sistem qurdu. Dünyada baş verən qlobal problemlərə, hərbi-siyasi münaqişələrin artmasına, irqi ayrı-seçkiliklərə baxmayaraq Azərbaycan çoxmillətli, müxtəlif dinli xalqların yaşadığı ölkə kimi hər zaman öz sabitliyini qoruyub saxlamağı bacarmışdır. Azərbaycanda multikulturalizmin banisi sayılan Ulu Öndər Heydər Əliyev ölkədə yaşayan bütün etnoslara, dinlərə eyni yanaşırdı. Onların rahat, kompakt və sülh içində yaşamaları üçün əlindən gələni edirdi. Məhz bunun təzahürüdür ki, cənab prezident İlham Əliyevin 2016-cı ili "Multikulturalizm ili" elan etməsi ilə Heydər Əliyevin yaratdığı multikultural ənənələrin qorunması siyasətinin uğurla davam etdirilməsini və mədəniyyətlərarası dialoqların yeni mərhələyə qədəm qoymasını xüsusi qeyd etmək olardı. "Azərbaycan bu illər ərzində dünyada multikulturalizmin inkişafına çox böyük töhfələr vermişdir"- deyə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd edirdi.

Ölkəmizdə yaşayan etnik qruplar və azsaylı xalqlar Azərbaycan dilində sərbəst şəkildə danışmaqlarına baxmayaraq, öz dillərini hal-hazırda da yaşadırlar. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının "Bərabərlik hüququ" adlanan 25-ci maddəsinin tələblərinə görə, irqindən, dilindən, milli və dini mənsubiyyətindən asılı olmayaraq, vətəndaşların təhsil hüququna təminat verilib. Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1992-ci il tarixli Fərmanına uyğun olaraq, ümumtəhsil məktəblərində müxtəlif xalqların dillərinin tədrisi ilə bağlı bütün lazımi şərait yaradılıb.

Heydər Əliyev rəhbərlik etdiyi illərdə mədəni və sosial-iqtisadi yüksəlişə gedən yolun məhz təhsildən keçdiyini duyurdu. Ona görə bu sahəyə xüsusi diqqət və maraq göstərirdi. Əbədiyaşar dövlət xadiminin fəaliyyətində təhsil məsələləri önəmli yer tuturdu. Xalqımızın taleyində, inkişaf və tərəqqisində təhsilin xüsusi əhəmiyyət kəsb etdiyini hər zaman nəzərə almış, yüksək dəyərləndirmişdir. Savadlı cəmiyyətin formalaşmasında təhsilin mühüm rola malik olduğunu önə çəkərək "həyat bir prosesdir, bu prosesdə uğurla inkişaf etmək üçün insan müasir tələblərə uyğun təhsilə malik olmalıdır" deyə Ümummilli Lider vurğulamışdır.

Ümummilli Lider Heydər Əliyev ali və orta ixtisas təhsilinin dünya təhsil prosesinə keçidinə xüsusi diqqət göstərmişdir. Qısa zamanda hakimiyyətə gəlməsinə baxmayaraq artıq 1982-ci ildə respublikada ali təhsil ocaqlarının sayında kəskin fərq yaranmışdır. Belə ki, bu say 12-dən 17-yə qədər artmış, təhsilalanların sayı isə 17 mindən 100 minə çatmışdır. 1970-80-ci illərdə ilk dəfə keçmiş SSRİ tarixində dahi rəhbərin təşəbbüsü ilə 170-dən çox ali məktəbdə 250-dən çox ixtisas üzrə təkcə 15 mindən artıq azərbaycanlı gənc təhsil almağa müvəffəq olmuşdur. Və qürur hissi ilə deyəbilərik ki, həmin dövrdə ali təhsil almağa göndərilən təhsilalanların 97,7 %-ni məhz Azərbaycan gəncləri təşkil edirdi.

Ulu Öndərin Azərbaycan tarixi və təhsili üçün etdikləri təbii ki, zamanın tələbindən daha üstün idi. Uzaqgörən siyasi rəhbər və cəsarətli dövlət xadimi kimi atdığı addımlar xalq tərəfindən xüsusilə gənclər tərəfindən böyük həvəs və maraqla qarşılanırdı. Heydər Əliyev həm də orduda savadlı kadrların yetişməsi üçün çalışırdı. 70-ci illərdə Azərbaycanlı gənclərin hərbi təhsilə yiyələnmələri üçün sistemli tədbirlər həyata keçirtməyə başladı. Yaradılmış hərbi liseylərdə və ali

hərbi məktəbdə xeyli sayda Azərnbaycanlı yüksək peşəkar və ixtisaslı hərbi kadrlar yetişdirilmişdir.

Hakimiyyətdə olduğu dövrlərdə Azərbaycan təhsil sistemini daim diqqətdə saxlayan Ulu Öndərin tapşırığı əsasında 15 iyun 1999-cu il sərəncamı ilə Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı qəbul olunmuşdur. 23 iyun 2000-ci ildə Azərbaycan Respublikasının təhsil sisteminin təkmilləşdirilməsi üçün fərman, 4 oktyabr 2002-ci ildə Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində maddi-texniki bazanın möhkəmləndirilməsi haqqında sərəncam imzalanmışdır. Bu sənədlər təhsil sisteminin dinamik inkişafına özünəməxsus müsbət nəticələrini vermişdir.

Təhsil sahəsində aparılan islahatların vacibliyini vurğulayan Ümummillli Liderin qəbul etdiyi qərar, fərman və sərəncamlar Azərbaycan Respublikasında yerləşən peşə, orta ixtisas və ali təhsil müəssisələrinin inkişafına, kadr potensialının təkmilləşdirilməsinə, dünya standartları səviyyəsində təhsilin keyfiyyətinin artırılmasına xidmət edirdi.

Cəmiyyət həyatının ən önəmli sahələrindən biri olan, millətin gələcəyini təmin edən başlıca amil təhsildir. Azərbaycan təhsilinin infrastrukturunda əsaslı islahatların aparılması ölkəmizin daim artan dinamik inkişafının göstəricisidir. Ölkəmizin gələcəyinin qurucuları olan gənclərin bu gün əsas məqsədləri də məhz təhsildə yüksək keyfiyyətə nail olmaqdır.

Bu gün Azərbaycan təhsil sahəsində həyata keçirilən böyük tədbirlər, qəbul olunmuş Təhsil Qanunu və ona uyğun aparılan islahatlar Azərbaycan təhsil sisteminin dünyaya inteqrasiyasına xidmət etməkdədir. “Hər bir dövlət əgər istəyirsəki öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, iqtisadiyyatını, incəsənət və mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq hər şeydən çox təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır” deyən ulu öndər Heydər Əliyev təhsil və təlimin intibah dövrünü yaşadığını, qloballaşmada önəmli rola malik olduğunu qeyd etmişdir. Gənclərimizin elmə və təhsilə cəlb olunması Azərbaycan dövlətinin əsas prioritet istiqamətlərindən biridir.

Ali təhsilin inkişafı yolunda Ana dilinin taleyinə, tədrisinə və təkmilləşdirilməsinə biganə qalmayan Ulu Öndər 18 iyun 2001-ci il tarixli “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” fərmanı imzaladı. Belə ki, cəmiyyətdə dilə münasibəti formalaşdıran məhz xalqın özü olduğundan, təhsil sahəsində ana dilinə üstünlüyün verilməsi zərurətini ortaya qoydu. Ana dili hər bir millətin mənəvi sərvəti, mənəviyyatının güzgüsüdür. Bu baxımdan hər millətin inkişafında ən mühüm varlıq və yaşama amili olan dilin müstəsna rolu vardır. Xalqımızın ana dili olan Azərbaycan dilinin inkişafında və onun dünya dilləri içərisində öz layiqli yerini tutmasında da, dilimizin zənginliklərinə yaxından bələd olan Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. Dilin inkişafını iqtisadi nailiyyətlərdən hər zaman üstün tutan Ulu Öndərimiz yazırdı: “İndi biz dilimizdə sərbəst danışırıq və hər bir mürəkkəb fikri ifadə etməyə qadirik. Bu böyük nailiyyətdir ki, bizim bir millət kimi özümüzə məxsus dilimiz var. O da, o qədər zəngindir ki, dünyanın hər bir hadisəsini biz öz dilimizdə ifadə edəbilirik.”

Tarix göstərir ki, Azərbaycan dili müxtəlif dövrlərdə rəsmən dövlət dili kimi elan edilib bir müddət fəaliyyət göstərsə də, dövlət dili statusu uzun müddət davam edəbilmədi. Yalnız xalqımızın lideri Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gəldikdən sonra milli dilimizin xilaskarı kimi tarixə öz əbədi imzasını qoydu. Bütün sahələrdə, o cümlədən təhsildə, qanunvericilikdə, orduda ana dilinin tətbiq edilməsinə başlanıldı. Ölkə rəhbərinin təşəbbüsü və fəal iştirakı ilə 1995-ci il oktyabr ayının 31-də Konstitusiyanın dövlət dili haqqında maddəsi ilə bağlı keçirilən gərgin və tam demokratik müzakirələr nəticəsində Azərbaycan dilinin qanuni haqqı özünə qaytarıldı. Həmin il noyabr ayının 12-də qəbul olunan Konstitusiyada Azərbaycan dili Azərbaycan Respublikasının dövlət dili kimi təsbit olundu. Ümummilli Liderin 9 avqust 2001-ci il tarixli fərmanı ilə avqustun 1-i ölkəmizdə Azərbaycan dili və Azərbaycan əlifbası günü kimi qeyd olunur. 2002-ci il sentyabr ayının 30-da Azərbaycan Respublikasında dövlət dili haqqında Azərbaycan Respublikasının qanununun qəbul edilməsi, Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi istiqamətində daha bir addımdır. Bu sənəd Heydər Əliyevin xalqımıza və onun dilinə tükənməz məhəbbətinin , qayğısının parlaq nümunələrindən biridir. Azərbaycan dilinin inkişafı və onun tətbiqi sahəsinin daha da genişləndirilməsi, kənar təsirlərdən qorunması, habelə bu dilin saflığı, təmizliyi istiqamətində dahi liderin apardığı siyasət bu gün onun siyası kursunun layiqli davamçısı möhtərəm prezident İlham Əliyev tərəfindən uğurla

davam etdirilir. Böyük fəxr və qürur hissi ilə deyəbilərik ki, bu gün dövlət dilimiz olan Azərbaycan dilinin hər tərəfli inkişafı, dünyanın ən mötəbər tribunalarından səslənməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır.

Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən sonra ölkədə idmana olan münasibət dəyişdi. Ümummilli Lider digər sahələr kimi idmanın da maddi-texniki bazasının gücləndirilməsi yolunda böyük işlər görüb. Bura ilk növbədə Azərbaycan Milli Olimpiya Komitəsinin yaradılması, bir çox idman komplekslərinin tikilib istifadəyə verilməsi, Azərbaycan idmançılarının maddi rifahının və həyat tərzinin yaxşılaşdırılması, həmçinin ölkə idmanının gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi kimi vacib amillər aiddir. İdman böyük diqqət və qayğı tələb edir. Qədim idman ənənəsi ilə seçilən Azərbaycanda bu sahədə mütəxəssislərin yetişdirilməsinə, onlara idmanla məşğul olmaq üçün hər cür şəraitin yaradılmasına və idmançılarımızın beynəlxalq yarışlarda iştirakının təmin edilməsinə xüsusi diqqət yetirən Heydər Əliyevin qeyd olunan məsələlərlə yanaşı, mövcud imkanlardan istifadə etməklə idmanın daha da geniş təbliğinə çalışırdı. Azərbaycanda dövlət səviyyəsində idmana göstərilən qayğı Ulu Öndərin apardığı siyasətin bariz nümunəsidir. İdmanın inkişafına dəstək olub, bu sahəyə ayrılan diqqətin vacibliyini ölkə başçısı çıxışlarında hər zaman vurğulamış, bütün təşkilatları və sahibkarları Aərbaycanın gələcəyi üçün vacib hesab edilən bu böyük işə kömək etməyə çağırmışdır.

Azərbaycan idmançıları arasında böyük nüfuz qazanan Heydər Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində ölkədə idmanın kütləviliyi genişləndi. Dövlətin və prezidentin səylərinin daima bu sahədə olduğunu vurğulayan Ümummilli Lider 1994-cü il iyulun 26-da ölkədə idmana və gəncliyə dövlət qayğısını bilavasitə gerçəkləşdirəcək bir qurum Gənclər, İdman və Turizm Nazirliyini (indiki Gənclər və İdman Nazirliyi) yaratdı. Gəncləri pis vərdişlərdən, zərərli adətlərdən çəkindirərək idman vasitəsi ilə onları layiqli Azərbaycan vətəndaşına çevirmək, kütləvi bədən tərbiyəsi vasitəsi ilə isə xalqın fiziki sağlamlığına nail olmaq, peşəkar idmançıların uğurlu çıxışlarına kömək edib, onların gözü ilə Azərbaycan adlı məmləkəti dünyaya tanıtdırmaq Heydər Əliyevin idman siyasəti idi.

Ümummilli Liderin Azərbaycan idmanına verdiyi ən böyük töhfə isə heç şübhəsiz ki, məhz onun xeyir-duası ilə İlham Əliyevin 1997-ci ildə Milli Olimpiya Komitəsinə prezident seçilməsi idi. İndi tam qətiyyətlə deyəbilərik ki, Heydər Əliyevin təməlini qurduğu bu siyasət müvəffəqiyyətlə cənab prezident İlham Əliyev tərəfindən davam etdirilir və bunun nəticəsidir ki, Azərbaycan idmanı bu gün dünyada ən qabaqcıllar sırasındadır. Dünya və Avropa çempionatlarında, Olimpiya və Paralimpiya Oyunlarında, Avropa Olimpiya Festivallarında, Yeniyetmələrin Yay Olimpiya Oyunlarında və bu kimi digər mötəbər yarışlarda Azərbaycan idmanının ən güclü nümayəndələri böyük uğurlara imza atmışlar və qazanmış olduqları medalları dövlətin daimi qayğısı nəticəsində mümkün olmuşdur.

Gənclik bir millətin yaşaması, inkişafı üçün təməl daşıdır. Azərbaycanda gənclər siyasəti Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü ildə xalqın tələb və istəyi ilə hakimiyyətə gələn Heydər Əliyev bütün problemləri aradan qaldırmaq üçün ilk olaraq gənclərlə görüşməyə qərar verdi. Ulu Öndərin əsas məqsədi yeni nəslin fiziki, mənəvi və psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin gələcəyinə töhfə verməsini təmin etmək idi. Tarixi görüşdə bu ideyanın gerçəkləşməsinə təkan verdi. Olduqca gərgin və maraqlı diskusiya şəraitində baş tutan görüşdə dahi şəxsiyyət Heydər Əliyev Azərbaycan gəncliyini ölkənin taleyi üçün mühüm işlər görməyə çağırdı. Məhz bu görüşdən sonra gəncliyin inkişafında keyfiyyətcə yeni mərhələnin əsası qoyuldu və dövlət gənclər siyasəti öz nəticəsini verməyə başladı. 1995-ci ilin sonlarında gənclər təşkilatlarını bir araya gətirən və onların fəaliyyətini əlaqələndirən Gənclər Təşkilatları Milli Şurasını formalaşdırdılar. 1996-cı il fevral ayının 2-də Ümummilli Lider Heydər Əliyevin birbaşa təşəbbüsü ilə Respublika Gənclərinin I Forumu keçirildi və gənclərin fəaliyyət platforması qəbul edildi. Gənclərlə keçirilən görüş, həmçinin Qeyri-Hökümət Təşkilatlarının institusional inkişafı sahəsində beynəlxalq təcrübənin Azərbaycanda tətbiqinə şərait yaratdı. Qeyri-Hökümət Təşkilatlarının fəaliyyətinə təkcə Bakıda yox Azərbaycanın bütün şəhər və rayonlarında sözün əsl mənasında yaşıl işıq yandırıldı. O dövrün şərtlərinə görə bu ən cəsarətli addım idi. Keçmiş Sovet ölkələrindən hələ heç biri buna cəsarət etməmişdir.

"Siz əziz gənclər müstəqil Azərbaycan Respublikasının nə qədər çətinliklə başa gəldiyini dərk edərək müstəqil Azərbaycan Respublikasının gələcəyini qoruyub saxlayacaqsınız. Mən buna əminəm!" deyən Ümummilli Lider Heydər Əliyev gənclər qarşısında tarixi vəzifə qoymuşdur. Müstəqil Azərbaycanın bu günü və gələcəyi haqqında hər bir Azərbaycan gənci düşünməlidir. 1997-ci il fevral ayının 2- dən başlayaraq Azərbaycanda "Gənclər Günü" qeyd olunandan sonra digər MDB ölkələrində və həmçinin Şərqi Avropada da bu gün qeyd olunmağa başlandı.

2007-ci ilin "Gənclər ili" elan edilməsi il bağlı sərəncam gənclərin ölkənin ictimai-siyasi və mədəni həyatında fəallığının daha da yüksəlməsinə səbəb olmuşdur. 2011-ci ildə Gənclər Fondu yaradıldı. Azərbaycanda Könüllülük Hərəkatı geniş vüsat aldı.

Qürurla demək olar ki, bu gün Azərbaycan gəncliyi üzərinə götürdüyü vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışır və bunu bacarır. Ölkəmizin ictimai-siyasi, iqtisadi həyatında gənclər olduqca fəal mövqeyə malikdirlər. Hazırda isə cənab prezident İlham Əliyevin rəhbərliyi ilə gəncləri aparıcı qüvvəyə çevirmək və onların sosial-iqtsadi problemlərinin həllini təmin etmək məqsədi ilə böyük işlər görülür. Bütün bunlar isə Azərbaycan gəncliyinin sabahına inamla baxmağa əsas verir. Bu təşəbbüslər və təşkilatlanmalar təbii ki, Ulu Öndər Heydər Əliyevin ölkəmizdə yaratdığı demokratik mühitin nəticələri idi. İndi isə əsas amal bu günə kimi formalaşan gənclər ordusunu heç bir itki vermədən gələcəyə doğru aparmaqdır. Şübhəsiz ki, bu belə də olacaq. Çünki Azərbaycan gəncliyinin İlham Əliyev kimi prezidenti və səmimi dostu var. I Avropa Oyunlarında, 2017-ci ildə İslam Oyunlarında, 2016-cı ildən keçirilən Formula 1 yarışlarında minlərlə Azərbaycan gənci könüllü olaraq fəaliyyət göstərdi. 2013-cü ildə İlham Əliyevin təşəbbüsü ilə ölkədə ilk dəfə Gənclər üçün Prezident Mükafatı təsis edildi. 2019-cu il dekabr ayının 30-da 2020-ci ilin Azərbaycanda "Könüllülər ili" elan edilməsi haqqında Sərəncam imzalayan Prezident İlham Əliyev hər sahədə gəncləri dəstəklədiyini bildirdi.

Belə bir deyim var ki, hər bir cəmiyyət gəncləri öz mədəniyyəti ruhunda tərbiyə edir. Azərbaycan xalqının həyat qaydası olan mübarizlik ruhu onun düşüncəsinə və xarakterinə hopub. 2020-ci ilin sentyabr ayının 27-də başlayan Vətən Müharibəsində ordumuzun qələbə qazanmasında əsas pay sahibi məhz gənclərimiz oldu. İlk gündən könüllü olaraq ordu sıralarına qoşulan gənclərimiz Qarabağ torpaqlarında, Şuşanın qayalarında yazdıqları qəhrəmanlıq salnaməsi ilə dövlətimizin ərazi bütövlüyünün təmin olunmasına nail oldular. Bu bir daha göstərir ki, müstəqilliyimizdən bəri aparılan gənclər siyasəti düzgün istiqamətdə inkişaf edib, sağlam, intellektual, vətənpərvər ruhda Azərbaycan gəncliyi yetişib.

Onu qeyd edək ki, məqalə müəlliflərindən biri öz gənclik çağının tələbəlik dövründə Ulu Öndər Heydər Əliyevlə canlı ünsiyyətdə olmuş, onun elmə, təhsilə və gənclərə olan tövsiyyə və məsləhətlərini dinləmişdir. Dahi şəxsiyyətlə qarşılıqlı baş tutan bu görüş Naxçıvan şəhərində reallaşmış və həmin gəncin gələcək təhsil və həyat fəaliyyətində böyük rolu olmuşdur.

2022-ci il fevral ayının 2-də Azərbaycan Gəncləri gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda iştirak edən cənab prezident İlham Əliyev gənclərlə görüşündə bir sıra aktual mövzulara münasibət bildirmişdir. Əlamətdar tarixi gün münasibəti ilə gəncləri təbrik edən ölkə başçısı gənclərin suallarına öz səmimi fikirlərini bildirib. Və sonda təltif olunmuş gənclərə Prezident Mükafatı təqdim edilib.

"Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram" – ifadəsi ilə gənclərə xitab edən İlham Əliyev bizə işıqlı Azərbaycan qoyub getmiş Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısıdır.

Ulu Öndər Heydər Əliyev Dünya Türk Xalqları arasında birgə əməkdaşlığın, ortaq dil və mədəniyyətin, dostluq və qardaşlığın daha da möhkəmlənməsinə xüsusi diqqət yetirmişdir. Bu mənada onun Türkiyə və Azərbaycan xalqları üçün söylədiyi "Bir millət, iki dövlət" kəlamı bütün Türk Dünyası üçün bir çağırış şüarıdır. Bu mənada Türkiyə dövlətinin müdrik şəxsiyyəti Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri bizim kədərimiz, sevinci isə bizim sevincimizdir" müqəddəs çağırışı bütün Türk Dünyasının birliyinin təzahürüdür. Türk Dünyasının bu iki lideri öz müdrik kəlamları ilə hər iki dövlətin gələcək nəsillərinə əbədi olaraq bir mesaj qoymuşlar: Türkiyə Azərbaycan arasındakı dostluq-qardaşlıq münasibətləri əbədi və sarsılmazdır. Müasir dövrdə türk xalqları arasındakı əlaqələrin daha da sıx və dinamik inkişafı Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və digər Türk Dövlətlərinin Liderlərinin birgə səyi nəticəsində getdikcə möhkəmlənir.

Heydər Əliyev milli hislərini qəti nümayiş etdirməzdi. O, yalnız onu qalib edəbiləcək addımlar atardı. Azərbaycanın sərt sınaqlardan çıxdığı illərdə xalqla bərabər bu çətin yolu birlikdə yaşadı. Mövcud amansız şəraitə baxmayaraq öz doğma yurdundan səpələnmiş Azərbaycan xalqının bir parçasına sahib çıxdı, onlara öz haqlarını qorumağa yardımçı oldu. Atdığı hər addımı ilə həmişə səbr, dözüm nümayiş etdirsə də onun qəlbində sağalmaz Qarabağ yarası var idi. Hər zaman çıxışlarında sanki gələcəyi hiss edərək, onu yaşayaraq böyük inam və uzaqgörənliklə deyirdi : "Biz Qarabağ məsələsini həll edəcəyik. Vaxt lazımdır. Heç kim torpaqlarını Azərbaycandan ala bilməz. İşğal olunmuş torpaqlarımız mütləq geri qaytarılacaqdır. Nəyin bahasına olursa olsun." 2020-ci ildə cənab prezidentimiz İlham Əliyevin qətiyyəti və müzəffər ordumuzun böyük əzmi nəticəsində əldə olunmuş, tarixə qızıl hərflərlə həkk olunmuş möhtəşəm qələbə xəbəri Ulu Öndərin ruhu qarşısında qoyulmuş vədin yerinə yetirilməsi idi. Qarabağın döyünən ürəyi Şuşanın işğaldan azad olunması müjdəsini Şəhidlər Xiyabanından xalqa böyük həyəcan, sevinc hissi ilə çatdıran Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev öz nitqi zamanı demişdir: "Xoşbəxt adamam ki, Ata vəsiyyətini yerinə yetirdim. Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları! "

Unudulmaz siyasi lider və dövlət xadimi Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illik yubileyi bugün Azərbaycanla yanaşı, ölkə hüdudlarından kənarda da böyük təntənə ilə qeyd edilir.

## ÖZET

Haydar Alirza oğlu Aliyev, 10 Mayıs 1923'te Azerbaycan`ın en eski toprağı olan Nahçıvan Şehrinde bir demiryolu işçisinin ailesinde doğdu. Bu yüce diyar ve antik kök, kendi dünya görüşünde, maneviyatında, ahlakında ve düşünce kültürü içinde varlığını korumuştur. Haydar Aliyev'in tonlamasında ve kullandığı sözcük dağarcığında ister resmi isterse de gayri resmi görüşmelerinde bu hissedilmekteydi. Son derece gıpta edilen ise onun bilgeliğiydi. Batı`nın gurur kaynağı, Avrupa`nın medeni davranış kültürü olarak kabul edilenlerle karşılaştırıldığında Haydar Aliyev, üstünlüğünü koruyan bir doğulu olarak göze çarpıyordu.
Hem Devlet Güvenlik Makamları`nda hem de Azerbaycan Cumhuriyeti'nin başkanı olarak görev yaptığı yıllarda, kararlılığı ve cesur kararları ile pozisyonunu değiştirmeden her imkansız görevin üstesinden başarıyla gelmekteydi. Mayıs 1944`te Devlet Güvenlik Makamı`nda göreve başlayan Haydar Aliyev, çok güçlü bir istihbaratçı ve üst düzey bir organizatördü. Haydar Aliyev`in katılımıyla yapılan operasyonlar sadece Azerbaycan'da değil, bir dizi yabancı ülkenin özel hizmet makamlarının okullarında da bir profesyonellik örneği olarak öğretilmekte ve incelenmektedir. Yüce Önder, Azerbaycan Diline, Azerbaycan kültürüne, maneviyatına, ahlakına ve zihniyetine sahip çıkarak hoşgörü, özgürlük, çok kültürlü değerleri içeren ve çok kültürlülük değerlerini tebliğ eden yasal bir siyasi sistem kurdu. Dünyada meydana gelen küresel sorunlar, askeri-politik çatışmaların artmasına ve ırk ayrımcılığına rağmen Azerbaycan, çok etnikli ve farklı dinlere sahip halkların yaşadığı bir ülke olarak istikrarını her zaman korumayı başarmıştır.
Haydar Aliyev, liderliği yıllarında kültürel ve sosyo-ekonomik gelişmeye giden yolun eğitimden geçtiğini duyurdu. Eğitim alanındaki reformların önemini vurgulayan Ulusal liderin aldığı karar, kararnameler ve emirler, Azerbaycan Cumhuriyeti`nde bulunan orta, yüksek ve mesleki eğitim okullarının gelişmesine, personel potansiyelinin iyileştirilmesine, dünya standartları düzeyinde eğitim kalitesinin maddi tekniksel tabanın güçlendirilmesine hizmet göstermekteydi.
Haydar Aliyev, millî duygularını belli etmezdi. O, kendisini ancak muzaffer kılacak adımlar atardı. Azerbaycan`ın zorlu imtihanlardan çıktığı yıllarda halkla beraber bu zorlu yolu birlikte yaşadılar. Attığı her adımda sabır ve hoşgörü gösterse de kalbinde onulmaz bir Karabağ yarası vardı. 2020`de Sayın Cumhurbaşkanımız İlham Aliyev`in kararlılığı ve muzaffer ordumuzun büyük azmi sonucunda elde edilen tarihe altın harflerle kazınmış büyük zafer haberi, Yüce Önder`in ruhu önüne konan vaadin yerine getirilmesi olmuştur.

**Anahtar kelimeler:** Yüce Önder, Güvenlik Makamı, Çok Kültürlülük, eğitim, Garabağ.

## ABSTRACT

Heydar Alirza oglu Aliyev was born on May 10, 1923 in Nakhchivan, the oldest land of Azerbaijan, in the family of a railway worker. This great country, its ancient roots have preserved itself in its world view, spirituality, morals and culture of thought. This was felt in Heydar Aliyev's intonation and lexics in his talks, whether official or unofficial. What was greatly envied was his wisdom. Heydar Aliyev stood out as an oriental who protected his supremacy compared to what was considered the arrogant and civilized behavior culture of the West.

Both in the State Security Bodies and during the years he worked as the head of the Republic of Azerbaijan, he was able to cope with every impossible task with his determination and bold decisions without changing his position.

Heydar Aliyev, who started working in the State Security Agency in May 1944, was a very intelligent officer and a high-level organizer.

The operations with the participation of Heydar Aliyev are taught and studied as an example of professionalism not only in Azerbaijan, but also in the schools of the special services of a number of foreign countries.

The Great Leader established a legal and political system that includes tolerance, liberality, multicultural values and propagates the values of multiculturalism by taking ownership of the Azerbaijani language, culture, spirituality, morality and mentality of Azerbaijan.

Despite the global problems occurring in the world, the increase in military-political conflicts, and racial discrimination, Azerbaijan has always managed to maintain its stability as a country inhabited by multi-ethnic and diverse religious peoples.

During the years of his leadership, Heydar Aliyev announced that the path to cultural and socio-economic progress is through education.

The decisions, decrees and orders adopted by the national leader emphasizing the importance of reforms in the field of education served the development of secondary, higher and vocational schools located in the Republic of Azerbaijan, improvement of personnel potential, increase of the quality of education at the level of world standards, strengthening of the material and technical base.

Heydar Aliyev would not show his national sentiments. He would take steps that could only make him victorious.

During the years when Azerbaijan came out of harsh trials, it lived this difficult path together with the people. Although he always showed patience and tolerance with every step he took, there was an incurable Karabakh wound in his heart.

In 2020, the news of the great victory achieved as a result of the determination of our Mr. President Ilham Aliyev and the great determination of our victorious army, engraved in history with golden letters, was the fulfillment of the promise placed before the spirit of the Great Leader.

**Key words:** Great leader, security body, multiculturalism, education, Karabakh.

## ƏDƏBİYYAT

1. Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, 1999, s. 267.
2. Layihənin rəhbəri İlham Əliyev. Heydər Əliyev və Azərbaycanda Olimpiya Hərəkatı. Müəlliflər Çingiz Hüseynzadə, Cəmaləddin Rəhmanov. Bakı, 2002.
3. Mənsim Məmmədov, Kamil Məhəmmədli. Heydər Əliyev və Azərbaycan təhsilinin dönüş mərhələsi. Sivilizasiya elmi-nəzəri jurnal. Bakı, 2015, s. 182.
4. Nəcəf Novruzov. "Bu gün Ulu Öndərimiz Heydər Əliyevin arzuladığı sağlam, vətənpərvər, intellektli gənclik formalaşıb". https://sia.az/az/news/social/74136.html
5. Gülbəniz Babaxanlı. Heydər Əliyevin Hüseyn Cavid sevgisi. https://modern.az/edebiyyat/200152/heyder-eliyevin-huseyn-cavid-sevgisi/
6. Heydər Əliyev və multikulturalizmin Azərbaycan modeli. İradə Sarıyeva. Bakı xəbər.- 2016.- 21-23 may.- S.15

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV - ƏDƏBİ İRSİN MÜDAFİƏÇİSİ

HAYDER ALIYEV - DEFENDER OF LITERARY HERITAGE

**Bağırzadə Lalə Uğur qızı**
Cəmşid Naxçıvanski adına Hərbi Lisey

Açar sözlər: ümummilli lider, ədəbi mühit, ədəbi siyasət, Heydər Əliyev
**Özet**. Hər millətin həyatına rəhbərlik edən və onu inkişafa yönəldən bir lider lazımdır. Tarixən belə liderlər mövcud olub. Uzaqgörən siyasətləri nəticəsində dövlətləri daha yüksək səviyyəyə qalxmışdır. Biz o millətlərdən biriyik. Ümummilli lider Heydər Əliyevin yürütdüyü siyasət sayəsində Azərbaycan çiçəklənən və daim inkişaf edən bir dövlətə çevrildi. Bu siyasətin əsas hissəsi mədəniyyət siyasətidir. Hakimiyyətə gəldikdən bəri ədəbiyyata böyük marağı olan ulu öndər yazıçı və şairlərin həyatını yaxşılaşdırmaq, işlərini qiymətləndirmək üçün çoxsaylı qərarlar verdi. Sənətçilərin mükafatlandırılması, yubileylərin keçirilməsi, abidələr və məqbərələr tikmək, yeni mədəniyyət mərkəzlərinin açılması bu ədəbi siyasətin bir hissəsidir. "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin qeyd olunması türk dünyasında böyük bir hadisə idi. Yalnız Heydər Əliyev belə bir şey edə bilərdi. Ulu öndər bu addımı ilə sürgün olunan türk xalqlarını birləşdirdi. Daha sonra Füzulinin yubileyinin təşkili bu birliyi gücləndirdi. Nüfuzundan istifadə edərək ulu öndər bir sıra sənət adamlarını mükafatlandırdı və onları Sovet hökumətinin qanlı zülmündən qurtardı. Heydər Əliyevin böyük uğurlarından biri də dramaturq Hüseyn Cavidin nəşinin Sibirdən Azərbaycana gətirilməsidir. Hüseyn Cavidin məzarı tək qızı Turan Cavidin istəyi ilə Naxçıvanda dəfn olunur. Heydər Əliyev dramaturqun məzarı üzərində məqbərə ucaldır və açılışda iştirak edir. Ümumiyyətlə, zəngin bir dünyagörüşünə sahib bir dövlət xadimi həmişə yubileylərdə, mərasimlərdə və açılışlarda xüsusi çıxışlar edərdi. Hər bir şairin və yazıçı haqqında xüsusi fikirləri olardı. Prezident İlham Əliyev ulu öndərin ölümündən sonra həyata keçirdiyi ədəbi siyasəti davam etdirdi. Görkəmli şəxsiyyət Heydər Əliyevin və böyük siyasətçi İlham Əliyevin təşəbbüsləri nəticəsində Azərbaycan mədəniyyəti dünyanın aparıcı mədəniyyətləri sırasında yer alır.

Key words: national leader, literary environment, literary politics, Haydar Aliyev
**SUMMARY.** Every nation needs a leader who guides its life and directs it to development. Historically, such leaders have existed. As a result of their far-sighted policies, their states have risen to a higher level. we are one of those nations. Thanks to the policy pursued by national leader Heydar Aliyev, Azerbaijan has become a prosperous and constantly developing state. The main part of this policy is cultural policy. Since coming to power, the great leader, who has a great interest in literature, has made numerous decisions to improve the lives of writers and poets, to appreciate their work. Rewarding artists, holding anniversaries, building monuments and mausoleums, opening new cultural centers are part of this literary policy. The celebration of the 1300th anniversary of the "Kitabi-Dada Gorgud" epos was a great event in the Turkic world. Only Heydar Aliyev could do such a thing. With

this step, the great leader united the exiled Turkic peoples. Later, the organization of Fuzuli's jubilee strengthened this union. Using his influence, the great leader rewarded a number of artists and saved them from the bloody persecution of the Soviet government. One of the great achievements of Heydar Aliyev is the bringing of playwright Huseyn Javid's novel from Siberia to Azerbaijan. Huseyn Javid's grave is buried in Nakhchivan at the request of his only daughter Turan Javid. Heydar Aliyev erects a mausoleum on the tomb of the playwright and attends the opening. In general, a statesman with a rich worldview would always make special speeches at anniversaries, ceremonies, and openings. Each poet and writer would have special opinions.

President Ilham Aliyev continued the literary policy pursued by the great leader after his death. As a result of the initiatives of prominent figure Heydar Aliyev and great politician Ilham Aliyev, Azerbaijani culture is among the leading cultures in the world.

**GİRİŞ.** Tarixdə elə dövlət xadimlər olmuşdur ki, onların yürütdükləri siyasət illər boya dünyanın diqqət mərkəzində olmuş, hər daim maraq kəsb etmişdir. Bu siyasətin içərisində ədəbi siyasətdə vacib yer tutur. Dövlət xadimlərindən bir çox fəal bədii ədəbiyyat mütaliəçisi olmaqla fərqlənirlər. Hətta onlar xalq qarşısında çıxışlarındada bu mütaliədən nümunələr gətirərək hər kəsi heyran qoymağı da bacarmışdırlar. Belə dövlət xadimləri ədəbiyyatı dövlətin siyasətinin əsas üzvi hissəsinə çevirmişdirlər.

Görkəmli dövlət xadimi, ulu öndər Heydər Əliyev də ədəbiyyata xüsusi önəm vermiş, hər daim ədəbiyyata olan marağını açıq şəkildə ifadə etmişdir. Təkcə milli ədəbiyyata deyil, dünya ədəbiyyatına da olan marağı onun dünya görüşünün formalaşmasında böyük rol oynamışdır. Çıxışlarının birində ulu öndər belə qeyd etmişdir: "Şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan, hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm... mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur. Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə-sevə oxumuşdum... O illərdə, o uşaqlıq və gənclik illərində onlar mənə o qədər təsir edib ki, mən onları unutmamışam. Bu "oxumuşam, unutmamışam" sözləri sadəcə bir fikir deyil. Yəni onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm, mənəvi qida almışam"[ 4]

Uzaqgörən siyasəti ilə yanaşı ədəbi mühitə olan qayğısı ilə ulu öndər daim digər xadimlərin diqqətini çəkmişdir. Ədəbiyyatımıza verdiyi dəyəri ulu öndər nitqlərinin birində belə ifadə etmişdir:" "Ədəbiyyat bizim xalqımıza çox böyük faydalar gətiribdir. Ədəbiyyatımız bizim böyük milli sərvətlərimizdən biridir. Biz bununla fəxr etməliyik. Şəxsən mən həmişə belə hesab etmişəm, bu gün də belə hesab edirəm, daim belə düşünəcəyəm. Hesab edirəm ki, bizim ədəbiyyatımızın, bədii sözün, yazıçı sözünün cəmiyyətə, millətə, xalqa təsiri böyükdür." [3]

Elə buna görədir ki, Heydər Əliyev daim yazıçıların vəziyyətinin yaxşılaşdırılması, onların yaradıcılığının dəyərli olduğu yönündə saysız addımlar atmışdır. Ulu öndər bilirdi ki, xalqının keçmişini, bu gününü xalqa çatdıran ən yaxşı ünsür ədəbiyyatdı. Sovet rejimi dövrü milli birlikdən, soykökdən qopmaq, özümüzü unutmaq tələb olunan bir zamanda yazıçı və şairlərimizin rolu böyük idi. Belə ki onlar bir yolla elə əsərlər yaradırdılar ki, orda xalqa unutdurulmağa çalışılan dəyərlər özünü göstərirdi. Görkəmli dövlət xadimi yazıçı və şairlərdən tək bir şey istəyirdi. Yeni-yeni əsərlər yazaraq

xalqı qəflət yuxusundan oyatmaq, azadlığa səsləmək, düşmən boyunduruğundan qurtulmağa çağırmaq. Çox sevindirici haldır ki, yazıçılar ulu öndərin bu istəyini böyük məharətlə bacarırdılar. Heydər Əliyevin onlara göstərdiyi bu yüksək qayğı nəticəsində yazıçı və şairlərimizdə qarşısı alınmaz bir ruh əmələ gəlmişdi.

Heydər Əliyevin ədəbi mühit yönündə atdığı önəmli addımlar içərisində fəxri adların, medalların, yubileylərin keçirilməsi də özünü əks etdirirdi. Onun böyük nüfuzu sayəsində Süleyman Rəhimov, Rəsul Rza, Mirzə İbrahimov, Süleyman Rüstəm Sosialist Əmək Qəhrəmanı adına layiq görülmüşdülər.

Ulu öndərin böyük naliyyətlərindən biri də qədim türk eposu "Kitabi-Dədə Qorqud" –un 1300 illik yubileyinin keçirilməsi idi. Bu hadisə eposun Sovet hakimiyyətinin bir-birindən didərgin saldığı türklərin birləşməsinə və dastanın türk ədəbi mühitinə aid olması ilə bağlı əsaslı bir fakt idi. Məlumdur ki, Sovet hakimiyyəti dövründə "Kitabi Dədə Qorqud" dastanı qadağan olunmuşdu. Bunun başlıca səbəbi də azərbaycanlıları öz milli köklərindən uzaqlaşdırmaq, türkçülüyə qarşı çıxmaq idi. Heydər Əliyev bu addımı ilə Sovet rəhbərlərinə tutarlı bir cavab vermişdir. Uzaqgörən lider "Dədə Qorqud" dastanına yenidən nəfəs verməklə bütün türk xalqlarını bir araya gətirəcəyinə əmin idi. Sonra ki illərdə isə dahi şair Füzulinin 500 illik yubileyinin keçirilməsi dünyaya türk milli mədəniyyətinin açıq şəkildə göstərilməsi idi. Görkəmli xadim bu haqda nitqlərində qeyd edirdi ki, Füzuli keçmiş zamanlardan bəri türkləri birləşdirən bir şəxsiyyət olmuşdur. XX əsrdə isə türk xalqları adət-ənələri fərqli bir rejimin tərkibinə daxil olur. Belə bir zamanda Füzuli yenidən bizi birləşdirən vasitə oldu.

Heydər Əliyev həmçinin müasiri olduğu yazıçılardan İlyas Əfəndiyevin, İsmayıl Şıxlının, Anarın, Məmməd Arazın, Zəlimxan Yaqubun və digər sənətkarlarında adına mərasimlər təşkil edilməsi ilə bağlı tapşırıqlarda vermişdir. Bəxtiyar Vahabzadənin "Leninlə söhbət" poemasını, Anarın "Şəhərin yay günləri" tamaşasının, "İstintaq" filminin yaradıcı heyətinin Dövlət mükafatına layiq görülməsi bu müəllifləri rejimin təqiblərindən qorumuşdur. Heydər Əliyev fəxri adların, mükafatların yazıçı və şairləri rejimin bəlalarından qorumağa kömək etdiyini bilirdi. Bunun üçündən əlindən gələn hər şeyi edirdi. Mükafat verilən hər bir sənətkar haqqındada xüsusi şəkildə çıxış edərdi. Vilayət Əliyev özünün "Heydər Əliyev və klassik ədəbi irsimiz" adlı əsərində qeyd edirdi: "Ümumiyyətlə, Heydər Əliyevin təşəbbüsü ilə 70-ci illərdə Nəsimi təntənələri də daxil olmaqla Azərbaycan ədəbiyyatı və mədəniyyəti klassiklərinin yubileylərindən çox böyük məharətlə qədim ənənələrə malik ədəbiyyatımızın keçmişini və inkişaf yolunu göstərmək üçün istifadə olunurdu. Bu isə öz növbəsində xalqımıza və mədəniyyətimizə çoxsaylı və nüfuzlu dostlar qazandırırdı. Nəhayət, Nəsimi də daxil olmaqla klassiklərin irsinin sistemli nəşri və tədqiqi ədəbiyyat tariximizin ardıcıl şəkildə, bütün şəxsiyyətləri və hadisələri ilə öyrənilməsini təmin edirdi" [5, s50-51]

Yubiley və mərasimlərlə yanaşı Molla Pənah Vaqifin, Hüseyn Cavidin məqbərələrinin, Nəsimi, Nəriman Nərimanovun, Cəfər Cabarlının heykəllərinin ucadılması, "Gülüstan sarayı", Xoreoqrafiya məktəbi kimi abidələr ulu öndərin yürütdüyü ədəbi siyasətlərdən biri idi. Bütün bunların nəticəsində milli mədəniyyət böyük yüksəliş əldə etmişdir.

Ədəbi mühiti zənginləşdirən amillərdən biri də ev muzeylərinin açılması idi. Ulu öndər bununla bağlı belə bir nitqi var idi: "Vaxtilə, 1976-cı ildə biz böyük şairimiz Səməd Vurğunun 70 illik yubileyinə

hazırlaşanda onun ev-muzeyini bir neçə ay müddətində təşkil etdik və bu muzey indi də fəaliyyət göstərir. Ondan əvvəl 1975-ci ildə böyük bəstəkarımız Ü.Hacıbəyovun ev-muzeyini yaratdıq. Sonra Cəfər Cabbarlının 80 illik yubileyi ərəfəsində onun həm böyük abidəsini, heykəlini qoyduq, həm də ev-muzeyini yaratdıq. Böyük sənətkarımız, müğənnimiz Bülbülün də ev-muzeyini yaratdıq..." [2]
29 oktyabr 1997-ci ildə isə "Məhəmmədhüseyn Şəhriyarın anadan olmasının 90 illik yubileyinin keçirilməsi haqqında" sərəncam imzalamışdır. Ulu öndər 1997-ci il Yazıçıların X qurultayındakı çıxışında belə bir fikir ifadə etmişdir: ""Bu günlər yazıçıya, ədəbiyyata qayğılar haqqında danışıldı. Siz yaxşı bilirsiniz ki, keçmiş dövlət çərçivəsində bu qayğıları göstərmək çox çətin bir şey deyildi. Biz bunu edirdik və sizin hamınız da o qədər öyrənmişdiniz, elə bilirdiniz ki, şair anadan gələndən belə qayğı ilə əhatə olunmalıdır..." Əvəzində, həmin dövrdə Ümummilli lider Azərbaycanın tərəqqisi naminə fəaliyyətində yazıçılardan bilavasitə dəstək gözləyirdi." [2]

Sovet hakimiyyəti elə bir azğınlaşmış canavar idi ki, xalqları ruslaşdırmaq, milli köklərindən ayırmaq üçün hər vasitədən istifadə edirdilər. Bunlar içərisində xalqın inkişafına, oyanışına səbəb olan insanların təqib edilib həbs olunması, sürgün olunması da daxil idi. Gecə vaxtı kimsə qapısı döyülürdüsə, nə baş verəcəyi ev sahibinə məlum idi. Bu kimi hallar 1937-ci illərdə daha çox baş vermiş, tarixə qanlı repressiya illəri kimi daxil olmuşdur. Həmin illərdə gecə ilə gedənlər bir daha geri dönmürdülər. Çoxusu sürgün olunar, çoxusu da elə həmin gecə güllələnərdi. Qanlı repressiyadan ən çox əziyyət çəkənlər ədəbiyyat nümayəndələri olmuşdur. Onların əsərləri cümləbəcümlə yoxlanardı. Hansı şair və yazıçı hakimiyyət üçün təhlükə yaradırdısa, onun əsərlərinə müxtəlif mənalar verər və sovet hakimiyyətinə qarşı yazdığını deyərək həbs edərdilər. Neçə- neçə dəyərli sənət incilərimiz yaradıcıllıqlarının ən məhsuldar vaxtlarında həyatdan köçdülər. Mikayıl Müşfiq, Hüseyn Cavid, Əhməd Cavad, Seyid Hüseyn və digər sənətkarlarımız bu repressiyanın qurbanı oldular.

Ədəbiyyatdakı bu qanlı qırğınlar Heydər Əliyevi dərindən sarsıdırdı. Ulu öndər əlindən gələn hər şeyi etməyə çalışırdı. Bədii gecələrin təşkili, heykəllərin və abidələrin qoyulması və s. kimi addımların atılması ilə bağlı qərarlar verirdi. Böyük liderin repressiya qurbanları ilə bağlı atdığı ən böyük addımlardan biri dahi Azərbaycan drammaturqu Hüseyn Cavidin nəşinin Azərbaycana gətirilməsi olmuşdur. Ümumimilli liderin dediyi kimi tarix hər şeyini yerinə qoyur. Hüseyn Cavidin cənazəsi Sibirdən Azərbaycana gətirilir. Heydər Əliyevin tapşırığı ilə Naxçıvanda dəfn olunur və məzarı üzərində böyük bir məqbərə inşa edilir. Bu məqbərənin açılışı zamanı ulu öndər Hüseyn Cavid haqqında bu sözləri demişdir: "Azərbaycan müstəqil dövlətdir, müstəqilliyi təmin etmək üçün şübhəsiz ki, böyük çətinliklər və problemlər vardır. Amma Azərbaycan xalqı Hüseyn Cavid kimi böyük şəxsiyyətlər yaratmışdır. Azərbaycan öz müstəqilliyini bundan sonra da qoruyacaq, müharibə də qurtaracaq, torpaqlarımız da hamısı özümüzə qayıdacaq, Azərbaycan xalqı yeni mərhələdə onun daxilində olan böyük imkanları, böyük mənəviyyat potensialını bütün dünyaya nümayiş etdirəcəkdir. Mən bu fikirlərlə öz çıxışımı bitirərək sizin hamınızı bu böyük bayram münasibətilə ürəkdən təbrik edirəm, sizin hamınıza Cavid paklığı, təmizliyi, mənəviyyatı arzulayıram." [1,s 39-40]

Daha sonra Heydər Əliyev " Hüseyn Cavidin 120 illik yubileyi haqqında" sərəncam imzalayır və bu yubiley keçirilən ildə ev muzeyinində açılışı olur. Prezident İlham Əliyev uluöndərin bu addımını yüksək şəkildə qiymətləndirərək bu sözləri demişdir: "Şairin cənazəsinin uzaq Sibirdən vətəninə

gətirilməsi, məzarı üzərində məqbərənin ucaldılması adı totalitarizmin günahsız qurbanlarının rəmzinə çevrilmiş Cavidə və 1930-cu illərin repressiyalarına məruz qalmış minlərlə Azərbaycan ziyalısının xatirəsinə xalq ehtiramının təcəssümüdür". [7]

Heydər Əliyevin bu addımları daim digər ölkələrin sənətkarlarının diqqətində olurdu. Belə ki bir çox ölkənin yazıçı və şairləri bu cür diqqətdən və qayğıdan kənar idilər. Buna görə də ulu öndərin ədəbi siyasəti hər zaman yüksək şəkildə qiymətləndirilmişdir. Türk ədəbiyyatının nəhəng yazarlarından olan Çingiz Aytmatov Heydər Əliyevin ədəbi mühitə qayğısını yaxından izləmiş və ulu öndər haqqında bu fikirləri ifadə etmişdir: " Heydər Əliyev tarixi, hətta əfsanəvi şəxsiyyətdir... Heydər Əliyev onun yaşıdlarının və hətta ondan cavan olan bir çox siyasi xadimin bacarmadığı xüsusiyyəti – müasir dövrün ən aktual çağırışlarına hazır olmağı nümayiş etdirə bilmişdir. Məhz Heydər Əliyevin zəngin siyasi təcrübəsinin və humanitar dünyagörüşünün genişliyi nəticəsində indi Azərbaycanda sabitlik, tolerantlıq, mədəniyyət, maarifçilik hökm sürməkdədir. Bütün bunlar isə Azərbaycan dövlətinin müasir inkişafını və tərəqqisini təmin edəcək əsas amillərdir... Heydər Əlirza oğlu XX əsrin ən böyük liderlərindədir. O, müasir demokratik Avrasiyanın yeni tarixinin bugünkü qurucularından biridir". [6]

**NƏTİCƏ.** Doğurdan da , Heydər Əliyev nəinki Azərbaycanda, eləcə də bütün Qafqazda əsaslı dəyişikliklər edən dövlət başçısı olmuşdur. Onun irəli sürdüyü uğurlu siyasətin nəticəsində bu gün müstəqil Azərbaycan dövləti var. Bizlər öz doğma dilimizdə danışır, öz milli adət-ənənələrimizə uyğun şəkildə yaşayırıq. Ədəbiyyatımıza göstərilən diqqət sayəsindədir ki, zəngin və hərtərəfli sənət nümunələrinə malik ədəbi xəzinəmiz var. Heydər Əliyev Azərbaycanın acınacaqlı taleyini dəyişən bir lider olmuşdur. Ulu öndərin yürütdüyü uğurlu siyasəti oğlu İlham Əliyev davam etdirməkdədir. Atası kimi İlham Əliyevdə apardığı uğurlu xarici siyasətlə yanaşı, geniş daxili siyasət- xüsusilə də ədəbi siyasət aparar. Yazıçı və şairlərimizin həyatın yaxşılaşdırılması üçün lazım olan addımları atır. Prezident İlham Əliyevin göstərişi ilə 2019-cu il "Nəsimi ili" , 2021-ci il isə "Nizami ili" olaraq qəbul edilmişdir.

Böyük lider Heydər Əliyevin izi ilə gedən İlham Əliyev onun yarım buraxdığı işləri uğurlu şəkildə davam etdirməkdədir. Bunlardan ən böyüyü isə 2021-ci ildə qədim və əzəli torpaqlarımız Qarabağın düşmən tapdağından azad olunmasıdır. Qəhrəman igidlərimizin sayəsində və uzaqgörən lider vasitəsilə uzunmüddət davam edən bu işğal artıq sona çatmışdır. Azad olunmuş torpaqlara səfəri zamanı prezident Şuşa şəhərində böyük diqqət nümayiş elətdirir. Belə ki vəhşi, mədəniyyətə ac düşmənlərimizin Şuşanı işğal etdikləri zaman görkəmli sənətkarlarımız Bülbül, Xurşidbanu Natavan və Üzeyr Hacıbəyovun büstlərini gülləboran etmişdilər. İlham Əliyev isə həmin büstləri yenidən bərpa olunmuş şəkildə əvvəlki məkanına geri qaytarır.

Heydər Əliyevin başlatdığı ədəbi mühitə qayğı siyasəti İlham Əliyev şəkildə mükəmməl şəkildə davam etdirmişdir. Bunun sayəsində ədəbiyyatımız, incəsənətimiz yüksək şəkildə inkişaf edərək dünyanın qabaqcıl mədəniyyətləri sırasına daxil olmuşdur.

## ƏDƏBİYYAT SİYAHISI

1. Babaxanlı Gülbəniz, Heydər Əliyev və Hüseyn Cavid. Bakı. Proqres.2013.160s

2. Əlişanoğlu Tehran, Heydər Əliyev və ədəbi mühit...Ümummilli lider. Ədəbiyyat qəzeti. https://edebiyyatqazeti.az/news/muzakire/4082-heyder-eliyev-ve-edebi-muhitumummilli-lider
3. Əliyev Heydər, Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, 2000
4. Həbibbəyli İsa, Heydər Əliyevin dövlətçilik təlimində ədəbiyyat siyasəti və müasir dövr. Azərbaycan. 2010. 4s
5. Quliyev Vilayət, Heydər Əliyev və klassik ədəbi irsimiz // Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, Elm, 1998, 196s
6. Məmmədov Novruz, Heydər Əliyev: dahi xilaskar və dövlət qurucusu. https://1news.az/az/news/20171212124126168-Heyder-Eliyev-dahi-xilaskar-ve-dovlet-qurucusu-Newtimes-az
7. http://www.anl.az/down/meqale/adalet/2012/oktyabr/266988.htm

# HEYDƏR ƏLİYEV ELM VƏ TƏHSİLİN HİMAYƏDARI

HAYDER ALIYEV, PATRON OF SCIENCE AND EDUCATION

**Pedaqogika üzrə fəlsəfə doktoru Müjkan MƏMMƏDZADƏ**

Azərbaacan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası,

ORCİD İD: 0000-0001-5693-3748

## XÜLASƏ

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının gələcəyinə istiqamətlənmiş strategiyasında təhsil sahəsinin inkişaf etdirilməsi prioritet istiqamətlərdən biri olub. "Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır", - deyən dahi rəhbər təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşıb. Bu istiqamətdə həyata keçirilən islahatlar təhsilin bütün pillələrini və maddi-texniki bazasını əhatə edib. Ötən əsrin 70-ci illərindən başlayaraq Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda aparılan təhsil islahatları bu sahənin inkişafında xüsusi mərhələ təşkil edir.

"Təhsil millətin gələcəyidir", - deyən Ulu Öndər Azərbaycana rəhbərliyinin ikinci dövründə (1993-2003) bu sahənin inkişafına xüsusi diqqət yetirirdi. Nəzərə almaq lazımdır ki, ötən əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərindən başlayaraq Ermənistanın təcavüzkar siyasəti nəticəsində soydaşlarımızın deportasiyası və Qarabağın dağlıq hissəsinin işğal edilməsi ilə bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün düşməsi Azərbaycan təhsili üçün əlavə çətinliklər yaratmışdı. Respublikanın çox ağır vəziyyətində rəhbərliyə qayıdan Heydər Əliyev bir çox problemləri həll etməklə yanaşı, təhsil sahəsində zamanın tələblərinə uyğun islahatlar həyata keçirməyə başladı. 1991-1993-cü illərdə təhsil müəssisələrinin pozulmuş fəaliyyəti normal vəziyyətə gətirildi, planlı islahatların əsası qoyuldu. Ümumtəhsil məktəblərinin sayı və şagird kontingenti əsaslı surətdə artdı.

"Təhsil sistemimizin hazırkı vəziyyətini, onun problemlərini dərindən öyrəndikdən sonra prioritet sahələr müəyyən edilməlidir", - deyən Ulu Öndər Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi üçün mühüm işlər görüb.

İslahatlar təkcə təhsil müəssisələrini əhatə etmir, gənclərin təhsilə həvəsləndirilməsi üçün də əsaslı işlər görülürdü. Ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında Fərman da bunun bariz nümunəsidir.

**Açar sözlər:** ulu öndər, təhsil, islahatlar, tələbə, ümumtəhsil məktəbləri

**ABSTRACT**

The development of the field of education was one of the priority directions in the strategy of the great leader Heydar Aliyev aimed at the future of the people of Azerbaijan. "The field of education is the most necessary and important field of our life. It should be built on the basis of national goals and interests," said the genius leader, treating education policy as one of the basic principles of statehood. The reforms carried out in this direction covered all levels of education and the material and technical base. The educational reforms carried out in Azerbaijan under the leadership of Heydar Aliyev since the 70s of the last century constitute a special stage in the development of this field.

"Education is the future of the nation," said the Great Leader, who paid special attention to the development of this field during the second period of his leadership in Azerbaijan (1993-2003). It should be taken into account that the deportation of our compatriots and the occupation of the mountainous part of Karabakh as a result of the aggressive policy of Armenia from the end of the 80s to the beginning of the 90s of the last century and the fact that more than one million Azerbaijanis became refugees and internally displaced created additional difficulties for Azerbaijani education. Heydar Aliyev, who returned to the leadership in a very difficult situation of the republic, besides solving many problems, began to implement reforms in the field of education in accordance with the requirements of the time. In 1991-1993, the disturbed activity of educational institutions was brought back to normal, and the basis of planned reforms was laid. The number of secondary schools and the number of students increased substantially.

"After studying the current state of our education system and its problems in depth, the priority areas should be determined," said the Great Leader, who has done important work in Azerbaijan for the implementation of the education strategy in accordance with the experience of developed countries of the world.

The reforms did not cover only educational institutions, fundamental work was also done to encourage young people to study. The Decree on establishing the Presidential scholarship for higher school students is a clear example of this.

**Keywords:** great leader, education, reforms, students, secondary schools

# HEYDƏR ƏLİYEV – MÜASİR AZƏRBAYCAN DÖVLƏTİNİN QURUCUSU

HEYDAR ALIYEV – THE FOUNDER OF THE MODERN STATE OF AZERBAIJAN

**b/m Günel KAZIMOVA**

Bakı Avrasiya Universiteti
Tərcümə kafedrasının fransız dili müəllimi, Bakı/Azərbaycan

## ÖZET

Məqalə Azərbaycan Respublikasının ümummilli lideri ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmişdir. Məqalənin əsas mövzusu onun Azərbaycan xalqı və dövləti qarşısındakı xidmətlərindən bəhs edir. H. Əliyev siyasəti nəinki suveren Azərbaycan Respublikasının təşəkkül tapmasında, həmçinin regionda və beynəlxalq aləmdə həm siyasi, həm də iqtisadi cəhətdən böyük rol oynamışdır. O həm də, siyasi lider kimi dünya siyasi liderləri arasında xüsusi yerə malik olmuş, onun tövsiyyə və məsləhətləri bu liderlərin yürütdüyü siyasətdə istiqamət təşkil etmişdir. H. Əliyevin müdrik siyasəti nəticəsində ərazicə kiçik dövlət olan Azırbaycan Respublikası hal-hazırda dünyanın həm iqtisadi, həm də siyasi sahəsində iddialı və nüfuzlu bir dövlətə çevrilmişdir. Bu da dünya xəritəsində Azərbaycan Respublikasının xüsusi rəngə malik olması deməkdir.

H. Əliyev ideyaları keçmiş tarixə əsaslanaraq, müasirlik və gələcək deməkdir. Bu nəinki Azərbaycan xalqı üçün, həm də burada yaşayan digər millətlər üçün parlaq gələcək deməkdir. H. Əliyev təkcə Azərbaycan xalqının deyil, həmçinin bütün türk dünyasının lideri sayılır.

Görkəmli dövlət, siyasi və hərbi xadimlər kimi dünyada böyük hörmət və şöhrət qazanmış Franklin Ruzvelt, Şarl de Qoll, Mustafa Kamal Atatürk kimi tarixi şəxsiyyətlərlə bir sırada duran və müasir dünyanın olimpində alternativi olmayan Heydər Əliyev şəxsiyyəti elə bir zirvədir ki, onun haqqında söz demək və Azərbaycan xalqının xoş gələcəyi naminə gördükləri işləri sadalamaq və qələmə almaq çox çətin, çətin olduğu qədər də məsuliyyətli və şərəfli, hər bir azərbaycanlıda qürur və fəxarət doğuran bir işdir.

**Açar sözlər:** Ümummilli lider, Əsrin müqaviləsi, Azərbaycan gəncliyi, qadın təhsili, dil siyasəti, vətən müharibəsi

## ABSTRACT

The article is dedicated to the 100th anniversary of Heydar Aliyev, the national leader of the Republic of Azerbaijan. The main topic of the article is about his services to the people and state of Azerbaijan. The policy of H. Aliyev played a great role not only in the formation of the sovereign Republic of Azerbaijan, but also in the region and the international world, both politically and economically. He also had a special place among world political leaders as a political leader, and his recommendations and advice formed the direction of the policies pursued by these leaders. As a result of the wise policy of H. Aliyev, the Republic of Azerbaijan, which is a small state in terms of territory, has now become an ambitious and

influential state in both the economic and political spheres of the world. This means that the Republic of Azerbaijan has a special color on the world map.

Based on past history, H. Aliyev's ideas mean modernity and future. This means a bright future not only for the people of Azerbaijan, but also for other nationalities living here. H. Aliyev is considered the leader not only of the Azerbaijani people, but also of the entire Turkic world.

The personality of Heydar Aliyev, who has gained great respect and fame in the world as an outstanding state, political and military figure, who stands alongside historical figures such as Franklin Roosevelt, Charles de Gaulle, Mustafa Kemal Atatürk and has no alternative in the Olympic Games of the modern world, is such a peak that talking about him and Azerbaijan It is very difficult to list and write down the work done for the sake of the good future of our people, it is a responsible and honorable task, which makes every Azerbaijani feel proud.

**Keywords:** National leader, Contract of the Century, Azerbaijani youth, women's education, language policy, civil war

## GİRİŞ

Məqaləni ümummilli lider Heydər Əliyevin unudulmaz və hər bir azərbaycanlının həyat devizinə çevrilən bir cümləsilə başlamaq istərdim.

***"Hər bir insan üçün onun milli mənsubiyyəti, onun qürur mənbəyidir...***

***Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam!"***

***Heydər Əliyev***

Bildiyimiz kimi, 2023-cü il may ayının 10-da Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Bununla əlaqədar olaraq, Azərbaycan Respublikasının Prezidentinin müvafiq sərəncamı ilə 2023-cü il "Heydər Əliyev İli" elan edilmişdir.

Hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi insanlar vardır. Həmin dahilər öz qətiyyətləri ilə mənsub olduqları xalqı arxasınca aparıb, ən həlledici məqamlarda qalib rolunu oynamışlar. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, gözəl natiq, müdrik dövlət xadimi kimi düşmüşdür. Ölkəmiz bu gün dünya arenasında yüksəldiyi mərtəbəyə Heydər Əliyevin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində çata bilmişdir.

Heydər Əliyev dövrü Azərbaycan tarixində tərəqqi və inkişaf mərhələsi adlandırılır. Ölkədə ən kəskin ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Heydər Əliyev Azərbaycanın müstəqil dövlətçiliyini qorudu və onu parçalanmaq təhlükəsindən xilas etdi. Demək olar ki, müasir

Azərbaycan dövlətinin bütün uğurlarının təməlində ümummilli liderin müdrik siyasəti dayanır və bu gün bu siyasət onun layiqli davamçısı İlham Əliyev tərəfindən davam etdirilir.

Azərbaycan xalqı qədim tarixə, dərin milli-mədəni və mənəvi irsə, eləcə də böyük dövlətçilik ənənələrinə sahib olan bir xalqdır. Tarixə nəzər salsaq, görərik ki, yalnız bu keyfiyyətləri özündə cəmləşdirən xalqlar geniş əhali kütləsini öz ardınca aparmağı bacaran şəxslər yetişdirə bilər.

Bəli, Heydər Əliyev Azərbaycanı dünyaya tanıdan bir şəxsiyyətdir. Ulu Öndərin ömür yolu vətənə və xalqa xidmət nümunəsidir. Barəsində söz açılarkən, insanlar onun haqqında Heydər baba və ya sadəcə baba deyər, ona olan böyük inam və ehtiramın səmimiliyini nümayiş etdirərlər. Əlbəttə ki, ulu öndər bu titulların hamısına öz zəhməti, əməlləri və səmimiyyəti ilə nail olmuşdu. Onun 1969-1982-ci illərdə Azərbaycanın rəhbəri kimi gördüyü işlər xalqın yaddaşında daim qalacaqdır.

Vətəninə, dövlətinə, xalqına, ana dilinə bağlı olan ümummilli lider daima öz güclü siyasəti, xalqın arasında olan bir lider, uşaqla uşaq, böyüklə böyük kimi rəftarı ilə hər bir azərbaycanlının rəğbətini qazanmışdır.

Ümummilli liderin dediyi kimi, "Həyatın mənası çox və yaxud az yaşamaqdan ibarət deyil, onun əsas mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır".

Bəli, bu sözlərin müəllifinin tarixə böyük siyasi lider, dövlət xadimi kimi düşməyi ilə bərabər, XX əsr Azərbaycan siyasi natiqliyinin, nitq mədəniyyətinin təşəkkül tapmasında da rolu əvəzedilməzdir. Heydər Əliyev öz sadə, səmimi cümlələrilə insanlarda nikbin əhval-ruhiyyə yaradır, nitqilə çıxış etdiyi bütün auditoriyaları bəzəyirdi.

Bütün həyatını xalqının xoşbəxt gələcəyinə, qüdrətli Azərbaycan dövlətinin yaradılmasına və inkişafına həsr etmiş ümummilli liderin vətən və xalq qarşısındakı xidmətlərini saymaqla bitməz. Azərbaycanda beynəlxalq normalara söykənən demokratik və hüquqi dövlətin yaranması, milli və mənəvi dəyərlərimizin qorunub saxlanması, bu dəyərlərin ümumbəşəri ideyalarla daha da zənginləşdirilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, yeni iqtisadi kursun müəyyənləşdirilməsi və inkişafı prosesi məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Məlum olduğu kimi, Azərbaycanın geopolitik vəziyyəti, zəngin təbii sərvətlərə malik olması və dünya ölkələrinin diqqət mərkəzində qalması, onun iqtisadiyyatının sürətlə inkişaf etdirilməsini tələb edir. Bu da tarixən neft hasilatı və neft emalı sahələri ilə bilavasitə bağlı olmuş və iqtisadiyyatın bütün sahələrinə öz təsirini göstərmişdir. Heydər Əliyev həmişə deyərdi ki, "İqtisadiyyatı güclü olan dövlət, hər şeyə qadirdir". Bu da ümummilli liderin iqtisadiyyatın inkişafı sahəsindəki siyasətinin süjet xəttini təşkil etmişdir. Bu baxımdan 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" Azərbaycan dövlətinin suveren bir dövlət kimi inkişaf etməsi və möhkəmlənməsində, beynəlxalq aləmdə tanınmasında, Avropa ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində, suveren bir dövlət kimi müdafiə qabiliyyətinin gücləndirilməsində, ən əsası isə Azərbaycan xalqının maddi rifah halının yaxşılaşdırılmasında ən vacib bir addım hesab olunur. 29 il öncə imzalanmış "Əsrin

müqaviləsinin" Heydər Əliyevin uzaqgörən siyasətinin davamı olaraq, hazırki dövrdə Avropa ölkələrinin enerji təhlükəsizliyinin təmin olunması üçün prezident İlham Əliyevin atdığı müdrik addımlarla həmin ölkələrdə yaranmış enerji qıtlığının aradan qaldırılmasında böyük rolu olmuşdur.

Ulu öndər Heydər Əliyevin bilavasitə iştirak ilə Bakıda, həmçinin dünyanın ən böyük paytaxtları – Moskva, Vaşinqton, London və Parisin  möhtəşəm saraylarında xarici ölkələrin neft şirkətləri ilə 21 neft sazişi imzalanmışdır. Bu gün həmin sazişlərin həyata keçirilməsində dünyanın 14 ölkəsinin 30 neft şirkəti iştirak edir. Bu sazişlərdə Azərbaycan neft-qaz sənayesinə təxminən 60 milard ABŞ dolları həcmində sərmayə qoyulması nəzərdə tutlmuşdur. Bu məbləğdən 20 milyarda yaxını artıq ölkəmizə inevestisiya şəklində qoyumuşdur.

Azərbaycan Respublikasının inkişaf tarixində 70-80-ci illər dönüş illəri hesab olunur ki, bu da ulu öndər Heydər Əliyevin rəhbərliyi altında əsaslı quruculuq işlərinin, kənd təsərrüfatının və sənayenin inkişafının sürətləndirilməsi ilə müşahidə olunmuşdur. Məhz bu dövrdə əhalinin hər nəfərinə düşən milli gəlirin iki dəfə, sənaye istehsalının isə üç dəfə artması, respublikada 250-dən artıq mühüm müəssisənin, yeni sexlərin texnika və mütərəqqi texnologiya əsasında tikilib istifadəyə verilməsi regionların inkişafına öz müsbət təsirini göstərmişdir.

Bu dövrdə Azərbaycanda 40-dan artıq maşınqayırma və metal emalı müəssisəsi istismara verilmişdir ki, onlar da 12 orta və kiçik şəhər və rayonlarda yerləşdirilmişdir. Qısa bir müddətdə respublika nəhəng tikinti meydanına çevrilmişdir ki, bu da Bakıda, Sumqayıtda, Gəncədə, Naxçıvanda və digər şəhər, rayon və kəndlərdə geniş quruculuq və abadlıq işləri, həmçinin məktəblər, mədəniyyət evləri, inzibati binalar, yaşayış evləri, səhiyyə ocaqları, suvarma kanallarının tikilib istifadəyə verilməsi ilə öz təsdiqini tapmışdır.

Onu da qeyd etmək lazımdır ki, Heydər Əliyevin Azərbaycana rəhbərliyi bir-birindən tamamilə fərqlənən iki müxtəlif sistemə - sosializm və demokratik cəmiyyət dövrünə təsadüf edir.  Heydər Əliyev istər sosializm, istərsə də bazar iqtisadiyyatı şəraitində ağır böhran vəziyyətində Azərbaycan Respublikasına rəhbərlik etməyi qəbul etmiş, hər iki sistemdə tezliklə böhran aradan qaldırılmış və sürətli inkişafa nail olunmuşdur. Təbii ki, bütün bunlarda ümummilli lider Heydər Əliyevin islahatçılıq məharəti və yüksək idarəçilik keyfiyyətləri danılmazdır. Bu mövzuda bircə faktı qeyd etmək kifayətdir ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrün 1970-1980-cı illəri əhatə edən on ili ərzində ölkəmizin kənd təsərrüfatına ondan əvvəlki yarım əsr ərzində, yəni 1920-1970 illərdə cəlb edildiyindən daha çox sərmayə qoyulmuşdur.

Heydər Əliyevin təhsil sahəsindəki siyasəti də danılmazdır. Bildiyimiz kimi, müasir dövrümüzün tələblərindən biri də qadınların kişilərlə bərabər hüquqa malik olması, yüksək dövlət vəzifələrində çalışması, təhsil almasıdır. Azərbaycan qadınına ən yüksək qiyməti ümummilli lider Heydər Əliyev verib. Burada Heydər Əliyevin bildirdiyi bir fikri xatırlatmaq istərdim: "Biz çalışmalıyıq ki, ali məktəblərdə və texnikumlarda daha çox qadın təhsil alsın, elmi fəaliyyətlə məşğul olsun. Xüsusən, kənddə qadınlar və uşaqlar arasında bədən tərbiyəsi və idmanın daha da inkişaf etdirilməsi problemlərinə biz diqqətimizi xeyli artırmalıyıq".

Qeyd etmək lazımdır ki, hər zaman elmə, inkişafa, müasirliyə həvəs göstərən Azərbaycan xalqı qadınların təhsil alması, onların hüquqlarının qorunması, ictimai fəaliyyətlə məşğul olması məsələsində ifrat mühafizəkar olmamışlar. Hələ XX əsrin əvvəlində yaranan Azərbaycan Xalq Cümhuriyyəti nəinki ümumilikdə Şərqin, həm də Qərbin bir sıra dövlətlərindən də əvvəl qadınların seçki hüququnu tanıyan bir dövlət olub. Ən əsası Azərbaycanda qızların təhsil alması məsələsinə münasibət olduqca yüksək səviyyədə olub. Bu da öz növbəsində, dövrümüzdə aktiv ictimai fəaliyyətlə məşğul olan, elm xadimi olan qadınlar təbəqəsinin formalaşmasına gətirib çıxarıb. Bu məqamda Azərbaycan Respublikasının I vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, vaxtilə YUNESKO-nun, hal-hazırda isə İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın fəaliyyətini xüsusi qeyd etmək olar. Onun çoxşaxəli fəaliyyəti Azərbaycan qadını üçün bir nümunədir.

Heydər Əliyev Azərbaycana, onun tarixi və bu günü ilə bağlı biliklərin tədris edilməsinə böyük önəm verən və bunu vətənpərvərlik tərbiyəsinin ən mühüm amili hesab edən bir şəxsiyyət idi. Heydər Əliyevin bu gün də yaşamaqda olan ideya-siyasi varlığına öz münasibətimizi təkcə iftixar hissi keçirməklə deyil, həm də bu ideya dünyasını öyrənmək, tədqiq etmək və həyata keçirməklə ifadə etməliyik. Əsas məsələ bu ideyalara sahib çıxan yeni nəslin yetişdirilməsidir. Bu da daha çox biz müəllimlərin öhdəsinə düşür.

Heydər Əliyev müasir gənclər siyasətinin banisidir. Hələ 1969-1982-ci illərdə Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrlərdə yüzlərlə yeni tədris ocaqları, gənclik mərkəzləri, hərbi məktəblər təsis edilmiş, minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almış, müasir ixtisaslara yiyələnmişdir. O, Azərbaycan gəncliyi haqqında vurğuladığı bir fikrində belə deyir: “Bizim bu günkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvərdir, xalqını, millətini sevən gənclikdir. Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri izləməli və bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir.” H. Əliyevin müdrik siyasətinin əsasını təşkil edən amillərdən biri də gələcəkdə hərb sahəsində azərbaycanlı kadrların yetişdirilməsində mühüm rol oynayan təhsil ocağının açılması idi. O buna da nail oldu. Bu baxımdan Bakıdakı Cəmşid Naxçıvanski adına hərbi litseyini qeyd etmək yerinə düşər.

Azərbaycanın tərəqqisində, onun iqtisadi, siyasi və mədəni həyatında, demokratik dövlət və cəmiyyətin qurulmasında gənclərinin rolu danılmazdır. Ölkəmizin tarixinə nəzər saldıqda, onun hər mərhələsində gənclərimizin özünəməxsus rol oynadığının şahidi olarıq.

Ümummilli lider gənclərimizə məhz ana dili əsasında dünyanı dərk etməyi məsləhət görürdü. Azərbaycan gənclərinə xarici dilləri - ingilis, alman, fransız, rus, ərəb, çin və s. dilləri öyrənməklə, ilk növbədə, öz ana dilini daha mükəmməl bilməyi tövsiyə edirdi. Onun təşəbbüsü və fəal iştirakı ilə 1995-ci il oktyabrın 31-də Konstitusiyanın Dövlət dili haqqında maddəsi ilə bağlı keçirilən gərgin və tam demokratik müzakirələr nəticəsində Azərbaycan dilinin qanuni haqqı bərpa edildi. Həmin ilin 12 noyabr tarixində qəbul olunan Konstitusiyada Azərbaycan dili Azərbaycan Respublikasının Dövlət dlili kimi təsdiq olundu. O deyirdi : “Dil hər bir millətin milliyinin əsasıdır. Ona görə də hər bir gənc öz ana dilini, Azərbaycan dilini, müasir Azərbaycan dilini ən incıliklərinə qədər bilsin və bu dildən istifadə etsin. Biz müstəqil Azərbaycanda Azərbaycan dilini dövlət dili etdiyimiz kimi, cəmiyyətimizdə də, xal qımızın içində də Azərbaycan dilini mütkəq hakim dil etməliyik.”

Heydər Əliyevin müəllifi olduğu inkişaf strategiyasının prezident İlham Əliyev tərəfindən inamla həyata keçirilməsinin nəticəsi olaraq, ötən 20 ildə Azərbaycanın dövlət müstəqilliyi daha da möhkəmlənmiş, ölkəmiz beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilmiş, ölkədə davamlı və tarazlı inkişaf getməkdədir.

Heydər Əliyev müdrik dövlət xadimi, dahi siyasətçi olmaqla bərabər, həm də alovlu vətənpərvər idi. Azərbaycanımızın hər bir guşəsi, hər bir bölgəsi kimi Dağlıq Qarabağ da onun üçün əziz və doğma olmuşdur. Zaman-zaman Azərbaycan torpaqlarına göz dikən ermənilərin ötən əsrin ikinci yarısında fəallaşmalarının qarşısı məhz ulu öndərin qətiyyəti sayəsində alınmışdı. Hələ Dövlət Təhlükəsizlik Komitəsinin sədri olarkən erməni millətçilərinin hərəkətlərinin qarşısını dəfələrlə qətiyyətlə alan Heydər Əliyev 1967-ci ilin iyun ayında Xankəndidə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsini tələb edən vərəqələri yayanların və bu işlərin təşkilatçılarının tutulub cəzalandırılmalarına nail olmuşdu. Dağlıq Qarabağda yaşayan azərbaycanlılar 1967-ci ildən başlayaraq ulu öndərin xilaskar fəaliyyətinin şahidi olmuş, onun vətənpərvərliyini, millətsevərliyini daha yaxından hiss etmişlər.

Heydər Əliyevin Dağlıq Qarabağdakı ən böyük xidmətlərindən birincisi isə heç şübhəsiz, Azərbaycan dilinin dövlət dili səviyyəsinə qaldırılması olub. Həmin dövrə qədər vilayətdə idarə, müəssisə və təşkilatlarda, məktəblərdə, səhiyyə və mədəniyyət müəssisələrində ad göstəriciləri erməni və rus dillərində, habelə bütün yazışmalar da bu dillərdə aparılırdı. Ulu öndərin qəti tapşırığı ilə vilayətin erməni və rus dilli məktəblərində Azərbaycan dili tədris olunmağa başlandı. Vilayətin partiya, sovet, hüquq-mühafizə orqanlarının və digər təşkilatların inzibati binalarının lövhələrinin Azərbaycan dilində yazılmasına başlanması da 70-ci illərə təsadüf edir. Dağlıq Qarabağda səhiyyənin inkişafı da məhz Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan Tibb İnstitutunu bitirən azərbaycanlılar təyinatla vilayətə göndərilir, milli kadrlarla həmin səhiyyə ocaqları möhkəmləndirilirdi. Bir sözlə, azərbaycanlıların vilayətə axını üçün münbit şərait yaradılmışdı. 1970-ci ildə DQMV-nin (Dağlıq Qarabağ Muxtar Vilayəti) ümumi əhalisinin 18 faizi azərbaycanlı olduğu halda bu rəqəm 1989-cu ildə 30 faizi keçmişdi.Erməni millətçilərinin ciddi narahatçılığına səbəb olan bu artım, xalqımızın dahi oğl u Heydər Əliyevin uzaqgörən və müdrik siyasətinin bəhrəsi idi. 80-ci illərin əvvəllərində vilayətdə azərbaycanlıların sayı daha da yüksək həddə çatmış, bu artım erməni millətçilərinin ciddi narahatlığına səbəb olmuşdur.

Bildiyiniz kimi, 1990-cı illərin əvvəllərindən Azərbaycan torpaqlarının 20 faizi bədnam qonşumuz Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş və 30 il müddətində işğal altında qalmışdır. Erməni təcavüzü nəticəsində yüzlərlə yaşayış məntəqəsi zəbt edilmiş, sosial obyektlər, məktəblər, uşaq bağçaları, klublar, kitabxanalar, məktəbəqədər müəssisələr, poliklinikalar, ambulatoriyalar, aptek və digər tibb müəssisələri, məscidlər dağıdılmışdır. Ermənistandan qovulmuş soydaşlarımızın 380 kəndi ələ keçirilmiş və bütün var-dövləti orada qalmışdır. Respublikamıza təxminən 50 milyard ABŞ dollarından artıq məbləğdə ziyan dəymişdir. Bu 30 illik işğal dövründə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş 4 qətnamənin heç biri icra edilməmişdir.

Ümummilli lider Heydər Əliyev Qarabağ həqiqətlərini bütün dünya ictimaiyyətinə olduğu kimi çatdırmaq üçün var qüvvəsi ilə çalışmışdır. O, istər dövlət başçıları, istərsə də xarici ölkələrdə olan Azərbaycan diasporunun nümayəndələri, iş adamları, qeyri-hökumət təşkilatlarının

nümayəndələri ilə görüşlərində Qarabağın Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olması fikrini əsaslandırmış və buna da nail olmuşdur.

1993-cü il oktyabrın 3-də və 1998-ci il oktyabrın 11-də Azərbaycan Prezidenti seçilən Heydər Əliyevin son nəfəsinə kimi əsas amalı əvvəlki hakimiyyətin qoyub getdiyi çox çətin bir problemi - Dağlıq Qarabağ münaqişəsini həll etmək olmuşdu. Ulu Öndər həmişə Qarabağ haqqında ağrı ilə danışırdı. O, Azərbaycanı Qarabağsız, Şuşasız təsəvvür etmirdi. O bu barədə deyirdi: "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur." Həmişə çıxışlarında Azərbaycan xalqını əmin edirdi ki, bir gün mütləq Şuşaya, Qarabağa qayıdacaq.

Heydər Əliyev demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə ümidlər bəsləyirəm". Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə riayət edilməsi əsasında diplomatik vasitələrlə həlli hər zaman Azərbaycan Prezidenti İlham Əliyevin xarici siyasətinin prioriteti olmuşdur və öz çıxışlarında dəfələrlə bəyan etmişdir ki, Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycan ərazilərinin bütövlüyü çərçivəsində həll edilə bilər.

Qondarma Dağlıq Qarabağ problemi beynəlxalq hüquq normalarına uyğun olaraq öz ədalətli və sülh yolu ilə həllini tapmadığı üçün, ölkə başçısı cənab İlham Əliyevin göstərişi ilə Azərbaycan xalqı, onun Silahlı Qüvvələri işğal olunmuş və Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağı 30 ildən sonra, 27 sentyabr 2020-ci il tarixində başlayan, 44 gün ərzində davam edən Vətən müharibəsində silah gücünə azad etdi. Bu, Azərbaycan xalqının təbii, ayrılmaz və konstitusion hüququ idi. Budur, həqiqətən də, 30 ildən sonra Heydər Əliyevin səylə çalışdığı, lakin, axıra çatdıra bilmədiyi işləri ali baş komandan İlham Əliyevin rəhbərliyi altında qüdrətli Azərbaycan ordusu başa çatdırdı. Bu həm də dünya hərb tarixinə yeni bir taktika kimi düşmüşdür. Nəhayət, Azərbaycan xalqı 30 illik həsrətdən sonra öz doğma torpaqlarına qovuşdu. Bu həm də o deməkdir ki, BMT Təhkükəsizlik Şurasının icra etmədiyi 4 qətnaməsi Azərbaycan silahlı qüvvələri tərəfindən öz həllini tapdı.

Prezident İlham Əliyev 2020-ci il noyabrın 8-də Şəhidlər xiyabanından xalqa müraciətində Şuşanın azad olunması müjdəsini verərək Ulu Öndərin vəsiyyətini yerinə yetirdiyini qürurla qeyd etdi: "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları! Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!"

44 günlük Vətən müharibəsi dövründə 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəkliklər azad olundu. Mənfur düşmənin əksər texnikası məhv edildi, canlı qüvvəsinə ciddi zərbə vuruldu. Darmadağın edilən Ermənistan ordusu, atəşkəs ərəfəsində artıq vahid komandanlığı olmayan, müqavimət qabiliyyətini itirmiş, başıpozuq dəstələri xatırlatdı.

Azərbaycan Dağlıq Qarabağın incisi olan Şuşa şəhərini, onun ardınca bir gündə 70-dən artıq kəndi, 8 strateji yüksəkliyi azad etməklə, Ermənistanı diz çökdürdü və kapitulyasiyaya məcbur etdi. Ermənistanın daxilindəki hazırkı biabırçı mənzərə və gərgin vəziyyət, Paşinyana qarşı artan etirazlar, bununla müqayisədə Ali Baş Komandan, Prezident İlham Əliyevin fəxrlə

bəyannaməyə imza atması, Azərbaycan xalqının əhval-ruhiyyəsi, bayram sevinci kimin qalib, kimin isə məğlub olduğunu aydın şəkildə nümayiş etdirdi.

Bu qələbə azərbaycanlılar haqqında məğlub xalq sindromunu sındırdı, xalqın inamını özünə qaytardı. Bütün dünya gördü ki, Azərbaycan xalqı heç vaxt məğlubiyyətlə barışmayacaq və gec-tez öz amalına qovuşacaqdır. Prezident İlham Əliyevin son 20 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasının ən başlıca səbəbidir.

Qarabağ Zəfəri Heydər Əliyev ideyalarının təntənəsidir. Bu gün ümummilli liderin arzuladığı Qarabağ, onun tacı olan Şuşa tarixi sahibinə qovuşub, doğma yurdumuza 30 ildən sonra yenidən həyat qayıdır. Tarixi Şuşanı çox sevən ulu öndər onun iqtisadi-mədəni inkişafında xüsusilə böyük səylər göstərmişdi.

Mənalı və şərəfli ömrünü Azərbaycan dövlətinə, xalqına təmənnasız xidmət etməklə əbədiyaşarlıq rəmzinə çevrilən ümummilli lider Heydər Əliyev haqlı olaraq "Dünyanın ən böyük azərbaycanlısı" adlandırılır. O həm də, dünya siyasəti tarixində ən böyük liderlərdən biri sayılır. Bu baxımdan dünya siyasətindəki ədalətli, sülhsevər roluna görə müxtəlif xarici ölkələrdə böyük nüfuza malik olmuş və həmin ölkələrdə onun xatirəsini əbədiləşdirməkdən ötrü, abidələri ucaldılmış, adına küçələr və mərkəzlər salınmışdır.

Azərbaycançılıq məfkurəsinin Heydər Əliyevin tarixi qayıdışının Azərbaycan gerçəkliyinə gətirdiyi ən dəyərli və gərəkli ideya olduğunu vurğulamaq əslində bir daha onun böyüklüyünü etiraf etməkdir. Azərbaycandakı dayanıqlı sabitlik, milli birlik və həmrəylik sözün həqiqi mənasında həm də Heydər Əliyevin azərbaycançılıq baxışlarına minnətdar olmalıdır.

Ölkənin və onun əhalisinin təhlükəsiz, əmin-amanlıq şəraitində və rifah halında yaşaması sosial-siyasi və milli-əxlaqi mühitin, tolerantlığın, birgə yaşayış norma və qaydalarının mövcüdluğunu özündə ehtiva edir, bu da özü-özlüyündə güclü dövlət anlamını verir. Tolerantlıq nöqteyi-nəzərdən Azərbaycan dövlətini bütün dünya ölkələrinə nümunə kimi göstərmək olar. Heydər Əliyevin qurduğu və İlham Əliyevin daha da kamilləşməsi üçün yorulmadan fəaliyyət göstərdiyi müstəqil, demokratik, hüquqi, dünyəvi, sosial Azərbaycan dövləti məhz bu parametrlərə malik olub ölkənin gələcək və sürətli inkişafının mühüm başlanğıcını təşkil edir.

## NƏTİCƏ

Bu gün Azərbaycanın adı bütün göstəricilərə görə dünyada lider ölkələr sırasında çəkilir. Prezident İlham Əliyev müasir, qüdrətli, inkişaf etmiş Azərbaycan dövləti yaratmışdır. Daha işıqlı sabahlar, xoşbəxt günlər öndədir. Sabahkı günlərimiz barədə proqnoz verən hər kəs çəkinmədən, qətiyyətlə söyləyir ki, Azərbaycan dövlətinin bütün uğurlarının təməlində Heydər Əliyevin müdrik siyasəti, möhtəşəm siyasi kursu dayanır.

Beləliklə, Heydər Əliyevin yaratdığı müstəqil Azərbaycan dövləti indi güclü Azərbaycan dövləti kimi tanıtma nişanına sahib ola bilmişdir. Vaxtilə hər birimizin qürur mənbəyi olan müstəqil Azərbaycan indi bütün azərbaycanlıların iftixarına çevrilmiş güclü Azərbaycandır.

**Ədəbiyyat Siyahısı:**

Alışanova, Mehriban (2006), *"Heydər Əliyev iqtisadi müstəqilliyimizin banisidir",* Bakı, Çinar-Çap, 24-30

Əliyev, Vilayət, (2003) "*Heydər Əliyevin dil siyasəti",* Bakı, Nurlan, 17-22

Hüseynova, İradə, (2004) *"Müstəqil Azərbaycan dövlətinin qurucusu"*, Bakı,Təhsil, 22, 33, 59

Xələfov, Abuzər, Sadıqova Solmaz (2003), *"Heydər Əliyev: Biblioqrafik məlumat kitabı",* Bakı, Bakı Universiteti Nəşriyyatı, 11-12

Mirələmov, Hüseynbala, (2003) *"Zəfər yolu*" esse, Bakı, Gənclik

Sadıqlı, Ayşən, (2011), "*Ümummilli lider Heydər Əliyev və Azərbaycan dili*", Bakı, Mütərcim, 5

Sərdarov, Zakir, (2008), "*Heydər Əliyev və milli mübarizə tariximiz"*, Bakı, Çinar-Çap, 116-117, 140, 146

**Internet Qaynaqları:**

https://haydaraliyevcenter.wordpress.com/heyder-eliyev/heyd%C9%99r-%C9%99liyevin-dagliq-qarabag-probleminin-h%C9%99lli-ucun-atdigi-addimlar/

https://www.virtualkarabakh.az/az/post-item/52/3728/veten-muharibesi.html

https://ikisahil.az/post/307093-qarabag-zeferi-heyder-eliyev-ideyalarinin-tentenesidir

http://anl.az/down/meqale/azerbaycan/azerbaycan_iyul2009/86109.htm

http://www.anl.az/down/meqale/azerbaycan/azerbaycan_iyul2009/86132.htmhttp://naftalan-ih.gov.az/az/news/1254.html

https://mod.gov.az/az/pre/25149.html

https://justice.gov.az/articles/90

http://anl.az/down/meqale/az_muellimi/az_muellimi_iyun2009/82811.htm

http://anl.az/down/meqale/xalqqazeti/2010/may/119632.htm

http://scfwca.gov.az/post/1546/heyder-eliyev-irsi-musteqil-dovletcilik-ve-muasirlikhttps://azvision.az/news/117093/heyder-eliyevin-heyat-yolu-infoqrafika.html

https://heydar-aliyev-foundation.org/az/content/index/84/

https://modern.az/diaspor/402817/heyder-eliyev-z-semimiyyeti-ile-insani-valeh-edirdi-sabiq-sefir/

https://www.medeniyyet.az/page/news/51724/Heyder-Eliyev-ve-nitq-medeniyyeti.html

https://www.aztc.gov.az/az/posts/id:955

# HEYDƏR ƏLİYEV VƏ TƏHSİL SİYASƏTİ

AYDER ALIYEV AND EDUCATION POLICY

**Elmira MƏHƏRRƏMOVA**
ADPU-nun ETM-nin əməkdaşı,
Azərbaycan Bakı.

## XÜLASƏ

Müstəsna xidmətləri ilə əbədilik qazanan ümummilli lider Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz ibrət məktəbidir. Ötən illərə nəzər salarkən Azərbaycan xalqının öz müdrik liderinin rəhbərliyi ilə qazanmış olduğu mühüm tarixi nailiyyətlərin bir daha şahidi oluruq. İntibah və milli şüurun oyanışı Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlamış, müstəqilliyimiz məhz onun sayəsində əbədi və dönməz xarakter almışdır. Ölkəmiz dünyada layiq olduğu mərtəbəyə Ulu Öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilmişdir.

Vətəni, xalqı qarşısında misilsiz xidmətlərinə görədir ki, bu gün ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi ölkəmizin hər yerində və onun hüdudlarından kənarda hər bir azərbaycanlının yüksək ehtiramı və dərin minnətdarlıq hissi ilə geniş qeyd olunur.

Ümummilli lider Heydər Əliyevin xarakterində və fəaliyyətində doğma xalqına bağlılıq və təəssübkeşlik hələ gənc yaşlarından özünü göstərirdi. Naxçıvanda sadə, zəhmətkeş bir azərbaycanlı ailəsində dünyaya göz açan bu böyük insan hələ gəncliyindən yüksək vəzifələr tutmuş, çiyinlərində böyük bir ölkənin yükünü daşımışdır.

Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində iqtisadiyyat, sənaye və kənd təsərrüfatında, mədəniyyət və təhsil sahəsində böyük uğurlar əldə edildi, çoxsaylı sənaye müəssisələri, mədəniyyət və təhsil ocaqları, tibb müəssisələri inşa edildi, yeni yaşayış massivləri salındı, yollar tikildi, ucqar rayonlara qaz xətləri çəkildi.

Respublikamızın siyasi və mədəni həyatında böyük əhəmiyyəti olan saraylar, özünün görkəmi ilə şəhərə gözəllik verən neçə-neçə yaraşıqlı binalar, xalqımızın tarixində mühüm rol oynamış şəxslərə, ədəbiyyat və incəsənət xadimlərinə əzəmətli heykəllər ucaldıldı.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi o illərdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başladı, kadr korpusunun milliləşdirilməsi istiqamətində qətiyyətli addımlar atıldı, hər il yüzlərlə gənc müxtəlif mühüm, o cümlədən hərbi ixtisaslara yiyələnmək üçün SSRİ-nin ən qabaqcıl ali məktəblərinə göndərildi, azərbaycanlılar mühüm dövlət vəzifələrinə irəli çəkildilər.

**Açar sözlər**: ümummilli lider, şəxsiyyət, həyat yolu, rəhbərlik, azərbaycançılıq.

**SUMMARY**

The meaningful life path, rich and diverse heritage of national leader Heydar Aliyev, who won eternity with his exceptional services, is an inexhaustible school of lessons. Looking back on the past years, we once again witness the important historical achievements of the Azerbaijani people under the leadership of their wise leader. The renaissance and awakening of national consciousness began with Heydar Aliyev's coming to power, and thanks to him, our independence became eternal and irreversible. Our country was able to rise to the level it deserves in the world thanks to the great leader's foresight, wisdom, determination, iron will and rich statecraft experience.

Today, the 100th anniversary of the birth of the national leader Heydar Aliyev is widely celebrated with high respect and deep gratitude of every Azerbaijani in all parts of our country and beyond its borders due to his unparalleled services to his homeland and people.

In the character and activities of national leader Heydar Aliyev, attachment and bigotry to his native people showed itself from his youth. Born in a simple, hard-working Azerbaijani family in Nakhchivan, this great man held high positions from his youth and carried the burden of a great country on his shoulders.

As a result of Heydar Aliyev's intense activity, great successes were achieved in the economy, industry and agriculture, culture and education, numerous industrial enterprises, cultural and educational centers, medical institutions were built, new housing estates were built, roads were built, gas lines were laid in remote regions.

In those years when Heydar Aliyev led Azerbaijan, the solid foundation of our state independence was laid, the national spirit, the ideology of Azerbaijanism began to rise, decisive steps were taken towards the nationalization of the personnel corps, and every year hundreds of young people went to the most advanced universities of the USSR to acquire various important, including military, specialties. were sent, Azerbaijanis were promoted to important state positions.

**Key words:** national leader, personality, way of life, leadership, Azerbaijaniness

GİRİŞ

Heydər Əliyevin Azərbaycan xalqı qarşısında böyük xidmətlərindən söhbət açanda ilk öncə 1969-1982-ci illərə, onun Sovetlər birliyi dövründə respublikamıza rəhbərlik etdiyi vaxtlara nəzər yetirmək vacibdir. Həmin illərdə yaşamış dövlət və sənət xadimləri, təsərrüfat adamları, ziyalılar daim Ulu Öndərimizlə bağlı xatirələrində belə görkəmli şəxsiyyətin müasiri olmaqdan

qürurlandıqlarını bildirir və qeyd edirlər ki, onun Azərbaycana rəhbərliyi ölkəmizin tarixində əsaslı dönüş nöqtəsi olub. O vaxta kimi Azərbaycan adlı respublika nəinki dünya, hətta ittifaq miqyasında o qədər də tanınmırdı. Halbuki respublikamız ittifaqda zəngin yerüstü, yeraltı sərvətləri ilə seçilib. Amma respublikamızın adı ucqar milli əyalətlərdən biri kimi çəkilirdi.

Məhz 1969-cu ilin tarixi iyul plenumunda Heydər Əliyevin respublika rəhbəri təyin edilməsi ilə Azərbaycanın tarixində sürətli inkişaf dövrü başlayıb. Qısa vaxt ərzində onun təşəbbüsü ilə mühüm sənaye müəssisələri Azərbaycanın şəhərlərində inşa edilib, təsərrüfat, elm və təhsil sahələrində qətiyyətli islahatlar həyata keçirilib. Azərbaycan xalqının xilaskar oğlu Heydər Əliyevin ikinci hakimiyyət dövrü isə müstəqillik qazandığımız çox çətin və mürəkkəb illərə təsadüf edir. 1990-cı illər Azərbaycanın tarixinə ağır faciələrin yaşandığı bir dövr kimi daxil olub. Həmin vaxt Sovetlər birliyi süqut edəndə 15 ittifaq dövləti sırasında Azərbaycan yeganə ölkə oldu ki, ərazisinin 20 faizi işğal edildi, 20 mindən çox şəhid verdik, 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşdü. Sovet rejiminin qəddarlığı sayəsində Azərbaycanda baş verən 20 Yanvar qırğınlarından sonra Heydər Əliyev doğulduğu Naxçıvana qayıtdı və burada xalqın iradəsi ilə Ali Məclisə rəhbərlik etməyə başladı. Məhz onun qətiyyəti və fədakarlığı sayəsində bu diyarda ölüm-itki olmadı, insanlar müdrik rəhbərin ətrafında sıx birləşərək onun timsalında xilas yolunu tapdılar.

17 noyabr 1990-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyası keçiriləndə Heydər Əliyevin təşəbbüsü ilə ilk dəfə olaraq üçrəngli bayrağımız binanın üzərində dalğalandı. Məhz bu hadisə müstəqillik uğrunda mübarizə tariximizin ən parlaq səhifəsidir və bununla da milli azərbaycançılıq ideologiyasının inkişaf dövrü başlandı. Bayrağımıza, mənəvi dəyərlərimizə sədaqətini ifadə edən Heydər Əliyev fiziki varlığını təhlükə qarşısında qoyaraq öz millətinə xidmət etməyi hər şeydən üstün tutdu, bu yolda heç bir çətinlikdən, qadağadan qorxub çəkinmədi.

Yeni müstəqillik yoluna qədəm qoyan Azərbaycanda dövlətçiliyi qoruyub saxlamaq üçün ölkə rəhbərliyinə təcrübəli, qətiyyətli siyasi liderin gətirilməsi olduqca vacib idi və xalqımız haqlı olaraq böyük oğluna müraciət etdi. Heydər Əliyev milyonlarla insanın arzularını ifadə edərək 1993-cü ildə Bakıya gəldi və onun Azərbaycanda siyasi hakimiyyətinin tamamilə fərqli, həlledici bir dövrü başlandı. Bu illər elə mürəkkəb dövr idi ki, ölkədə anarxiya, xaos baş alıb gedir, sərhəd bölgələrimiz təcavüzkar Ermənistan tərəfindən işğala məruz qalırdı. İqtisadiyyatı dağılmış, ordusunu yaratmağa macal tapmamış bir ölkəyə rəhbərlik etmək, sözün həqiqi mənasında, böyük məsuliyyət tələb edirdi. Məhz Heydər Əliyev belə bir məsuliyyətin öhdəsindən gələ bilərdi və gəldi

İlk gündən müdrik rəhbər xalqa arxalandı, xalq da ona dəstək verdi və onun ətrafında həmrəylik nümayiş etdirdi. Heydər Əliyev Azərbaycan gəncliyinə müraciət etdi, Vətənimizin təhlükədə

olduğunu izah edərək millətin, dövlətin gənclərə də güvəndiyini bildirdi. Bu çağırışdan ruhlanan yüzlərlə, minlərlə gəncimiz silaha sarılıb müharibəyə yola düşdü. Tarixi reallıqlardan aydındır ki, Heydər Əliyev SSRİ dövründə, yəni Azərbaycan Respublikasına rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində də bu məsələni daim diqqət mərkəzində saxlamış, eləcə də xalqımızın unudulmaz oğlunun rəhbərliyi ilə təhsil sistemində ciddi islahatlar həyata keçirilmişdir. 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarlar nəticəsində Azərbaycanda orta ümumtəhsil məktəbləri şəbəkəsi 3 dəfə genişləndirilərək 765-dən 2117-yə çatdırılmışdır. Bu da yüzlərlə ucqar yaşayış məskənlərində orta ümumtəhsil məktəblərinin açılışı, minlərlə azyaşlının təhsilə cəlb edilməsi demək idi.

Bir məsələni də qeyd etmək lazımdır ki, ümummilli lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni ali təhsil müəssisəsi açılmış və ali məktəblərdə təhsil alanların sayı 70 mindən 100 minə qədər artmışdır. Eləcə də dahi rəhbər keçmiş İttifaqın ən nüfuzlu təhsil müəssisələrində azərbaycanlıların oxumasına çalışmış və bu istiqamətdə əsaslı dönüş yaratmışdır. Məhz Heydər Əliyevin təşəbbüsü və birbaşa himayəsi nəticəsində 1970-ci ildən başlayaraq hər il 800-900 nəfər gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmişdir ki, bu da respublikanın milli kadr potensialının daha da gücləndirilməsinə imkan yaratmışdır.

Ulu öndər Heydər Əliyev müstəqillik illərində də elm və təhsilin inkişafını diqqətdən kənarda qoymamış, o cümlədən elm-təhsil problemlərinə kompleks şəkildə yanaşmışdır. Ölkə başçısı bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirmiş, mühüm tarixi fərman və sərəncamlar imzalamışdır. Məsələn, 2002-ci il oktyabrın 4-də ölkə başçısının imzaladığı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" sərəncamı milli elm və təhsil sisteminin inkişafında vacib amillərdən biri kimi qiymətləndirilir. Bu sərəncam ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaratmışdır. "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli sərəncamı da ölkədə bu sahədə yaranmış problemlərin aradan qaldırılması yönümündə müstəsna əhəmiyyətə malik dövlət sənədi olmuşdur.

Qeyd olunduğu kimi, ulu öndərin təhsil siyasəti konsepsiyasına əsaslanaraq demək olar ki, elm və təhsil iki müstəqil sahəni ehtiva etsə də onların birini digərindən təcrid etmək mümkün

deyildir və bu baxımdan elm-təhsil problemlərinə kompleks şəkildə yanaşılmışdır. Hər iki istiqamət ümumi dövlət siyasətinin tərkib hissələrindən olduğundan və strateji mahiyyət daşıdığından onların inteqrasiyası da labüddür. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövrünə nəzər yetirsək, görərik ki, elm ilə təhsilin inteqrasiyası istiqamətində də çox önəmli işlər görülmüşdür. Əslində, bu iki müstəqil sistemin həmişə qarşılıqlı əlaqəli şəkildə inkişafı labüddür. Çünki elmin təhsilsiz, təhsilin isə elmsiz mövcudluğu qeyri-mümkündür.

İnkişaf etmiş ölkələrin təcrübəsi də sübut edir ki, fundamental tədqiqatlar aparılmayan ölkələrdə yüksək keyfiyyətə malik təhsil haqqında danışmaq mənasızdır. Eyni zamanda, harada ki baza rolunu oynayan keyfiyyətli orta təhsil yoxdursa, orada geniş əhatəli fundamental tədqiqatlar aparılması qeyri-mümkündür. Ümumiyyətlə, dövlətin iqtisadi qüdrətini, onun elm tutumlu və rəqabətə davamlı məhsulunun istehsalını elmi tədqiqatların, xüsusən fundamental tədqiqatların səviyyəsi, əhatəliliyi və yüksək ixtisasa malik milli kadrlar müəyyən edir. Başqa sözlə desək, müasir dünya gerçəkliklərinə yaxından bələd olan, müasir texnika və texnologiyanı mənimsəyən kadrlar yetişdirmədən, eləcə də ölkədə həyata keçirilən islahatları elmi baxımdan əsaslandırmadan mövcud təbii-iqtisadi resurslardan tam və səmərəli istifadə etmək və arzu edilən iqtisadi inkişaf səviyyəsinə nail olmaq qeyri-mümkündür. Bu baxımdan Azərbaycan Milli Elmlər Akademiyası ölkənin texniki-texnoloji, eləcə də sosial-iqtisadi inkişafının avanqardına çevrilməlidir. Məhz bu reallığı nəzərə alan ulu öndər Heydər Əliyevin "Milli Elmlər Akademiyası sistemində yüksək ixtisaslı elmi kadrlar hazırlayan təhsil qurumlarının, respublikada prioritet istiqamətlərdə müstəqil fəaliyyət göstərən dövlət elm-təhsil mərkəzlərinin işi daim gücləndirilməli və zənginləşdirilməlidir" fikri də akademiyanın potensialının və texniki bazasının gücləndirilməsinə, ölkədə fundamental elmi tədqiqatların aparılmasına yönəlmişdir.

Ulu öndərin fəaliyyətində təhsilin inkişafına diqqət və qayğı həmişə mühüm yer tuturdu. Təhsilin cəmiyyətdə rolunu və şəxsiyyətin formalaşmasında əhəmiyyətini daim yüksək qiymətləndirən dahi şəxsiyyətin dəyərli ideyaları ölkəmizdə bu sahədə islahatların əsas istiqamətlərini müəyyənləşdirmiş, onun tövsiyələri təhsil sisteminin inkişaf proqramına çevrilmişdir

Heydər Əliyev 1978-ci ildə Azərbaycan müəllimlərinin VI qurultayında "Biz bu gün də, gələcəkdə də gənclərimizi təhsilə, biliyə cəlb etməliyik, təhsilin keyfiyyətini artırmalıyıq, təhsil sahəsini daha da mükəmməlləşdirməliyik", 1997-ci ildə Azərbaycanın və xarici ölkələrin ali məktəblərinə qəbul olunmuş tələbələrin bir qrupu və onların valideynləri ilə görüşdə isə "Müasir həyat və dünyanın gələcəyi insanlardan daha çox bilik tələb edir. Gələcək bilikli, elmli insanların çiyinləri üstündə qurulacaqdır" söyləmişdir. Həmin ildə yeni dərs ilinin başlanması münasibətilə Bakı şəhəri 18 nömrəli məktəbdə keçirilmiş görüşdə "Hər bir xalqın səviyyəsini onun bilik səviyyəsi müəyyən edir. Bilik səviyyəsinə də nail olmaq üçün təhsil daim mövcud olmalıdır və o, ardıcıl surətdə

inkişaf etməlidir. Biz gələcəkdə Azərbaycanın təhsilinin daha da təkmilləşməsinə, keyfiyyətinin yüksəlməsinə nail ola biləcəyik" demişdir.

Heydər Əliyev həmişə müəllim əməyinə və müəllim peşəsinə böyük qiymət vermişdir. 1996-cı ildə Bakı şəhərinin Nərimanov rayonunda yeni ümumtəhsil məktəbinin açılışı mərasimində demişdir: "Azərbaycan xalqı yüksək elmə, yüksək biliyə, savada malik olan bir xalqdır. Bunlar hamısı Azərbaycan müəllimlərinin gərgin fəaliyyətinin nəticəsidir". 1998-ci ildə 1970-1987-ci illərdə Azərbaycandan kənarda ali təhsil almış mütəxəssislərlə ümumrespublika toplantısında müəllim adını və şərəfini ən yüksək zirvəyə qaldıraraq bəyan etmişdir: "Müəllim adı dünyada ən yüksək addır. Məsələn, şəxsən mən Yer üzündə müəllimdən yüksək ad tanımıram. Çünki hər birimizə təhsil, bilik verən, bu səviyyəyə qaldıran məktəbdir və məktəbdə təhsil verən də müəllimdir. Orta məktəb olsun, yaxud ali məktəb, fərqi yoxdur, hamısında təhsil verən müəllimdir. Ona görə həyatımda ən çox sevdiyim adamlar mənim müəllimlərim olubdur.

Mənə ilk təhsil verən, birinci sinifdən başlayaraq təhsil verən müəllimlərin hamısını böyük minnətdarlıqla xatırlayıram və bu fürsətdən istifadə edib müəllim peşəsinə bir daha yüksək hörmət-ehtiramımı bildirirəm. Sizə tövsiyə edirəm ki, müəllim adını həmişə yüksək tutasınız".

Ümummilli lider öz çıxışlarında ümumtəhsil məktəblərində ayrı-ayrı fənlərin tədrisini, şəxsiyyətin formalaşdırılmasını təmin edən və onlara zəruri həyati bacarıqlar aşılayan mühüm amil kimi dəyərləndirirdi. Onun 1975-ci ildə tələbələrlə görüşdə "Yeniliyi dərindən mənimsəmək, yaradıcılıqla düşünməyi bacarmaq, özünə çalışqanlıq, axtarış bacarığı, tədqiqat məharəti aşılamaq lazımdır" kimi gənclərə ünvanladığı dəyərli tövsiyələr hazırda ümumi təhsilin başlıca məqsədlərindən birinə çevrilmişdir.

Ulu öndərin 1978-ci ildə Azərbaycan müəllimlərinin VI qurultayında irəli sürdüyü "Məktəbdə ana dilinin və ədəbiyyatın tədrisi formalarını və metodlarını daim təkmilləşdirmək, uşaqlarda sözə, obrazlı təfəkkürə məhəbbət hissi aşılamaq, onları mədəniyyət nailiyyətləri ilə, dünya və Azərbaycan poeziyası və nəsri klassiklərinin yaradıcılığı ilə, ədəbiyyatın qızıl fonduna daxil olmuş görkəmli əsərlərlə tanış etmək lazımdır. Ana dilini, doğma xalqın ədəbiyyatını, mədəniyyətini dərindən bilmək elmli adam üçün zəruri keyfiyyətdir, vətəndaşın şəxsiyyətinin hərtərəfli inkişafı üçün şərtdir", "Bizim məktəblər şagirdlərin riyaziyyat, fizika, kimya, biologiya və başqa fundamental fənlər sahəsində möhkəm biliklərə yiyələnməsini təmin etməlidir. Gənclər elmi işçilərin sırasına daha fəal qoşulmalı, elmi-texniki tərəqqinin tətbiq edilməsinin önündə getməlidirlər. Fundamental və texniki fənləri dərindən mənimsəmək, bu fənlərin tədrisi səviyyəsinə daim diqqət yetirmək lüzumu bundan irəli gəlir", "İctimai fənlərin təlimi keyfiyyətinin böyük əhəmiyyəti vardır. Gənc şəxsiyyətin təşəkkülündə, gənclərin dünyagörüşünün formalaşdırılmasında ictimai fənlərin rolu xüsusilə böyükdür. İctimai fənləri yaxşı bilmək hər bir məktəblidə vətənə məhəbbət hissinin, xalqın rifahı naminə fədakarlıqla çalışmaq əzminin tərbiyə

olunmasına və inkişaf etdirilməsinə kömək edir", 1994-cü ildə Bakı şəhərinin təhsil işçiləri ilə görüşdə dediyi "Azərbaycan dili öz söz ehtiyatına görə, fikri ifadə etmək imkanlarına görə çox zəngindir. Ancaq lazımdır ki, Azərbaycan dilinin bu zənginliyi, bu böyük imkanları orta məktəbdə ilk təhsilə başlayan hər bir gənc tərəfindən mənimsənilə bilsin və gənclərimiz artıq orta məktəbdə öz dilini, ədəbi dilini, mədəni dilini yaxşı mənimsəsin, öz dilində yaxşı danışa bilsin, öz dilində fikrini ifadə edə bilsin", "Azərbaycan tarixi gərək orta məktəblərimizdə gənclərimizə yaxşı aşılansın. Gənclərimiz öz tarixini, öz tarixi köklərini və öz keçmişini gərək yaxşı bilsinlər. Çünki mənəviyyatımız, gənclərin bu günü və gələcək mənəviyyatı bununla bağlıdır" sözləri indi də həmin fənlərin məqsəd və vəzifələrini aydın ifadə edir. Eyni zamanda ümummilli liderin bu mülahizələri hazırda aparılan məzmun islahatları çərçivəsində ümumi təhsilin standartları və proqramlarının (kurikulumlarının) işlənməsində aparıcı istiqamət kimi nəzərə alınır.

Ümummilli liderin 1997-ci ildə Azərbaycanın və xarici ölkələrin ali məktəblərinə qəbul olunmuş tələbələrin bir qrupu və onların valideynləri ilə görüşdə dediyi "Lazımdır ki, gənclərimiz orta məktəbi bitirərkən 2-3 xarici dil bilsinlər", "Gənclərimiz nə qədər çox dil bilsələr, bir o qədər zəngin dünyagörüşə malik olacaqlar. Bu, müasir dünyanın tələbləridir" müddəaları isə ümumi təhsil sahəsində şagirdlərdə formalaşdırılması zəruri olan əsas kompetensiyaları müəyyənləşdirirdi.

Heydər Əliyev milli təhsil sisteminin rəqabətqabiliyyətli olması, dünyada təhsilin inkişaf tendensiyalarının öyrənilməsi və mütərəqqi təcrübələrin tətbiqinin təşəbbüskarı olmuşdur.

1994-cü il avqustun 31-də Bakı şəhərinin təhsil işçiləri ilə görüşdə ümummilli liderin "İndiyə qədər yaranmış təhsil, bilik, elm potensialından, həm də bütün ölkələrlə hazırkı əlaqələrdən istifadə edərək inkişaf etmiş ölkələrin təcrübəsini təhsil sahəsində tətbiq etmək mümkündür", "İndi bizim təhsil sistemimiz müstəqil Azərbaycanın gələcək inkişafını təmin etməlidir. Bu yolda keçiriləcək islahatlar gərək müstəqil Azərbaycanın milli mənafelərinin inkişafına yönəlsin", 1999-cu ildə Təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının iclasında "Dünya təcrübəsindən Azərbaycanın milli xüsusiyyətlərinə uyğun olan prinsiplər, qaydalar təhsil sistemimizə tətbiq edilməlidir. Biz dünyanın bütün ölkələrində-Qərbdə də, Şərqdə də əldə olunmuş nailiyyətləri dərindən öyrənməli və onlardan Azərbaycan üçün müsbət xarakter daşıyan cəhətləri ölkəmizin təhsil sistemində tətbiq etməliyik" deyərək irəli sürdüyü fikirləri əsas tutaraq hazırda da islahatlar prosesində inkişaf etmiş ölkələrin təcrübəsi öyrənilir və onlara istinad edilir.

Ulu öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" 1999-cu il iyunun 15-də təsdiq edilmişdir. Proqramda təhsilin gələcək inkişaf konsepsiyası və strategiyası müəyyənləşdirilməklə, mərhələlər üzrə təhsil sisteminin strukturunda, idarə edilməsində, məzmununda, maddi-texniki bazasında, iqtisadiyyatında, kadr hazırlığı və təminatında əsaslı islahatların aparılması nəzərdə tutulurdu. İslahat proqramının əsas konseptual

ideyasını və təməl prinsiplərini Heydər Əliyevin irəli sürdüyü müddəalar - təhsil sistemində hər bir yeniləşmənin təkamül yolu ilə aparılması, dünyanın inkişaf etmiş ölkələrinin islahat təcrübəsinin nəzərə alınması və islahatların xalqımızın milli-mənəvi dəyərlərinə əsaslanılması təşkil etmişdir.

Ulu öndər təhsilin milli mənafelər əsasında qurulması zərurətini vurğulamaqla uşaq və gənclərin milli-mənəvi dəyərlərə sadiqlik ruhunda tərbiyə olunmasını diqqət mərkəzinə çəkirdi. 1998-ci ildə söylədiyi "Xalqımızın milli-mənəvi dəyərləri bizim milli sərvətimizdir. Bizim milli və dini dəyərlərimizin məqsədi insanları saflığa, düzlüyə, paklığa dəvət etməkdən, insanları bu əhvali-ruhiyyədə tərbiyə etməkdən ibarətdir" fikirləri bü gün də təhsil müəssisələrində tərbiyə konsepsiyasının əsasını təşkil edir.

Azərbaycan Boloniya Bəyannaməsinə 2005-ci ilin mayında qoşulmuşdur. Lakin çox əlamətdardır ki, ulu öndər bu bəyannamədə təsbit olunmuş əsas məqsədlərin mahiyyətini hələ 1999-cu ildə təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının iclasında bəyan etmiş, "Azərbaycanın təhsil sistemində təhsil alan insanların və xüsusən ali məktəbləri bitirənlərin bilik səviyyəsi və onların biliklərini təsdiq edən sənədlər gərək dünyanın inkişaf etmiş ölkələrinin ali məktəblərinin bilik səviyyəsinə uyğunlaşdırılsın. Onların prinsiplərinə uyğunlaşdırılsın ki, Azərbaycanda təhsil almış və mühəndis diplomu almış bir insan başqa ölkələrdə də həmin diplomla qəbul edilə və fəaliyyət göstərə bilsin" deməklə uzaqgörənliklə ölkəmizin ali təhsil sistemi qarşısında dayanan ən zəruri vəzifəni müəyyənləşdirmişdir.

Heydər Əliyev həmişə məktəb tikintisinə, məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsinə böyük diqqət yetirmişdir. 1998-ci ildə Azərbaycan müəllimlərinin XI qurultayında bu işin nə qədər vacib olduğunu qeyd edərək demişdir: "Azərbaycanda fəaliyyət göstərən iş adamlarına, şirkətlərə müraciət edirəm ki, onlar bu bu sahədə təşəbbüs göstərsinlər." Bu çağırışdan sonra ayrı-ayrı yerli və beynəlxalq şirkətlər və iş adamları tərəfindən yeni məktəb binaları tikildi və ya əsaslı təmir edildi.

1999-cu ildə təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının iclasında nitqində bəyan etmişdir ki, "Azərbaycanın təhsil sistemində təhsil alan insanların və xüsusən ali məktəbləri bitirənlərin bilik səviyyəsi və onların biliklərini təsdiq edən sənədlər gərək dünyanın inkişaf etmiş ölkələrinin ali məktəblərinin bilik səviyyəsinə uyğunlaşdırılsın. Onların prinsiplərinə uyğunlaşdırılsın ki, Azərbaycanda təhsil almış və mühəndis diplomu almış bir insan başqa ölkələrdə də həmin diplomla qəbul edilə və fəaliyyət göstərə bilsin" deməklə uzaqgörənliklə ölkəmizin ali təhsil sistemi qarşısında dayanan ən zəruri vəzifəni müəyyənləşdirmişdir.

Ümummilli lider 1998-ci ildə Azərbaycan müəllimlərinin XI Qurultayında bu barədə danışaraq deyirdi: "Həyatını müəllimliyə həsr edən insanlar həqiqətən fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır. Müəllimlik peşəsi asan peşə deyil. Bəziləri

hesab edirlər ki, hər adam müəllim ola bilər. Bəzən olur ki, müəllimliyə layiq olmayan adam da müəllimlik edir. Belə hallar bu gün də var, gələcəkdə ola bilər. Ancaq Azərbaycan müəllimlərinin tam əksəriyyəti layiqli müəllimdir. Əgər bunlar belə olmasaydı, Azərbaycanın bugünkü elmi, iqtisadiyyatı, mədəniyyəti, yüksəlişi ola bilərdimi? Biz bunların hamısını məktəblərdən, universitetlərdən, müəllimlərdən , sizdən almışıq"

.

N Ə T İ C Ə

Azərbaycan təhsilinin (1969-2003) inkişafının təhlili göstərir ki, milli təhsilimiz aşağıdakı mərhələlərdən keçmişdir: 1) Azərbaycan təhsilinin yenidən təşkili və yüksəlişi dövrü (1969-1982-ci illər); 2) Azərbaycan təhsilinə Heydər Əliyevin Moskvada yüksək hökumət vəzifəsində çalışdığı dövrdə qayğı və köməkliyi (1982-1987-ci illər); 3) Heydər Əliyevin tutduğu rəhbər vəzifələrdən uzaqlaşdırılması ilə əlaqədar respublika həyatının bütün sahələri kimi Azərbaycan təhsilinin depressiya dövrü (1993-cü ilin iyun ayından – 1999-cu ilin birinci yarısınadək olan dövr – yəni yeni təhsil islahatlarının aparılmasınadək olan dövr); 5) yeni təhsil islahatlarının hazırlanması və keçirilməsi mərhələsi 1999-cu ilin ikinci yarısından – 2003-cü ilin sonuna kimi olan dövr; 6) habelə ulu öndər Heydər Əliyevin bütün sahələrdə olduğu kimi, təhsil siyasətinin də layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi (2003-cü ildən indiyə kimi).

Ədəbiyyat

1.Azərbaycan Respublikasının təhsil siyasətinin əsas prinsipi // "Pedaqoji tədqiqatlar// Buraxılış 2000, s.169-175

2.Heydər Əliyev və Azərbaycan təhsilinin inkjişaf yolları (1969-199-cu illər)islahataqədərki dövr// Xəbərlər ADPU. № 4,2006, s.68-78

3.Heydər Əliyev milli təhsil nəzəriyyəsinin və yeni təhsil islahatının yaradıcısıdır.// Xəbərlər ADPU, № 5, 2007,s.21-27

.

# HEYDƏR ƏLİYEVİN FƏALİYYƏTİNDƏ MİLLİ İDEOLOGİYA, ƏDƏBİYYAT VƏ DİL SİYASƏTİ

NATIONAL IDEOLOGY, LITERATURE AND LANGUAGE POLICY IN HAYDER ALIYEV'S ACTIVITY

**Dos. Dr. Ramiz QASIMOV**

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu

ORCİD: 12588250

**XÜLASƏ**

Məqalə ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqının milli ideologiyası və azərbaycançılıq məfkurəsinin formalaşmasında olan xidmətlərindən bəhs edir. Qeyd edilir ki, Azərbaycan xalqının bütün tarix boyu formalaşan ümummilli ideya və dəyərləri məhz görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən vahid bir konsepsiyada birləşdirilərək milli ideologiya olaraq formalaşdırılmışdır. Məqalədə bu da göstərilir ki, ümummilli ideyalar, xüsusilə milli mənsubiyyət hissi və Azərbaycan xalqına mənsubluq duyğuları, istiqlal düşüncəsi, azərbaycanlıların həmrəyliyi, ana dili və digər milli keyfiyyətlərin birləşdirici dəyər kimi çıxış etməsi və s. xüsusilə XX əsrin əvvəllərindən Azərbaycan ədəbi və ictimi düşüncəsində yer almışdır. Ümummilli lider Heydər Əliyevin coxcəhətli və zəngin təcrübəsi sayəsində məhz bu ideyalar bitkinləşərək Azərbaycan xalqının milli ideologiyasının nüvəsini təşkil edən azərbaycançılıq məfkurəsini ortaya çıxarmışdır. Ulu Öndər Heydər Əliyevin formalaşdırdığı azərbaycançılıq məfkurəsinin təməl prinsipini milli mənsubiyyət hissi və vətənçilik təşkil etmişdir. Bu başlıca prinsipin, müddəanın əhatəsində digər – dünya azərbaycanlılarının birliyi, ana dili və digər milli dəyərlərin birləşdirici dəyərlər kimi əsaslı yer tutmuşdur. Ümummilli lider Heydər Əliyev ədəbiyyata həm də milli ideologiyanın mənbəyi kimi yanaşmışdır. Ədəbiyyat siyasəti Ulu Öndərin fəaliyyətində başlıca yer tutmuş, hərtərəfli qayğı ilə əhatə olunmuşdur. Heydər Əliyev ədəbiyyata: 1. Milli-tarixi yaddaş; 2. Milli düşüncə, dəyərlər və ideyaların təcəssüm tapdığı mənəvi xəzinə; 3. İnsanları tərbiyə vasitəsi; 4. Diplomatik-siyasi təbliğat və münasibətlərin bir qolu kimi dəyərləndirilmişdir. Onun siyasətində ana dili həmişə ilk, başlıca planda dayanmışdır. Ümummilli lider ana dilini "milli-mənəvi kimlik" və ondan daha artıq xarakterizə edərək qayğısına qalırdı. Ana dili həm də milli ideologiyamızın mərkəzində dünya azərbaycanlılarını birləşdirici dəyər kimi çıxış edirdi.

**Açar söz:** Heydər Əliyev, ümummilli lider, milli ideologiya, ədəbiyyat və dil siyasəti.

**ABSTRACT**

The article highlights the services of national leader Heydar Aliyev in the formation of the national ideology of the Azerbaijani people and the ideology of Azerbaijanism. It is noted that the national ideas and values of the Azerbaijani people formed throughout history were united in a single concept by the outstanding statesman Heydar Aliyev and formed as a national ideology. The article also shows that national ideas, especially the sense of national belonging and belonging to the Azerbaijani people, the idea of independence, the solidarity of Azerbaijanis, the mother tongue and other national qualities acting as a unifying value, etc. especially from the beginning of the 20th century, it took place in the literary and social thought of Azerbaijan. Thanks to the multi-faceted and rich experience of national leader Heydar Aliyev, these ideas were exhausted and brought out the ideology of Azerbaijanism, which forms the core of the national ideology of the Azerbaijani people. The sense of national belonging and patriotism formed the basic principle of the ideology of Azerbaijanism formed by the Great Leader Heydar Aliyev. Within the scope of this main principle and provision, there are others - the unity of Azerbaijanis of the world, the mother tongue and other national values, unifying values, etc. has taken a substantial place. National leader Heydar Aliyev approached literature as a source of national ideology. Literary policy occupied the main place in the activities of the Great Leader and was surrounded by comprehensive care. Heydar Aliyev to literature: 1. National-historical memory; 2. The spiritual treasure embodied in national thought, values and ideas; 3. Means of educating people; 4. It was evaluated as a branch of diplomatic-political propaganda and relations. In his politics, the mother tongue has always stood first and foremost. The national leader took care of his mother tongue by characterizing it as "national-spiritual identity" and more than that. The mother tongue also acted as a uniting value of Azerbaijanis in the center of our national ideology.

**Key words**: Heydar Aliyev, national leader, national ideology, literature and language policy.

# MÜSTƏQİL AZƏRBAYCANIN QURUCUSU-HEYDƏR ƏLİYEV

HEYDAR ALIYEV- THE FOUNDER OF INDEPENDENT AZERBAIJAN

**Musa MURSAGULIYEV**
Director of the "Keshikchidagh" State historical and cultural reserve,
Aghstafa,Azerbaijan
ORCİD ID:0000-0003-4438-5252

## ÖZET

Tarixi abidələr, çoxsaylı maddi mədəniyyət qalıqları Azərbaycanın uzaq keçmişinin zənginliyini təsdiq etməklə yanaşı, eyni zamanda xalqımızın milli pasportu hesab edilə bilər. Bu abidələr Azərbaycan xalqının minilliklər tarixini özündə yaşadan zəngin informasiya mənbəyi olmaqla yanaşı, xalqımızın bu torpaqların avtoxton, köklü sakinləri olduğunu danılmaz faktlarla sübuta yetirir. Azərbaycan arxeoloqlarının uzun illər ərzində apardıqları tədqiqatlar nəticəsində ölkəmizin dünyada ən qədim insan məskənlərindən, erkən sivilizasiya mərkəzlərindən biri olması maddi faktlarla sübuta yetirilmişdir. Qarabağdakı Azıx mağarasında aparılan araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanda qədim insanlar hələ iki milyon il əvvəl məskunlaşmışdır. Azərbaycan ərazisində qədim daş dövründən başlayaraq Son Orta əsrlərədək böyük bir dövrü əhatə edən arxeoloji abidələr- erkən əkinçilik mədəniyyətlərinə aid yaşayış məskənləri, tunc dövrünün erkən tipli abidələri, yüzlərlə qəbir abidələri, antik və orta əsrlərə aid şəhərlər və s aşkar olunmuş və tədqiq edilmişdir. Azərbaycanın arxeoloji abidələrinin tədqiqi XIX əsrin 30–50-ci illərində qədim abidələrin qeydə alınması ilə başlanmışdır. İlk vaxtlar arxeoloji abidələr də Azərbaycanda olan rus və alman mənşəli araşdırıcılar qazıntılar aparmışlar. Onların əldə etdiyi zəngin maddi-mədəniyyət nümunələri Azərbaycanın arxeoloji abidələrinə və qədim mədəniyyətinə marağın artmasına səbəb olmuşdur. Beləliklə bu abidələrə maraq XIX ikinci yarısından başlansa da yalnız Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində maddi-mədəni irsimizin qorunması, tədqiqi və təbliği işi yüksək inkişaf səviyyəsinə çatmışdır. Arxeoloq alimlərimizin apardıqları tədqiqatlar nəticəsində Azərbaycanın dünyada ən qədim insan məskənlərindən və sivilizasiya mərkəzlərindən biri olması elmi əsaslarla sübuta yetirilmişdir. Həmin dövrdə respublikamızın bütün bölgələrində arxeoloji ekspedisiyalar fəaliyyət göstərmiş, xalqımızın maddi-mədəni irsinə dair yüz minlərlə qədim nümunələr – arxeoloji materiallar toplanmışdır. Zəngin tariximizin informasiya daşıyıcıları olan tarixi-arxeoloji abidələrlə bağlı ictimaiyyətin, xüsusilə də gənc nəslin geniş maarifləndirmə işlərinin əhəmiyyətini nəzərə alan Heydər Əliyevin göstərişi ilə böyük şəhərlərlə yanaşı Azərbaycanın demək olar ki, bütün rayonlarında Tarix Diyarşünaslıq muzeyləri yaradılmış, qədim və yaxın tariximizin ən nəfis nümunələri təbliğ, nümayiş etdirmək, qorumaq və tədqiq etmək məqsədi ilə bu muzeylərdə toplanmışdır. Xalqımızın qədim tarixinin arxeoloji tədqiqinə xüsusi diqqət yetirilmiş, regionlarda arxeoloji qazıntı işlərinin fəaliyyətinin daha da yaxşılaşdırılması üçün arxeoloji bazalar yaradılmışdır. Heydər Əliyev tarixi abidələrə və arxeoloji qazıntı sahələrinə şəxsən səfərlər etmiş, qədim tariximizin yadigarları olan abidələrimizin tədqiqinin və təbliğinin zəruriliyini dəfələrlə qeyd etmişdi. Ulu öndərin Azərbaycanın tarixi abidələrinin qorunması, tədqiqi və təbliği istiqamətindəki müdrik siyasəti bundan sonra da uzun illər aktuallığını saxlayacaqdır.

**Açar sözlər**: Ümummilli lider, Azərbaycan, milli dəyərlərimiz.

## ABSTRACT

Historical monuments, numerous remains of material culture confirm the richness of Azerbaijan's distant past, and at the same time can be considered the national passport of our people.These monuments, besides being a rich source of information that preserves the millennial history of the Azerbaijani people, prove with indisputable facts that our people are autochthonous, deep-rooted inhabitants of these lands. As a result of the researches carried out by Azerbaijani archaeologists over many years, it has been proved by material facts that our country is one of the oldest human settlements in the world and one of the centers of early civilization. As a result of research conducted in the Azikh cave in Karabakh, it was determined that ancient people settled in Azerbaijan two million years ago. On the territory of Azerbaijan, archaeological monuments covering a large period from the Stone Age to the Late Middle Ages – settlements belonging to early agricultural cultures, early Bronze Age monuments, hundreds of grave monuments, ancient and medieval cities, etc. have been discovered and studied. The study of archaeological monuments of Azerbaijan began with the registration of ancient monuments in the 30s-50s of the 19th century. At first, researchers of Russian and German origin in Azerbaijan conducted excavations in archaeological monuments. The rich material and cultural samples they obtained have led to an increase in interest in the archaeological monuments and ancient culture of Azerbaijan. Thus, although the interest in these monuments began in the second half of the 19th century, the protection, research and promotion of our material and cultural heritage reached a high level of development only in the 70s and 80s of the last century, when the great leader Heydar Aliyev led Azerbaijan. As a result of the research conducted by our archeological scientists, it has been scientifically proven that Azerbaijan is one of the oldest human settlements and centers of civilization in the world. During that period, archaeological expeditions were carried out in all regions of our republic, and hundreds of thousands of ancient examples of the material and cultural heritage of our people - archaeological materials were collected. On the instructions of Heydar Aliyev, who took into account the importance of wide-ranging education of the public, especially the young generation, about historical and archaeological monuments, which are information carriers of our rich history, museums of history and country studies were established in almost all regions of Azerbaijan, along with big cities, and the most exquisite examples of our ancient and recent history were promoted, collected in these museums for the purpose of exhibiting, preserving and researching. Special attention was paid to the archaeological research of the ancient history of our people, and archaeological bases were created to further improve the activity of archaeological excavations in the regions. Heydar Aliyev personally visited historical monuments and archeological excavation sites, and repeatedly noted the necessity of researching and promoting our monuments, which are relics of our ancient history. The wise policy of the great leader in the direction of protection, research and promotion of the historical monuments of Azerbaijan will remain relevant for many years to come.

**Keywords:** National leader, Azerbaijan, our national value

# MÜSTƏQİL AZƏRBAYCANIN QURUCUSU-HEYDƏR ƏLİYEV

## HEYDAR ALIYEV- THE FOUNDER OF INDEPENDENT AZERBAIJAN

**Saadet ALIYEVA**
Ph.D on Pedagogy, Director of the "Avey" State historical and cultural reserve,
Gazakh,Azerbaijan
ORCİD ID:0000-0002-5370-3178

**ÖZET**

Tarixi abidələr, çoxsaylı maddi mədəniyyət qalıqları Azərbaycanın uzaq keçmişinin zənginliyini təsdiq etməklə yanaşı, eyni zamanda xalqımızın milli pasportu hesab edilə bilər. Bu abidələr Azərbaycan xalqının minilliklər tarixini özündə yaşadan zəngin informasiya mənbəyi olmaqla yanaşı, xalqımızın bu torpaqların avtoxton, köklü sakinləri olduğunu danılmaz faktlarla sübuta yetirir. Azərbaycan arxeoloqlarının uzun illər ərzində apardıqları tədqiqatlar nəticəsində ölkəmizin dünyada ən qədim insan məskənlərindən, erkən sivilizasiya mərkəzlərindən biri olması maddi faktlarla sübuta yetirilmişdir. Qarabağdakı Azıx mağarasında aparılan araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanda qədim insanlar hələ iki milyon il əvvəl məskunlaşmışdır. Azərbaycan ərazisində qədim daş dövründən başlayaraq Son Orta əsrlərədək böyük bir dövrü əhatə edən arxeoloji abidələr- erkən əkinçilik mədəniyyətlərinə aid yaşayış məskənləri, tunc dövrünün erkən tipli abidələri, yüzlərlə qəbir abidələri, antik və orta əsrlərə aid şəhərlər və s aşkar olunmuş və tədqiq edilmişdir. Azərbaycanın arxeoloji abidələrinin tədqiqi XIX əsrin 30–50-ci illərində qədim abidələrin qeydə alınması ilə başlanmışdır. İlk vaxtlar arxeoloji abidələr də Azərbaycanda olan rus və alman mənşəli araşdırıcılar qazıntılar aparmışlar. Onların əldə etdiyi zəngin maddi-mədəniyyət nümunələri Azərbaycanın arxeoloji abidələrinə və qədim mədəniyyətinə marağın artmasına səbəb olmuşdur. Beləliklə bu abidələrə maraq XIX ikinci yarısından başlansa da yalnız Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində maddi-mədəni irsimizin qorunması, tədqiqi və təbliği işi yüksək inkişaf səviyyəsinə çatmışdır. Arxeoloq alimlərimizin apardıqları tədqiqatlar nəticəsində Azərbaycanın dünyada ən qədim insan məskənlərindən və sivilizasiya mərkəzlərindən biri olması elmi əsaslarla sübuta yetirilmişdir. Həmin dövrdə respublikamızın bütün bölgələrində arxeoloji ekspedisiyalar fəaliyyət göstərmiş, xalqımızın maddi-mədəni irsinə dair yüz minlərlə qədim nümunələr – arxeoloji materiallar toplanmışdır. Zəngin tariximizin informasiya daşıyıcıları olan tarixi-arxeoloji abidələrlə bağlı ictimaiyyətin, xüsusilə də gənc nəslin geniş maarifləndirmə işlərinin əhəmiyyətini nəzərə alan Heydər Əliyevin göstərişi ilə böyük şəhərlərlə yanaşı Azərbaycanın demək olar ki, bütün rayonlarında Tarix Diyarşünaslıq muzeyləri yaradılmış, qədim və yaxın tariximizin ən nəfis nümunələri təbliğ, nümayiş etdirmək, qorumaq və tədqiq etmək məqsədi ilə bu muzeylərdə toplanmışdır. Xalqımızın qədim tarixinin arxeoloji tədqiqinə xüsusi diqqət yetirilmiş, regionlarda arxeoloji qazıntı işlərinin fəaliyyətinin daha da yaxşılaşdırılması üçün arxeoloji bazalar yaradılmışdır. Heydər Əliyev tarixi abidələrə və arxeoloji qazıntı sahələrinə şəxsən səfərlər etmiş, qədim tariximizin yadigarları olan abidələrimizin tədqiqinin və təbliğinin zəruriliyini dəfələrlə qeyd etmişdi. Ulu öndərin Azərbaycanın tarixi abidələrinin qorunması, tədqiqi və təbliği istiqamətindəki müdrik siyasəti bundan sonra da uzun illər aktuallığını saxlayacaqdır.

**Açar sözlər**: Ümummilli lider, Azərbaycan, milli dəyərlərimiz.

## ABSTRACT

Historical monuments, numerous remains of material culture confirm the richness of Azerbaijan's distant past, and at the same time can be considered the national passport of our people.These monuments, besides being a rich source of information that preserves the millennial history of the Azerbaijani people, prove with indisputable facts that our people are autochthonous, deep-rooted inhabitants of these lands. As a result of the researches carried out by Azerbaijani archaeologists over many years, it has been proved by material facts that our country is one of the oldest human settlements in the world and one of the centers of early civilization. As a result of research conducted in the Azikh cave in Karabakh, it was determined that ancient people settled in Azerbaijan two million years ago. On the territory of Azerbaijan, archaeological monuments covering a large period from the Stone Age to the Late Middle Ages – settlements belonging to early agricultural cultures, early Bronze Age monuments, hundreds of grave monuments, ancient and medieval cities, etc. have been discovered and studied. The study of archaeological monuments of Azerbaijan began with the registration of ancient monuments in the 30s-50s of the 19th century. At first, researchers of Russian and German origin in Azerbaijan conducted excavations in archaeological monuments. The rich material and cultural samples they obtained have led to an increase in interest in the archaeological monuments and ancient culture of Azerbaijan. Thus, although the interest in these monuments began in the second half of the 19th century, the protection, research and promotion of our material and cultural heritage reached a high level of development only in the 70s and 80s of the last century, when the great leader Heydar Aliyev led Azerbaijan. As a result of the research conducted by our archeological scientists, it has been scientifically proven that Azerbaijan is one of the oldest human settlements and centers of civilization in the world. During that period, archaeological expeditions were carried out in all regions of our republic, and hundreds of thousands of ancient examples of the material and cultural heritage of our people - archaeological materials were collected. On the instructions of Heydar Aliyev, who took into account the importance of wide-ranging education of the public, especially the young generation, about historical and archaeological monuments, which are information carriers of our rich history, museums of history and country studies were established in almost all regions of Azerbaijan, along with big cities, and the most exquisite examples of our ancient and recent history were promoted, collected in these museums for the purpose of exhibiting, preserving and researching. Special attention was paid to the archaeological research of the ancient history of our people, and archaeological bases were created to further improve the activity of archaeological excavations in the regions. Heydar Aliyev personally visited historical monuments and archeological excavation sites, and repeatedly noted the necessity of researching and promoting our monuments, which are relics of our ancient history. The wise policy of the great leader in the direction of protection, research and promotion of the historical monuments of Azerbaijan will remain relevant for many years to come.

**Keywords:** National leader, Azerbaijan, our national value

# İDMANIN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

THE ROLE OF HAYDER ALIYEV IN THE DEVELOPMENT OF SPORTS

**Mehparə SABİRZADƏ**

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, mehpara.sirinova@sport.edu.az

Orcid: 0000-0003-0434-601X

## XÜLASƏ

Heydər Əliyevin ölkəmizə hələ birinci rəhbərliyi dövründə digər sahələrdə olduğu kimi, idmanın da inkişafına böyük diqqətlə yanaşılmış, gələcək inkişaf perspektivləri ciddi nəzərə alınmışdı.

Azərbaycanın dövlət müstəqilliyinin ilk illərində özünü bütün sahələrdə qabarıq göstərən ideoloji-siyasi, iqtisadi böhran səbəbindən idman siyasəti tamamilə diqqətdən kənarda qalmışdı. Hələ sovetlər dövründə qazandığı müvəffəqiyyətlərlə məşhurlaşmış adlı-sanlı, perspektivli idmançılarımızın böyük əksəriyyəti dözülməz şərait ucbatından Azərbaycanı tərk etmək məcburiyyətində qalmışdılar. İdmana tarixən marağın güclü olduğu ölkəmizdə vəziyyətin belə acınacaqlı şəkil alması gənclərin qeyri-sağlam həyat tərzinə, zərərli vərdişlərə aludəçiliyinə, bir sözlə, mənəvi aşınmasına səbəb olur, müharibə şəraitində yaşayan məmləkətdə fərarilik hallarının çoxalmasına rəvac verirdi. Digər tərəfdən, ulu öndər Heydər Əliyevin vaxtilə xalqına ərməğan etdiyi idman kompleksləri baxımsızlıq üzündən dağıdılmış, dəryada batan gəmini xatırladan idmanımız taleyin ümidinə buraxılmışdı. Bunun obyektiv səbəbləri olsa da, subyektiv səbəbləri daha da çox idi.  şərəfini uca tutur, üçrəngli bayrağımızı göylərə qaldırır. Ölkəmizdə beynəlxalq səviyyəli yarışlar təşkil olunur, idmançılarımız hər il müxtəlif idman növləri üzrə keçirilən Avropa və dünya çempionatlarında uğurlu nəticələr göstərirlər. Dövlət başçısı İlham Əliyevin bu yarışları izləməsi, idmançılarımıza mənəvi və maddi dəstək verməsi, onları ruhlandırması da vacib məqam kimi vurğulanmalıdır.

Uğurlu idman siyasətinin nəticəsi olaraq Azərbaycan həm də dünyanın idman ictimaiyyəti tərəfindən ciddi tərəfdaş, idmançılarımız isə əsas rəqib kimi qəbul olunurlar. Azərbaycanın qısa müddətdə idman sahəsində əldə etdiyi nailiyyətlər beynəlxalq idman təşkilatlarının diqqətindən yayınmamış, məhz onların istəyi ilə son illərdə ölkəmizdə saysız-hesabsız mötəbər beynəlxalq turnirlər, dünya və Avropa çempionatları keçirilmişdir.
İdman sahəsində qazanılan nailiyyətlər həm də dövlətin ümumi inkişaf səviyyəsini, iqtisadi poten sialını müəyyənləşdirən vacib meyarlardan biri kimi təbliğati-siyasi məzmun kəsb edir. Bu baxımdan Azərbaycanın dinamik inkişafı idmanda qazanılan uğurlarla bir paralellik təşkil edir. Həm qazandığımız medallar, həm idman komplekslərinin tikintisi, həm də Azərbaycanın beynəlxalq miqyasda idman ölkəsi kimi imicinin möhkəmlənməsi bir vəhdət təşkil edərək idman sahəsindəki uğurlarımızın əsasını təşkil edir. İdman ictimaiyyəti əmindir ki, Prezident İlham

Əliyevin ölkəmizin inkişafına xidmət edən siyasi xətti idmanımızın daha da inkişafına böyük töhfələr verəcək.

**Açar sözlər:** idman, inkişaf perspektivləri, idman siyasəti, idman ictimaiyyəti

## ABSTRACT

During Heydar Aliyev's first leadership of our country, as in other fields, the development of sports was treated with great attention, and future development prospects were seriously considered.

In the first years of Azerbaijan's state independence, sports policy was completely neglected due to the ideological-political and economic crisis that manifested itself in all fields. Most of our promising athletes, who became famous for their achievements during the Soviet era, were forced to leave Azerbaijan due to unbearable conditions. Such a sad picture of the situation in our country, where historically there is a strong interest in sports, leads to an unhealthy lifestyle of young people, addiction to harmful habits, in a word, moral erosion, and gave rise to desertion cases in the country living in war conditions. On the other hand, the sports complexes, which the great leader Heydar Aliyev once gifted to his people, were destroyed due to neglect, and our sport, reminiscent of a ship sinking in the river, was left to the hope of fate. Although there were objective reasons for this, there were even more subjective reasons. holds his honor high, raises our tricolor flag to the sky. International level competitions are organized in our country, our athletes show successful results in the European and world championships held in various sports every year. It should be emphasized as an important point that the head of state Ilham Aliyev watches these competitions, gives moral and financial support to our athletes, and inspires them.

As a result of the successful sports policy, Azerbaijan is also considered a serious partner by the world's sports community, and our athletes as a main competitor. The achievements of Azerbaijan in the field of sports in a short period of time have not escaped the attention of international sports organizations, precisely because of their request, countless prestigious international tournaments, world and European championships have been held in our country in recent years.

Xalqımız dünya mədəniyyətinin yaranmasında çox böyük rol oynamışdır. İstər tarixi abidələrimiz, istər zəngin ədəbiyyatımız, istərsə də incəsənətimiz və musiqi mədəniyyətimiz qürur və fəxarət yerimiz olmuşdur. Müsəlman Şərqində ilk teatr, ilk opera, ilk balet, ilk Elmlər Akademiyası Azərbaycanın adı ilə bağlıdır. Azərbaycan xalqı dünyaya Bəhmənyar, Əcəmi Naxçıvani, Nizami Gəncəvi, Nəsirəddin Tusi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai, Mirzə Fətəli Axundzadə, Hüseyn Cavid, Üzeyir Hacıbəyov, Qara Qarayev, Fikrət Əmirov, Yusif Məmmədəliyev kimi dühalar bəxş etmişdir. Bu cür mədəniyyət nümunələrinin qorunması və təbliği isə yüksək inkişaf strategiyasının seçilməsi və uğurla həyata keçirilməsini tələb edir ki, belə strateji xəttin müəllifi həm də Heydər Əliyev fondudur. Milli dəyərlərin, mənəvi irsin təbliği fondun fəaliyyət fəlsəfəsinin aparıcı qayəsini təşkil edir. Son dövrlər xüsusən II Qarabağ müharibəsində şəhid olmuş şəxslərin, qazilərin ailə üzvlərinin, eləcə də sağlamlıq imkanları məhdud olan əlillərin diqqət mərkəzində saxlanılması, fond tərəfindən xüsusi qayğının göstərilməsi fondun mənəvi sahədə fəaliyyətinin kiçik nümunəsidir. Azərbaycanın tarixi abidələrinin, maddi mədəniyyət nümunələrinin qorunması, təmir-bərpa işlərinin icrası, xalqın çoxəsrlik ənənələrinin nümunəsi olan musiqi növlərinin, ədəbiyyat nümunələrinin, müxtəlif incəsənət, yaradıcılıq növlərinin qorunması, təbliği, mötəbər tədbirlərin səhnəsində nümayişi bu istiqamətdə uğurlu faəliyyətin bariz göstəricilərindəndir.

## ARAŞTIRMA VE BULGULAR

Mədəni irs anlayışı əhatə etdiyi spektrlər, ehtiva etdiyi dəyərlər, tərənnüm etdiyi ideyalar və tarix etibarı ilə zəngin dəyərlər toplusudur. Mədəni irs elə bir sərvətdir ki, onun mühafizəsi, qorunması və təbliği öz vətəndaşları, beynəlxalq birlik qarşısında müvafiq öhdəliklər götürmüş dövlətin vəzifəsidir. Məlumdur ki, hər bir xalq dünya mədəniyyətini öz töhfələri ilə zənginləşdirir və bütün bunlar bəşəriyyətin mədəni irsinə çevrilir, milli sərvət ümumbəşəri əhəmiyyət kəsb edir. Mədəni irs keçmişdən aldığımız, indiki təcrübəmizdən və gələcək nəsillərə çatdırdığımız mirasdır. İngilis dili mədəni irs olan abidələri səciyyələndirmək üçün "heritage" sözünə üstünlük verir. Sözün

iqtisadi və hüquqi tərifləri italyanların “beni culturali” (hərfi mənada “mədəni sərvətlər”) adlandırdıqları “mədəni mülkiyyət” anlayışına aiddir. [11]

Hər bir xalqın mədəni irsi onun sərvətidir. Tarixi abidələr, ustad memarların tikdiyi binalar, məşhur rəssamların çəkdiyi tablolar, yazıçı və şairlərin yazdığı bədii əsərlər, görkəmli bəstəkarların yaratdığı musiqi əsərləri, xalq sənətkarlığının nümunələri xalqın mədəni irsi sayılır. Mədəni irsə malik olmaq hər bir xalqın toxunulmaz hüququdur. Ümumdünya mədəni irsin və təbii sərvətlərin qorunması haqqında "YUNESKO-nun 16 noyabr 1972-ci il tarixli Konvensiyasında (Azərbaycan bu sənədə 1993-cü il dekabr ayının 6-da qoşulmuşdur) "mədəni irs" anlayışının dəqiq tərifi verilmişdir: "Abidələr - tarixi baxımdan əhəmiyyətli, universal dəyərə malik memarlıq nümunələri; ansambllar - tarixi baxımdan əhəmiyyətli universal dəyərə malik əlahiddə və ya bir-biri ilə əlaqəli tikililər qrupu". [12] 1972-ci il Ümumdünya Mədəni və Təbii İrsin Mühafizəsi haqqında Konvensiya ilə YUNESKO Yer kürəsində müəyyən yerlərin “müstəsna universal dəyərə” malik olduğunu və bəşəriyyətin ümumi irsinə aid olduğunu müəyyən etmişdir.

Bununla belə, mədəni irs təkcə abidələr və obyektlərin kolleksiyaları ilə məhdudlaşmır. O, həmçinin əcdadlarımızdan miras qalmış şifahi ənənələr, ifaçılıq sənətləri, ictimai davranışlar, mərasimlər, bayram tədbirləri, təbiət və kainatla bağlı bilik və təcrübələr, ənənəvi sənətkarlıqla bağlı bilik və metodlardən ibarətdir. Kövrək olmasına baxmayaraq, qeyri-maddi mədəni irs və ya canlı irs mədəni müxtəlifliyin qorunmasında mühüm amildir.

Hər bir xalqın mədəni irsi özündə maddi və mənəvi mədəni irsi əks etdirir. Mədəni irs təkcə bizim görə biləcəyimiz və toxuna bildiyimiz maddi obyektlərlə məhdudlaşmır. O, həmçinin qeyri-maddi elementlərdən ibarətdir: ənənələr, şifahi tarix, ifaçılıq sənəti, ictimai təcrübələr, ənənəvi sənətkarlıq, təmsillər, rituallar, icma daxilində nəsildən-nəslə ötürülən bilik və bacarıqlar. Məsələn, tanqo və flamenko, müqəddəs yürüşlər, karnavallar, Vyana qəhvəxanası mədəniyyəti, Azərbaycan xalçası və onun toxuculuq ənənələri və s. Lakin mədəni irs təkcə keçmişdən qalma mədəni simvollar və ya ənənələr toplusu deyil. Bu, həm də seçim prosesinin nəticəsidir: həm mədəni, həm də siyasi səbəblərdən gələcək nəsillər üçün qorunmağa layiq olanı və olmayanı daim seçməklə yaddaş və unutma prosesidir.

Bütün xalqlar dünya mədəniyyətinə öz töhfələrini verirlər. Buna görə də milli qanunlar və beynəlxalq müqavilələr vasitəsilə mədəni irsə hörmət etmək və qorumaq vacibdir. Artefaktların və mədəniyyət obyektlərinin qanunsuz dövriyyəsi, arxeoloji abidələrin talan edilməsi, tarixi binaların və abidələrin dağıdılması ölkənin mədəni irsinə kəskin ziyan vurur. 1954-cü ildə yaradılmış UNESCO (Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət Təşkilatı) beynəlxalq əməkdaşlığın vacibliyini vurğulayaraq, mədəniyyətlərarası anlaşmanı gücləndirmək üçün mədəni irsin qorunmasına dair beynəlxalq konvensiyalar qəbul etmişdir.[6] Mədəni irsin qorunmasında ən tez-tez təkrarlanan məsələlərdən biri fərdin və cəmiyyətin maraqları arasındakı çətin əlaqə, şəxsi və ictimai hüquqlar arasında tarazlıqdır. Qədim Romalılar müəyyən etdilər ki, sənət əsəri, hətta şəxsi mülkiyyətdə olsa belə, bütün cəmiyyətin mirası sayıla bilər. Məsələn, fərdi binanın fasadını bəzəyən heykəllər ümumi dəyərə malik hesab olunurdu və onlar bütün vətəndaşların görə biləcəyi ictimai yerdə mövcud olduğu üçün çıxarıla bilməzdilər.

Azərbaycan da mədəni irsinin zənginliyi, tarixi, maddi-mədəniyyət abidələri, zəngin ədəbiyyatı, incəsənəti və musiqi mədəniyyəti ilə seçilmişdir. Azərbaycanda arxeoloji qazıntılar nəticəsində ən qədim dövrə aid tapıntılar əldə edilmişdir. Tunc dövrünə aid iynə və bizin tapılması (eradan əvvəl III minillik)[2, 90] sübut edir ki, Azərbaycanın qədim sakinlərinin geyim mədəniyyəti mövcud olub. Kültəpədən və Mingəçevirdən (eradan əvvəl II minillik) tapılmış gildən kiçik heykəllər və Mingəçevirdən tapılmış e.ə. V əsrə aid möhür-barmaqçıllar o dövrdə heykəltəraşlıq sənətinin var olduğunu sübut edir. E.ə. III-IV əsrlərə aid qızıldan hazırlanmış çoxlu miqdarda bəzək şeyləri və gildən ayaqqabı formasında hazırlanmış qablar[3, 21] da xalqımızın çoxminillik mədəniyyət təcrübəsindən xəbər verir. Tapıntılar üzərində əks olunmuş rəsm cizgiləri Azərbaycanda təsviri sənətin tarixinin qədimliyini göstərir. Çoxəsrlik ənənələri olan mədəniyyət sahələrindən biri də musiqidir. Musiqi xəzinəsini nəsillərdən nəsillərə ötürən xalqımız xalq mahnıları, rəqslər, aşıq yaradıcılığını qorumağı və yeni nəsillərə miras qoymağı bacarmışlar.
Məqalənin mövzusu Heydər Əliyev fonduna həsr olunduğu üçün növbəti paraqrafda fondun Azərbaycan mədəni irsinə töhfələri araşdırılıb.

Heydər Əliyev Fondu 10 may 2004-cü ildə Azərbaycanın birinci xanımı, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyeva tərəfindən yaradılıb. Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsini əbədiləşdirmək, onun zəngin irsini təbliğ edərək yaşatmaq və dövlətçiliklə bağlı ideyalarını nəsildən nəsilə ötürməkdir. Yarandığı gündən ölkəmizin siyasi, ideoloji, sosial həyatında müstəsna rol oynayan fond gələcəyə yönəlik addımlar atır. Heydər Əliyev fondu fəaliyyətində əhalinin həssas qruplarına fokuslansa da, elm, təhsil, texnologiya, mədəniyyət kimi sahələrdə də fəaliyyət göstərirdi. Fondu ümummili xarakter qazandıran nüans isə milli genefondun inkişaf etdirilməsini, xalqımıza xas olan milli-mədəni irsin gələcəyə sağlam şəkildə ötürülməsini öz prioritet fəaliyyət istiqaməti seçməsidir. Mövcud olduğu 18 il ərzində fond bu prinsiplərə daim sadiq olmuşdur. Təsadüfi deyil ki, fondun rəhbəri Mehriban Əliyeva 2004-cü il avqustun 13-də Azərbaycanın şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanması və inkişaf etdirilməsi sahəsində yorulmaz səylərinə görə UNESCO-nun xoşməramlı səfiri adına layiq görülmüşdür.[4] Maraqlı cəhət ondan ibarətdir ki, Heydər Əliyev fondu milli dəyərlərin qorunması işində yalnız mühafizəkarlıq ideallarına əsaslanmır, paralel şəkildə müasirliyi və dünyaya inteqrasiyanı da təlqin edir.
Fondun həyata keçirdiyi layihələrdən biri 2005-ci ildən tətbiq edilən "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsidir. Layihə çərçivəsində respublikada məktəb tikintisi silsilə hal almış, ucqar dağ kəndlərinə qədər ölkənin hər yerində müasir standartlara tam cavab verən təhsil ocaqları tikilib istifadəyə verilmişdir. Bu layihənin fond tərəfindən tətbiqi Azərbaycanda milli təhsil modelinin formalaşmasına təkan vermişdir. Müasir dünyanın tələbləri əsasında milli təhsil modelinin formalaşması unikal hadisə olmaqla yanaşı, təhsilin bir xalqın milli genefondunun qorunmasındakı əhəmiyyətini nəzərə alsaq, milli-mədəni irsin qorunmasına böyük töhfə olmuşdur.
Heydər Əliyev Fondunun təhsil sahəsində həyata keçirdiyi layihələrdən biri də "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramıdır. Fond rəhbərliyi bu proqram çərçivəsində ölkə ərazisində çox sayda uşaq evi və internat məktəbinə səfər edib. Proqram çərçivəsində uşaq evləri

və internat məktəbləri ilə bağlı ortaya çıxmış problemlərin həlli istiqamətində 4 kateqoriya müəyyən olunmuşdur: texniki dəstək, təhsil, səhiyyə və ictimai fəallıq. Həmçinin, bu əsnada yaradılmış işçi qrupu respublikada ərazisində mövcud olan uşaq evləri və internat məktəblərində vəziyyətin monitorinqini aparmış, uşaqların sayı, aylıq, illik dövlət təminatına daxil olan qida, geyim, texniki vəsait normativləri, ümumi şərait (təhsil, səhiyyə, yaşayış, istirahət) kimi göstəriciləri müəyyən etmişdir. Həmçinin qeydə alınmışdır ki, uşaq müəssisələrinin böyük əksəriyyətinin ilkin mərhələdə əsaslı təmirə və texniki təchizata daha çox ehtiyacı var. [8, 34]
Heydər Əliyev Fondu əlilliyi olan şəxsləri də diqqətdən kənarda qoymamışdır. 2005-ci ildə BMT-nin İnkişaf Proqramı ilə müştərək şəkildə görmə qabiliyyətini itirmiş və ya görmə imkanları zəif olan uşaqların təhsilə cəlb olunması ilə bağlı işlər həyata keçirmişdir. Yeni layihə Azərbaycanda inkluziv təhsilin inkişafına təkan vermişdir. Heydər Əliyev Fondunun layihəsi əsasında bu proses üç mərhələdə həyata keçiriləcəkdir. İlk mərhələ kor və görmə qabiliyyəti zəif olan insanların İKT-yə ehtiyaclarını müəyyən etmək, onlar üçün rəqəmsal fərqin aradan qaldırılması üzrə ayrıca proqram layihəsi hazırlamaqdan ibarətdir. İkinci mərhələdə kor və görmə qabiliyyəti zəif olan uşaqlar üçün internat məktəbində model İKT sinfinin yaradılması istiqamətində işlər aparılmışdır. Burada kompüter avadanlığının alınıb quraşdırılması, proqram təminatının lokallaşdırılması, internetə çıxışın təmin edilməsi və xüsusi tədris-təlim proqramlarının hazırlanması başlıca vəzifələr olmuşdur. [5, 6-7] Üçüncü mərhələdə isə həmin məktəblərin informasiya təminatı, kompyuter texnologiyalarının yerləşdirilməsi, səsli kitabxananın yaradılması, mərkəzin səsli kitablarla təmin olunması, Brayl şriftli kitabların təchizatı, müvafiq yöndə təlimlərin təşkili həyata keçirilmişdir.
Heydər Əliyev Fondunun əsasını qoyduğu layihələrdən biri də Azərbaycan Regional Muzeyinin yaradılmasıdır. Mərkəzin qarşısına qoyulmuş fəaliyət prinsipləri ölkəmizin müxtəlif regionlarının tarixi, mədəniyyəti, sosial-iqtisadi durumu barədə gələn qonaqları məlumatlandırmaqdır. Bu layihə ilə bağlı Böyük Britaniyanın SMA Design şirkəti ilə birgə işləyəcək yerli mütəxəssislərdən ibarət işçi qrupu yaradılmışdır. Ölkənin tarixi, iqtisadiyyatı, mədəniyyəti, coğrafiyası, adət-ənənələri, multikultural dəyərləri, əhalisinin məşğulluğu, təsərrüfat həyatı barədə məlumat vermək mərkəzin əsas yaradılma məqsədidir. Əsas məqsədlər içərisində həm də ümummilli lider Heydər Əliyevin regionaların inkişaf yolunda strategiyası, addımları, qoyduğu zəngin irsi təbliğ etmək də var.
Fond tarixi abidələrin qorunması və təbliği istiqamətində də yorulmaz fəaliyyətdədir. Bu işlərin bariz nümunəsi Azərbaycanın çoxəsrlik mədəniyyətinin nümunəsi olan İçərişəhərin, unikal məkan olan Qız Qalasının, Azərbaycanda şəhərsalma sənətinin misilsiz nümunəsi olan Şirvanşahlar Saray Kompleksinin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsidir. 2013-cü il UNESCO tərəfindən İçərişəhər Şirvanşahlar Sarayı və Qız qalası ilə birlikdə gücləndirilmiş mühafizə statusunun verilməsi görülmüş fəaliyyətin dolğun olduğunun göstəricisidir. Bu statusa malik mədəni obyektlər Silahlı Münaqişə Zamanı Mədəni Sərvətlərin Qorunması üzrə Haaqa Konvensiyası və onun İkinci Protokoluna qoşulmuş ölkələrin silahlı qüvvələri tərəfindən tanınan xüsusi emblemlə nişanlanır və gücləndirilmiş mühafizə ilə təmin olunur. [13, 2]

Qobustan qədim qayaüstü incəsənətinin unikal abidəsidir. Ölkəmizin qədim tarixinin dünyaya nümayiş olunması baxımından abidə böyük əhəmiyyətə malikdir. Nəzərə alsaq ki, bu ərazi azı son 15 000 il ərzində daimi insan məskəni olmuşdur və burada Üst Paleolit dövründən tutmuş Orta əsrlərə qədər bəşər tarixinin bütün əsas dövrlərinə aid petroqliflər təmsil olunur, o zaman onun qorunması və inkişaf etdirilməsi bəşəri əhəmiyyət daşıyır. YUNESKO-nun Ümumdünya İrs Komitəsinin Yeni Zelandiyanın Kristçorç şəhərində keçirilən 31-ci sessiyasında Qobustan Dövlət Tarixi-Bədii Qoruğu da Dünya Mədəni İrs Siyahısına daxil edilmişdi. [13, 2] Bu heç də sıradan bir hadisə deyil. Bu qərar sayəsində Qobustan da beynəlxalq təşkilatların nəzarəti altına keçmişdir. Bu qərarın qəbul olunması isə heç də asan başa gəlməmiş, ölkə başçısı bunun üçün 2 dəfə müraciət etmişdir.

Fondun fəaliyyət istiqamətləri içərisində dini abidələrin qorunması və restavrasiyası işlərinin aparılması da xüsusi yer tutur. Azərbaycan dövlətinin və xalqının tolerantlığını dünyada tanıdan və simvoluna çevrilən Heydər Əliyev fondu bir çox xalqların, dinlərin ölkəmizdə mövcud olan abidələrini qorumaq, yeniləməklə yanaşı, çoxəsrlik tariximizi özündə yaşadan dini abidələrimizə qarşı da həssaslıqla yanaşmışdır. Xüsusən Qarabağda ermənilərin talançılığının, soyğunçuluğunun qurbanı olan, tarixi saxtalaşdırma missiyasının obyektinə çevrilən tarixi-dini abidələrimiz 44 günlük Vətən müharibəsindən sonra yenidən bərpa olunması, daşıdığı tarixi izlərin dünyaya nümayiş olunması yolunda fond misilsiz xidmətlər göstərir və göstərməyə davam edir. Bu yolda görüşlərin keçirilməsi, xarici mütəxəssislərin dəvət olunması, yekun qiymətləndirmələrin aparılması prosesinə artıq start verilib. [10]

Azərbaycan xalqının yüzillik sərvəti olan muğamın təbliği də fondun diqqət mərkəzində olmuşdur. Muğam sənəti xalqımızın sahib olduğu dərin fikir dünyasının təcəssümü olduğu üçün, üstəlik keçmişdən bugünə nəsillərə ötürülən sərvət olduğu üçün bu mirasın qorunması və təbliği milli dəyərlər baxımından önəm kəsb edir. Ölkədə muğam mərkəzlərinin açılması, muğamın dünyanın ən mötəbər məclislərində səsləndirilməsi, Azərbaycanda böyük festivalların keçirilməsi ilə məhz muğam musiqi və ya improvizasiyasının açılış musiqisi olaraq istifadə edilməsi xalqımızın milli sərvətini ölkə miqyasından dünya miqyasına daşımışdır.

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondunun ölkəmizin görkəmli muğam sənətkarları ilə birlikdə reallaşdırdığı ilk layihə "Qarabağ xanəndələri” adlanırdı. Nəfis tərtibatla dinləyicilərin ixtiyarına verilmiş "Qarabağ xanəndələri” albomunun təqdimat mərasimində Mehriban Əliyeva demişdi: "Mən inanıram ki, bu albomla tanış olanda hiss etmisiniz ki, biz onu nə qədər məsuliyyətlə, digər tərəfdən də böyük məhəbbətlə hazırlamışıq. Heç də təsadüfi deyil ki, bizim ilk layihəmiz Qarabağ xanəndələrinə həsr olunmuşdur. Biz Qarabağ torpağının acısını, Azərbaycanın haqq səsini muğam vasitəsilə bütün dünyaya çatdırırıq”.[4, 4] Fondun və şəxsən Mehriban Əliyevanın fəaliyyəti nəticəsində Azərbaycan muğamı 2003-cü ildə YUNESKO tərəfindən bəşəriyyətin qeyri-maddi irsinin inciləri siyahısına salınıbdır.

Azərbaycanın mədəniyyət tarixinə töhfə olan hadisələrdən biri də Heydər Əliyev fondunun diqqət və qayğısı ilə aşıq sənətinin təbliği və dünya mədəniyyət irsi siyahısında yer almasının təmin edilməsi olmuşdur. YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Komitəsinin sentyabrın 30-da Birləşmiş Ərəb Əmirliklərinin Abu-Dabi şəhərində keçirilən 4-cü sessiyasında

qurumun yekun qərarına əsasən Azərbaycanın aşıq sənəti YUNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. [1, 1] Bu hadisə aşıq sənətinin Azərbaycan mədəni irsinin ən qədim nümunələrindən biri olduğunu beynəlxalq səviyyədə bir daha təsdiqləyir. Azərbaycanda aşıq sənəti, sazın tədrisi artıq musiqi məktəblərində, kolleclərdə, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) geniş şəkildə həyata keçirilir.

Düyanın qeyri-maddi irsi siyahısına daxil edilən, Azərbaycan milli dəyərlərinin göstəricisi olan sahələrdən biri də xalçaçılıqdır. Xalqımızın bədii-estetik zənginliyini, möhtəşəmliyini özündə ehtiva edən Azərbaycan xalçalarının dünyaya tanıdılması və YUNESKO-nun Bəşəriyyətin Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edilməsi həm də fondun bu sahənin təbliğatı istiqamətində apardığı işlərin nəticəsi idi. [7, 35] Riyakar düşmənlərin Azərbaycanın bütün mədəni irsinə qarşı plagiat yanaşması, işğalçılıq mövqeyini milli dəyərlərə qarşı da nümayiş etdirməsi xalçaçılıq sənətinin də qorunması, tarixinin düzgün öyrənilməsi və dünya ictimaiyyətinə çatdırılması ehtiyacını gücləndirmişdir. Azərbaycan xalça sənətinin tarixinin tunc dövrünə qədər uzanması bu sənət növünə ciddi şəkildə dövlət qayğısını həm də dövlətçilik ənənələrimizin isbatına olan töhvə kimi qəbul etmək olar. Bu amilləri də nəzərə alaraq Mehriban xanım Əliyevanın başçılığı ilə Heydər Əliyev fondunun xalçaçılıq sənətinin inkişaf etdirilməsi, peşə təhsilinə diqqət ayrılması, ornamentlərin öyrənilməsi üçün xüsusi laboratoriyaların təşkili istiqamətində fəaliyyəti danılmazdır. Bu gün Azərbaycanda xalça sənəti öz inkişafının yeni mərhələsini yaşayır. “Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında” Qanunun qəbul edilməsi, Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi üçün müasir standartlara uyğun yeni binanın inşa edilməsi bu qədim el sənətinə dövlət qayğısının ifadəsidir.

Fond xalqımızın mədəniyyətini, milli mənəvi dəyərlərini özündə əks etdirən Novruz bayramına da yüksək qiymət vermişdir. Bu bayramın dövlət səviyyəsində qeyd edilməsi, YUNESKO-nun Qeyri-maddi mədəni irsinə daxil olunması fondun bu sahədə də əvəzsiz faəliyyətinin nəticəsidir.

Azərbaycanın tar ifaçılığı sənəti də UNESCO-nun Qeyri-Maddi İrs Siyahısına salındı. Və nəhayət, ötən il Azərbaycanın ənənəvi at idman növü çovkan oyunu UNESCO-nun Qeyri-Maddi İrs Siyahısına daxil edildi. 2014-cü ildə isə kəlağayı baş örtüyünün xalqımızın milli-mədəni irsi kimi UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına salınması milli mədəniyyətimizin beynəlxalq aləmdə tanıdılması istiqamətində gördüyü işlərin nəticəsidir. Azərbaycanda hələ bu siyahıya salınacaq xeyli mədəni nümunələr, abidələr var və yəqin ki, yaxın gələcəkdə həmin siyahı milli-mənəvi dəyərlərimizin böyük qismini də özündə əks etdirəcək. Bütün bu uğurlar, mədəni irsimizin beynəlxalq aləmdə tanıtdırılması Heydər Əliyev Fondunun prezidenti, ölkəmizin birinci xanımı Mehriban Əliyevanın yorulmaz fəaliyyətinin nəticəsidir. Məhz Mehriban xanım Əliyevanın təşəbbüskarlığı sayəsində milli sərvətimiz olan bir sıra tarixi mədəniyyət abidələri, xalqımızın yaddaşında yaşadılaraq bu günümüzə çatdırılan mədəni irs nümunələrimiz öz layiqli qiymətini almışdır. Bütün bu addımlar xalqımıza xas olan xeyriyyəçilik ənənəsinin də müasir formada təcəssümüdür. Professor Elman Nəsirlinin qeyd etdiyi kimi, “Mehriban xanım Əliyeva Azərbaycanda xeyriyyəçilik ənənələrini nəinki bərpa etmiş, ona yeni forma və məzmunla zənginləşdirmişdir. Nəticədə xeyirxahlıqdan yoğrulmuş bu ənənə qədim tarixi olan, Şərq və

Qərbin kəsişdiyi yerdə qərar tutan tolerant və dünyəvi Azərbaycanda yeni inkişaf mərhələsinə daxil olmuşdur."[9]

## SONUÇ

Beləliklə, Heydər Əliyev Fondunun adıçəkilən və qeyd edilməyən çox sayda layihələri xalqımızın milli mədəni irsinin yeniliklərlə birləşərək dünyaya çatdırılmasında rupordur. Qeyd edilən layihələrdən, fəaliyyət istiqamətlərindən də göründüyü kimi, fond sadəcə sosial zəminli fəaliyyət göstərmir, bütövlükdə xalq, dövlət və hətta dövlət miqyasını aşan qlobal kontekstdə işlər icra edir. Görülən bütün işlər isə Azərbaycanın adını beynəlxalq arenada ən yüksək məqama çatdırmağa fokuslanıb. Xeyriyyəçilik, səhiyyə, təhsil, mədəniyyət, idman, tarix və daha çox sahələrdə Heydər Əliyev Fondu olduqca məhsuldar işlər həyata keçirməklə adını tarixin ən şərəfli səhifəsinə yazdırmağı bacarıb. Bütün bu fəaliyyətin mərkəzində isə ilk növbədə insansevərlik, qayğıkeşlik, vətənpərvərlik duyğuları yatır. Ömrünü xalqının rifahına, dövlətinin çiçəklənməsinə həsr edən ümummilli lider Heydər Əliyevin adını daşıyan fondun missiyası bu hisslərdən kənar qala bilməzdi. Bütün bu addımlar həm də onu bir daha təsdiq edir ki, Heydər Əliyev Fondu xalqın mədəni irsinin qorunması və təbliğində hər zaman təkanverici qüvvə olacaq.

## KAYNAKÇA

1. Azərbaycan.-2018.-9 noyabr.- № 253.- S.1,3.
2. Azərbaycan tarixi. 7 cilddə. 1-ci cild. 2007.
3. Azərbaycan tarixi:1900-1920-ci illər. 5-ci cild. Bakı: Elm, 2008
4. Əliyeva İ. Azərbaycan.- 2006.- 15 sentyabr.- № 208.- S. 4.
5. Əliyeva Y. Səs.- 2009.- 9 may.- S. 6-7.
6. ICOMOS, International Cultural Tourism Charter. Principles And Guidelines For Managing Tourism At Places Of Cultural And Heritage Significance. ICOMOS International Cultural Tourism Committee. 2002.
7. Mehriban Əliyeva: Həyatın 100 anı. Bakı, 2020
8. Mehriban Əliyeva: Tərəqqi və yüksəliş yolları ilə (2 cilddə). II cild. Bakı, 2014
9. Nəsirli E. "Mehriban Əliyeva: Adı imzası olan şəxsiyyət" 2020, https://apa.az/az/bloq/blog-single/Mehriban-liyeva:-Adi-imzasi-olan-sxsiyyt-142
10. Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın dinə, dini abidələrə xüsusi diqqət və qayğısı / R. Kamalqızı // Səs.- 2022.- 21 iyun.- № 108.
11. Sandra P. World Heritage Sites, Types And Laws. // Encyclopedia of Archaeology, 2008

12. Thurley S. Into the future. Our stategy for 2005-2010. In: Conservation Bulletin [English Heritage], 2005 (49).
13. Xalq qəzeti.- 2014.- 30 mart.- № 62.- S. 2.

# HEYDƏR ƏLİYEVİN MİLLİ DÖVƏLƏTÇİLİK STRATEGİYASI VƏ GƏNCLƏR SİYASƏTİ

STRATEGY OF NATIONAL STATEHOOD AND YOUTH POLICY OF HEYDAR ALIYEV

**Rəşad ƏSGƏROV**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Milli Elmlər Akademiyası, Fəlsəfə və sosiologiya İnstitutu

**ÖZET**

Bu gün dünyada gedən ictimai – siyasi proseslər Azərbaycanda da gənclər hərəkatının ümumi strategiyası və idealogiyasının formalaşmasına çox böyük təsir göstərir.

XX əsrin sonlarında Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra hüquqi-demokratik, vətəndaş cəmiyyəti qurmaq uğrunda böyük uğurlar əldə etdi. Bu uğurlar tarixi nöqteyi nəzərdən qısa vaxt ərzində qeyri – adi dövlət idarəçilik bacarığına, zəngin həyat təcrübəsinə malik, xalqımızın və dövlətimizin müstəqilliyini itirmək təhlükəsindən xilas edən, fenomenal şəxsiyyət, ümummilli lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bilavasitə bağlıdır.

1993 – cü ildə xalqın iradəsi və tələbi ilə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin fəaliyytinin əsas istiqamətlərindən biri dövlət quruculuğu ilə yanaşı gənc nəslə diqqət və qayğının artırılması idi. Yeniyetmə və gənclərlə bağlı dövlət siyasətinin əsas prinsiplərini müəyyən edən ümummilli lider Heydər Əliyev onların ölkənin sosial-iqtisadi, ictimai-siyasi həyatında fəal iştirakının təmin olunması üçün münbit şərait yaratdı. Gənclərin layiqli vətəndaş kimi yetişməsi üçün şəraitin yardılması, onların sosial-psixaloji vəziyyətlərinin, fəaliyyətlərinin yaxşılaşdırılması dahi şəxsiyyətin uzaqgörən və müdrik siyasətinin təzahürü idi.

Keçən əsrin 80-ci illərində erməni millətçilərinin quldur dəstələrinin Azərbaycana qarşı başladıqları hərbi təcavüzün qarşısını almaq üçün özünümüdafiə dəstələrinin yaradılmasında gənclərin böyük xidmətləri olmuşdur.

Müstəqillik dövründə Azərbaycan gəncliyində formalaşan yeni prinsip və mənəvi dəyərləri, həyata yeni baxışlar sistemi ilə yanaşı, məqsəd və vəzifələrinə, fəaliyyət istiqamətlərinə, sosial tərkibinə görə bir-birindən fərqli, yeni, müstəqil təşkilatlar yaranmağa başladı. Gənclərin ilk təşkilatları əsasən kortəbii surətdə, respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda xalq hərəkatının təsiri altında təşəkkül tapırdı. Lakin "1991-1993-cü illərdə respublikada hökm sürən hərc-mərclik şəraitində təşəkkül tapmış gənclər təşkilatlarının çoxunda siyasiləşmə, populizm meyilləri özünü büruzə verdi. Bu təşkilatların bir çoxu o dövrdə fəaliyyət göstərən müxtəlif-yönlü siyasi partiya və qurumların təsiri altına düşdü. Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi, demokratik dövlət quruculuğu prosesinin həyata keçirilməsi vəzifələri gənclərin ayrı-ayrı partiya və qurumların deyil, ümummilli dövlət mənafeləri əsasında səfərbər olunması, vahid gənclər siyasətinin hazırlanıb həyata keçirilməsi zərurətini ortaya atdı".

**Açar sözlər:** Heydər Əliyev, Azərbaycan, fenomenal şəxsiyyət, yeniyetmə, gənclər, ictimai

**ABSTRACT**

The social and political processes taking place in the world today have a great influence on the formation of the general strategy and ideology of the youth movement in Azerbaijan.

After regaining its independence at the end of the 20th century, Azerbaijan achieved great success in building a legal-democratic civil society. These successes are directly related to the name and activity of Heydar Aliyev, a phenomenal personality and national leader who saved

our people and our state from the danger of losing their independence, with extraordinary state management skills and rich life experience in a short period of time from a historical point of view.

One of the main directions of activity of national leader Heydar Aliyev, who returned to power in 1993 by the will and demand of the people, was to increase attention and care for the young generation along with state building. National leader Heydar Aliyev, who defined the main principles of the state policy regarding teenagers and young people, created fertile conditions for ensuring their active participation in the socio-economic, socio-political life of the country. Helping the conditions for young people to grow up as worthy citizens, improving their socio-psychological conditions and activities was a manifestation of the visionary and wise policy of the genius.

In the 80s of the last century, young people made great contributions to the creation of self-defense units to prevent the military aggression of Armenian nationalist gangs against Azerbaijan.

In the period of independence, along with the new principles and moral values formed in the youth of Azerbaijan, along with the system of new views on life, new, independent organizations began to emerge, different from each other according to their goals and tasks, directions of activity, and social composition. The first youth organizations were formed spontaneously under the influence of the people's movement for territorial integrity and sovereignty of the republic. However, “in 1991-1993, the tendencies of politicization and populism manifested themselves in most of the youth organizations that were formed in the conditions of turmoil prevailing in the republic. Many of these organizations came under the influence of various political parties and institutions operating at that time. The tasks of protecting Azerbaijan's independence, sovereignty and territorial integrity, implementing the legal and democratic state-building process in the country have revealed the need to mobilize young people on the basis of national state interests, not individual parties and institutions, and to develop and implement a unified youth policy”.

**Keywords:** Heydar Aliyev, Azerbaijan, phenomenal personality, teenager, youth, public

Bu gün dünyada gedən ictimai – siyasi proseslər Azərbaycanda da gənclər hərəkatının ümumi strategiyası və idealogiyasının formalaşmasına çox böyük təsir göstərir.

XX əsrin sonlarında Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra hüquqi-demokratik, vətəndaş cəmiyyəti qurmaq uğrunda böyük uğurlar əldə etdi. Bu uğurlar tarixi nöqteyi nəzərdən qısa vaxt ərzində qeyri – adi dövlət idarəçilik bacarığına, zəngin həyat təcrübəsinə malik, xalqımızın və dövlətimizin müstəqilliyini itirmək təhlükəsindən xilas edən, fenomenal şəxsiyyət, ümummilli lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bilavasitə bağlıdır.

1993 – cü ildə xalqın iradəsi və tələbi ilə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin fəaliyytinin əsas istiqamətlərindən biri dövlət quruculuğu ilə yanaşı gənc nəslə diqqət və qayğının artırılması idi. Yeniyetmə və gənclərlə bağlı dövlət siyasətinin əsas prinsiplərini müəyyən edən ümummilli lider Heydər Əliyev onların ölkənin sosial-iqtisadi, ictimai-siyasi həyatında fəal iştirakının təmin olunması üçün münbit şərait yaratdı. Gənclərin layiqli vətəndaş kimi yetişməsi üçün şəraitin yardılması, onların sosial-psixaloji vəziyyətlərinin, fəaliyyətlərinin yaxşılaşdırılması dahi şəxsiyyətin uzaqgörən və müdrik siyasətinin təzahürü idi.

Keçən əsrin 80-ci illərində erməni millətçilərinin quldur dəstələrinin Azərbaycana qarşı başladıqları hərbi təcavüzün qarşısını almaq üçün özünümüdafiə dəstələrinin yaradılmasında

gənclərin böyük xidmətləri olmuşdur.

Müstəqillik dövründə Azərbaycan gəncliyində formalaşan yeni prinsip və mənəvi dəyərləri, həyata yeni baxışlar sistemi ilə yanaşı, məqsəd və vəzifələrinə, fəaliyyət istiqamətlərinə, sosial tərkibinə görə bir-birindən fərqli, yeni, müstəqil təşkilatlar yaranmağa başladı. Gənclərin ilk təşkilatları əsasən kortəbii surətdə, respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda xalq hərəkatının təsiri altında təşəkkül tapırdı. Lakin "1991-1993-cü illərdə respublikada hökm sürən hərc-mərclik şəraitində təşəkkül tapmış gənclər təşkilatlarının çoxunda siyasiləşmə, populizm meyilləri özünü büruzə verdi. Bu təşkilatların bir çoxu o dövrdə fəaliyyət göstərən müxtəlif-yönlü siyasi partiya və qurumların təsiri altına düşdü. Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi, demokratik dövlət quruculuğu prosesinin həyata keçirilməsi vəzifələri gənclərin ayrı-ayrı partiya və qurumların deyil, ümummilli dövlət mənafeləri əsasında səfərbər olunması, vahid gənclər siyasətinin hazırlanıb həyata keçirilməsi zərurətini ortaya atdı".

Azərbaycanda gənclərə, onların cəmiyyətdəki mövqelərinə münasibət birmənalı olmayıb. Bu məsələyə qiymət müxtəlif vaxtlarda müəyyən qruplar tərəfindən birqütblü qiymətləndirilib.

Çar Rusiyasının vaxtında gənclərdən yalnız öz maraqları naminə istifadə olunub. Belə münasibət elə sovet totalitar rejimi dövründə də olub. Lakin gənclərə münasibət Respublikamız müstəqillik əldə etdikdən sonra tamamilə kökündən dəyişdi. Beləki, gənclərə, onların ictimai mövqelərinə, siyasi hərəkat və təşkilatlarda təmsil olunmalarına görə hansı dərəcədə əhəmiyyətli olduğunu həmin dövrün siyasi hakimiyyəti müəyyən edirdi.

Bu gün dünyada gedən ictimai – siyasi proseslər Azərbaycanda da gənclərlə bağlı ümumi strategiyanın və idealogiyanın formalaşmasına çox böyük təsir göstərir.

XX əsrin əvvəllərində olduğu kimi, həmin əsrin sonlarında da gənclər müxtəlif təşkilatlarda təmsil olunurdular. Onlarda milli şüurun təşəkkül tapması və inkişaf etməsində həmin dərnəklərin rolu böyük oldu. Gənclər müxtəlif dövrlərdə mövcud dövrün problemləri ilə maraqlanır, həmin problemlərin aradan qaldırılması yollarını birgə müzakirə edirdilər. Bu da xalqın maariflənməsində və mətbuatın inkişafında müstəsna rola malik olub, tərəqqisinə təkan verdi. Bütün bunlar Azərbaycanın gənc ziyalılarında azadlıq uğrunda mübarizəni sistemləşdirdi.

Elə bunları nəzərə alan Heydər Əliyev gəncləri ölkənin ictimai-siyasi həyatında daha da fəal iştirak etməyə, ölkənin taleyinə biganə qalmamağa çağırmışdı.

Ümummilli lider Heydər Əliyev gənclərlə iş sahəsində dövlət siyasətini həyata keçirmək məqsədilə 1994-cü ilin iyulun 26-da yeni dövlət qurumunun - Gənclər və İdman Nazirliyinin yaradılması haqqında fərman imzaladı.

Gənc nəslin vətənpərvərlik tərbiyəsində Heydər Əliyevin gənclər siyasətindəki mühüm amilləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1.Gənclərin mənəvi tərbiyəsində fəal həyat mövqeyinin formalaşdırılması
2.Gənclərin fəal həyat mövqeyinə yiyələnməsi və vətəndaşlıq mövqeyinin qiymətləndirilməsi
3.İctimai mənafe ilə şəxsi mənafe arasında vəhdət yaratmaq.
4.Əməkdə, təhsildə, ailə-məişət münasibətlərində nümunəvilik göstərmək.
5. Asudə vaxtdan səmərəli istifadə etmək
6. Əqidəsində möhkəmlik yaratmaq, ideya-mənəvi keyfiyyətlərində iradə zənginliyi yaratmaq
7. Yeni-yeni məsələləri həll etməkdə təşəbbüskarlıq göstərməklə, nailiyyətlər qazanmaq
8.Çətin məsələlərin həllində qətiyyətli hərəkət etmək
9.Gənclərin mənəvi tərbiyəsində azərbaycançılıq ideyalarının bərqərar edilməsi
10.Azərbaycançılıq ideyaları timsalında gənclərə sərbəst düşüncə, nümunəvi əxlaq, bir-birinə inam, etibar, sədaqət, vətənpərvərlik hissləri təlqin etmək

11. İctimai həyatın bütün sahələrində iqtisadiyyatda, mədəniyyətdə, elm və təhsildə, təsərrüfatda, ictimai şüurda sərbəstlik, azadlıq və müstəqillik ideyalarının formalaşdırılmasına xidmət etmək, bu ideyaların həyata keçməsi Azərbaycanın bir müstəqil dövlət kimi formalaşmasının ideya bazasını təmin etmək

12. İctimai şüurun sosial həyatla vəhdəti bazasında azərbaycançılıq ideyalarının mənimsənilməsi 14. Vətənpərvərlik tərbiyəsində gənclərə, gəncliyə yaradıcı və aparıcı bir qüvvə kimi yanaşılması, müstəqil, azad, demokratık dövlətin bünövrəsinin yaradılmasında gəncliyin rolunun qiymətləndirilməsi

15.Demokratik cəmiyyətin qurulmasında yalnız vasitə kimi nəzərə alınmır, həm də onlar bu cəmiyyətin varisləri, davametdiriciləri kimi qiymətləndirilir. Gənclər gələcəyin aparıcı qüvvəsi hesab edilirlər.

Dövlət gənclər siyasətinin mühüm tərkib hissəsi gənclərin vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsidir. Məhz bu məqsədlə aidiyyatı dövlət orqanlarının (təhsil, müdafiə nazirliklərinin) iştirakı ilə müxtəlif tədbirlər həyata keçirilmiş və keçirilməkdədir. 1998-ci ilin martında «Gənclərin vətənpərvərlik tərbiyəsinin daha da yaxşılaşdırılması yolları» mövzusunda respublika elmi-praktik konfransı keçirilmiş, müvafiq mövzuda 1999-cu ildə xüsusi proqram qəbul edilmişdir. Böyüməkdə olan gənc nəslin ordu sıralarında xidmətə hazırlanması məqsədi ilə orta məktəblərin IX-XI sinif şagirdləri arasında «Şahin», «Cəsurlar», «Marş irəli», «Vətənin müdafiəsinə hazıram» hərbi idman oyunlarının keçirilməsi ənənə halını almışdır.

Yeniyetmə və gənclərin sosial problemlərinin həlli də gənclər siyasətinin mühüm istiqamətini təşkil edir. Gənclərlə aparılan işin əsas istiqamətlərindən biri də hüquq pozuntularının, cinayətkarlığının və narkomanlığın qarşısının alınmasıdır.

Azərbaycan dövlətinin apardığı gənclər siyasətinin tərkib hissəsini bədii yaradıcılığa, ədəbiyyata, incəsənətə meyil göstərən gənclərin üzə çıxarılması, onlar üçün əlverişli yaradıcılıq mühitinin formalaşdırılmasıdır. Gənclərlə iş sahəsində beynəlxalq əlaqələrin qurulması da əsas fəaliyyət istiqamətlərindən biridir. Heydər Əliyevin Prezidentliyi dövründə gənclərin hərtərəfli inkişafının təmin olunması üçün siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi şərait va təşkilatların yaradılmasını sürətləndirmiş, onların ictimai-siyasi fəallığının artmasına kömək etmişdir.

Məhz Heydər Əliyevin azərbaycançılıq idealogiyasının formalaşmasında gənclərin də müstəsna fəaliyyəti olmuşdur. Dövlət quruculuğu işlərində gənclərin potensialından istifadə olunması bu siyasətin bariz nümunəsidir.

ƏDƏBİYYAT:

1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı: Qanun nəşriyyatı,2017, 67 səh.
2. Azərbaycan multikulturalizmi. Ali məktəblər üçün dərslik. Bakı: BBMM, 2017. 421 səh
3. Badamov Azər. Heydər Əliyev epoxasının multikultural zənginliyi Respublika qəzeti 21 aprel 2023.
4. Əliyev Heydər. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı, 1997
5. Sarıyeva İradə. Heydər Əliyev və multikulturalizmin Azərbaycan modeli.. Bakı xəbər. 2016. 21-23 may. S.15
6. Xudiyev Nizami. Heydər Əliyev və multikulturalizmin Azərbaycan modeli. Yeni Azərbaycan.- 2016.- 23 aprel.- S.5.

# HAYDAR ALİYEV DÖNEMİ (1993-2003) AZERBAYCAN EKONOMİK YAPSINA YÖNELİK GENEL BİR DEĞERLENDİRME

A GENERAL ASSESSMENT OF THE ECONOMIC STRUCTURE OF AZERBAIJAN DURING THE HEYDAR ALIYEV PERIOD (1993-2003)

**Doç. Dr. Salih MEMİŞ**
Giresun Üniversitesi, Bulancak Kadir Karabaş UBYO, Lojistik Yönetimi,
ORCID No: 0000-0003-1345-3618

**ÖZET**

1991 yılı sonlarına doğru bağımsızlığını ilan ederek uluslararası platformda iktisadi ve politik istikrarın bir ögesi olmaya başlayan Azerbaycan hükümeti, ilk on yıllık bir zaman süresince karşılaştığı gelişmeler ile birlikte serbest pazar şartlarına uyum sağlayan iktisadi sistem gelişimi için büyük bir çaba sergilemiştir. 1994 tarihinde imzalanan yüzyıl sözleşmesiyle birlikte, Azerbaycan'da, özellikle de enerji alanında gerçekleştirilen yabancı yatırımlar önemli olmuştur. Azerbaycan hükümeti bağımsızlığını ilan ettikten sonraki süreçte ülkede cereyan eden sosyal ve iktisadi büyüme ülkenin kalkınması noktasında olumlu etkileri olmuştur. Kısa zaman içerisinde yasalaşan kanun ve idari düzenlemeler iktisadi göstergelere de yansımıştır. Azerbaycan hükümeti, yaptığı anlaşmalar ile tarihî bir fırsatı gerek siyasî bağımsızlık gerekse de iktisadi bağımsızlık bakımından kazanma olanağına kavuşmuştur. Zira Azerbaycan'da yapısal dönüşümünün oluşturulmasında önemli bir payı bulunan enerji kaynaklarıyla alakalı anlaşmalar da bu dönemde gerçekleştirilmiştir. Petrol sözleşmelerinde öngörülen yatırım tutarının toplamı 60 milyar dolar seviyesindedir. İlerleyen zamanda petrol satışlarından kazanılan gelirlerse bazı sosyal iktisadi ve sosyal problemlerin çözümünde anahtar rol üslenmiştir. Haydar Aliyev'in iktidara gelmesiyle birlikte ülkenin dış ticaret hacmi yükselmeye başlamıştır. 1995-1999 tarihleri arasında ithalat oranı 2000-2002 tarihleri arasındaysa ihracat oranı yükselmiş ve ülke ekonomisine büyük katkılar sağlanmıştır. Bu dönem içerisinde Haydar Aliyev yabancı sermayelerin ilgisini Azerbayca'a çekmeyi başarmıştır. Ülkenin ekonomik manada ayağa kalkmasında anahtar rolü bulunan yabancı yatırım payları yükselmiştir. 1996 yılından sonra ise yüksek enflasyon oranları düşük seviyelerde seyretmeye başlamıştır. Bu çalışmanın amacı, Haydar Aliyev döneminde Azerbaycan'da yaşanan ekonomik değişim ve ilerlemelerin değerlendirilmesidir.

**Anahtar Kelimeler:** Haydar Aliyev, Azerbaycan Ekonomisi, Dış Ticaret.

**ABSTRACT**

The government of Azerbaijan, which declared its independence towards the end of 1991 and began to become an element of economic and political stability on the international platform, has made great efforts to develop an economic system that adapts to free market conditions along with the developments it has encountered during the first ten years. with the century agreement signed in 1994, foreign investments in Azerbaijan, especially in the field of energy, have become important. The social, and economic growth that took place in the country in the period after the Azerbaijani government declared independence had positive effects on the development of the country. The laws and administrative regulations enacted in a short time have also been reflected in the economic indicators. The government of Azerbaijan has achieved the opportunity to gain a historical opportunity both in terms of political independence and economic independence with the agreements it has made. Because agreements related to energy resources, which have an important share in the creation of structural transformation in Azerbaijan, were also realized during this period. The total amount of investment envisaged in the oil contracts is at the level of 60 billion dollars. In the

future, the revenues earned from oil sales have played a key role in solving some social economic and social problems. With the coming to power of Heydar Aliyev, the country's foreign trade volume has started to increase. between 1995 and 1999, the import rate Decelerated from 2000 to 2002, while Deceleration rate increased and great contributions were made to the national economy. During this period, Heydar Aliyev managed to attract the interest of foreign capitals to Azerbaijan. The share of foreign investment, which plays a key role in the economic recovery of the country, has increased. after 1996, high inflation rates started to follow low levels. The aim of this study is to evaluate the economic changes and advances experienced in Azerbaijan during the Heydar Aliyev period.

**Keywords:** Heydar Aliyev, Economy of Azerbaijan, Foreign Trade.

## 1. GİRİŞ

SSCB'nin dağılmasıyla birlikte 18 Ekim 1991 tarihinde Azerbaycan Devleti tekrardan bağımsızlığını ilan etmiştir. Azerbaycan Cumhuriyeti bağımsızlığını ilan etmesiyle birlikte serbest pazar ekonomisi yolunu seçerek eski sistemin dayatmış olduğu "Merkeziyetçi Planlama" modelini bırakmıştır. Piyasa ekonomisine geçmek adına pek çok yeni oluşuma imza atan Azerbaycan Devleti'nin iktisadi beklentilerinin yerine getirilmesinde Hazar Denizi'ndeki doğalgaz ve petrol kaynakları önemli bir rol üslenmiştir.

SSCB'den ayrılmayla birlikte bağımsızlığını elde eden Azerbaycan ilk başlarda iktisadi ve siyasi istikrarsızlıklarla karşı karşıya kalmıştır. Özellikle istikrarsızlığın en önemli sebebi Ermenistan'la Azerbaycan Devleti arasında yaşanan Karabağ Savaşı olmuştur. Bu istikrarsızlık 1995 tarihine dek süre gelmiş ama ülkede faaliyete geçen iktisadi politikalar neticesinde ekonomideki istikrarsızlık sona ermiştir. Azerbaycan Devleti'nin istikrarlı bir yapıya dönüşmesinde, demokratikleşme sürecine dâhil olmasında, sosyo-iktisadi kalkınmasında ve dış ticarete girmesinde Haydar Aliyev' in uygulamaya koyduğu politikaların önemi yadsınamaz bir gerçektir.

Haydar Aliyev iktidara gelmesiyle beraber ülkenin dış ticaret oranları yükselmeye başlamış, 1995-1999 tarihlerinde ithalat hacmi 2000-2002 tarihlerindeyse ihracat hacmi artmış ve ülke ekonomisine çok önemli katkılar sunulmuştur.

Haydar Aliyev yabancı kaynaklı sermayeleri ülkeye çekmeyi başarmış, devletin ekonomik olarak ayağa kalkmasında anahtar bir görevi olan doğrudan yabancı yatırım miktarları artmıştır. 1996 tarihinden sonraysa yüksek enflasyon oranları düşük düzeylere inmesi sağlanmıştır.

## 2. HAYDAR ALİYEV DÖNEMİ VE EKONOMİNİN AYAĞA KALKMASI

### 2.1 Yeni Ekonomik Sisteme Geçiş ve Ekonomi Politikasının Oluşumu

Bağımsızlığını ilan eden Azerbaycan Devleti Ermenistan ile yaşadığı sorunun ardından iktisadi iyileşme adına 1994–2003 tarihleri arasında Haydar Aliyev, Azerbaycan'ın iktisadi ve politik gelişimiyle birlikte ilerlemesinde en etkin kişi olarak tarif edilmektedir. Dünya sahnesinde yerini alan genç bir devletin sosyal ve iktisadi olarak mevcut eski bünyesinden

tamamen farklı bir sistem meydana getirmek için pek çok gelişim çabaları sergilenmiştir (Çaylak ve Dikkaya, 2008:112).

Azerbaycan'ın Ermenistan'la yaşamış olduğu problem ülkenin ekonomisine özellikle GSYİH'sine yansıması sürecin ilk yılları olarak ifade edilen 1992 tarihinde GSYİH %22,6 değerinde iken, 1993 tarihinde %23,1 değerine ulaşarak artmış, 1994 tarihinde ise düşmeye başlamış ve %19,7 değerini 1995 tarihinde %11,8 değerine inmiştir. 1991 tarihi baz alınırsa 1995 tarihi geldiği zaman %57,9 küçülme olmuştur (Turan, 2009: 584-585).

1990'lı yılların başlarında, Azerbaycan Devleti ekonomik yapıyı kolaylaştırabilmek adına bir takım önlemler almış fakat bağımsız devletin bu cesur adımları etkili olamamış ve yakın zaman dilimi içerisinde olumlu neticeler elde edilememiştir. Meydana gelen durum, yeni iktisadi ilişkilere geçmek adına stratejik planların hazırlanması ve yürütülmesini gerekli kılmıştır. 1992 tarihi sonunda tarım üretimi % 47, endüstri üretimi % 63 ve nüfus 3,6 kat azalmıştır. Fon yetersizliğinden dolayı devlet bütçesi, 1991 tarihinde Ulusal Bankanın kredilerinden meydana gelmiştir. 1993 tarihinde bütçe açığı gayri safi yurtiçi hasıladan % 14,4 olmuştur.

Haydar Aliyev, halkın ısrarlı talebi ile birlikte, sosyal ilişkiler keskin bir şekilde ağırlaştığında, devlet idaresinin ana prensipleri çökmüş, toplumun zihnindeki çekişme ve etik değer mücadelesi ile siyasal iktidara tekrar yeniden dönmüştür. Haydar Aliyev, ülkenin sahip olduğu zengin doğal kaynakları ve elverişli coğrafi konumunun ekonomiyi ayağa kaldırma ve onu kalkınma yoluna getirmek için yeterli olmadığını düşünerek, doğal kaynakların, işgücü kaynaklarının tam ve etkin kullanımı, ekonominin tekrardan planlanması ve sosyo-ekonomik yönetimin iyileştirilmesi, ayrıca nüfusun hayat seviyesinin dünya standartlarına uyumlu bütünleşme temelinde yetiştirilmesi yönünde adımlar atmıştır. Atılan adımlar egemen Azerbaycan'ın iktisadi kalkınmasının temel yönü olarak dizayn edilmiştir. Bu kavramsal görevleri ifa etmenin ana aracı, ekonominin serbestleşmesi, devlet mülkiyetinin özelleştirilmesi, iktisadi dengenin piyasa mekanizmalarının geliştirilmesi, KOBİ'lerin önemi ve her çeşit girişimcilik için elverişli şartlar olmuştur (Aras, 2003:2).

Azerbaycan Devleti'nin iktisadi gelişim kavramının esasını oluşturan "Yüzyıl Sözleşmesi" imzası ile uygulamaya geçirilen yeni petrol stratejisi, sisteme geçişin lokomotifini meydana getirmiştir. 1997 tarihinde petrol sanayisindeki azalış yüzde 0,3'e gerilemiş ve 1998 tarihinde imalat ilerleyen yıllarda istikrar kazanarak büyümeye başlamıştır. Yeni petrol stratejisi, ülkenin döviz rezervlerini 1994 tarihinde 10 milyon $'dan 2003 tarihinde 1.4 milyar $ seviyesine, Devlet Petrol Fonundaysa 800 milyon $ seviyesine ulaşmasını sağlamıştır. Azerbaycan Devleti'nin pek çok uluslararası iktisadi ve finansal kuruluşuna erişim, tarımın verimliliğinin arttırılması, KOBİ'lerin gelişimi, enflasyonun düşmesi ve Azerbaycan Devleti'nin uluslararası iktisadi ilişkilerde prestijinin iyileştirilmesini de kapsayacak şekilde ulusal ekonomiyi geliştirmek için karmaşık önlem ve uygulamalar sağlanmıştır (Ismailzade, 2006: 10).

Cumhurbaşkanı Haydar Aliyev, "Yüzyıl Sözleşmesi" nin 5.yıldönümünün kutlandığı bir törende;

> "Ülkemizi iktisadi olarak gelişen bir ülke yapmak istiyoruz. Ülkemiz vatandaşları için müreffeh bir yaşam yaratmak istiyoruz. Bağımsız bir devlet olarak yaşamak istiyoruz. Bütün bu çalışmalar - sadece petrol alanında değil, Azerbaycan ekonomisinin ve yaşamının diğer tüm alanlarında, yaptığımız şeydir." (Mahmudov,2016: 267).

Azerbaycan ekonomisinde birinci dönem olarak ifade edilen bağımsızlık tarihleri iktisadi hali, ekonomide cereyan eden sebeplerle işsizlik ve bunun yarattığı yüksek enflasyon miktarları bu dönemde Azerbaycan hiperensflasyon sürecine sürüklemiştir. 1992-1994 tarihleri arasında Azerbaycan'da enflasyon 4 haneli rakamlara kadar yükselmiştir. Söz konusu süreçte en yüksek aldığı değer olarak % 1763,5 seviyesini görmüştür. Yaşanan yüksek enflasyon iktisadi göstergeler olumsuz etkilemiş ve iktisadi gerilemelere sebebiyet vermiştir.

1994 tarihi GSMH değerleri % 53, endüstride % 62, tarım % 44, tüketim % 75 ve vergi gelirlerindeyse % 45 azalış göstermiştir. Reel ücret düzeyi % 80 azalış gösterir iken halkın geçim sıkıntısına sebep olmuştur. Aynı dönemde mevcut uygulamalarda bulunan iktisadi politikaların yanlışlığından kaynaklı olarak bankacılık-finans sistemlerinde problemlerin yaşanmasına sebep olunmuştur (Aras, 2003:4).

1996 tarihinde ülkenin ekonomisinde istikrar elde edilmiş ve 1997 tarihi sosyo-ekonomik kalkınmada olumlu eğilimlerin olduğu bir dönem olmuştur. 1997 tarihinde nüfus maaşı % 50, emekli aylıkları, ödenek ve bütçe kurumlarındaki ücretlerde % 70 artış olmuştur. Aliyev'in yürüttüğü yeni programın temel etmenlerinden birisi olan Azerbaycan Devleti'nin Güney Kafkasya'daki iktisadi gelişmiş bir devlete dönüşmesi ve devletin globalleşme şartlarında global iktisadi sistemde değerli bir konuma kavuşmasını sağlamıştır. Azerbaycan Devleti'nin ülke bağımsızlığının ilk iki yılı içerisinde bütün dış politika eylemlerinde durgunluğa neden olan dış izolasyonda var olmuştur. Aliyev'in iktidara gelmesi ile beraber, Azerbaycan Devleti'nin uluslararası politika stratejisi radikal bir değişime uğramıştır. Aliyev'in uluslararası politikası, komşu ülkeler ile olan ilişkilerin ve bütün ülkeler ile olan dış ilişkilerin geliştirilmesi ve güçlendirilmesini kapsamıştır. Ayrıca, Azerbaycan Devleti'nin bölgesel politikaya, askeri-politik ve iktisadi yapılara katılımına da büyük bir ehemmiyet gösterilmiştir.

